**AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ YANINDA
DÖVLƏT İDARƏÇİLİK AKADEMİYASI**



**Azərbaycan Xalqının Ümummilli Lideri**

**HEYDƏR ƏLİYEVİN
anadan olmasının 102-ci ildönümünə həsr olunmuş**

# "ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASININ MÜƏLLİFİ KİMİ"

**mövzusunda**

# DOKTORANT VƏ GƏNC TƏDQİQATÇILARIN RESPUBLİKA ELMİ-PRAKTİKİ KONFRANSININ M A T E R İ A L L A R I

**I cild**

**Bakı, 8 may 2025**

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümünə həsr olunmuş Doktorant və gənc tədqiqatçıların Respublika elmi konfransının təşkili və keçirilməsi məqsədilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Rektorunun 23 aprel 2025-ci il tarixli 10/87 saylı əmri ilə yaradılmış Təşkilat və Proqram Komitəsinin

# TƏRKİBİ

## KONFRANSIN TƏŞKİLAT KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Urxan Ələkbərov | Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik |

**Üzvlər:**

| | |
|---|---|
| Elvin Əzizbəyov | Elm və beynəlxalq əlaqələr üzrə prorektor, professor |
| Ziyafət Həbibova | Tədris-metodiki və analitika şöbəsinin müdiri, professor |
| Sakit Əliyev | Elmi katib, dosent |
| Murtəza Həsənov | Siyasi idarəetmə fakültəsinin dekanı, dosent |
| Elnur Əliyev | İnzibati idarəetmə fakültəsinin dekanı, dosent |
| Zaur Məmmədov | Sosial məsələlər, təşkilati və təlim-tərbiyə işləri üzrə müşavir |
| Kəramət Qənbərov | Elm və beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Gülarə Bağırova | Elm və beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Aygün Qurbanova | Elm və beynəlxalq əlaqələr şöbəsinin əməkdaşı |
| Murad Axundov | İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının doktorantı |
| Tural Cəlilzadə | Davamlı inkişaf kafedrasının magistrantı |

## KONFRANSIN PROQRAM KOMİTƏSİ

**Sədr:**

| | |
|---|---|
| Əlikram Abdullayev | I (Tədris işləri üzrə) prorektor, professor |

**Üzvlər:**

| | |
|---|---|
| Əli Nuriyev | Regional iqtisadi və sosial araşdırmalar institutunun direktoru, professor |
| Elman Nəsirov | Siyasi araşdırmalar institutunun direktoru, professor |
| Gülnarə Qurbanova | Rəhbər dövlət idarəçiliyi kadrlarının ixtisasının artırılmasıı institutunun direktoru, professor |
| Hikmət Məmmədov | Dövlət qulluğu və kadr siyasəti kafedrasının müdiri, professor |
| Namiq Əliyev | Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri, professor |
| Nigar Ələkbərova | Politologiya və siyasi idarəetmə kafedrasının müdiri, professor |
| İsaxan Vəliyev | Hüquq kafedrasının müdiri, professor |
| Xatirə Hüseynova | Dövlət idarəetməsi və menecment kafedrasının müdiri, professor |
| Azər Əmiraslanov | İqtisadiyyatın dövlət tənzimlənməsi kafedrasının müdiri, dosent |
| Sevil Məmmədova | Politologiya və siyasi idarəetmə kafedrasının professoru |
| Firdovsiyyə Əhmədova | Tarix kafedrasının müdiri, dosent |
| Ülkər Şəfiyeva | Dillər kafedrasının müdiri, dosent |
| Elçin Abasov | Dövlət idarəçiliyində informasiya texnologiyaları kafedrasının müdiri, dosent |
| Gülnar Mirzəyeva | İntellektual sistemlərin idarə olunması kafedrasının dosenti |

## M Ü N D Ə R İ C A T

***Rüqayyə Abbaslı, Nigar Ələkbərova***
Azərbaycan Respublikasının Konstitusiyasının miqrasiya haqqında qanunvericiliyə təsiri: hüquqi aspektlər və prinsiplər..........12
***Gülənbər Abbasova***
Dövlət idarəetməsində sənədləşmənin rolu və arxiv işinin aparılmasının əhəmiyyəti..........14
***Şahin Abbasov***
Müasir dövrdə Böyük Britaniyada etnik-mədəni müxtəlifliklərin tənzimlənməsi..........17
***Nərmin Abbaszadə***
Ali və orta ixtisas məktəblərinə tələbə qəbulu prossesində rəqəmsal texnologiyaların tətbiqi..........20
***Həsən Abdullayev***
Salyan rayonunda neft sənayesinin inkişafı..........25
***Kamran Abdullayev***
İcra hakimiyyətinin fəaliyyətinin optimallaşdırılmasının nəzəri əsasları..........28
***Zaur Ağapaşayev***
Müstəqilliyin ilk illərində dövlət idarəetmə sistemində aparılan islahatların bəzi aspektləri..........32
***Aytac Ağazadə***
Azərbaycan Respublikasının xarici siyasəti: Çin ilə münasibətlər kontekstində Heydər Əliyev amili..........35
***Murad Axundov***
Azərbaycanın regional iqtisadi əlaqələrində nəqliyyat xidmətlərinin və logistika sistemlərinin rolu..........39

*Aynur Allahverdiyeva*
Türkiyə-İngiltərə münasibətləri: mövcud iqtisadi əməkdaşlıq və perspektivlər....................................................44
*Nihad Allahverdiyev*
Astara rayonunda əhalinin həssas qrupları ilə işin təşkili........................................................................................47
*Günel Allahyarova*
Avropanın Yaşıl Sazişi...........................................................49
*Aysel Alışova*
İşğaldan azad olunmuş ərazilərdə məcburi köçkünlərin sosial reinteqrasiyası və məşğulluq vəziyyəti............................52
*Aygün Babayeva*
Naxçıvan Muxtar Respublikasında təhsilin keyfiyyət göctəriciləri..............................................................57
*Nuray Babayeva, Davud Həşimov*
İnformasiya təhlükəsizliyi modelləri.........................................59
*Ünsiyyə Bağırova*
Heydər Əliyev irsi çərçivəsində beynəlxalq təhlükəsizlik çağırışlarına milli cavab strategiyaları......................................64
*Pərvanə Baxşiyeva*
Müasir təhsil idarəçiliyində texnoloji innovasiyaların rolu.............................................................................................66
*Elvin Balayev*
Azərbaycan Respublikasında gənclər siyasətinin təşkili və həssas kateqoriyadan olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi mexanizmləri.............................69
*Pərvin Bayramova*
Azərbaycan Respublikasının Konstitusiyasında ərazi bütövlüyü və suverenlik məsələləri.........................................72

*Ramilə Bayramova*
Cənubi Qafqaz regionunun müasir inkişaf meyilləri................76
*Tural Bürcəliyev*
Ümummilli lider Heydər Əliyevin gənclərə dövlət
qayğısı və dəstək siyasəti........................................................79
*Validə Cabbarova*
İnsan hüquqlarının müdafiəsində milli və beynəlxalq
mexanizmlərin müqayisəli təhlili…………………………......81
*Mirvari Cavadlı*
Heydər Əliyev və Azərbaycan Konstitusiyası..........................85
*Fərid Cavadzadə*
Davamlı şəhər inkişafı və ağıllı şəhərlər..................................88
*Əzizə Cəfərova*
Azərbaycan Respublikasının BMT-nin İqlim Dəyişiklikləri
haqqında Çərçivə Konvensiyası konfranslarında iştirakı..........91
*Məhəmməd Cəfərov*
Davamlı inkişaf şəraitində təhsilin əsas istiqamətləri................96
*Tural Cəlilzadə*
Kiçik sahibkarlığın davamlı inkişafdakı rolu və
dəstək mexanizmləri……………………………………….102
*Nərgiz Eminova*
Cəlilabad rayonunun sosial-iqtisadi inkişaf
perspektivlərinin mövcud vəziyyətinin qiymətləndirilməsi....105
*Tural Eynəliyev*
Dövlət və bələdiyyə idarəçiliyinin müasir problemləri...........108
*Türkan Eyubova*
Azərbaycanın dünya iqtisadiyyatında mövqeyini önə
çıxaran İpək Yolunda Orta dəhlizin rolu................................112
*Xəyal Ədilov*
Turizm potensialı davamlı inkişafın amili kimi: reallıqlar
və perspektivlər (Şəki şəhərinin timsalında)...........................115

***Mehran Əhmədli***
Minatəmizləmə prosesinin post-münaqişə ərazilərində sosial-iqtisadi infrastrukturun bərpasında və davamlı inkişafın təmin edilməsində rolu..........................................118
***Nicat Əhmədli***
Davamlı inkişaf şəraitində pensiya təminatı islahatları..........120
***Elşan Əhmədov***
Azərbaycanın müasir inklüziv inkişafında su layihələrinin davamlı idarə edilməsi......................................123
***Pərviz Əkbərov***
Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı sektorunun davamlı inkişaf perspektivləri............................129
***Aygün Əliyeva***
Müstəqilliyin ilk illərində Azərbaycan-Avropa İttifaqı münasibətlərinin spesifik xüsusiyyətləri.................................131
***Gülnarə Əliyeva, Elvin Əzizbəyov***
Azərbaycan Respublikasının dövlət qulluğunda innovasiyalar: sistemli təhlil..................................................135
***Nəzrin Əliyeva***
Heydər Əliyev Azərbaycan Konstitusiyasının müəllifi kimi: strateji idarəetmə və davamlı inkişafın hüquqi əsasları...........139
***Səbinə Əliyeva***
Şərqi Aralıq dənizinin enerji təhlükəsizliyi kontekstində Kipr probemi...................................................................144
***Yusif Əliyev***
Dövlət idarəçiliyində həssas əhali qrupları ilə işin əhəmiyyəti......................................................................147
***Nərmin Əlizadə***
Ümummilli lider Heydər Əliyev Azərbaycan Respublikasının Konstitusiyasının müəllifi kimi.....................................150

*Gülay Əmiraslanova*
Heydər Əliyevin yeni neft strategiyası: Azərbaycanın enerji təhlükəsizliyi və geosiyasi müstəqilliyinin formalaşması……………………………………………152
*Ataş Əsədov*
Yerli özünüidarəetmədə informasiya axınının optimallaşdırılması: Neftçala təcrübəsi..........................................................................154
*Əsgər Əsgərov*
Azərbaycan Respublikasının geosiyasi mövqeyinin möhkəmləndirilməsi amillərinin təhlili: beynəlxalq təşkilatlarda fəaliyyəti nümunəsində......................................157
*Fərid Fikrətli, Mehman Axundov*
Şəmkir rayonunda mavi iqtisadiyyatın sosial-iqtisadi inkişaf potensialı.........................................................................163
*Elvira Hacıbalayeva*
Qusar rayonunda turizmin inkişaf dinamikasının idarə olunması: mövcud problemlər və həlli yolları.......................166
*Aidə Həmidova*
Konstitusiya mühakimə icraatının əsas mərhələləri................169
*Murad Həsənxanlı*
Ümumimilli lider Heydər Əliyevin gənclər siyasətinin formalaşması və inkişaf istiqamətləri………………………..172
*Aytən Həsənli*
Gəncliyin formalaşmasında ailə və təhsil müəssisələrinin rolu…………………………………………………………...175
*Gülnar Həsənova*
Azərbaycan Respublikasında gənclər siyasəti və kadr potensialının formalaşdırılması.............................................178
*Günel Həsənova*
Mədəniyyət və incəsənətin inkişafında Heydər Əliyev Fondunun yeri və rolu (sosioloji baxış)..................................181

***Kamran Həsənov***
Heydər Əliyevin dövlət idarəçiliyi konsepsiyasının Azərbaycan Respublikasının Konstitusiyasında əks olunması…...184
***Novruz Həsənov***
"Böyük Qayıdış" Proqramı çərçivəsində Cəbrayıl rayonunun yenidən qurulması................................................187
***Sibel  Həsənova***
Bank sektorunda İT infrastrukturunun təkmilləşdirilməsi......189
***Albina Həşimova***
Rabitə sektorunun Azərbaycan iqtisadiyyatına təsiri: əldə edilən gəlirlər.............................................................192
***Aydan Hüseynova***
Heydər Əliyev dühası kontekstində əqli mülkiyyətin milli inkişaf strategiyasındakı yeri və rolu.....................................195
***Nərmin Hüseynova***
Heydər Əliyevin Azərbaycan-Türkiyə münasibətlərinin formalaşması və inkişafında rolu............................................198
***Nəzrin Hüseynova***
"Böyük Qayıdış" proqramı çərçivəsində Şuşanın inkişaf perspektivləri..........................................................200
***Nuranə Hüseynzadə***
Cəlilabad rayonunun sosial-iqtisadi inkişafının müasir vəziyyəti və perspektivi........................................................204
***Fidan Xəlilova***
Ermənistanın xarici siyasətinə təsir edən əsas faktorlar..........206
***Ləman Xəlilova***
İnformasiya və kommunikasiya texnologiyasının tətbiqi ilə təhsilin təkmilləşdirilməsi................................................209
***Anar İbadov***
Azərbaycanın dövlət idarəçiliyi peşəkarlığının beynəlxalq təcrübəyə çevrilməsi...........................................................212

*Alı İbrahimov*
Tovuz rayonunda kiçik və orta sahibkarlığın inkişaf perspektivləri....................................................................215
*Nigar İbrahimova*
Heydər Əliyev müstəqil Azərbaycanın Konstitusiyasının banisi və hüquqi dövlət qurucusu..........................................217
*Rəmzi İbrahimov*
Dövlət idarəetməsinin informasiya təminatı və mediya ilə işin təşkili..................................................................219
*Rəna İmanbəyli*
Azərbaycan Respublikasının diaspor siyasətinin dövlət idarəçiliyi sistemində rolu..........................................222
*Xəlil İmanzadə*
Gənclərin pensiya sisteminə inteqrasiyası: maarifləndirmə və maliyyə savadlılığının rolu....................................225
*Saleh İsmayılov*
Azərbaycan Respublikasında informasiya cəmiyyətinin yaranmasının mühüm cəhətləri.............................................227
*Böyükağa İsrəfilov*
Dövlət statistika sisteminin davamlı inkişafa təsiri................230
*Aslan Kərimli*
Rəqəmsallaşma və əmək bazarının transformasiyası.............235
*Azər Kərimli*
Azərbaycan Respublikasında hüquqi təhlükəsizlik və hüquq mədəniyyəti……………………………………..237
*Ələkbər Kərimov*
İnformasiya müharibəsində gənclərin rolu.............................240
*Nüsrət Kərimov*
Lerik rayonunun sosial-iqtisadi inkişafının mövcud potensialının təhlili..............................................................243

***Nigar Kuzəhmədova***
Heydər Əliyev kursunun Rusiya-Türkiyə münasibət-lərinə təsiri..........................................................................245
***Asiman Qasımlı***
Ümummilli lider Heydər Əliyev və müstəqil Azərbaycan Konstitusiyası..................................................248
***Aqil Qasımov***
Dövlət xidmətlərində hesabatlılıq və şəffavlıq: Hacıqabul rayonu timsalında...........................................................................251
***Natavan Qasımova***
Heydər Əliyevin dogma təbiətə məhəbbəti və Azərbaycan-da ekoloji təhsilin inkişafı...................................................255
***Aygül Qədirova***
Miqrasiyaya dair beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının miqrasiya qanunvericiliyi.........257
***Qərib Qəribov***
Regionun sosial-iqtisadi inkişafı (Xaçmaz rayonu timsalında)........................................................................259
***Zeynəb Qiyasova***
Hüquqi dövlətin banisi: Heydər Əliyev və müasir Azərbaycan Konstitusiyası..................................................261
***Elnarə Quliyeva, Rövşən Əliyev***
İnformasiya və kommunikasiya texnologiyalarının elmi-texniki potensialın yüksəldilməsində rolu......................263
***Qızqayıt Quliyeva***
Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətinin hüquqi tənzimlənməsinin inkişaf dinamikası........................267
***Nərmin Quliyeva***
İnsan hüquqlarının müdafiəsində hüquqi mexanizmlər..........270
***Nərmin Qurbanova***
Şərq ölkələrində gənclərin ictimai-siyasi aktivliyinin xarakterik cəhətləri...........................................................273

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASININ MİQRASİYA HAQQINDA QANUNVERİCİLİYƏ TƏSİRİ: HÜQUQİ ASPEKTLƏR VƏ PRİNSİPLƏR

**Rüqayə Abbaslı[1], Nigar Ələkbərova[2]**
*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: rugayabbasli@gmail.com

Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ildə qəbul edilmiş ali hüquqi sənəd kimi miqrasiya haqqında qanunvericilik sisteminin əsasını təşkil edir. Konstitusiya qanunun aliliyi, insan hüquqlarının qorunması, dövlət suverenliyi və beynəlxalq öhdəliklərə sadiqlik kimi prinsipləri müəyyənləşdirərək miqrasiya siyasətinin hüquqi çərçivəsini formalaşdırır (Azərbaycan Respublikasının Konstitusiyası, 1995). Konstitusiyanın 149-cu maddəsi normativ-hüquqi aktların Konstitusiyaya uyğunluğunu tələb edir ki, bu da Miqrasiya Məcəlləsi (2013), "Vətəndaşlıq haqqında" qanun (1998) və "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" qanun kimi aktların Konstitusiyaya uyğun hazırlanmasını şərtləndirir.

Konstitusiyanın 52-ci maddəsi vətəndaşlığı siyasi-hüquqi bağlılıq kimi tərif edir və ikili vətəndaşlığı qadağan edir. Bu prinsip "Vətəndaşlıq haqqında" qanunda əks olunur və vətəndaşlığın əldə edilməsi, itirilməsi və bərpası ilə bağlı hüquqi mexanizmləri tənzimləyir (Vətəndaşlıq Qanunu, 1998). Konstitusiyanın 53-cü maddəsi vətəndaşın vətəndaşlıqdan məhrum edilməsini və ölkədən qovulmasını qadağan edərək vətəndaş hüquqlarının qorunmasını təmin edir. Bu, deportasiya və vətəndaşlıq statusu ilə bağlı qərarların qanunauyğunluğuna zəmin yaradır.

Konstitusiyanın 69-cu maddəsi əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müəyyən hüquq və vəzifələr tanıyır. Miqrasiya Məcəlləsi bu müddəalara uyğun olaraq əcnəbilərin ölkəyə giriş-çıxış, yaşayış icazəsi və işləmə hüquqlarını tənzimləyir. Konstitusiyanın 25-ci maddəsi qanun qarşısında bərabərlik prinsipini təsbit edərək əcnəbilərə qarşı ayrı-seçkiliyin qarşısını alır. Bu prinsip əcnəbilərin əmək bazarına inteqrasiyası və hüquqlarının qorunması ilə bağlı Miqrasiya Məcəlləsində öz əksini tapır.

Konstitusiyanın 10-cu və 148-ci maddələri Azərbaycanın beynəlxalq hüquq prinsiplərinə sadiqliyini və beynəlxalq müqavilələrin qanunvericilik sisteminin bir hissəsi olduğunu vurğulayır. Bu, miqrasiya qanunvericiliyinin BMT-nin Qaçqınların Statusu haqqında 1951-ci il Konvensiyasına uyğunlaşmasını tələb edir (BMT Qaçqınlar Konvensiyası, 1951). Azərbaycanın bu konvensiyaya qoşulması qaçqınların hüquqlarının qorunması ilə bağlı öhdəliklər yaradır və "Qaçqınlar haqqında" qanunda əks olunur (Qaçqınlar Qanunu, 1999).

Konstitusiyanın 11-ci maddəsi dövlət sərhədlərinin toxunulmazlığını vurğulayır, bu da qeyri-qanuni miqrasiyanın qarşısının alınması və sərhəd nəzarətini təmin edir. Dövlət Miqrasiya Xidməti bu prinsipə əsasən fəaliyyət göstərir, lakin insan hüquqlarına dair Konstitusiya müddəaları, xüsusilə ədalətli məhkəmə araşdırması, nəzarət proseslərinin etik çərçivədə həyata keçirilməsini tələb edir.

Konstitusiyanın qanunun aliliyi (Maddə 149) və insan hüquqlarının qorunması (Maddə 24-71) prinsipləri miqrasiya qanunvericiliyinin şəffaflığını və ədalətliliyini təmin edir. Beynəlxalq standartlara uyğunlaşma yerli qanunvericiliyin təkmilləşdirilməsini tələb edir, lakin resurs məhdudiyyətləri bu prosesi ləngidə bilər.

Azərbaycan Respublikasının Konstitusiyası miqrasiya qanunvericiliyinin hüquqi və prinsipial əsasını təşkil edir. Vətəndaşlıq,

əcnəbilərin hüquqları, qaçqınların statusu və dövlət təhlükəsizliyi kimi sahələrdə Konstitusiya siyasətin formalaşmasına rəhbərlik edir. Praktik çətinliklərə baxmayaraq, Konstitusiyanın prinsipləri hüquqi sabitliyi və ədalətli idarəetməni təmin edir. Qanunvericiliyin beynəlxalq standartlara uyğunlaşdırılması və şəffaflığın artırılması miqrasiya siyasətinin səmərəliliyini artırmaq üçün prioritetdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995). https://e-qanun.az/framework/897
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi (2013). https://e-qanun.az/framework/46959
3. "Azərbaycan Respublikasının vətəndaşlığı haqqında" Qanun (1998). https://e-qanun.az/framework/3187
4. "Qaçqınların və məcburi köçkünlərin statusu haqqında" Qanun (1999). https://e-qanun.az/framework/4757
5. BMT-nin Qaçqınların Statusu haqqında 1951-ci il Konvensiyası.https://www.unhcr.org/about-unhcr/overview/1951-refugee-convention


# DÖVLƏT İDARƏETMƏSİNDƏ SƏNƏDLƏŞMƏNİN ROLU VƏ ARXİV İŞİNİN APARILMASININ ƏHƏMİYYƏTİ


**Gülənbər Abbasova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*

*Dövlət İdarəçilik Akademiyası*

e-mail: abbasova.gul.r@gmail.com


Dövlət idarəetməsində sənədlərlə iş, idarəetmə proseslərinin effektivliyini təmin edən əsas elementlərdən biridir. Bu özündə sənədlərin hazırlanması, qeydiyyatı, saxlanması və dövriyyəsini

ehtiva edir. Sənədlərlə işin düzgün təşkili, dövlət orqanlarının fəaliyyətinin şəffaflığını və səmərəliliyini artırır, sənədlər vasitəsilə dövlət orqanlarının qərarları, əmrləri və digər hüquqi aktları rəsmiləşdirilir və icra olunur.

Sənədin ən mühüm funksiyası informasiya daşımaq funksiyasıdır. Bununla yanaşı, təşkilatçılıq funksiyasına malik olaraq, insanların fəaliyyətinin idarə olunmasında və əlaqələndirilməsində vacib rol oynayır. Sənəd vasitəsilə cəmiyyət üzvlərinə təsir göstərmək və onların fəaliyyətini istiqamətləndirmək mümkündür. Hüquqi əhəmiyyətə malik olan sənəd, sübut vasitəsi kimi istifadə oluna bilən məlumatları ehtiva edir. Düzgün tərtib edilmiş sənədlər idarəetmədə mühüm əhəmiyyət daşıyır və həm dövlət qulluqçusunun, həm də onun çalışdığı təşkilatın nüfuzunu yüksəldir.

Sənədlərlə işin təşkili dedikdə kargüzarlıqda sənədlərin hərəkətini, axtarışını və saxlanılmasını təmin edən şərait yaradılması başa düşülür. Sənədlərlə işin məqsədi, dövlət idarəetmə sistemində məlumatların saxlanması və ötürülməsi prosesini optimallaşdırmaqdır. Bu, həm kağız üzərində, həm də elektron formatda həyata keçirilir. Elektron sənəd dövriyyəsi, idarəetmə proseslərini daha çevik və sürətli edir, eyni zamanda ekoloji baxımdan da üstünlüklər təmin edir.

Arxiv işi isə sənədlərin mühafizəsi, saxlanması və gələcək nəsillərə ötürülməsi üçün mühüm əhəmiyyət daşıyır. Arxivlər, dövlət idarəetmə sistemində tarixi və hüquqi dəyəri olan məlumatların qorunmasını təmin edir. Azərbaycanda arxiv işi, "Milli arxiv fondu haqqında" Qanun əsasında tənzimlənir və bu sahədə müasir standartlara uyğun fəaliyyət göstərilir.

Milli arxiv fondu sənədləri dövlət arxiv xidməti təşkilatlarında mühafizə olunur və geniş ictimai-siyasi, iqtisadi, elmi, sosial-mədəni məqsədlər üçün istifadə edilir. Həmçinin, vətəndaşların hüquqi və

qanuni maraqlarının təmin olunmasında bu sənədlər mühüm əhəmiyyət daşıyır.

Arxiv özlüyündə arxiv fondlarınını kolleksiyalarının sənədlərinin eləcə də onlara yaradılan və istifadə edilən soraq vasitələrinin məcmusundan ibarət informasiya sistemidir. Arxiv informasiya proseslərinin subyekti kimi sənəd informasiyasının toplanması işlənməsi artırılması saxlanması axtarıb tapılması və yayılmasında iştirak edir arxiv sənədləri və informasiya–soraq sistemi mülkiyyət hüququnun müəlliflik və yardımçı hüquqların obyekti olub istifadə dərəcələrinə görə fərqlənir Azərbaycan Respublikasının qanunvericiliyi və digər aktlarına uyğun olaraq qorunur.

**Ədəbiyyat**


1. "Milli arxiv fondu haqqında" Azərbaycan Respublikasının Qanunu
2. "Azərbaycan Milli arxiv fondunun komplektləşdirilməsi, mühafizəsi və ondan istifadə Qaydaları haqqında Əsasnamənin, Arxivlərin, arxiv fondlarının və sənəd kolleksiyalarının Milli arxiv fondunun tərkibinə daxil edilməsi, bu tərkibdən çıxarılması və ya məhv edilməsi Qaydasının, Qeyri-dövlət arxiv fondlarının mühafizəsi üzrə Qaydaların, Aşkar edilmiş və ya tapılmış arxiv sənədlərini aşkar edən və ya tapan şəxsləri mükafatlandırma Qaydasının, Dövlət arxiv fondunun sənədlərindən istifadə Qaydalarının və Beynəlxalq əməkdaşlıq məqsədi ilə sənədlərin və kolleksiyaların xaricə müvəqqəti aparılması Qaydasının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı.
3. "Dövlət orqanlarında, dövlət mülkiyyətində olan və paylarının (səhmlərinin) nəzarət zərfi dövlətə məxsus olan hüquqi şəxslərdə və büdcə təşkilatlarında kargüzarlığın aparılmasına dair Təlimat"ın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının Prezidentinin Fərmanı.

# MÜASİR DÖVRDƏ BÖYÜK BRİTANİYADA ETNİK-MƏDƏNİ MÜXTƏLİFLİKLƏRİN TƏNZİMLƏNMƏSİ

**Şahin Abbasov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: shahinabbasov1@gmail.com

Tarixən Böyük Britaniyada müxtəlif xalqların nümayəndələri yaşamışlar. Bu, ölkədə etnik-mədəni müxtəlifliyin artmasına səbəb olmuşdur. Bu proses İkinci Dünya müharibəsindən sonra daha da sürətlənmişdir. Bu dövr ərzində Britaniya işçi qüvvəsinə artan tələbat və keçmiş müstəmləkələrlə davam edən əlaqələr nəticəsində Asiya, Karib və daha sonralar Şərqi Avropa ölkələrindən böyük miqrant qrupları ölkəyə pənah gətirmişlər (7, s. 88-90).

Etnik və dini müxtəliflik ölkənin sosial və mədəni həyatına rəng qatmış, lakin eyni zamanda diskriminasiya, sosial inteqrasiyada çətinliklər və milli kimlik ətrafında ideoloji mübahisələr yaratmışdır (6, s. 23-25).

İkinci Dünya müharibəsindən sonra Böyük Britaniyaya immiqrasiya iqtisadi və geosiyasi səbəblərdən daha da sürətlənmişdir. Cənubi Asiya (xüsusilə Hindistan, Pakistan və Banqladeş), Karib hövzəsi və Afrika ölkələrindən gələn miqrantlar sənaye şəhərlərində məskunlaşmış və işçi qüvvəsinin ayrılmaz hissəsinə çevrilmişdir.

Bu etnik qruplar, xüsusilə müsəlmanlar, hindular və Karib mənşəli xristianlar, öz dini və mədəni xüsusiyyətlərini qoruyaraq Britaniya cəmiyyətinin çoxmədəniyyətli strukturunu formalaşdırmışlar. Bununla belə, işsizlik, təhsil imkanlarına məhdud çıxış, dil baryerləri və sistemli ayrı-seçkilik bu qrupların inteqrasiyasını çətinləşdirmişdir (2, 145-147).

Müasir dövrdə Böyük Britaniyada immiqrasiyanın hüquqi tənzimlənməsi üçün müxtəlif qanunvericilik aktları mövcuddur. İrqi Münasibətlər Aktı 1965 və 1976 (Race Relations Act) (8, 9) Bərabərlik Aktı (2010) (Equality Act) (3), vətəndaşlıq sahəsində müvafiq qanunvericilik, eləcə də anti-diskriminasiya qanunları bu sahədə mühüm çərçivə yaradır.

Böyük Britaniyanın sabiq baş naziri David Cameron 2011-ci ildə keçirilən Münxen Təhlükəsizlik Konfransda çıxışı zamanı multikulturalizm siyasətinin cəmiyyət daxilində paralel həyatın yaratmasına səbəb olmasını qeyd edərək onun iflasa uğradığını söyləmişdir. (1). Bu yanaşma cəmiyyətin birliyini və milli inteqrasiyanı əsas götürsə də, bir çox tədqiqatçılar bu mövqenin mədəni fərqliliyi inkar etdiyini və xüsusilə müsəlman icmalarının hədəfə alındığını iddia edirlər.

Multikulturalizm uzun müddət Britaniya siyasətinin əsas prinsiplərindən biri olmuşdur. Lakin son illərdə bu yanaşmaya qarşı tənqidi mövqelər güclənmişdir. David Goodhart multikulturalizmin sosial birliyi zəiflətdiyini və cəmiyyətin parçalanmasına gətirib çıxardığını qeyd etmişdir (4, s. 112-114).

Digər tərəfdən, Kymlicka (5) və Taylor (10) kimi nəzəriyyəçilər isə multikulturalizmin liberal demokratiyanın bir tərkib hissəsi olduğunu və fərqliliyin tanınmasının sosial ədalətə xidmət etdiyini vurğulamışlar. Bu səbəbdən tənqidlərə baxmayaraq, alternativ modellər və çevik siyasət yanaşmaları tələb olunur.

Beləliklə, Böyük Britaniyada etnik-mədəni müxtəlifliyin idarə olunması sahəsində mühüm hüquqi və institusional addımlar atılsa da, onların səmərəliliyi müxtəlif aspektlərdə zəif qalmaqdadır. Diskriminasiya, dil baryeri, təhsil və məşğulluq sahəsində qeyri-bərabərlik və siyasi təmsilçiliyin azlığı bu sahədə davam edən problemlərdəndir.

Bu baxımdan gələcək siyasətlərin formalaşdırılmasında aşağıdakı məsələlər nəzərə alınmalıdır:

- Multikulturalizmin yenidən nəzərdən keçirilməsi və ortaq vətəndaşlıq prinsipləri ilə uzlaşdırılması;
- Etnik qrupların sosial və hüquqi müdafiəsinin gücləndirilməsi;
- Təhsil və ictimai iştirak vasitəsilə inteqrasiyanın təşviqi;
- Breksitdən sonrakı miqrasiya siyasətinin nəticələrinin daha dərindən öyrənilməsi.

## Ədəbiyyat


1. Cameron, D. (2011). PM's speech at Munich Security Conference. Gov.uk.
2. Castles, S., & Miller, M. J. (2009). The Age of Migration: International Population Movements in the Modern World. Palgrave Macmillan.
3. Equality Act 2010. (2010). https://www.legislation.gov.uk/ukpga/2010/15/contents
4. Goodhart, D. (2013). The British Dream: Successes and Failures of Post-War Immigration. Atlantic Books.
5. Kymlicka, W. (1995). Multicultural Citizenship. Oxford University Press.
6. Modood, T. (2007). Multiculturalism: A Civic Idea. Polity Press.
7. Panayi, P. (2010). An Immigration History of Britain: Multicultural Racism since 1800. Pearson.
8. Race Relations Act 1965. https://www.legislation.gov.uk/ukpga/1965/73/enacted
9. Race Relations Act 1976. https://www.legislation.gov.uk/ukpga/1976/74/contents
10. Taylor, C. (1994). Multiculturalism and the Politics of Recognition. Princeton University Press.

# ALİ VƏ ORTA İXTİSAS MƏKTƏBLƏRİNƏ TƏLƏBƏ QƏBULU PROSSESİNDƏ RƏQƏMSAL TEXNOLOGİYALARIN TƏTBİQİ

**Nərmin Abbaszadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: gurbanovanermin820@gmail.com

Müasir dövrdə rəqəmsal texnologiyaların sürətli inkişafı cəmiyyətin bütün sahələrinə, o cümlədən təhsil sisteminə əhəmiyyətli təsir göstərmişdir. Həmçinin rəqəmsal texnologiyaların sürətli inkişafı XXI əsrdə təhsil sistemlərinin idarə olunmasına yeni yanaşmaların formalaşmasına zəmin yaratmışdır. Bu texnoloji dəyişikliklər, xüsusilə ali və orta ixtisas təhsili müəssisələrinə tələbə qəbulu prosesində özünü daha qabarıq şəkildə göstərməkdədir. Rəqəmsallaşma qəbul prosesini sadələşdirməklə yanaşı, onun obyektivliyini, şəffaflığını və effectivliyini təmin edən əsas vasitələrdən birinə çevrilmişdir. Azərbaycan Respublikasında bu istiqamətdə həyata keçirilən dövlət siyasəti nəticəsində qəbul prosesi mərhələli şəkildə rəqəmsallaşdırılmış, imtahanların təşkili, nəticələrin qiymətləndirilməsi və yerləşdirmə mexanizmləri innovativ əsaslarla yenidən qurulmuşdur. Dövlət İmtahan Mərkəzi və digər aidiyyəti qurumlar vasitəsilə rəqəmsal texnologiyaların tətbiqi genişləndirilmişdir. Bu dəyişik-liklər təkcə prosesin texniki tərəfini deyil, həm də abituriyentlərin hüquq bərabərliyinin qorunması, məlumatlandırma səviyyəsinin artırılması və qərarların daha düzgün qəbul olunması baxımından əhəmiyyətlidir. Bu tezisdə məqsəd, ali və orta ixtisas məktəblərinə tələbə qəbulu prosesində rəqəmsal texnologiyaların tətbiqinin əsas mərhələlərini, üstünlüklərini, qarşıya çıxan problemləri kompleks şəkildə tədqiq etməkdir.

Ali və orta ixtisas məktəblərinə tələbə qəbulu prosesində rəqəmsal texnologiyaların tətbiqi bir neçə əsas mərhələdə həyata keçirilmişdir. Bu mərhələlər texnoloji inkişaf, normativ-hüquqi baza və idarəetmə mexanizmlərinin uyğunlaşdırılması kontekstində mərhələli şəkildə baş tutmuşdur.

**1. Əsasların yaradılması və infrastrukturun formalaşdırılması mərhələsi (1990-cı illərin sonları – 2000-ci illərin əvvəlləri)**

- Elektronlaşdırma zərurətinin başa düşülməsi və ilkin normativ-hüquqi çərçivənin formalaşdırılması;
- Dövlət İmtahan Mərkəzinin (əvvəlki Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının) elektron sistemlərdən istifadə etməyə başlaması;
- Texniki infrastrukturun (kompüterlər, serverlər, proqram təminatı) ilkin qurulması.

**2. Elektron qeydiyyat və ərizə sisteminin tətbiqi (2004–2010)**

- Abituriyentlərin qəbul imtahanlarına elektron formada müraciət etməsi üçün platformaların yaradılması;
- Onlayn ərizə formalarının doldurulması və məlumatların real-vaxtda toplanması.

**3. İmtahanların elektronlaşdırılması və qiymətləndirmənin avtomatlaşdırılması (2011–2016)**

- Cavab kartlarının optik oxuyucularla emalına keçid;
- Nəticələrin avtomatik hesablanması və insan faktorunun azaldılması.

**4. Elektron yerləşdirmə və seçim mexanizmlərinin tətbiqi (2016–2020)**

- Nəticələrin fərdi kabinetlər vasitəsilə elektron formada təqdim olunması.

**5. Mərkəzləşdirilmiş elektron idarəetmə və rəqəmsal analitika mərhələsi (2020–indiyədək)**

- Vahid elektron platformalar ***(portal.dim.gov.az)*** üzərindən çoxfunksiyalı idarəetmə sistemlərinin tətbiqi;
- COVID-19 pandemiyası dövründə tam elektron və distant imtahanların təşkil olunması təcrübəsi.

Rəqəmsal texnologiyaların ali və orta ixtisas məktəblərinə tələbə qəbulu prosesinə inteqrasiyası bu sahədə bir sıra mühüm *üstünlüklər* yaratmışdır. Bu texnologiyaların tətbiqi ilk növbədə qəbul prosesinin *əlçatanlığını və rahatlığını* əhəmiyyətli dərəcədə artırmışdır. Abituriyentlər artıq müraciət və sənəd təqdimetmə mərhələlərini fiziki olaraq müəyyən qurumlara getmədən, internet vasitəsilə onlayn şəkildə həyata keçirə bilirlər. Bu isə regionlarda yaşayan şəxslərin prosesə bərabər şəkildə qoşulmasını təmin edir və coğrafi maneələri aradan qaldırır. Eyni zamanda, rəqəmsallaşma qəbul sistemində *operativliyi və məlumat axınının sürətini* dəfələrlə artırmışdır. Əvvəllər həftələr çəkə bilən nəticələrin hesablanması və yerləşdirmə kimi mərhələlər bu gün avtomatlaşdırılmış sistemlər vasitəsilə qısa müddətdə və daha yüksək dəqiqliklə həyata keçirilir. Məlumatların real vaxtda emal olunması idarəetmənin çevikliyini təmin etməklə yanaşı, iştirakçılara prosesin hər mərhələsini izləmək imkanı yaradır. Texnologiyanın tətbiqi eyni zamanda *insan faktorunun təsirini minimuma endirmiş və qəbul prosesindəki obyektivliyi artırmışdır*. Qiymətləndirmə və yerləşdirmə kimi mərhələlərdə istifadə olunan alqoritmik modellər və avtomatlaşdırılmış sistemlər insan səhvlərinin və subyektiv yanaşmaların qarşısını alaraq daha şəffaf nəticələrin əldə edilməsinə imkan verir. Bundan əlavə, rəqəmsal sistemlərdə tətbiq olunan müasir informasiya təhlükəsizliyi protokolları qəbul prosesində iştirak edən şəxslərin fərdi məlumatlarının qorunmasını təmin edir. Elektron platformalarda istifadəçi autentifikasiyası, məlumatların şifrələnməsi və sistemə girişin mərhələli nəzarət mexanizmləri qəbulun şəffaf və təhlükəsiz şəkildə idarə olunmasına zəmin yaradır. Rəqəmsal texnologiyaların

ən mühüm üstünlüklərindən biri də qəbul üzrə statistik və analitik imkanların genişlənməsidir. İmtahan nəticələri, abituriyentlərin ixtisas seçimi və yerləşdirmə meylləri üzrə toplanan məlumatlar sonradan təhlil olunaraq təhsil siyasətində əsaslı qərarların qəbuluna dəstək verir. Bu, qəbul sisteminin təkcə texniki baxımdan deyil, eyni zamanda strateji baxımdan da daha səmərəli işləməsinə şərait yaradır. Nəhayət, rəqəmsallaşma resursların istifadəsində qənaət və prosesin optimallaşdırılması baxımından da müsbət nəticələr doğurur. Əvvəllər geniş miqyasda kağız daşıyıcılardan və fiziki resurslardan istifadə olunurdusa, indi həmin mərhələlərin əksəriyyəti elektron formatda icra olunur ki, bu da həm maddi, həm də zaman baxımından ciddi üstünlükdür. Beləliklə, rəqəmsal texnologiyaların tətbiqi ali və orta ixtisas təhsili müəssisələrinə qəbul prosesini daha çevik, şəffaf, ədalətli və effektiv etmişdir. Bu texnoloji transformasiya yalnız texniki inkişaf deyil, həm də təhsil sistemində keyfiyyət və idarəetmə mədəniyyətinin yüksəlişinə səbəb olmuşdur.

Tələbə qəbulu prosesində rəqəmsal texnologiyaların tətbiqi mühüm üstünlüklərlə yanaşı, bir sıra texniki, təşkilati və sosial problemləri də gündəmə gətirmişdir. Bu problemlər sistemin səmərəliliyinə təsir etməklə yanaşı, vətəndaşların texnologiyaya adaptasiyası və ümumi etimadı baxımından da önəm daşıyır. İlk növbədə, qeyd edilməlidir ki, rəqəmsal sistemlərin tətbiqi prosesində texnoloji infrastrukturun qeyri-bərabər inkişafı ciddi çətinliklər yaratmışdır. Xüsusilə regionlarda yaşayan abituriyentlərin internetə çıxış imkanlarının məhdudluğu, kompüter avadanlıqlarının çatışmazlığı və texniki xidmətlərə əlçatanlığın zəifliyi bəzi hallarda müraciət prosesində çətinliklərə səbəb olmuşdur. Bu isə rəqəmsallaşmanın əsas məqsədi olan bərabər imkan prinsipinə zidd vəziyyət yarada bilər. Bundan əlavə, istifadəçi bilik və bacarıqlarının yetərsizliyi də geniş yayılmış problemlərdəndir. Bəzi

abituriyentlər və onların valideynləri üçün elektron plaformalardan düzgün istifadə etmək, ərizə formasını doldurmaq və ya elektron imza ilə sənədləri təsdiqləmək kimi mərhələlər çətinlik yaradır. Bu isə səhv məlumat daxil edilməsinə, müraciətlərin düzgün şəkildə tamamlanmamasına və nəticədə hüquqi mübahisələrə səbəb ola bilər. Texniki nasazlıqlar və proqram təminatındakı boşluqlar da müəyyən dövrlərdə sistemin etibarlılığına mənfi təsir göstərmişdir. Müəyyən dövrlərdə serverlərin yüklənməsi, səhvlərin baş verməsi və ya məlumatların ötürülməsində gecikmələr prosesi ləngidə və iştirakçılar arasında narahatlıq yarada bilər. Belə hallar ictimai rəydə rəqəmsal sistemlərə qarşı etimadın zəifləməsinə səbəb olur. Digər tərəfdən, məlumat təhlükəsizliyi və şəxsi məlumatların qorunması məsələləri də həssas məqamlar sırasındadır. Elektron systemlərdə şəx-si məlumatların sızması riski, kibertəhlükəsizlik tədbirlərinin zəifliyi və məlumatların icazəsiz istifadə olunması kimi hallar qəbul sistemində hüquqi və etik narahatlıqlar doğura bilər.

Beləliklə, rəqəmsal texnologiyaların tələbə qəbulu prosesində uğurlu tətbiqi ilə yanaşı, bu sahədə qarşıya çıxan texniki, sosial və hüquqi problemlərin zamanında və effektiv həll olunması vacib məsələdir. Bu problemlərin sistemli şəkildə təhlili və aradan qaldırılması rəqəmsallaşma prosesinin daha etibarlı və dayanıqlı inkişafına zəmin yarada bilər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Prezidentinin Fərmanı, "Rəqəmsal transformasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi haqqında", 2021.
2. Dövlət İmtahan Mərkəzi (DİM). "Tələbə Qəbulu Qaydaları və Elektron Ərizə Sistemi üzrə Təlimatlar". – https://dim.gov.az
3. Təhsil Nazirliyi. "Təhsildə Rəqəmsallaşma: Mövcud Vəziyyət və Gələcək Yönümlər". Bakı, 2022.

4. Azərbaycan Respublikasının Təhsil İnstitutu. “Ali və Orta İxtisas Təhsili üzrə Qəbul Sistemi və Rəqəmsal Texnologiyaların İnteqrasiyası”. Bakı, 2023.

## SALYAN RAYONUNDA NEFT SƏNAYESİNİN İNKİŞAFI

**Həsən Abdullayev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: abdullayevhesen960@gmail.com

Neft Azərbaycan xalqının ən qiymətli yeraltı sərvətidir. Azərbaycan müstəqillik əldə etdikdən sonra öz neftinin sahibi oldu.

Ümummilli lider Heydər Əliyevin həyata keçirtdiyi müstəqil dövlət quruculuğu sayəsində neft amilinə ciddi fikir verildi. 1994-cü il sentyabr ayının 20-də Azərbaycan öz təbii sərvətinin şəriksiz sahibi olduğunu birbaşa təsdiq etdi. Ümummilli liderin işləyib hazırladığı yeni neft strategiyasına əsasən imzalanan “Əsrin müqaviləsi” Azərbaycanın qapılarını xarici investorların üzünə açdı. Ötən müddət ərzində bu müqavilədən Azərbaycan xalqı milyardlarla gəlir götürmüş, ölkənin sosial və iqtisa-di şəraitində istehsal olunan neftin payı durmadan artmışdır. Bir neçə il əvvəl “Əsrin müqaviləsi”nin istismar müddətinin 2050-ci ilə qədər uzadılması barədə sərmayəçilər arasında yenidən müqavilə imzalandı. Bu müqavilədə Azərbaycanın hasilat payı əvvəlkilərdən daha çox müəyyən edilmişdir. Hazırda Azərbaycan karbohidrat ehtiyatlarına görə Avropa bazarlarında layiqli tərəfdaş kimi tanınmaqdadır.

Azərbaycan tarixən zəngin neft və qaz ehtiyatlarına malik bir ölkə olaraq, enerji sahəsində mühüm qlobal rol oynayır. Xüsusilə, Azərbaycanın cənub bölgəsində yerləşən neft yataqları, ölkənin iqtisadiyyatına və enerji sektoru ilə bağlı strateji mövqeyinə böyük

təsir göstərir. Bu yataqlar “Kürsəngi” və “Qarabağlı” yataqlarıdır. Salyan rayonunun ərazisində yerləşən bu yataqlar, Azərbaycanın neft sənayesinin inkişafında mühüm rol oynayır. “Kürsəngi” və “Qarabağlı” yataqları, neft hasilatının tarixi və geoloji xüsusiyyətləri ilə həm regional, həm də milli iqtisadiyyata əhəmiyyətli təsir göstərir.

“Kürsəngi” və “Qarabağlı” yataqlarının xüsusiyyətləri, yüksək kükürd tərkibli və ağır neft növlərindən biri olması ilə xarakterizə olunur. Bu xüsusiyyətlər, neftin işlənməsi və refinasiya prosesində müəyyən çətinliklərə səbəb olsa da, müasir texnologiyalar və səmərəli metodlar bu yataqlardan əldə olunan neftin iqtisadi dəyərini artırır. “Kürsəngi” və “Qarabağlı” yataqlarının yerli iqtisadiyyat üzərindəki təsiri, xüsusən iş yerlərinin yaradılması, yerli infrastrukturun inkişafı və regionun sosial rifahına verdiyi töhfə ilə özünü göstərir.

Bundan əlavə, “Kürsəngi” və “Qarabağlı” yataqları, Azərbaycanın enerji təhlükəsizliyinin təmin edilməsi və beynəlxalq enerji bazarlarında iştirakının gücləndirilməsi baxımından da strateji əhəmiyyətə malikdir. Bu yataqlardan əldə edilən neftin ixracı və beynəlxalq bazarlara çıxarılması, Azərbaycanın dünya enerji bazarlarında mövqeyini möhkəmləndirir.

Salyan Oil şirkətinin ekoloji siyasətinin əsas məqsədi ətraf mühitin qorunması, ekoloji təhlükəsizlik və təbii ehtiyatlardan səmərəli istifadə edilməsidir.

Bununla əlaqədar Salyan Oil şirkəti fəaliyyətə başladığı dövrdən ekoloji problemlərə daha çox diqqət yetirir. Belə ki, 2006–cı ildən indiyədək neftlə çirklənmiş 16 ha ərazi rekultivasiya olunaraq bərpa olunmuşdur. Hal-hazırda da Azərbaycanda pilot layihə kimi “SUNDANSE AZƏRBAYCAN” şirkəti çirklənmiş torpaqların təmizlənməsi istiqamətində işlərini davam etdirir ki, 2020-ci ilin 8 ayı ərzində 8000 $m^3$ topaq, 4000 $m^3$ su təmizlənmişdir.

2020-ci ilin 8 ayı ərzində ekoloji yönümlü işlərdən,ekoloji risklərin qiymətləndirlməsi işlərinə əsasən, neft və lay suyu dağıntısının qarşısını almaq məqsədilə 3000 metr neft və 1000 metr lay suyu kəmərinin korroziyaya uğramış hissəsi dəyişdirilərək yenisi ilə əvəz olunub, 15 ədəd neft quyusunun yanında torpağın neftlə çirklənməməsi məqsədilə betonlaşdırılmış şaxtalar tikilmişdir, 671 saylı quyunun ətrafındakı neftlə çirklənmiş anbar mexaniki rekultivasiya olunaraq, bioloji rekultivasiya olunması məqsədi ilə neft tullantıları üçün ayrılmış xüsusi poliqona daşınmışdır, həmçinin sahələrdə 1000 ədəd müxtəlif növ ağaclar əkilmişdir.

Ümumiyyətlə, "Kürsəngi" və "Qabarağlı" yataqları Azərbaycanın neft sənayesinin inkişafında mühüm bir yerə malikdir və onun gələcək inkişafı ölkənin enerji təhlükəsizliyinin təmin edilməsində, eləcə də beynəlxalq enerji bazarlarında mövqeyinin gücləndirilməsində əhəmiyyətli rol oynayacaqdır. Bu yataqlardan maksimal fayda əldə etmək üçün davamlı inkişaf və innovasiyaların tətbiqi önəmlidir. Həmçinin, "Kürsəngi" və "Qabarağlı" yataqlarının iqtisadi və ekoloji əhəmiyyəti böyükdür.

## Ədəbiyyat


1. Babayev, V. (2011). *"Azərbaycanın Neft Sektorunun İnkişafı və İdarə Edilməsi."*
2. İsmayılov, T. (2015). *"Azərbaycanın Enerji İqtisadiyyatı."*
3. Bəşirov, R. (2017). *"Neft və Qaz Sənayesində Texnoloji İnnovasiyalar."*

# İCRA HAKİMİYYƏTİNİN FƏALİYYƏTİNİN OPTİMALLAŞDIRILMASININ NƏZƏRİ ƏSASLARI

**Kamran Abdullayev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: kamran_abdullayev9@mail.ru

Dövlət orqanlarının artıq funksiyalarının və səlahiyyətlərinin ləğv edilməsi dövlətin effektivliyinin artırılmasının məlum, aksiom şərtidir. Lakin bu iş birdəfəlik kampaniya olmamalıdır, çünki bu halda gələcəkdə bürokratiyanın optimallaşdırılması üçün zəmanət yaranmayacaq. Daimi işləyən, icra hakimiyyəti orqanlarının optimal tərkibini dəstəkləməyə imkan verən və iqtisadiyyata və cəmiyət həyatının digər sahələrinə səmərəsiz dövlət müdaxiləsinə mane olan mexanizm tələb olunur.

Artıq funksiyaların meydana gəlməsinin qarşısını almaq üçün icra hakimiyyəti orqanlarının əlavə funksiyalarının tətbiq edilməsi zəruriliyinin ictimai təsdiq prosedurunun qanunverici şəkildə təsbiti çox vacibdir. Əgər funksiyanın kifayət qədər hüquqi əsası yoxdursa və eyni zamanda vətəndaşların öz konstitusiya hüquqlarının həyata keçirməsinə mane olursa və ya sahibkarlar üzərinə əlavə vəzifələr qoyursa, o zaman birinci növbədə bu funksiya ləğv edilməlidir. Belə qayda hüquqi-normativ bazada təsbit edilməlidir. Bu dövlətin iqtisadiyyata və ictimai həyata səmərəsiz müdaxiləsini azaltmağa, inzibati sədlərin qarşısının alınmasına biznes xərclərini ixtisar etməyə, vətəndaşların konstitusiya hüquqlarını həyata keçirməsini təmin etməyə, həmçinin dövlət orqanlarının işini cəmiyyət və dövlət üçün zəruri məsələlərin həllinə yönləndirməyə imkan verəcək.

Artıq funksiyaların ləğv edilməsi ilə yanaşı, ictimai məsələləri səmərəli həll etməyə kömək edən yeni funksiyaların tətbiqi prosesi,

habelə hüquqi-normativ bazanın dəyişməsini və təşkilat tədbirlərinin keçirilməsini tələb edən zəruri dövlət funksiyalarının modernləşməsi və yerinə yetirilməsinin təkmilləşməsi prosesi gedir.

İcra hakimiyyəti orqanlarının optmallaşdırılmasının zəruri şərti icra hakimiyyəti orqanlarında dövlət idarəçiliyinin səmərəliliyin artırılmasına əngəl törədən sistemli problem olan korrupsiyanın ləğv edilməsidir.

İcra hakimiyyəti orqanlarının funksiyalarının optimallaşdırılması və icra hakimiyyəti orqanlarının fəaliyyəti sahəsində korrupsiya əleyhinə hərəkət mexanizmlərinin tətbiq edilməsi üzrə vəzifələrin istiqaməti çərçivəsində aşağıdakılar ehtimal edilir:

1) icra hakimiyyətinin orqanlarının zəruri funksiyalarının müəyyən edilməsi, artıq və təkrarlanan funksiyaların ləğv edilməsi prosedurunu tamamlamaq;

2) İcra hakimiyyəti orqanlarının funksiyalarının optimal tərkibinə nəzarət etmək

L.A.Txabisimova hesab edir ki, icra hakimiyyətinin fəaliyyətinin optimallaşdırılmasının səmərəli nəticələrinə aşağıdakılar vasitəsilə nail olmaq olar:

1. İcra hakimiyyətinin fəaliyyəti üçün xarici əlverişli (qanunla göstərilən sərhədlərdə icra hakimiyyətinin maneəsiz fəaliyyətinə imkan yaradan) şəraitin formalaşdırılması;

2. Xarici nəzarət (bu, hakimiyyət fəaliyyətində problemlərin yaranma ehtimalının olmasını üstün tutan, əvəzedici, qoruyucu element kimi tələb olunur. Onun subyektləri ali hakimiyyətin sahibi (xalq) və daşıyıcısıdır (prezident), yardımçı subyektləri kimi kütləvi informasiya vasitələri və icra hakimiyyətinin fəaliyyətinə nəzarət üzrə ixtisaslaşan xüsusi dövlət orqanları çıxış edirlər);

3. İcra hakimiyyətinin təşkili üzrə xarici fəaliyyət (bu, icraedici qolun özünütəşkiletməsinin effektivliyinin aşağı səviyyəli

olduğu vaxt lazım olur, çünki sonuncu kənardan təsirə ehtiyac duyur ki, bu da ali hakimiyyətin daşıyıcısının siyasi iradəsi olur);

4. Daxili əlverişli şərait, özünütəşkiletmə və özünənəzarət (bu triada icra hakimiyyətinin daxilində hakimiyyət münasibətləri sistemini xarakterizə edir, iqtisadi və sosial sahələrdə xidmət edənlərin müdafiəsinin, texniki təminatının, struktur nizama salmanın və tabeliyində olan işçilərin idarə edilməsinin təkmilləşdirilməsi üzrə tədbirlərin görülməsini nəzərdə tutur).

Korrupsiya hərəkətlərinin istisna edilməsi məqsədilə aşağıdakı tədbirlərin keçirilməsi nəzərdə tutulula bilər:

1) yüksək korrupsiya riski olan dövlət orqanlarının fəaliyyət sahələrində xüsusi antikorrupsiya mexanizmlərinin yaradılması;

2) korrupsiyagenliyə dair hüquqi-normativ aktların ekspertizasının tətbiqi;

3) dövlət funksiyalarının korrupsiyagenliyinin qiymətləndirilməsinin metodiki əsaslarının yaradılması;

4) antikorrupsiya hüquqi-normativ aktlar paketinin formalaşdırılması;

5) idarə və regional antikorrupsiya proqramlarının hazırlanması [1].

Korrupsiyagenliyə dair hüquqi-normativ aktların ekspertizasının tətbiqi üzrə tədbirlər çərçivəsində mövcud normativ aktların və daxil edilən layihələrin ilkin və ixtisaslaşdırılmış ekspertizasının metodikaları təklif edilir, onların ekspertizası aparılmışdır və onun nəticələri əsasında mövcud hüquqi-normativ aktlara və təklif edilən layihələrə daxil etmək üçün dəyişikliklər hazırlanmışdır.

İnzibati islahatın yeni mərhələsində antikorrupsiya siyasəti dövlət xidməti sistemində islahatlar keçirilməsinin prioritet istiqamət kimi ayrılmışdır. Hazırda korrupsiya ilə mübarizə üzrə Milli

plan təklif edilmişdir, bu planda antikorrupsiya tədbirləri üç istiqamət üzrə cəmlənir:

1) qanunvericiliyin modernləşdirilməsi;

2) hüquqi maarifləndirmə;

3) dövlət və bələdiyyə qulluqçularının etik məcəlləsinin işlənib hazırlanması. Başlıca tədbirlər arasında – ictimai qulluqçuların gəlirlərinə nəzarət, dövlət və bələdiyyə orqanlarının alqı-satqı müqavilələrinin həyata keçirilməsində aşkarlığın və şəffaflığın təmin edilməsi mühüm yer tutur [2]

**Ədəbiyyat**


1. Cəfərov İ.M. *Azərbaycan Respublikası Konstitusiyasının şərhi.* Bakı: Hüquq ədəbiyyatı, 2010.
2. Nağıyev F.T. *Konstitusiya hüququ (mühazirə mətnləri)*. Bakı, "Qanun" nəşriyyatı, 2014.
3. Бахрах Д.Н. *Административное право.* Учебник. Из. БЕК, Москва, 2021. С.68.
4. Тхабисимова Л.А. *Политико-правовые технологии оптимизации деятельности институтов исполнительной власти.* Научное издание. Сер. Политико-правовые институты и национальные процессы. Ростов н/Д., 2019. С. 10-11

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ DÖVLƏT İDARƏETMƏ SİSTEMİNDƏ APARILAN İSLAHATLARIN BƏZİ ASPEKTLƏRİ

**Zaur Ağapaşayev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: agapashayev.z@gmail.com

1991-ci ildə Azərbaycanın müstəqilliyinin bərpa olunması ilə dövlət idarəetmə sistemi sovet modelindən fərqli, milli maraqlara uyğun yeni bir sistemə keçid etməyə başlamış, dövlət suverenliyinin təmin olunması və milli idarəetmə strukturlarının formalaşdırılması əsas prioritetlərdən birinə çevrilmişdir.

"Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" 18 oktyabr tarixli Konstitusiya Aktı dövlət qulluğunun vacib prinsiplərini özündə ehtiva etsə də, müstəqilliyin ilk illərində ölkədə siyasi hakimiyyətsizliyin mövcudluğu, dərin iqtisadi böhran, Qarabağ müharibəsi, dövlət qurumlarının fəaliyyətinin zəifliyi və kadr çatışmazlığı dövlət idarəetmə sistemində islahatların aparılmasında da ciddi problem yaratmışdır.

Yalnız 1993-cü ildə Ümummilli Lider Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra bütün sahələrdə, o cümlədən dövlət qulluğu sistemində köklü islahatlara başlanılmış və Ulu Öndərin bilavasitə müəllifliyi hazırlanaraq 1995-ci ildə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası müasir dövlət idarəçiliyinin hüquqi əsaslarını müəyyən etmiş, Əsas Sənəddə dövlət qulluğunun həyata keçirilməsi ilə bağlı başlıca prinsiplər təsbit olunmuşdur.

Dövlət qulluğunun konstitusional əsaslarının formalaşmasında həlledici rol oynayan Konstitusiyamızın 55-ci maddəsində vətəndaşların dövlət idarəçiliyində iştirakı və dövlət qulluğuna qəbul olunması ilə bağlı xüsusi müddəalar müəyyən edilmişdir [1].

Xüsusi olaraq vurğulamaq lazımdır ki, dövlət qulluğu sisteminin səmərəliliyinin artırılması istiqamətində ictimaiyyətin gözləntilərinin nəzərə alınması və dövlət qulluğunun pozitiv imicinin yaradılması məsələlərinə ciddi diqqət yetirilmişdir.

1996-cı ildə Ulu Öndər Heydər Əliyevin Sərəncamı ilə yaradılmış Hüquqi İslahatlar Komissiyası bu istiqamətdə atılan ilk mühüm addımlardan olmuş və bununla ölkədə dövlət idarəçiliyinin və dövlət qulluğunun normativ-hüquqi bazasının formalaşmasının başlanğıcı qoyulmuşdur.

Dövlət idarəetmə sistemində islahatların böyük əhəmiyyət kəsb etdiyini və miqyasını nəzərə alan Ümummilli Lider Heydər Əliyevin 1998-ci ildə imzaladığı Fərmanla bu sahədə islahatların aparılması üzrə ayrıca dövlət komissiyası yaradılmış və bilavasitə özünün rəhbərlik etdiyi komissiyanın tərkibində formalaşdırılan müxtəlif istiqamətlər üzrə işçi qruplardan biri məhz dövlət idarəetmə sisteminin islahatı ilə bağlı olmuşdur.

Dövlət Komissiyasının fəaliyyəti nəticəsində "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanunu daxil olmaqla, dövlət qulluğuna dair bir sıra qanunvericilik aktları qəbul edilmişdir. Bu dövrdə "dövlət qulluğu" və "dövlət qulluqçusu" anlayışları hüquqi müstəvidə müvafiq şəkildə müəyyənləşdirilmişdir. [2].

Eyni zamanda 1999-cu ildə Ulu Öndərin Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının yaradılması dövlət idarəçilik sahəsi üçün mütəxəssislər hazırlanması işinin müasir tələblərə uyğun qurulmasında və onların peşəkarlıq səviyyələrinin artırılmasında mühüm rol oynamışdır.

Dövlət qulluğu sahəsində həyata keçirilmiş mühüm islahatlar sayəsində Azərbaycan Respublikasında özünəməxsus dövlət qulluğu sistemi formalaşmış və bu sistemdə qabaqcıl beynəlxalq təcrübədən istifadə edilmişdir. İctimai həyatın müxtəlif sahələrində dövlət siyasətini həyata keçirən, vətəndaşların və cəmiyyətin xidmətində olan dövlət orqanlarının səmərəli fəaliyyət göstərməsi, ilk növbədə, bu orqanlarda çalışan dövlət qulluqçularının yüksək peşəkarlığından və vəzifə borcunu məsuliyyətlə yerinə yetirməsindən asılıdır. Bu istiqamətdə Azərbaycan Respublikası müxtəlif beynəlxalq və regional təşkilatlarla, habelə bir sıra beynəlxalq şəbəkələrin üzvü kimi digər dövlətlərin müvafiq qurumları ilə fəal əməkdaşlıq etmiş, müxtəlif beynəlxalq təşkilatların dövlət qulluğu sahəsində tövsiyələrinin icrasını təmin etmişdir.

Sonrakı mərhələdə görülən addımlar isə dövlət qulluğu sisteminin təkmilləşdirilməsinə yönəlmişdir.

Ulu Öndərin dövlət qulluqçusu üçün olduqca zəruri olan keyfiyyətləri Prezident İlham Əliyev tərəfindən uğurla davam və inkişaf etdirilir. "Hər bir şəxs bilməlidir ki, dövlət qulluğunda olmaq imtiyaz deyil, məsuliyyətdir, insanlara xidmət imkanıdır" – deyən ölkə Prezidenti İlham Əliyevin rəhbərliyi ilə bu sahədə aparılan mütərəqqi qanunvericilik və institusional islahatlar dövlət qulluğu sistemində idarəçiliyin təkmilləşdirilməsinə, dövlət orqanlarının kadr potensialının inkişaf etdirilməsinə, yüksək mənəvi və etik dəyərləri əsas tutan, bilik, bacarıq və müsbət şəxsi keyfiyyətləri ilə seçilən dövlət qulluqçuları körpüsunun formalaşdırılmasına xidmət etmişdir.

Beləliklə, aparılan tədqiqatlar nəticəsində Azərbaycanda dövlət qulluğu sisteminin formalaşmasının tarixi-siyasi xüsusiyyətlərini təhlil edərək bu qənaətə gəlmək mümkündür ki, zəngin dövlətçilik tarixi, sonrakı dövrlərdə hətta liberal ənənələri əks

etdirən səmərəli dövlət idarəçiliyinin yaradılmasına zəmin hazırlamışdır. Azərbaycan dövlət qulluğu sistemi, öz yaranması və təkamülü prosesində üç tarixi mərhələ keçərək, hər bir mərhələnin müəyyən komponentlərinin təsirini əks etdirmişdir.

Hazırkı mərhələdə isə, dövlət qulluğu sisteminin təkmilləşdirilməsi dövlətin sosial xarakterini gücləndirməklə yanaşı, qarşıya qoyulmuş siyasi və iqtisadi prioritetlərə səmərəli şəkildə nail olunmasını təmin etməlidir. Xüsusilə də, fəal vətəndaş cəmiyyətinin qurulması prosesində, dövlət qulluğu sisteminin innovativ əsaslarla təkmilləşdirilməsi milli inkişaf strategiyasının səmərəli icrasının əsas şərti kimi çıxış edir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası, 2018
2. İsmayılov S. *"Azərbaycanda dövlət qulluğunun və idarəetmə sisteminin keçmişi, bu günü və perspektivləri"*, Bakı, 2013


## AZƏRBAYCAN RESPUBLİKASININ XARİCİ SİYASƏTİ: ÇİN İLƏ MÜNASİBƏTLƏR KONTEKSTİNDƏ HEYDƏR ƏLİYEV AMİLİ


**Aytac Ağazadə**
*Azərbaycan Respublikasının Prezident yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: agazadeaytac17@gmail.com


Azərbaycan Respublikasının müstəqilliyini bərpa etməsi ilə ölkənin xarici siyasət doktrinasında yeni bir mərhələ başlandı. Bu mərhələ dövlət suverenliyinin möhkəmləndirilməsi, beynəlxalq münasibətlər sistemində ləyaqətli yerin təmin edilməsi və çoxtərəfli əməkdaşlıq prinsiplərinin qurulması ilə səciyyələnirdi. Bu siyasətin

formalaşmasında və icrasında ümummilli lider Heydər Əliyevin rolu əvəzsiz olmuşdur. Onun uzaqgörənliyi nəticəsində Azərbaycan balanslaşdırılmış, praqmatik və milli maraqlara əsaslanan xarici siyasət həyata keçirməyə başladı. Bu siyasətin mühüm istiqamətlərindən biri də Çin Xalq Respublikası ilə münasibətlərin qurulması və inkişaf etdirilməsi olmuşdur.

Heydər Əliyev Azərbaycanın beynəlxalq münasibətlər sistemində tanınması və möhkəmlənməsi üçün dünyanın bütün regionları ilə, o cümlədən Asiya ölkələri ilə diplomatik əlaqələrin genişləndirilməsini prioritet elan etmişdi. Çinlə diplomatik münasibətlər 1992-ci ildə qurulsa da, bu münasibətlərə real dinamizm və sistemli yanaşma məhz Heydər Əliyevin 1993-cü ildə hakimiyyətə qayıdışından sonra verilmişdir. Onun liderliyi ilə Çinlə əlaqələr qarşılıqlı hörmət, suverenliyin tanınması və iqtisadi maraqların təmin olunması prinsiplərinə əsaslanaraq inkişaf etməyə başladı.

1994-cü ildə imzalanmış "Əsrin müqaviləsi" və Azərbaycanın enerji strategiyası Çin tərəfindən maraqla izlənilmiş, ölkənin enerji sektoruna investisiya yatırmaq və enerji təhlükəsizliyində əməkdaşlıq etmək üçün yeni imkanlar formalaşmışdır. Heydər Əliyev bu prosesi sadəcə iqtisadi maraqlar baxımından deyil, həm də strateji müttəfiqlik çərçivəsində qiymətləndirirdi.

Heydər Əliyevin təşəbbüsü ilə Çinlə iqtisadi əməkdaşlığın müxtəlif sahələrində – xüsusilə energetika, nəqliyyat və ticarət sahələrində – aktiv addımlar atılmışdır. Çin şirkətləri Azərbaycanın enerji və infrastruktur layihələrinə maraq göstərmiş, bu sahədə ilkin razılaşmalar əldə olunmuşdur. Azərbaycanın "Şərq-Qərb" nəqliyyat dəhlizində yerləşməsi və Çinlə Avropa arasında strateji tranzit rolunun formalaşması, Bakı-Tbilisi-Qars dəmir yolu və digər beynəlxalq layihələrin başlanması Çin ilə əməkdaşlığı daha da gücləndirmişdir.

Heydər Əliyev eyni zamanda "Bir kəmər, bir yol" təşəbbüsünün ilkin mərhələlərində Azərbaycanın bu layihədə potensial iştirakını dəstəkləmiş, ölkənin geostrateji mövqeyindən istifadə edərək Çinlə ticarət və logistika əlaqələrinin inkişafını hədəfləmişdir. Bu baxımdan, Azərbaycanın Çinlə münasibətləri sadəcə iki ölkə arasındakı əməkdaşlıqdan ibarət olmayıb, eyni zamanda regional əməkdaşlıq formatlarının genişləndirilməsi baxımından da önəm daşıyırdı.

Heydər Əliyevin rəhbərliyi dövründə təkcə iqtisadi deyil, həm də siyasi və humanitar əlaqələrin inkişafı ön plana çıxarılmışdır. Azərbaycan ilə Çin arasında yüksək səviyyəli rəsmi səfərlər və qarşılıqlı nümayəndə heyətlərinin mübadiləsi, iki ölkə arasında etimada əsaslanan siyasi dialoqun qurulmasına xidmət etmişdir. Təhsil, mədəniyyət və informasiya mübadiləsi sahəsində əməkdaşlıq da bu münasibətlərin çoxşaxəli xarakterini göstərir.

Azərbaycanlı tələbələrin Çində təhsil alması, mədəniyyət günlərinin təşkili və Çin dilinin Azərbaycanda öyrədilməsi kimi təşəbbüslər bu əlaqələrin humanitar aspektini gücləndirmişdir. Bu da onu göstərir ki, Heydər Əliyevin xarici siyasət kursu təkcə rəsmi səviyyədə deyil, həm də xalqlar arasında qarşılıqlı anlaşma və dostluğun dərinləşdirilməsi istiqamətində qurulmuşdur.

Heydər Əliyevin xarici siyasət kursu Azərbaycanın Çinlə münasibətlərində tarixi əsas yaratmış və bu münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəlməsinə zəmin hazırlamışdır. Onun diplomatik irsi bu gün də Azərbaycanın xarici siyasətində öz əksini tapmaqdadır. Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən bu siyasət nəticəsində Azərbaycan-Çin münasibətləri daha da dərinləşmiş, iqtisadi, siyasi və mədəni əlaqələr yeni mərhələyə qədəm qoymuşdur. Bu münasibətlərin formalaşmasında və inkişafında Heydər Əliyev amili mühüm ideoloji və strateji əsas kimi qalmaqdadır.

## Ədəbiyyat


1. Əliyev, H. (1997). *Müstəqilliyimiz əbədidir*. Bakı: Azərbaycan Nəşriyyatı.
2. Vəliyev, A. (2015). *Azərbaycanın xarici siyasəti*. Bakı: Elm və Təhsil.
3. Məmmədov, E. (2020). *Azərbaycan-Çin münasibətləri: Tarixi və müasir mərhələlər*. Bakı: Qanun Nəşriyyatı.
4. Əliyev, H. (2000). *Qlobal siyasət kontekstində Azərbaycan*. Bakı: Lider nəşriyyatı.
5. Çernyayev, G. (2012). *Diplomatiya və beynəlxalq münasibətlər*. Bakı: ADU nəşriyyatı.
6. Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin rəsmi saytı – www.cn-embassy.az
7. Azərbaycanın Xarici İşlər Nazirliyinin rəsmi saytı – www.mfa.gov.az
8. Əliyev, İ. (2021). *Azərbaycanın xarici siyasətinin prioritet istiqamətləri*. Bakı: Elm.
9. Akiner, S. (2004). *The Caspian: Politics, Energy and Security*. London: RoutledgeCurzon.
10. Embassy of the Republic of Azerbaijan to the People’s Republic of China – beijing.mfa.gov.az

# AZƏRBAYCANIN REGİONAL İQTİSADİ ƏLAQƏLƏRİNDƏ NƏQLİYYAT XİDMƏTLƏRİNİN VƏ LOGİSTİKA SİSTEMLƏRİNİN ROLU


**Murad Axundov**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: makhundov77@gmail.com


Bu gün tranzit potensialından istifadə və logistikanın inkişafı ölkənin imkanlarını reallaşdırmaq üçün ən güclü vasitədir. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" inklüziv və dayanıqlı iqtisadiyyatın qurulması təşəbbüslərinin tərkib hissəsi kimi hazırlanmışdır. Strateji proqram yanaşması əsasında hazırlanan Strateji Yol Xəritəsi logistika və ticarət sahəsində iqtisadi inkişaf üzrə Azərbaycanın 2020-ci ilədək, 2025-ci ilədək və 2025-ci ildən sonrakı dövr üçün qısa, orta və uzunmüddətli perspektiv istiqamətlərini müəyyən edir. "Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi" 2020-ci ilədək dövr üzrə inkişaf perspektivini özündə əks etdirən strateji məqsəd və hədəflərlə yanaşı, həmin məqsəd və hədəflərə nail olmaq üçün bir sıra prioritet və tədbirlər göstərilmiş, habelə əsas və digər icraçıların, icra müddətlərinin, nəticə indikatorlarının əks olunduğu təfsilatlı tədbirlər planı hazırlanmışdır [3].

Azərbaycan Respublikası Hökuməti ölkənin inkişafı məqsədi ilə regional səviyyədə, o cümlədən qlobal səviyyədə ən geniş lahiyə işləri aparır. Çinin və onun əsas ticarət tərəfdaşı olan Avropa İttifaqının dinamik iqtisadiyyatı Azərbaycan üçün tranzit və ticarət imkanlarının inkişafı üçün əlverişli şərait yaradır. Azərbaycasnın Avropa ölkələri ilə aktiv ticarət-iqtisadi əlaqələri Mərkəzi Asiya

ölkələrinin burada yaranan nəqliyyat kommunikasiyaları imkanlarından istifadə etməyə, həmçinin Trans-Sibir Dəmir Yolu və Cənub Dəniz Marşrutundan fərqli olaraq alternativ dəniz və quru marşrutlardan yararlanmağa imkan verir.

Əlverişli çoğrafi mövqe və qazanılmış strateji tərəfdaş imici ölkəmizə mühüm üstünlüklər qazandırması nəticəsində Azərbaycan hazırda yeganə ölkədir ki, "Şimal-Cənub" və "Şərq-Qərb" nəqliyyat dəhlizləri layihələrinin hər ikisində iştirak edir.

Azərbaycan regional əhəmiyyətli kommunikasiya sistemlərinin, o cümlədən dəmir yollarının həm tikintisi və həm də yenidən qurulmasına böyük əhəmiyyət verir. Xüsusilə bu sahədə region və dünya üçün əhəmiyyətli olan bir sıra layihələrin reallaşmasına nail olunmuş və həcmli investisiyalar yatırılmışdır.

Regionun nəqliyyat arteriyasının yeni əlaqələndirmə vasitəsi olan və dünyanın iri nəqliyyat layihəsindən biri sayılan Bakı-Tbilisi-Qars (BTQ) dəmir yolunun tikintisi uğurla həyata keçirilib. Bu nəqliyyat infrastrukturunu mütəxəssislər çox geniş yanaşmada qiymətləndirirlər. Beş ilə yaxındır istifadəyə verilən BTQ qitələrarası daşımalar üçün geniş imkanlar açmış, Çin ilə Avropa ölkələri arasında ən qısa marşrut olan bu dəmir yolunun yaratdığı əlverişli şərait bir çox ölkələri, xüsusilə Şərq ölkələrinin diqqətini cəlb etmişdir. Bu dəmir yolu xətti Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox azaltmağa imkan verir. Bakı-Tbilisi-Qars dəmir yolu Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır [4]. Mərkəzi Asiya ilə Aİ arasında ticarət və investisiya əlaqələrinin gücləndirilməsi iqtisadi artım və ticarətin daha da inkişafı və şaxələndirilməsi üçün vacibdir. Bu məqsədə doğru irəliləmək üçün liderlər Qlobal Gateway strategiyasına uyğun olaraq müntəzəm iqtisadi tədbirlər təşkil etmək və əməkdaşlığı daha da

inkişaf etdirmək öhdəliyi götürüblər [5]. Azərbaycan bu siyasətin reallaşmasında həlledici ölkə hesab olunur və ölkəmizin nəqliyyat və logistika sistemlərinin tam səmərəli inteqrasiyası məsələsində Avropa İttifaqı ölkəmizin strateji rolu ilə yanaşı iqtisadi maraqlarımızı da nəzərə almalıdır.

Yaxın gələcəkdə Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirməklə yanaşı, regional inteqrasiyaya yeni imkanlar yaradacaq. Azərbaycanın Vətən müharibəsindəki Qələbəsi əarazilərin işğaldan azad olmasına və milli iqtisadiyyata inteqrasiya olunmasına tarixi imkanlar yaratmışdır. Nəqliyyat-logistika sahəsində də yeni reallıqlar yaranması nəticəsində Zəngəzur dəhlizi vasitəsilə Azərbaycandan Türkiyəyə daşınan yükləri daha qısa müddətdə Avropa və Yaxın Şərq ölkələrinə çatdırmaq imkanı yaranacaq. Zəngəzur dəhlizi Azərbaycanın tranzit imkanlarını daha da genişləndirməsi regional kommunikasiya sistemlərinin inteqrasiya potensialını əhəmiyyətli dərəcədə yaxşılaşdırması deməkdir.

Məlum olduğu kimi, Azərbaycanda yeni dövlət planlarının işlənməsi bu istiqamətdə çox sürətlə davam etdirilir. Regionun İşğaldan azad edilən ərazilərdə dəmir yolu infrastrukturunun yenidən qurulmasına və müasir xətlərin çəkilməsinə artıq start verilib. Nəqliyyat lahiyələrinin reallaşdırılmasının əsas istiqamətlərini Bərdə-Ağdam, Horadiz-Ağbənd dəmir yolu xətlərinin yenidən qurulması və Füzuli-Şuşa təzə dəmir yolu xəttinin inşası təşkil edir.

Azərbaycanda logistik funksiyalara malik hava daşımalarının da mühüm regional əhəmiyyətini də qeyd etmək olar. Heydər Əliyev Beynəlxalq Aeroportu yük terminalının buraxılış gücünə görə demək olar ki, regionun ən böyük aeroportu-dur.

Hava nəqliyyatı infrastrukturunun inkişafı, hava limanlarının ən yüksək səviyyəyə çatdırılması, eləcə də hava məkanından istifadənin liberallaşdırılması istiqamətində lahiyələr həyata keçirilir. İşğaldan azad edilmiş ərazilərdə tikilən hava limanları Qarabağın

Azərbaycan iqtisadiyyatına reinteqrasiyasından əlavə ölkəmizin regional və beynəlxalq inteqrasiyasına imkanları genişləndirəcək. Azad olunmuş ərazilərdə inşa edilən ilk hava limanı – Füzuli Beynəlxalq Aeroportu Qarabağ iqtisadiyyatının region bazarları üzrə şaxələnməsində xüsusi amillərdən birini təşkil edir. Bu hava limanı daxili və beynəlxalq yükdaşımalar üçün vacib əhəmiyyət kəsb edir.

İşğaldan azad edilmiş ərazilərimizin əhəmiyyətli sənaye potensialına diqqət yetirilməlidir. Füzulidə açılacaq hava limanı regionu bütün nəqliyyat sistemləri ilə əlaqələndirilməklə, həm də həmin yerlərdə istehsal olunacaq sənaye məhsullarının dünya bazarına çıxarılması və bütövlükdə regionun ixrac imkanlarının genişləndirilməsi baxımından inteqrativ funksiyaları təmin edə bilər.

Tədqiqatımızın nəticələrinə əsasən qeyd etmək olar ki, nəqliyyat və logistika sistemlərinin inkişafı strategiyaları rəqabətə deyil, regional tranzit yük axınlarının regionun dəhlizləri arasında effektiv bölüşdürülməsini təmin edəcək rasional qarşılıqlı fəaliyyətə yönəldilməlidir.

Biz dəyişən dünya nizamı şəraitində yaşayırıq, burada Azərbaycan üçün yeganə məqsədəuyğun həll sülh və rifahı inkişaf etdirmək üçün daha güclü tərəfdaşlıqlar qurmaqdır. Azərbaycan faydalı tərəfdaşlığa, beynəlxalq hüquqa, regionda təhlükəsizlik və davamlı inkişaf naminə əməkdaşlığı möhkəmləndirəcək strategiyanı ardıcıl həyata keçirir.

Logistika və nəqliyyat sistemlərinin inteqrasiyasının inkişafı üçün aşağıdakı istiqamətlərin nəzərə alınması tövsiyyə olunur:

-Regionda iqtisadi əlaqələri təmin etmək üçün transsərhəd nəqliyyat infrastrukturunun (nəqliyyat dəhlizləri, multimodal nəqliyyat və logistika mərkəzləri) inkişafı;

-Regional ticarətin və əməkdaşlığın genişləndirilməsi;

-Azərbaycanda sənaye sahələrinin rəqabətlii inkişafı üçün zəruri əməkdaşlığı stimullaşdıran, regionda məhdudiyyətlərin aradan

qaldırılması ilə nəqliyyat xidmətləri üçün ümumi xidmət bazarının fəaliyyət göstərməsi;
-Azərbaycanın transregional əlaqələrinin inkişafı üçün müxtəlif nəqliyyat növlərinin ahəngdar qarşılıqlı əlaqəsinin təmin olunması;
-Nəqliyyat və logistika sektorunda inteqrasiya olunmuş həyat qabiliyyətli biznes strukturlarının formalaşdırılması;
- Regionda quru dəhlizlərinin tranzit imkanlarından səmərəli istifadə edilməsi və onların rəqabət qabiliyyətinin artırılması üçün razılaşdırılmış tarif siyasətinin həyata keçirilməsi.

Bütövlükdə, logistika və nəqliyyat inteqrasiyası əməkdaşlıq məkanının formalaşması üçün fundamental ilkin şərtlər yaradır ki, bunun əsasında Azərbaycanın Avropa və Asiya qitəsinin bütün ölkələri arasında qarşılıqlı faydalı əməkdaşlığı inkişaf edəcək.

**Ədəbiyyat**


1. Transport Global Market Report 2025, https://www.thebusinessresearchcompany.com/report/transport-global-market-report
2. Middle Corridor gains momentum with new agreements to enhance regional connectivity,Mar 06, 2025, https://euazbusinessforum.az/news-inner?id=163
3. Azərbaycan Respublikasında logistika və ticarətin inkişafına dair Strateji Yol Xəritəsi, https://e-qanun.az/framework/57128
4. Nəqliyyat-logistika sahəsində görülən işlər Azərbaycanı əhəmiyyətli tranzit ölkəyə çevirib, https://vergiler.az/news/economy/18963.html ,Vergilər, sosial-İqtisadi onlayn qəzet, 18 İyul 2022
5. First EU-Central Asia summit, 4 April 2025, https://www.consilium.europa.eu/en/meetings/international-summit/2025/04/04/

# TÜRKİYƏ-İNGİLTƏRƏ MÜNASİBƏTLƏRİ: MÖVCUD İQTİSADİ ƏMƏKDAŞLIQ VƏ PERSPEKTİVLƏR

**Aynur Allahverdiyeva**
*Azərbaycan Milli Elmlər Akademiyası*
e-mail: allahverdiyevaaynur629@gmail.com

**Xülasə**

Məqalədə Türkiyə-İngiltərə iqtisadi əlaqələrinin tarixi inkişafı, sektorlararası əməkdaşlıq imkanları və gələcək perspektivləri təhlil edilmişdir. Xüsusilə, turizm, yüksək texnologiyalar, enerji və xidmət sektorları iki ölkə arasında qarşılıqlı maraq doğuran əsas sahələr kimi ön planda araşdırılmışdır. Həmçinin, bu sahələrdə mövcud potensialın reallaşdırılmasında qarşıya çıxan çətinliklərə də diqqət yetirilir.

***Açar sözlər:*** İngiltərə, Türkiyə, iqtisadi əməkdaşlıq, turizm, enerji sektoru, kommersiya.

21-ci əsrdə, İngiltərə Türkiyəni iqisadi və kommersiya nöqteyi-nəzərdən cəlbedici bir bazar olaraq qiymətləndirir. Nəzərə alınmalıdır ki, uzun müddət iki ölkə arasındakı münasibətlərin əsas hərəkətverici qüvvəsi ticarət əlaqələri olmuşdur. Lakin II Dünya Müharibəsindən sonrakı illərdə İngiltərənin Türkiyənin xarici ticarətindəki rolu, digər Avropa ölkələri ilə müqayisədə arzuolunan səviyyədə inkişaf etməmişdir. 1980 və 1990-cı illərdə Britanita iqtisadiyyatı əhəmiyyətli transformasiya dövrünə daxil olmuşdur.[1,s.42] Bu mərhələdə bir sıra sənaye sahələri tədricən ləğv edilmiş, əvəzində xidmət sektoru kimi yüksək texnologiyalara əsaslanan sektorlar dövlət tərəfindən dəstəklənmişdir. İlk növbədə qeyd olunmalıdır ki, İngiltərənin həyata keçirdiyi yüksək məzənnə siyasəti, türk sənayeçiləri üçün bu ölkəni cəlbedici bir bazara çevirmişdir. Xüsusilə də, Britaniya tekstil sənayesindəki tənəzzül və

buna paralel olaraq istehlak səviyyəsində yaşanan sıçrayış, türk iş adamları üçün ümidverici imkanlar yaratmışdır. Eyni zamanda, İngiltərə iqtisadiyyatında istehlak mallarının satışını həyata keçirən iri ticarət mərkəzləri və supermarketçilik sahəsinin sürətli inkişafı, xarici investorlar üçün aşağı riskli və yüksək gəlirli fəaliyyət sahələri formalaşdırmışdır.[1,s.42]

Bütün bunlara baxmayaraq, bu sahələrdə türk investorların gecikdiklərini, 2000-ci ilə qədər bu bazara əhəmiyyətli şəkildə daxil ola bilmədikləri söyləmək olar.[2] Bununla belə, İngiltərədə fəaliyyət göstərən yerli türk müəssisələri, 1990-cı illər ərzində Türkiyə ilə ticarət əlaqələrini – həm ixracatçı, həm də idxalçı qismində – davam etdirmişlər. Nəzərə alsaq ki, bu müəssisələrdən bəzilərinin xammalı hətta Almaniyadakı türk icması vasitəsilə əldə etmələri nəzərə alınarsa, iki ölkə arasındakı iqtisadi münasibətlərin miqyasının rəsmi statistik göstəricilərdən daha yüksək olduğu ehtimal edilə bilər. Bundan əlavə, İngiltərənin Almaniya kimi digər Avropa ölkələri ilə müqayisədə türk miqrantlara qarşı daha yumşaq və çevik bir siyasət yürütməsi, eləcə də İngiltərə sənayesinin dərin bir böhran içində olması, bu ölkədə yaşayan türklərin böyük əksəriyyətini şəxsi bizneslərini qurmağa təşviq etmişdir. Bu kontekstdə, restoran biznesi və tekstil sahəsində istehsal-satış fəaliyyətləri üzrə İngiltərədə türk sərmayəçilərin çoxluğundan bəhs etmək mümkündür.[2]

İqtisadi əməkdaşlıq və sərmayə imkanları baxımından Türkiyənin xüsusilə, istehlak malları sektoruna daxil olacağı proqnozlaşdırılır. Buna səbəb bu sektorun, bugün də sərmayə cəlb etmək potensialına malik olması olmasıdır. Türkiyə üçün digər gəlirli və strateji əhəmiyyətli sektor isə turizmdir. Son illərdə həyata keçirilmiş uğurlu iqtisadi islahatlar çərçivəsində Türkiyə, İngiltərədən səfər edilən ilk üç ən önəmli istiqamətdən birinə çevrilmişdir. Bununla yanaşı, ölkəyə gələn turistlərin sosial-iqtisadi səviyyələrinin yüksəldilməsi də mühüm və həllini tapmamış bir məsələ

olaraq qalır.Hazırda Türkiyəyə səfər edən britaniyalı turistlərin əksəriyyətinin sosial-iqtisadi aspekt baxımdan nisbətən aşağı gəlir qruplarına mənsub olduqları müşahidə olunmaqdadır.[1,s.43]

Nəticə olaraq isə, son illərdə həyata keçirdiyi islahatlar və investisiyalarla yeni texnologiyalar üzərində ixtisaslaşan İngiltərə üçün, Türkiyə kimi inkişaf etməkdə olan ölkələr əhəmiyyətli və gəlirli bazara çevrilmişdir. Bundan əlavə, yüksək texnologiya və ciddi maliyyə resursları tələb edən iri infrastruktur layihələri ingilis investorlarının diqqət mərkəzindədir. Bu kontekstdə enerji sektoru son dövrlərdə ən çox diqqət çəkən sahə olmuşdur. Xüsusilə BP və Shell kimi nəhəng britaniyalı enerji şirkətləri, Türkiyənin təbii qaz və neft sahəsində regional çərçivədə bir ölkəyə çevrilməsini diqqətlə izləyir və böyük həcmdə sərmayələrdən pay almağa çalışırlar. Beləliklə, Türkiyədə son illərdə Türkiyədə müşahidə olunan enerji böhranları nəticəsində alternativ enerji mənbələrinə ehtiyac ingilis şirkətlərinin marağını daha da artırmışdır.

**Ədəbiyyat**

1. Laçıner S. *Türkiye-İngiltere ilişkileri ve işbirliyi imkanları.* USAK Strateji Gündem, 2005, 53s.
2. https://www.setav.org/avrupa-arastirmalari/turkiye-ingiltere-iliskilerinde-yeni-firsatlar
3. https://www.mfa.gov.tr/commercial-and-economic-relations-between-turkiye-and-england.en.mfa

# ASTARA RAYONUNDA ƏHALİNİN HƏSSAS QRUPLARI İLƏ İŞİN TƏŞKİLİ

**Nihad Allahverdiyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nihad.aev@gmail.com

Ölkəmizdə bütün sosial proqramların icrası, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, sosial cəhətdən həssas əhali qruplarının dövlət qayğısı ilə əhatə olunması, əmək hüquqlarının müdafiəsi, aktiv məşğulluq tədbirlərinin təşkili, pensiya və sosial-təminat, tibbi-sosial ekspertiza sistemlərinin təkmilləşdirilməsi yönündə islahat tədbirlərin uğurlarını görməmək mümkün deyil. Astara rayonunda da cəmiyyətin həssas kateqoriyasına aid edilən qruplarının sosial xidmət və təminat hüquqları var. Hər bir vətəndaş müəyyən edilmiş yaş həddinə çatdıqda, xəstəliyinə, əlilliyinə, ailə başçısını itirdiyinə, əmək qabiliyyətini itirdiyinə, işsizliyə görə və qanunla nəzərdə tutulmuş digər hallarda sosial təminat almaq hüququna malikdir. Son 30 ildə əhaliyə sosial xidmətlərin göstərilməsi sahəsində dövlət tərəfindən həyata keçirilən məqsədyönlü tədbirlər ölkənin sosial xidmət sisteminin inkişafının təmin edilməsi məqsədilə dövlət büdcəsindən davamlı maliyyə vəsaiti ayrılması, sosial xidmətlərlə bağlı münasibətləri tənzimləyən bir sıra normativ hüquqi aktların qəbul edilməsi, ağır məişət şəraitində yaşayan şəxslərə sosial xidmət göstərilməsi sahəsində rəsmi siyasətinin hüquqi, iqtisadi və təşkilati əsaslarının müəyyən edilməsi və bu sahədə yaranan münasibətlərinin tənzimlənməsi məqsədilə qəbul edilən "Sosial xidmət haqqında", "Əlilliyi olan şəxslərin hüquqları haqqında", "Uşaq hüquqları haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial

müdafiəsi haqqında", "Yetkinlik yaşına çatmayanların baxımsizliğının və hüquq pozuntularının profilaktikası haqqında", "Məişət zorakılığının qarşısının alınması haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında" "Şəhid ailələri haqqında" Azərbaycan Respublikasının digər qanunların nəticəsində minlərlə insanın sosial vəziyyəti qat-qat yaxşılaşmışdır. Buna baxmayaraq, bu gün də əhalinin həssas qruplarına daxil olanların cəmiyyətə inteqrasiyası və onların məşğulluq problemlərinin aradan qaldırılması üçün yeni layıhələr hazırlanır, bu sahədə izləniləcək istiqamətlər müəyyənləşdirilir. Cənub bölgəsi - o cümlədən Astara da bu həssas işlərdə hec də geri qalmayıb.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyin-də Dövlət Məşğulluq Agentliyinin Lənkəran-Astara Regional Məşğulluq Filialının Astara xidmət şöbəsi rayonda yaşayan həssas qruplara diqqətlə yanaşır. Həssas əhali qruplarından olan şəxslərlə bağlı icra olunan sosial dəstək paketinin mühüm bir istiqaməti də şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzil və fərdi evlərlə, həmçinin müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillərlə təminatıdır.

Bu tədbirlər Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun möhtəşəm Zəfər əldə etdiyi 44 günlük Vətən müharibəsindən sonra da icra olunur. Dövlət başçısının göstərişi ilə şəhid ailələri və müharibə iştirakçıları ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan sosial dəstək paketi çərçivəsində mənzil və fərdi evlə təminat proqramı 5 dəfə genişlənib.

Postmüharibə dövründə 5600, ümumilikdə ötən dövrdə 14,4 min mənzil və fərdi ev təqdim olunub. Dövlət başçısının tapşırığı ilə bu kateqoriyadan olan vətəndaşlarımıza ötən ildə 1500 mənzil və fərdi evin verilməsi nəzərdə tutulmuşdur. Ölkə Prezidentinin Sərən-

camı ilə 2021-ci ilin əvvəlindən İkinci Qarabağ müharibəsi şəhidlərinin ailələri və həmin müharibə ilə əlaqədar əlilliyi olanlar da mənzillə təmin olunur. Mühüm sosial proqramlardan biri də müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin avtomobillə təminatıdır. Hazırda təqdim edilən 50 avtomobil də daxil olmaqla postmüharibə dövründə 374, ümumən ötən dövrdə 7550 avtomobil müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə verilib. Müharibə ilə əlaqədar əlilliyi olan şəxslər onlara göstərilən hərtərəfli qayğıya görə Prezident İlham Əliyevə minnətdardırlar.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2019- cu il üzrə hesabat. Bakı, 2020. [Elektron resurs] / URL: www.sosial.gov.az/uploads/yhs.pdf.
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 2021-22 ci illər üzrə hesabatları. Bakı, 2022-23. [Elektron resurs] / URL: www.sosial.gov.az/uploads/yhs.pdf.
3. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün dövlət proqramı Bakı, 2023
4. Azərbaycanda həssas əhali qruplarının sosial müdafiəsi B., 2023

# AVROPANIN YAŞIL SAZİŞİ

**Günel Allahyarova**
*Bakı Dövlət Universiteti*
e-mail: gallahyarova1996@gmail.com

Avropa Yaşıl Sövdələşməsi Avropa İttifaqının 2050-ci ilədək Avropanı ilk iqlim neytral qitəsinə çevirmək məqsədi daşıyan hərtərəfli siyasət təşəbbüsünü təmsil edir. Bu strategiyanın mərkəzində əsrin ortalarına qədər xalis sıfır istixana qazı emissiyalarına nail olmaq məqsədi dayanır. Bu ümumi məqsədə doğru irəliləyişi təmin

etmək üçün Avropa Komissiyası 1990-cı il səviyyəsinə nisbətən 2030-cu ilə qədər emissiyaları 55% azaltmaq üzrə aralıq hədəf qoyub [3]. Bu hüquqi cəhətdən məcburi öhdəlik icrada həm hesabatlılığı, həm də şəffaflığı təmin edən Avropa İqlim Qanununa daxil edilmişdir. İqlim neytrallığına keçid iqtisadiyyatın əsas sektorlarında, o cümlədən enerji, nəqliyyat, kənd təsərrüfatı, tikinti və sənayedə əhəmiyyətli struktur dəyişiklikləri tələb edir. Avropa Yaşıl Müqavilə bu məqsədlərə nail olmaq üçün bərpa olunan enerjidən istifadəni, enerji səmərəliliyinin artırılmasını və infrastrukturun modernləşdirilməsini təşviq edir. İnvestisiyalar təmiz texnologiyalara və aşağı karbonlu həllərə yönəldilir və siyasətlər qalıq yanacaqlar üçün subsidiyaları aradan qaldırmağa, bununla da iqtisadi təşviqləri ətraf mühitin mühafizəsi məqsədləri ilə uyğunlaşdırmağa yönəldilir. Siyasət çərçivəsi həmçinin bütün regionlar və icmalar üçün ədalətli keçidi təmin etmək üçün ekoloji, iqtisadi və sosial ölçüləri birləşdirir. Ədalətli Keçid Fondu kimi mexanizmlər aşağı karbonlu iqtisadiyyata keçiddən ən çox təsirlənən işçiləri və regionları dəstəkləmək üçün həyata keçirilir. Bundan əlavə, Emissiyaların Ticarət Sistemi (ETS) və Karbon Sərhədlərinin Tənzimlənməsi Mexanizmi (CBAM) kimi tənzimləyici alətlər ətraf mühitin bütövlüyünü və Aİ sənayelərinin rəqabət qabiliyyətini təmin etmək üçün gücləndirilir.

Təmiz enerji keçidi Avropa Birliyinin enerji sistemini karbonsizləşdirməyə və onun qalıq yanacaqlardan asılılığını azaltmağa yönəlmiş Avropa Yaşıl Sazişinin əsas sütununu təşkil edir. Bu məqsəd Aİ-nin ümumi enerji kompleksində külək, günəş, su elektrik və biokütlə kimi bərpa olunan enerji mənbələrinin payının əhəmiyyətli dərəcədə artırılmasını nəzərdə tutur. Eyni zamanda, o, sənaye, nəqliyyat, yaşayış binaları və ictimai infrastruktur daxil olmaqla bütün sektorlarda enerji səmərəliliyinin ölçülə bilən təkmilləş-

dirilməsini tələb edir. Avropa Komissiyası enerji keçidini istiqamətləndirmək üçün hüquqi cəhətdən məcburi hədəflər müəyyən etmişdir. Bərpa Olunan Enerji Direktivi, 2030-cu ilə qədər Aİ-nin enerji istehlakının ən azı 42,5%-ni bərpa olunan mənbələrdən təşkil etməsi və 45%-ə çatması hədəfini müəyyən edir. Paralel olaraq, Enerji Effektivliyi Direktivi 2030-cu ilə qədər son enerji istehlakının proqnozlaşdırılan ilkin səviyyələrlə müqayisədə ən azı 11,7% azaldılmasını tələb edir [1]. Bu hədəflər konkret tədbirlər, o cümlədən məcburi milli töhfələr, binalar üçün enerji səmərəliliyi standartları və səmərəli texnologiyaların tətbiqi üçün stimullarla müşayiət olunur. Qalıq yanacaqların mərhələli şəkildə dayandırılması, onların istifadəsini dəstəkləyən subsidiyaların ləğvi ilə yanaşı, kömür, neft və təbii qazın enerji qarışığından tədricən çıxarılmasını nəzərdə tutur. Bu transformasiya Aİ-nin daha geniş iqlim neytrallığı məqsədlərinə uyğun gəlir və onun qlobal ətraf mühitin idarə edilməsində liderliyini gücləndirir.

Avropa Yaşıl Sövdələşməsi enerji sisteminin dekarbonizasiyasını, dairəvi iqtisadiyyatın qurulmasını və dayanıqlı hərəkətliliyin təşviqini prioritetləşdirən transformativ siyasət gündəliyini müəyyən edir. Bu məqsədlər 2050-ci ilə qədər Avropa İttifaqının qanuni olaraq məcburi olan iqlim neytrallığı hədəfini dəstəkləmək üçün nəzərdə tutulub və dəqiq tənzimləyici çərçivələr və fəaliyyət göstəriciləri vasitəsilə həyata keçirilir.

Yaşıl Sövdələşmənin mərkəzi elementi bərpa olunan enerji mənbələrinin payının artırılması və eyni zamanda enerji səmərəliliyinin artırılmasıdır. Bərpa Olunan Enerji Direktivi tələb edir ki, bərpa olunan enerji 2030-cu ilə qədər ümumi enerji istehlakının minimum 42,5%-ni, proqnozlaşdırılan hədəf isə 45%-ni təşkil etsin. Enerji Səmərəliliyi Direktivi 2020-ci il proqnozlarına nisbətən eyni ilə yekun enerji istehlakının minimum 11,7% azaldıl-

masını tələb edir [2]. Bu qanunvericilik sənədləri Aİ enerji qarışığından kömür, neft və təbii qazın mərhələli şəkildə ləğvi ilə dəstəklənən qalıq yanacaqlardan uzaqlaşmaya rəhbərlik edir. Milli enerji və iqlim planları bu məqsədlərə uyğunluğu təmin edir, dövlət və özəl investisiyalar isə təmiz texnologiyalar, ağıllı enerji infrastrukturu və saxlama həllərinə yönəldilir.

**Ədəbiyyat**


1. Dupont, C., *The European Green Deal,* London, Routledge, 2023
2. Kretschmer, B., *The EU Green Deal: Governing the Transition to a Climate-Neutral Economy,* Cheltenham, Edward Elgar Publishing, 2022
3. Oberthür, S., *Climate Policies in the EU and the European Green Deal,* Cham, Springer, 2024


## İŞĞALDAN AZAD OLUNMUŞ ƏRAZİLƏRDƏ MƏCBURİ KÖÇKÜNLƏRİN SOSİAL REİNTEQRASİYASI VƏ MƏŞĞULLUQ VƏZİYYƏTİ


**Aysel Alışova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*

*Dövlət İdarəçilik Akademiyası*

e-mail: aysel.alishova@sosial.gov.az


İşğaldan azad edilmiş ərazilərə böyük qayıdış Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli 2469 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"indən biri kimi müəyyən edilmişdir. Bu prioritetlərə nail olmaq, yeni inkişaf mərhələsindəki hədəflərə

çatmaq üçün "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında 16 noyabr 2022-ci il Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə işğaldan azad olunmuş ərazilərin yenidən qurulması, inkişafı və reinteqrasiyası prosesinə başlanılıb.

Sərəncamda deyilir ki, Azərbaycan Respublikası öz torpaqlarını azad etməklə tarixi inkişafının irimiqyaslı bərpa-quruculuq layihələri ilə səciyyələnən, dayanıqlı sülhə, tərəqqiyə əsaslanan və bir çox ölkələr üçün nümunə olan yeni mərhələsinə qədəm qoymuşdur. Vətən müharibəsindən ötən müddət ərzində işğaldan azad olunmuş ərazilərin minalardan və partlamamış hərbi sursatdan təmizlənməsi, müasir yaşayış, istehsal və xidmət infrastrukturunun qurulması, iqtisadi fəaliyyətin, o cümlədən nəqliyyat-kommunikasiya xətlərinin bərpası, xüsusilə Zəngəzur dəhlizinin açılması istiqamətində mühüm işlər görülmüşdür. Həyata keçirilən məqsədyönlü və genişmiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına və davamlı iqtisadi aktivliyinin təmin olunmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün sağlam bünövrə yaradır.

Məskunlaşmış və məskunlaşacaq əhalinin məşğulluq imkanlarının genişləndirilməsi üçün məşğulluqyönümlü iqtisadi inkişaf siyasətinin davam etdirilməsi, əmək bazarının tənzimlənməsi sahəsində institusional strukturun təkmilləşdirilməsi və aktiv məşğulluq tədbirlərinin əhatə dairəsinin genişləndirilməsi əsas vəzifələr sırasındadır.

Sözügedən vəzifələrin icrasını təmin etmək məqsədilə dövlət başçısının fərman və sərəncamları ilə bir sıra tapşırıqlar müəyyənləşdirilmiş, həmin tapşırıqların icrası olaraq işğaldan azad edilmiş ərazilərdə işləyəcək mütəxəssislər, həmçinin işəgötürənlər üçün

güzəşt və imtiyazların müəyyənləşdirilməsi ilə bağlı qanunvericiliyə bir sıra dəyişikliklər edilərək təsdiqlənmişdir.

Belə ki, "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 10 dekabr tarixli 3037 nömrəli Sərəncamının icrası çərçivəsində aşağıdakı qanunvericilik akt-la-rına dəyişikliklər edilmişdir:

"Azərbaycan Respublikasının Əmək Məcəlləsində dəyi-şiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 09 dekabr tarixli 684-VIQD nömrəli Qanunu qüvvəyə minmişdir. Qanunda müasir bilik və bacarıqlara malik mütəxəssislərin işğaldan azad edilmiş ərazilərə cəlb edilməsinin stimullaşdırılması məqsədilə işğaldan azad edilmiş ərazilərdə işləyən mütəxəssis anlayışı verilmiş, sözügedən ərazilərdə işləyənlərin əməkhaqlarına əlavənin ödənilməsi, həmçinin onlara 5 gün əlavə ödənişli əmək məzuniyyətinin verilməsi ilə bağlı müddəalar öz əksini tapmışdır.

Sözügedən dəyişikliyin icrası olaraq, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2002-ci il 22 avqust tarixli 137 nömrəli qərarına dəyişiklik edilərək Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində işləyən mütəxəssislərin tarif (vəzifə) maaşlarına tətbiq edilən artımın (əmsalın) minimum miqdarı 1,2 məbləğində müəyyən edilmişdir.

2022-ci il 09 dekabr tarixli 683-VIQD nömrəli Qanunla təsdiq edilmiş "Sosial müavinətlər haqqında" Qanuna dəyişiklikdə işğaldan azad olunmuş ərazilərdə daimi işləməyə gedən şəxslərə (mütəxəssislərə) birdəfəlik müavinətin ödənilməsi (maddi-məişət şəraitinin yaxşılaşdırılması) ilə bağlı müddəalar öz əksini tapmışdır. Bunun üçün şərtlər müəyyənləşdirilmiş (işəgötürənin qeydiyyatı işğaldan azad olunmuş ərazilərdə olmalıdır; iş yeri qeydiyyatı işğaldan azad olunmuş ərazilərdə olmalıdır; işçinin qeydiyyatı işğaldan azad olunmuş ərazilərdə olmalıdır; əmək müqaviləsinin

müddəti ən azı 1 (bir) il olmalıdır) və vəsaitin məbləği birdəfəlik ödəmə olaraq 600 manat məbləğində müəyyən edilmişdir.

Həmçinin, işəgötürənlər tərəfindən ödənilmiş sosial sığorta haqlarının subsidiya şəklində dövlət büdcəsindən geri qaytarılmasını nəzərdə tutan dəyişiklikləri özündə əks etdirən qanun layihəsi hazırlanaraq təsdiq edilmişdir.

Bununla yanaşı, "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində 2024-2026-cı illərdə əhalinin məşğulluq imkanlarının artırılmasına dair Tədbirlər Planı" Nazirlər Kabinetinin 13 dekabr 2023-cü il tarixli 942s nömrəli Sərəncamı ilə təsdiq edilmişdir.

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məşğulluğun və məskunlaşmanın əlaqələndirilmiş şəkildə həyata keçirilməsini təmin etmək məqsədilə Azərbaycan Respublikasının Prezidentinin 2020-ci il tarixli 24 noyabr tarixli 2303 nömrəli Sərəncamı ilə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli ilə bağlı Əlaqələndirmə Qərargahı yaradılmış, Əlaqələndirmə Qərargahının Qərarına əsasən dövlət sektoru üzrə işəgötürənlərə (sifarişçisi olduqları layihələr üzrə podratçı və subpodratçı şirkətlər də daxil olmaqla) ərazidə yaratdıqları iş yerlərində orada məskunlaşan şəxslərin məşğulluqda xüsusi çəkisinin 2025-ci ildə 70 faiz, 2026-cı ildə isə 90 faizdən az olmaması ilə bağlı tapşırıq verilmişdir. Bununla bağlı əlaqəli şəkildə fəaliyyətlər davam etdirilir.

Böyük Qayıdış proqramının icrası çərçivəsində aparılan genişmiqyaslı işlərin bir istiqaməti də işğaldan azad olunmuş ərazilərimizə köçürülən sakinlərin məşğulluğunun təmin olunmasıdır. Bu məqsədlə, ərazilərə köçürülmüş şəxslərin aktiv məşğulluq tədbirləri ilə əhatə olunması, o cümlədən məskunlaşmış və məskunlaşması nəzərdə tutulan şəxslərin peşə hazırlığına cəlb edilməsi, özünüməş-

ğulluğunun təmin edilməsi sahəsində müvafiq tədbirlər həyata keçirilir.

19 dekabr 2024-cü il tarixinə olan məlumata əsasən, ümumilikdə 4 minədək şəxsin məşğulluğu təmin edilmiş, 125 sakin işəgötürənlərlə birgə təşkil olunan peşə hazırlığı kurslarına cəlb edilmiş, doğma yurdlarına qayıdan şəxslərdən 145 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfatlar yaradılmışdır.

Bununla yanaşı, hazırda işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən şirkətlər vakansiyalar haqqında məlumatları Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Dövlət Məşğulluq Agentliyinin altsistemində yerləşdirir ki, vətəndaşlar hətta köçdən əvvəl belə bu bölgələrdə yaradılan iş yerləri haqqında məlumatları (o cümlədən iş saatları, tələb olunan peşə bacarıqları, əməkhaqqı və s.) elektron sistem üzərindən öyrənə və bu işlərə cəlb olunmaq üçün müraciət edə bilərlər.

## Ədəbiyyat


1. https://president.az/az/articles/view/50474
2. https://e-qanun.az/framework/52757
3. https://e-qanun.az/framework/48628
4. https://e-qanun.az/framework/53060
5. https://e-qanun.az/framework/1644
6. https://e-qanun.az/framework/53025
7. https://e-qanun.az/framework/46327
8. https://www.dma.gov.az/media/xeberler/4-minedek-sexsin-mesgullugu-temin-edilib
9. https://dma.gov.az/layiheler/qarabagda-is-imkanlari

# NAXÇIVAN MUXTAR RESPUBLİKASINDA TƏHSİLİN KEYFİYYƏT GÖSTƏRİCİLƏRİ

**Aygün Babayeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: aygunbabayeva500@gmail.com

Keyfiyyətin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər nəticəsində 2024-cü ildə ali təhsil müəssisələrinə tələbə qəbulunun keyfiyyət göstəriciləri daha da yüksəlmişdir.

2023-2024-cü tədris ilində Naxçıvan Muxtar Respublikasında 4569 şagird ümumi orta təhsil səviyyəsini, 3500 şagird tam orta təhsil səviyyəsini başa vurub. Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş nişanla təltif olunma qaydasına əsasən təhsili xüsusi nailiyyətlərlə başa vuran 8 şagird qızıl, 1 şagird gümüş nişana, 256 şagird isə fərqlənmə attestatına layiq görülüb. Tam orta təhsil səviyyəsi üzrə fərqlənmə attestatına layiq görülən şagird sayı ötən illə müqayisədə 3 dəfə çox olub. Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsində 327 məzun 500-700, o cümlədən 222 nəfər 500-600, 78 məzun 600-650, 27 şagird isə 650-700 intervalında bal toplayıb. Ötən illə müqayisədə yüksək nəticə göstərən məzunların sayı 67 faiz artıb. Bu da muxtar respublikada son 5 ildə əldə olunan ən yüksək göstəricidir.

Ali təhsil müəssisələrinə tələbə qəbulu müsabiqəsinin ixtisas seçiminin birinci mərhələsində muxtar respublika üzrə ümumilikdə 1835 məzun ali təhsil müəssisələrinə qəbul olunub. Onların 946-sı ixtisas seçimi zamanı Naxçıvan Dövlət Universiteti, 163-ü Naxçıvan Müəllimlər İnstitutu, 32-si isə Qarabağ Universitetini seçib.

2024-cü il şagird nailiyyətləri baxımından Naxçıvan təhsili üçün ən uğurlu illərdən biridir.

Dövlət İmtahan Mərkəzi tərəfindən tam orta təhsil səviyyəsi üzrə keçirilmiş buraxılış imtahanının nəticələrinə əsasən, imtahan iştirakçıları arasında Naxçıvan Muxtar Respublikasının ümumtəhsil məktəblərindən 4 şagird 300 bal toplamaqla ən yüksək nəticəni göstərmişdir. Bölgələr arasında da muxtar respublikanın ümumtəhsil məktəbləri ən yüksək göstəricilər baxımından ikinci yerdə qərarlaşıbdır. 292 şagirdin 250- 300 bal intervalında nəticə göstərməsi şagirdlərin yüksək hazırlıq səviyyəsini təsdiqləyir. Həmçinin 2023-2024-cü tədris ilində keçirilən ümumi orta təhsil səviyyəsi üzrə də buraxılış imtahanlarında 5 şagirdimiz 300 bal toplamaqla maksimum nəticəni əldə etmişdir.

2023-2024-cü tədris ilində 8 şagird buraxılış imtahanlarında 300 bal toplamaqla ən yüksək nəticəni göstərib. 600-700 bal intervalında nəticə əldə edən məzun sayında da əhəmiyyətli dərəcədə artım olub. 2022-2023-cü tədris ilində bu nəticəni göstərən məzunların sayı 42 olmuşdursa, 2023-2024-cü tədris ilində isə bu say 104 nəfərə yüksəlib. Məhz bu göstəricilər ötən tədris ili ilə müqayisədə 2,5 dəfə çoxdur.

Naxçıvan şəhərinin və Şahbuz rayonunun ümumtəhsil məktəblərinin şagirdləri 2023-2024-cü tədris ilinin buraxılış imtahanlarında ölkə üzrə yüksək nəticə göstərib.

IX siniflərdə ölkə üzrə ən yüksək nəticəni Naxçıvan şəhərinin şagirdləri göstərib (141.16).

İlk beşliyin növbəti sıralarında isə Sumqayıt şəhərlərinin (138.83), Şahbuz (136.57), Qubadlı (132.05) rayonlarının və Bakı şəhərinin (127.75) şagirdləri qərarlaşıb.

XI siniflər üzrə buraxılış imtahanında isə ilk beşliyin ikincisi Naxçıvan şəhərinin (157.36) məktəbliləri olub.

Təhsilin inkişafı üzrə Dövlət Strategiyasına və ölkəmizin inkişaf konsepsiyasına uyğun olaraq növbəti illərdə Naxçıvan təhsili keyfiyyət göstəricilərinə, əhatəliliyinə və rəqabətqabiliyyətliliyinə görə aparıcı təhsil sistemlərindən birinə çevriləcəkdir.

**Ədəbiyyat**

1. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 19 iyun 2009-cu il
2. "Ümumi təhsili xüsusi nailiyyətlərlə başa vuran məzunların qızıl və ya gümüş nişanla təltif olunma Qaydası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı, 14 yanvar 2010-cu il
3. Nuhcixan.az/news/elm-tehsil/121394

# İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ MODELLƏRİ

**Nuray Babayeva[1], Davud Həşimov[2]**

*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: babayevanuray777@gmail.com

## Giriş

İnformasiya təhlükəsizliyi modelləri-məlumatların kim tərəfindən, nə zaman, hansı şərtlərlə və necə əldə edilə biləcəyini müəyyən edən formal qayda və prinsiplər toplusudur. Bu modellər yalnız texniki baxımdan deyil, eyni zamanda insan faktoru, sosial münasibətlər və hüquqi tənzimləmələr kimi qeyri-texniki amilləri də nəzərə almaqdadır.

Bu tezisin məqsədi-informasiya təhlükəsizliyi modellərinin elmi əsaslarını araşdırmaq, ənənəvi və müasir modelləri müqayisəli şəkildə təhlil etmək və onların informasiya sistemlərində tətbiq imkanlarını qiymətləndirməkdir. Tədqiqatda həm nəzəri yanaşmalar, həm də real tətbiq nümunələri əsasında modellərin üstünlükləri, çatışmazlıqları və gələcək inkişaf istiqamətləri müəyyən edilir.

## Ənənəvi təhlükəsizlik modelləri

*Bell-LaPadula modeli-* ABŞ Müdafiə Nazirliyinin çoxsəviyyəli təhlükəsizlik siyasətini rəsmi şəkildə modelləşdirmək üçün

yaradılmış və əsasən məxfilik prinsipi üzərində qurulmuşdur. Model üç əsas prinsipə əsaslanır:

Sadə təhlükəsizlik xüsusiyyəti (Simple Security Property)- Bu xüsusiyyətə əsasən, daha aşağı məxfilik səviyyəsinə malik olan subyektin daha yüksək məxfilik səviyyəsində olan obyektə oxuma hüququ yoxdur. Bu prinsip belə ifadə olunur:

No read up (NRU) – aşağı səviyyəli subyektlər yuxarı səviyyəli məlumatı oxuya bilməz;

Ulduz təhlükəsizlik xüsusiyyəti (*-Property, Star Property)- Bu xüsusiyyətə əsasən, daha yüksək məxfilik səviyyəsində olan subyektin, daha aşağı səviyyəli obyektə yazma hüququ yoxdur. Bu prinsip aşağıdakı kimi ifadə olunur:

No write down (NWD) yuxarı səviyyəli subyektlər aşağı səviyyəli məlumatlara yaza bilməz;

İxtiyari giriş nəzarəti – Bu xüsusiyyət məlumatlara girişin ixtiyari idarə edilməsini təmin edir və bu məqsədlə giriş matrisindən (access matrix) istifadə olunur. Yəni, istifadəçilərin hansı resurslara hansı növ çıxış hüququna malik olduğunu müəyyənləşdirən bir nəzarət mexanizmi qurulur.

*Biba modeli-* Bell-LaPadula modelinə əks olaraq, məlumatların bütövlüyünün qorunmasına fokuslanır. Model üç əsas qaydaya əsaslanır:

Sadə Dürüstlük Mülkiyyəti: Daha aşağı bütövlük səviyyəsində olan subyektlərin daha yüksək bütövlük səviyyəsində obyektləri dəyişdirə və ya yaza bilməməsini təmin edir. Bu, etibarlılığı daha az olan qurumlar tərəfindən yüksək bütöv məlumatların korlanmasının qarşısını almaq üçün çox vacibdir.

*(Ulduz) Dürüstlük Mülkiyyəti: Daha yüksək bütövlük səviyyələrində olan subyektlərin daha aşağı bütövlük səviyyələrində obyektləri oxumasının qarşısını alır, daha az etibarlı mənbələrə

məruz qalmaqla daha yüksək bütövlüklü məlumatların keyfiyyətini pozmaq riskindən qoruyur.

Çağırış Mülkiyyəti: Subyektlərin əməliyyatları yerinə yetirməsini və ya subyektin özündən daha yüksək bütövlük səviyyələrində obyektlərə daxil olmasını məhdudlaşdırır. Bu nəzarət sistem daxilində həyata keçirilən hərəkətlərin subyektin etibarlılığını aşaraq məlumatların bütövlüyünü poza bilməməsini təmin edir.

*Clark-Wilson modeli* - Clark-Wilson Modeli məlumatların bütövlüyünü və məxfiliyini təmin etmək məqsədi daşıyan kompüter təhlükəsizliyi modelidir. O, ardıcıl və təhlükəsiz mühitin qorunması, icazəsiz giriş və dəyişikliklərdən qorunmaq üçün çərçivə təmin edir. Yaxşı formalaşmış əməliyyatların istifadəsi, vəzifələrin ayrılması, girişə nəzarət mexanizmləri və yoxlanılabilirlik vasitəsilə model möhkəm təhlükəsizlik vəziyyəti yaradır.

Ticarət və maliyyə tətbiqləri üçün hazırlanmış bu model Yaxşı formalaşmış əməliyyatlar (yalnız təsdiq edilmiş əməliyyatlar icra olunur), vəzifələrin ayrılması (bir şəxsin tam nəzarəti olmamalıdır), girişə nəzarət və audit (istifadəçi fəaliyyətləri izlənir, qeydə alınır) prinsiplərinə əsaslanır.

*Harrison-Ruzzo-Ullman (HRU) modeli* -Bu model səlahiyyətlərin idarə olunmasını riyazi olaraq təsvir edir. Əsas komponentləri subyektlər, obyektlər və hüquqlar və  giriş matrisidir (hüquqlar bu matrisdə göstərilir), hüquqların verilməsi, silinməsi və dəyişdirilməsi əməliyyatlarıdır. Modelin nəzəri üstünlüyü olsa da, praktik tətbiqi çətindir və "undecidable" (qərarsız) məsələlərə yol açır.

### Müasir təhlükəsizlik modelləri

*Parkerian Hexad modeli-* Parker modeli CIA modelini (Confidentiality, Integrity, Availability) genişləndirərək 3 yeni komponent – Possession, Authenticity, və Utility əlavə edir: Məxfilik və nəzarət, bütövlük və autentiklik, əlçatanlıq və istifadəyə

yararlılıq. Bu model insan faktorunu və texnologiyadan kənar təhdidləri də nəzərə alır.

*Zero Trust modeli-* Bu model “heç kimə avtomatik güvənilməməlidir” prinsipinə əsaslanır. Əsas xüsusiyyətləri davamlı autentifikasiya və identifikasiya, mikro-seqmentasiya və real vaxt monitorinq ən az imtiyazlı giriş və riskə əsaslanan idarəetmə, uzaqdan iş, bulud infrastrukturu və dövlət qurumları üçün ideal təhlükəsizlik modelidir.

*ABAC (Attribute-Based Access Control)-*İcazələr istifadəçinin atributlarına əsasən verilir. Atributlara misal: rol, cihaz tipi, coğrafi mövqe, giriş vaxtı və s. Bu modelin üstünlüklərinə dinamik və çevik giriş siyasətləri, IoT və bulud systemlərində effektiv tətbiqi nümunə göstərə bilərik, çatışmazlığı isə çoxlu atributların idarə olunması səbəbilə mürəkkəb ola bilməsidir.

*RBAC və ReBAC modelləri* -RBAC (Role-Based Access Control) və ReBAC (Relationship-Based Access Control) – hər ikisi giriş nəzarət sistemləridir, yəni hansı istifadəçinin hansı resursa necə çıxış əldə edə biləcəyini müəyyənləşdirən təhlükəsizlik modelləridir, lakin bu iki model arasında məntiq, tətbiq sahəsi və çeviklik baxımından mühüm fərqlər var.

RBAC (Role-Based Access Control) – RBAC modelində istifadəçilərə onların sahib olduqları rola görə icazələr verilir. Rol – istifadəçinin təşkilatdakı vəzifəsini və funksiyasını əks etdirir. Sadə strukturlar üçün uyğundur.

ReBAC (Relationship-Based Access Control) – ReBAC modelində giriş icazəsi istifadəçilər arasındakı və ya istifadəçi ilə obyekt arasındakı münasibətlərə əsasən verilir. Bu model sosial şəbəkələr, təhsil platformaları, ailə üzvləri, hüquqi əlaqələr və s. kimi mürəkkəb kontekstlərdə çox faydalıdır.

Süni İntellektə əsaslanan modellər də müasir informasiya təhlükəsizlik modellərindəndir, Bu modellərin üstünlükləri anomaliyaların aşkarlanması, təhlükələrin proqnozlaşdırılması, avtomatlaşdırılmış təhlükəsizlik qərarlarının qəbul olunmasıdır. Bu modellər IDS/IPS sistemləri, SCADA və sənaye nəzarət systemləri, botlara qarşı müdafiə kimi sahələrdə istifadə olunur.

## Nəticə

Bu tədqiqat işi çərçivəsində informasiya təhlükəsizliyi modellərinin elmi əsasları sistemli şəkildə araşdırılmış, ənənəvi və müasir modellər müqayisəli təhlil olunmuş və onların informasiya systemlərində tətbiq imkanları qiymətləndirilmişdir. Analiz göstərdi ki, informasiya təhlükəsizliyinin təmin olunması üçün modellər sadəcə nəzəri yanaşmalar deyil, praktiki təhlükəsizlik siyasətlərinin qurulmasında və idarə olunmasında mühüm rol oynayan çərçivələrdir. Araşdırma nəticəsində belə qənaətə gəlinmişdir ki, informasiya təhlükəsizliyi modellərinin tək-tək tətbiqi deyil, hibrid və inteqrasiya olunmuş yanaşmaların seçilməsi, həm təhlükə səviyyəsinin dəyərləndirilməsi, həm də sistemlərin funksional tələblərinə uyğunlaşdırılması baxımından daha effektiv nəticələr verir. Xüsusilə dövlət və kritik infrastrukturlar üçün model əsaslı təhlükəsizlik strategiyalarının optimal kombinasiyası təhlükə risklərinin azaldılmasında və təhlükəsizlik idarəetməsinin effektivliyinin artırılmasında həlledici rol oynayır.

Beləliklə, informasiya təhlükəsizliyi modellərinin düzgün seçilməsi və uyğun mühitlərdə tətbiqi, təşkilatların rəqəmsal davamlılığını təmin etməklə yanaşı, strateji və hüquqi risklərin də minimallaşdırılmasına töhfə verir. Gələcək tədqiqatlarda bu modellərin süni intellekt, kvant texnologiyaları və beynəlxalq kibertəhlükəsizlik standartları ilə inteqrasiyası xüsusi diqqət tələb edir.

**Ədəbiyyat**

1. https://www.crowdstrike.com/en-us/cybersecurity-101/zero-trust-security/
2. https://www.paloaltonetworks.com/cyberpedia/what-is-a-zero-trust-architecture
3. https://www.vpnunlimited.com/help/cybersecurity/biba-model?srsltid=AfmBOorzklOQcNAhQ0QrkJuSm80RWo8yp5XFSPVcq8OB-Jzc6l_U23f5
4. https://medium.com/@lydia.cao26/security-policies-the-bell-lapadula-model-and-the-biba-model-24ddb500c8a1

# HEYDƏR ƏLİYEV İRSİ ÇƏRÇİVƏSİNDƏ BEYNƏLXALQ TƏHLÜKƏSİZLİK ÇAĞIRIŞLARINA MİLLİ CAVAB STRATEGİYALARI

**Ünsiyyə Bağırova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: unsiyye.bagirova@icloud.com

***Açar sözlər:*** kibertəhlükələr, diplomatik balans, milli təhlükəsizlik strategiyası, təhdidlər.

Müasir beynəlxalq münasibətlər sistemində təhlükəsizlik anlayışı iqtisadi, informasiya, enerji, kiberməkanda təhlükəsizlik və sosial-siyasi sabitlik kimi çoxşaxəli istiqamətləri əhatə edən kompleks yanaşmaya çevrilmişdir.

Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışı Azərbaycanın müstəqilliyini qorumaq və dövlətçiliyi bərpa etmək baxımından tarixi dönüş nöqtəsi olmuşdur. Həmin dövrdə ölkədaxili siyasi qarşıdurmalar, iqtisadi tənəzzül, regional separatizm və bey-

nəlxalq təcridlə üzləşmişdi. Qarabağ münaqişəsinin ən gərgin mərhələsində əldə edilən atəşkəs, dövlətin dağılmasının qarşısını almış və gələcək təhlükəsizlik strategiyası üçün mühüm imkanlar yaratmışdır. Onun həyata keçirdiyi "neft diplomatiyası" və 1994-cü ildə imzalanan "Əsrin müqaviləsi" Azərbaycanın beynəlxalq təhlükəsizlik sistemlərinə inteqrasiyasını təmin edən mühüm addım idi. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum kimi enerji layıhələri Azərbaycanın regionda sabit və etibarlı tərəfdaş kimi mövqeyini gücləndirmişdir [4].

Müasir dövrdə bu irs əsasında formalaşan təhlükəsizlik yanaşması Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni çağırışlara uyğun şəkildə inkişaf etdirilmişdir. 2020-ci il Vətən Müharibəsi Azərbaycanın hərbi, diplomatik və informasiya sahələrində uğurla qurduğu təhlükəsizlik strategiyasının parlaq nümunəsidir. Müharibə zamanı informasiya müharibəsi sahəsində əldə edilən üstünlüklər, kiberməkanda fəallıq və xarici təbliğata çevik cavab Azərbaycanın müasir təhlükəsizlik konsepsiyasının gücünü göstərmişdir [1, s. 58]

Post-müharibə dövründə Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa və reinteqrasiya prosesi təhlükəsizlik məsələlərini daha geniş, sosial, humanitar və ekoloji baxımdan da əhatə etmişdir. İnfrastrukturun yenilənməsi, minalardan təmizləmə, əhalinin geri qayıdışı və regionun davamlı inkişafı Azərbaycanın təhlükəsizlik siyasətini həm də quruculuq və inkişaf platforması kimi təqdim edir. Bu, Heydər Əliyevin “təhlükəsizlik, sabitlik və inkişafla birgə nəzərdən keçirilməlidir” prinsipi ilə üst-üstə düşür [2, s. 212].

Bundan əlavə, Azərbaycanın balanslı xarici siyasəti beynəlxalq təhlükəsizlik mexanizmlərində fəal iştirakı ilə də özünü göstərir. Türkiyə ilə Şuşa Bəyannaməsi çərçivəsində strateji tərəfdaşlığın gücləndirilməsi, Rusiya ilə koordinasiyalı münasibətlər, NATO və BMT ilə əməkdaşlıq Azərbaycanın çoxşaxəli təhlükə-

sizlik siyasətinin sübutudur. Kibertəhlükələrə qarşı mübarizə, informasiya sistemlərinin qorunması və rəqəmsal təhlükəsizlik sahəsində görülən işlər, ölkənin gələcək risklərə qarşı daha hazırlıqlı olmasını təmin edir. Bütün bu faktlar göstərir ki, Heydər Əliyev irsi bu gün də beynəlxalq təhlükəsizlik çağırışlarına cavab verən strateji baza rolunu oynayır. Onun əsasını qoyduğu prinsiplər Azərbaycanın suveren, müstəqil və dayanıqlı bir dövlət olaraq qlobal təhlükəsizlik sistemində yerini möhkəmləndirir.

## Ədəbiyyat


1. Kəngərli İ. *Beynəlxalq hüquq və milli təhlükəsizlik* // Azərbaycan Hüquq Jurnalı. 2022, s. 56-68
2. Mustafayeva L. *Müasir dövrdə ümumbəşəri təhlükəsizlik çağırışları.* Tarix və onun problemləri, 2024. s. 210-214
3. https://akademiya.dtx.gov.az/az/kitabxana/ulu-onder-heyder-eliyevin-sanli-irsi-dovlet-tehlukesizliyinin-teminati-ucun-tukenmez-menbedir.html
4. https://geostrategiya.az/news.php?id=87


# MÜASİR TƏHSİL İDARƏÇİLİYİNDƏ TEXNOLOJİ İNNOVASİYALARIN ROLU


**Pərvanə Baxşiyeva**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*e-mail:Parvana.Baxshiyeva@edu.gov.az*



***Açar sözlər:*** elektron təhsil, təhsil idarəçiliyi, texnoloji innovasiyalar, rəqəmsal təhsil, təhsil texnologiyaları, intellektual idarəetmə, təhsil sistemində dəyişikliklər, innovativ tədris metodları.

Müasir təhsil idarəçiliyində texnoloji innovasiyalar, təhsil sahəsindəki ən mühüm dəyişikliklərdən biridir. Texnologiyanın sürətli inkişafı, təhsil müəssisələrində idarəetmə proseslərinin optimallaşdırılmasından tutmuş, tədris metodlarının yenilənməsinə qədər geniş bir sahəni əhatə edir. Təhsil sektoru, rəqəmsal inqilab və innovasiyalar vasitəsilə daha çevik, effektiv və fərdi yanaşmalar təqdim etməyə başlayıb. Bu dəyişikliklər, xüsusilə pandemiya dövründə daha da dərinləşdi və təhsilin onlayn və hibrid modellərinin tətbiqi, təhsil idarəçiliyində yeni yanaşmaların inkişafını sürətləndirdi. Texnoloji innovasiyalar, təhsil idarəçiliyini daha şəffaf, izlənilə bilən və nəticəyönlü hala gətirir. Məsələn, bulud texnologiyaları və rəqəmsal platformalar, müəllim və şagirdlər arasında əlaqəni asanlaşdırır, məlumatların daha sürətli və effektiv şəkildə mübadiləsini təmin edir. Texnoloji yeniliklər, təhsil sahəsində idarəetmə sistemlərinin inkişafına, məktəb və universitetlərdə qərar qəbuletmə proseslərinin daha sürətli və daha dəqiq olmasına şərait yaradır. Bu da təhsil keyfiyyətinin artırılmasında mühüm rol oynayır. Rəqəmsal texnologiyaların tətbiqi, həmçinin təhsil müəssisələrinin müasir dünya standartlarına uyğunlaşmasını təmin edir və onların beynəlxalq miqyasda rəqabət qabiliyyətini artırır. [2, s 112].

Təhsil idarəçiliyində texnoloji innovasiyaların tətbiqi, təhsil mühitini daha interaktiv və müasir hala gətirir. Rəqəmsal alətlər və platformalar həm müəllimlərə, həm də tələbələrə öyrənmə və tədris proseslərini daha çevik və şəxsi şəkildə təşkil etməyə imkan tanıyır. Bu alətlər vasitəsilə müəllimlər dərs materiallarını daha asan şəkildə hazırlaya, tələbələrin irəliləyişini izləyə və fərdi ehtiyaclarına uyğun öyrənmə planları tərtib edə bilərlər. İnternet və mobil texnologiyalar, təhsil sahəsindəki məlumatın yayıldığı sürəti və həcmini artıraraq, təhsilin qlobal miqyasda əlçatanlığını təmin edir. Xüsusilə, onlayn və hibrid təhsil modelləri, təhsil müəssisələrinə coğrafi və zaman məhdudiyyətlərini aşmaqla daha çox tələbəyə xidmət

göstərmə imkanları təqdim edir. Beləliklə, təhsil sisteminin bərabərsizlikləri və qeyri-bərabər imkanları azaldılır, hər bir tələbəyə öz ehtiyaclarına uyğun təhsil imkanı təqdim edilir. Texnoloji yeniliklər həm də təhsil mühitində müəllimlərin peşəkar inkişafına töhfə verir. Onlayn tədris kursları, vebinarlar və digər rəqəmsal öyrənmə resursları müəllimlərə öz bilik və bacarıqlarını yeniləmək və inkişaf etdirmək imkanı verir. Eyni zamanda, müəllimlərin təhsil idarəçiliyindəki qərar qəbuletmə proseslərində iştirak etmələri və müxtəlif məlumatlardan istifadə edərək daha düzgün qərarlar vermələri üçün rəqəmsal alətlərdən istifadə etmələri tövsiyə olunur. Bu, həmçinin təhsil sisteminin keyfiyyətinin artırılmasına və müəllimlərin fəaliyyətlərinin daha şəffaf və izlənə bilən olmasına kömək edir.[3, s 134].

Təhsil sektorunda texnologiyanın tətbiqi, tədris metodlarının və idarəetmə sistemlərinin çevikliyini artırmaqla yanaşı, təhsil mühitini daha fərdi və interaktiv hala gətirir.

Birincisi, texnoloji innovasiyalar təhsil idarəçiliyində məlumatların toplanması, saxlanması və analiz edilməsini asanlaşdırır. Bulud texnologiyaları, verilənlər bazaları və təhsil məlumat sistemləri vasitəsilə təhsil müəssisələri, tələbələrin performansını izləyərək onların inkişafını dəqiq şəkildə təhlil edə bilərlər. [4, s 98].

İkincisi, texnoloji innovasiyalar təhsil sahəsində fərdiləşdirilmiş tədris yanaşmalarının inkişafına imkan verir.

Üçüncüsü, texnologiyanın təhsil sahəsində tətbiqi, idarəetmə proseslərinin daha şəffaf və səmərəli olmasını təmin edir.

Dördüncüsü, texnoloji innovasiyalar təhsil mühitində sosial ədaləti və bərabərliyi təmin etməkdə də mühüm rol oynayır. İnklüziv təhsil yanaşmalarını dəstəkləyən rəqəmsal vasitələr, xüsusi ehtiyacı olan tələbələrin təhsilə cəlb olunmasına və onlara uyğun tədris materiallarının hazırlanmasına imkan verir.

**Ədəbiyyat**

1. Ağayeva, S. (2020). *Təhsil və texnologiya: İnnovasiyaların tətbiqi və inkişafı.* Bakı Dövlət Universiteti Nəşriyyatı.
2. Hüseynov, R., & Məmmədova, T. (2021). *Təhsildə rəqəmsal alətlər və metodlar.* Təhsil Nəşriyyatı. s. 112-130.
3. Mammadov, E., & Əliyev, K. (2022). *İnnovativ təhsil yanaşmaları və texnologiyalar.* Elm və Təhsil Jurnalı, 28(3), 134-145. s. 134-145.
4. Zeynally, A. (2021). *Təhsil idarəçiliyində rəqəmsal transformasiya.* Bakı: Təhsil İnstitutu. s. 98-115.
5. Huseynova, M., & Sadiqova, N. (2020). *Texnoloji innovasiyaların təhsil sistemində rolu.* Beynəlxalq Təhsil Tədqiqatları Jurnalı, 35(2), 22-38.

# AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏR SİYASƏTİNİN TƏŞKİLİ VƏ HƏSSAS KATEQORİYADAN OLAN VƏTƏNDAŞLARIN SOSİAL MÜDAFİƏSİNİN GÜCLƏNDİRİLMƏSİ MEXANİZMLƏRİ

**Elvin Balayev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: e.balaeff@gmail.com

Müasir müstəqil Azərbaycan Respublikasında bünövrəsi Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulan *"Gənclər siyasəti"* dövlət siyasətinin əsas istiqamətlərindən biri kimi hər zaman öz aktuallığını qoruyub saxlayır. Gənclər siyasətinin düzgün təşkili dövlətin və cəmiyyətin ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatının bütün sferalarının tərəqqisində, dayanıqlı inkişafın, sülhün və sabitliyin təmin olunmasında, gənclər

vasitəsilə beynəlxalq aləmdə ölkəmizin nüfüzunun artırılmasında, onun tarixinin və mədəni irsinin tanıdılmasında müstəsna əhəmiyyətə malikdir.

Gənclər siyasətinin ana xəttini gənclərin vətənpərvər ruhda yetişdirilməsi təşkil etmişdir ki, bu da 44 günlük müharibədə və 2023-cü ildə Qarabağ iqtisadi zonasında aparılan lokal xarakterli antiterror tədbirlərində qısa müddət ərzində qazanılan zəfərlərlə Azərbaycanı postsovet məkanında ərazisində etnik münaqişə olan respublikalar içərisində öz ərazi bütövlüyünü və suverenliyini təmin edən ilk və yeganə dövlətə çevirmişdir. Ümumilikdə Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi və təminində, dövlət suverenliyinin bərpasında iştirak edənlərin əksəriyyəti gənclərdən ibarət olmuş, on minlərlə Azərbaycan vətəndaşı gələcək nəsillərin azad və firavan yaşamı məqsədilə gənc yaşda şəhidlik zirvəsinə ucalmış və ya yaralanmışdır.

Bu tezisin yazılmasında əsas məqsəd gənclərin düzgün əxlaqi-mənəvi tərbiyələndirilməsi, sağlamlığı, rifahı və dinamik inkişafı üçün həyata keçirilən ardıcıl və məqsədyönlü tədbirlərin faydalarını, gələcəyə yönələn qlobal çağırışların əhəmiyyətini vurğulmaq, həssas kateqoriyadan olan vətəndaşlarımızın sosial müdafiəsinin gücləndirilməsi istiqamətində atılan addımlar, strateji icra mexanizmləri vasitəsilə bu gün əldə edilən nəticələrin xüsusi əhəmiyyətini göstərməkdir.

Gənclərin ordu quruculuğu, idman, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və digər sahələrin inkişafında, dövlət və yerli özünüidarəetmə orqanlarının işində bilavasitə fəal iştirakı və aktiv məşğulluq siyasətinə uyğun əmək bazarına inteqrasiya imkanları genişləndirilmiş, onların bu potensial imkanlarından istifadənin optimallaşdırılması ilə bağlı kompleks tədbirlər sistemi formalaşdırılmış, sosial problemlərinin həlli, rifahlarının yaxşılaşdırılması

məqsədilə fondlar təsis edilmiş, dövlət orqanları tabeliyində müvafiq struktur qurumlar, təhsil və təqaüd proqramları yaradılmışdır.

Həssas kateqoriyadan olan vətəndaşların hüquqlarının müdafiəsi, psixoloji və sosial durumlarının yaxşılaşdırılması hər zaman dövlətimizin prioritet istiqamətlərindən biri olmuşdur.

Şəhid ailəsi üzvlərinin və müharibə əlillərinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması, onlara müvafiq olaraq ömürlük Azərbaycan Respubliaksı Prezidentinin təqaüdünün, pensiya və müavinətlərin təyini, avtomobil təminatı, məşğulluq, tibbi müalicə, təhsil, vergi, dövlət rüsumu güzəştlərinin, ödənişsiz sanatoriya-kurort müalicəsi, reabilitasiya və psixoloji xidmətlərin təşkili sosial qaydalara əsaslanan dövlətimizin baza prisnipləri əsasında həyata keçirilir.

## Ədəbiyyat


1. "2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı – Strategiyadan irəli gələn vəzifələr barədə məlumat məqsədilə.
2. Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında Azərbaycan Respublikasının Qanunu – Şəhid ailələrinin sosial təminat hüquqlarının araşdırılması məqsədilə.
3. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin elektron saytı – Sosial xidmətlər və rəsmi məlumatların araşdırılması məqsədilə.

# AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA ƏRAZİ BÜTÖVLÜYÜ VƏ SUVERENLİK MƏSƏLƏLƏRİ

**Pərvin Bayramova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: muradzadepervin@gmail.com

Tarixdə elə şəxsiyyətlər olur ki, onların fəaliyyəti xalqın, dövlətin, hətta gələcək nəsillərin belə inkişaf yolunu müəyyən edir. Azərbaycan dövlətçiliyinin tarixində də məhz Heydər Əliyev belə şəxsiyyətlərdən olub və Ümummilli Liderlik zirvəsinə ucalıb. Azərbaycan tarixinin bütöv bir mərhələsi böyük dövlət xadimi Heydər Əliyevin adı ilə bilavasitə bağlıdır. Ulu öndər müasir, müstəqil Azərbaycanın banisidir, memarıdır. Ona görə memar ki, çox mürəkkəb və çətin bir dövrdə Heydər Əliyev tərəfindən Azərbaycanda hüquqi dövlət quruculuğu istiqamətində mühüm islahatlar həyata keçirildi və Ulu öndərin rəhbərliyi dövründə ölkəmiz əsrlərə bərabər inkişaf yolu keçdi. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə xaos hökm sürürdü. Bir tərəfdən ərazilərimizi itirmək, digər tərəfdən isə vətəndaş müharibəsi, daxildə parçalanmalar təhlükəsi ilə üz-üzə qalmışdıq. Ölkədə siyasi, iqtisadi, sosial sahələrdə böhran müşahidə olunurdu. Belə bir mürəkkəb dövrdə - Azərbaycanın müstəqilliyini itirmək təhlükəsi ilə üzləşdiyi bir vaxtda xalqın təkidli tələbi ilə ikinci dəfə hakimiyyətə gələn Heydər Əliyev öz müdrik siyasəti və tarixi uzaq görənliyi ilə milli dövlətçilik ideyasının həyata keçirilməsinə, müasir və müstəqil Azərbaycan dövlətinin qurulmasına nail oldu. Heydər Əliyevin adı Azərbaycan xalqının tarixinə milli dövlətçiliyin xilaskarı kimi daxil oldu. Ulu öndərin atdığı ən mühüm addımlardan biri də müstəqil Azərbaycan

Konstitusiyasının hazırlanması, hüquqi sferada köklü islahatların həyata keçirilməsi oldu. Ulu öndərin sözləri ilə desək, müstəqil Azərbaycanın ilk Konstitusiyasının hazırlanması çox böyük tarixi hadisə idi. Heydər Əliyev yeni Konstitusiya layihəsini hazırlayan Komissiyanın iclaslarının birində belə demişdi: "Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümum bəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik". Belə də oldu. 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi- referendum yolu ilə qəbul edilən 5 bölmə, 12 fəsil, 158 maddədən ibarət müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının preambula hissəsində dövlətimizin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumaq kimi ülvi məqsədlər yer aldı. Nəzərə alsaq ki, həmin dövrdə Azərbaycan torpaqlarının 20 faizi düşmən işğalı altında idi, məhz bundan sonra ölkəmiz beynəlxalq aləmin bərabərhüquqlu üzvü kimi mühüm təşkilatların platformalarında ölkəmizin ərazi bütövlüyü və suverenliyinin kobud şəkildə pozulması məsələsini beynəlxalq ictimaiyyətin gündəminə gətirdi. Yəni, bu gün Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini tam şəkildə bərpa etməsinin başlanğıcı məhz o dövrdə Ulu öndər tərəfindən qoyuldu.

Konstitusiyamızda öz əksini tapmış suverenlik və ərazi bütövlüyü ilə bağlı normalar Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuz tərəfindən 2020-ci ildə 44 günlük Vətən müharibəsi və 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilmiş lokal xarakterli antiterror əməliyyatları ilə bərpa edildi. Ordumuz cəmi 44 gün ərzində Ermənistanı kapitulyasiya aktı imzalamağa məcbur etdi. Beləliklə, təslimçilik aktına əsasən Ermənistan tərəfi Ağdam, Kəlbəcər və Laçını Azərbaycana təhvil verdi. Müharibədən sonra Azərbaycan dəfələrlə Ermənistana davamlı sülh üçün çağırışlar etsə də Ermənistan tərəfi hər dəfə

danışıqlardan boyun qaçırır, bununla kifayətlənməyərək suveren ərazilərimizdə silahlı təxribatlarını davam etdirirdi. Təəssüf ki, həmin dövrdə ərazilərimizdə separatçı ünsürlər hələ də qalmaqda idi. Ermənistan tərəfi Birgə Bəyanata əsasən ərazilərimizdəki qeyri-qanuni silahlı birləşmələrini çıxarmalı olsa da, bu vədinə əməl etmirdi. Həmin dövrdə ərazilərimizdə təxminən 10 mindən artıq qeyri-qanuni silahlı birləşmələr mövcud idi. Hətta, Ermənistandan Azərbaycan ərazisində olan qeyri-qanuni erməni silahlı dəstələri üçün canlı qüvvə, silah-sursat, mina, eləcə də digər hərbi təyinatlı vasitələrin daşınması prosesi də davam edirdi. Bunun qarşısını almaq üçün 2023-cü ilin aprelin 23-də Dövlət Sərhəd Xidmətinin bölmələri tərəfindən Azərbaycanın suveren ərazilərində, Ermənistan ilə sərhəddə, Laçın–Xankəndi yolunun başlanğıcında Laçın Nəzarət-Buraxılış Məntəqəsinin qurulduğu bəyan edildi. Bu addım mahiyyət etibarilə Azərbaycanın suverenliyinin təmin olunmasına gedən yolda atılmış düşünülmüş və mühüm addım idi. Rəsmi Bakının bu addımından sonra ölkəmiz beynəlxalq arenada Ermənistanın havadarları tərəfindən təzyiqlərə, diplomatik hücumlara məruz qaldı. Siyasi prosesləri yaxından izləyənlər yaxşı bilir ki, Vətən müharibəsinin, Laçın yolu uğrunda diplomatik mücadilənin nəticələrini dünyaya qəbul etdirmək bizə asan başa gəlmədi.

Azərbaycan işğala məruz qalan tərəf olsa da, sülhün əldə olunması, Qarabağda yaşayan ermənilərlə danışıqların aparılması və onların ölkəmizə reinteqrasiyası üçün əlindən gələni etdi. Təəssüf ki, bu cəhdlər nəticə vermədi. Xankəndidəki separatçı rejim müstəqillik iddialarından əl çəkmir, özlərinin oyuncaq “prezident”lərini seçir, qondarma “parlament”ləri adından Azərbaycan dövlətinin əleyhinə bəyanatlar verirdilər.

Sentyabrın 19-da Azərbaycanın Qarabağ bölgəsindəki erməni silahlı qüvvələrinin bir sıra genişmiqyaslı hərbi təxribatlar və terror hücumları törətməsinə cavab olaraq, Azərbaycan Respublikasının

Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə bölgədə lokal xarakterli antiterror tədbirlərinə başlanıldı. Cəmi 24 saata yaxın bir müddət ərzində separatçıları ağ bayraq qaldırmağa məcbur etdik. Nəticədə, Azərbaycan ərazisində qanunsuz yerləşən Ermənistan ordusunun qalıqları tam şəkildə tərksilah edilərək, ölkə ərazisini tərk etdi. Qarabağda qeyri-qanuni xunta rejimi ləğv edildi, separatçıların əsas rəhbərləri həbs edildi və Azərbaycan öz ərazi bütövlüyünü və dövlət suverenliyini tam şəkildə bərpa etdi. Əlbəttə ki, həmin dövrdə Azərbaycana qarşı beynəlxalq təzyiqlər gücləndi. Lakin fakt budur ki, Prezident İlham Əliyev antiterror əməliyyatlarının nəticələrini dünyaya Azərbaycanın haqqından, hüquqlarından və ədalətdən doğan reallıq olduğunu qəbul etdirdi. Beləliklə, biz bir vaxtlar həlle-dilməz sayılan keçmiş "Dağlıq Qarabağ münaqişəsi”ni öz gücümüz hesabına həll etdik. Konstitusiyamızın 11-ci maddəsində təsbit olunmuş Azərbaycan Respublikasının ərazisinin vahidliyini, toxunulmazlığını və bölünməzliyini bir daha dünyaya nümayiş etdirdik. 2024-cü il sentyabrın 20-sindən etibarən hər il Azərbaycanın Dövlət suverenliyi günü kimi qeyd olunur. Bu gün Azərbaycan müstəqil siyasət yürütməyə qadir, dayanıqlı iqtisadi sistemə malik, müasir, sürətli inkişaf yolu ilə inamla irəliləyən, beynəlxalq birliyin tamhüquqlu üzvü olan nüfuzlu dövlətdir. Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş olmaqla qlobal xarakterli strateji layihələrin nəinki iştirakçısı, eyni zamanda təşəbbüskarı qismində çıxış edir.

Beləliklə, Ulu Öndərin şəxsiyyətinin əzəməti, gördüyü işlərin vacibliyi və böyüklüyü zaman keçdikcə daha da dərindən dərk edilir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb.

**Ədəbiyyat**

1. https://azertag.az/xeber/azerbaycan_prezidenti_heyder_eliyevin_xatiresine_en_boyuk_hormetimiz_onun_yoluna_sedaqetimizdir-2432216
2. https://e-qanun.az/framework/897
3. https://www.mfa.gov.az/az/news/no51523
4. https://dsx.gov.az/news/1512
5. https://constcourt.gov.az/ru/details/1596

# CƏNUBİ QAFQAZ REGİONUNUN MÜASİR İNKİŞAF MEYİLLƏRİ

**Ramilə Bayramova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail:ramila.bayramova043@gmail.com

**Xülasə**

Tədqiqatda Cənubi Qafqaz regionunun müasir inkişaf meyilləri və Azərbaycanın davamlı inkişafa yönəlmiş strategiyaları təhlil olunur. Azərbaycan Respublikasında "Milli Prioritetlər 2030" sənədi dayanıqlı inkişafın əsas istiqamətlərini müəyyən edir.

***Açar sözlər:*** Cənubi Qafqaz, Azərbaycan, Milli Prioritetlər 2030, regional inkişaf, yaşıl enerji, sosial rifah, ekoloji balans

Müasir dövrdə davamlı inkişaf anlayışı regionların sosial-iqtisadi strategiyalarının formalaşmasında əsas istiqamətlərdən birinə çevrilmişdir. Cənubi Qafqaz regionu Azərbaycan, Gürcüstan və Ermənistanı əhatə etməklə geosiyasi mövqeyi, enerji ehtiyatları və tranzit imkanları ilə beynəlxalq əhəmiyyət kəsb edir [2]. Bu region Avropa ilə Asiya arasında yerləşərək mühüm enerji və nəqliyyat

dəhlizlərinin kəsişməsində dayanır. Bakı-Tbilisi-Ceyhan neft kəməri, Bakı-Tbilisi-Qars dəmir yolu və TANAP-TAP kimi qaz layihələri regionun enerji təhlükəsizliyindəki rolunu artırır. Regionda aparılan infrastruktur layihələri – yeni yollar, dəmir yolları və hava limanları – xüsusilə Azərbaycanın təşəbbüsü ilə Zəngəzur dəhlizinin inkişaf etdirilməsi regional iqtisadi inteqrasiyanı gücləndirir. Həmçinin rəqəmsallaşma, texnologiyaların tətbiqi və "ağıllı" şəhər və kənd layıhələri Azərbaycanın yenilənmiş inkişaf modelinin əsas komponentləridir[ 8].

Azərbaycan bu çərçivədə "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" [1] sənədinə əsaslanaraq davamlı inkişaf siyasətini həyata keçirir. Beş əsas istiqamət üzrə: rəqabətqabiliyyətli iqtisadiyyat, sosial ədalət, rəqəmsal transformasiya, ekoloji davamlılıq və şəffaf idarəetmə-ölkənin uzunmüddətli inkişafı hədəflənmişdir. Dünya Bankının "Doing Business" hesabatında Gürcüstan 7-ci yer, Azərbaycan 34-cü yer, Ermənistan 47-ci yerdə qərarlaşıblar [3]. Qarabağ və Şərqi Zəngəzur bölgələrinin "yaşıl enerji zonası" elan olunması, alternativ enerji layihələrinin reallaşdırılması və rəqəmsal idarəetmənin genişlənməsi bu strategiyanın real təzahürləridir. Eyni zamanda sosial rifahın yüksəldilməsi, yoxsulluğun azaldılması, qeyri-neft sektorunun inkişafı və dövlət xidmətlərinin elektronlaşdırılması istiqamətində mühüm nəticələr gözlənilir. Azərbaycan Respublikası Prezidenti 2025-ci il 16 yanvar tarixdə "Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası" qəbul etmişdir [6]

Nəticə etibarilə, Azərbaycanın inkişaf siyasəti yalnız daxili iqtisadi sabitlik və rifah deyil, həm də regional əməkdaşlıq və sülhə töhfə verən sistemli və inklüziv yanaşma ilə fərqlənir. Bu kurs Azərbaycanın Cənubi Qafqazda strateji rolunu möhkəmləndirir və regionun ümumi inkişaf meyillərinə yön verən nümunəvi model ki-mi çıxış edir.

Aşağıdakı nəticə göstəriciləri bu siyasətin təsirlərini və gözlənilən nailiyyətləri əks etdirir [1]:

- 2030-cu ilə qədər qeyri-neft sektorunun ÜDM-də payının **60%-ə** çatdırılması hədəflənir.
- Əhalinin rifah səviyyəsinin yüksəldilməsi məqsədilə yoxsulluq səviyyəsinin **5%-dən aşağı** salınması nəzərdə tutulur.
- Qarabağ və Şərqi Zəngəzur bölgələrinin yaşıl enerji zonasına çevrilməsi nəticəsində bərpa olunan enerji mənbələrinin enerji istehsalında payının **30%-ə** çatdırılması planlaşdırılır
- Dövlət idarəetməsində şəffaflıq indeksinin beynəlxalq qiymətləndirmələrdə ən azı **20 pillə** yüksəldilməsi məqsəd qoyulub.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının 2030-cuilədək sosial-iqtisadi inkişafa dair Milli Prioritetləri, 2021
2. United Nations Development Programme (UNDP), Human Development Report, 2023
3. Dünya Bankı, Cənubi Qafqaz ölkələri üzrə regional inkişaf hesabatları, 2022
4. OECD,Green Growth in the South Caucasus: A Policy Overview, 2022
5. İqtisadiyyat Nazirliyi, Azərbaycan iqtisadiyyatı: strateji baxış, 2023
6. Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası, 2025

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN GƏNCLƏRƏ DÖVLƏT QAYĞISI VƏ DƏSTƏK SİYASƏTİ

**Tural Bürcəliyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail:turalburjaliyev@gmail.com

***Açar sözlər:*** gənclər siyasəti, dövlət dəstəyi, təhsil siyasəti, Gənclər ili, Gənclər Forumu, Dövlət İdarəçilik Akademiyası, dövlət proqramları, gənclər təşkilatları.

Ümummilli lider Heydər Əliyev Azərbaycan gəncliyini dövlətin gələcəyinin təminatçısı kimi qiymətləndirmiş, onların vətənpərvər, yüksək intellektual səviyyəyə malik və sağlam düşüncəli fərdlər kimi formalaşmasına daim xüsusi diqqət yetirmişdir. Onun gənclərlə bağlı siyasəti yalnız ideoloji çağırışlarla məhdudlaşmamış, əksinə, dövlət proqramları, hüquqi-normativ aktlar və institusional islahatlar vasitəsilə kompleks və sistemli şəkildə reallaşdırılmışdır.

Təhsili cəmiyyətin intellektual inkişafının mühüm predmeti və dövlətin uzunmüddətli inkişaf trayektoriyasının bünövrəsi kimi qiymətləndirən Heydər Əliyev, daha Sovet dönəmindən başlayaraq, xüsusilə 1970-ci illərdən etibarən Azərbaycanın müxtəlif regionlarından seçilmiş perspektivli gənclərin SSRİ-nin ən nüfuzlu elmi-təhsil mərkəzlərində ali ixtisas səviyəsində yetişdirilməsi üçün siyasi iradə və şəxsi təşəbbüs ortaya qoymaqla, bu sahədə dövlət müdaxiləsini individual təşəbbüslərlə sintez etmişdir. Onun "Təhsilə qoyulan sərmayə, gələcəyə qoyulan sərmayədir" fikri, Azərbaycan Respublikasında həyata keçirilən təhsil siyasətinin əsas ideoloji istiqamətini təşkil etmişdir.

1993-cü ildən sonra ümummilli liderin rəhbərliyi ilə ölkədə dövlət gənclər siyasəti ilk dəfə olaraq sistemli şəkildə formalaşdırılmışdır. Bu çərçivədə 1994-cü ildə Gənclər və İdman Nazirliyinin yaradılması, 1996-cı ildə Azərbaycan Gənclərinin I Forumunun keçirilməsi və 1997-ci ilin ölkədə "Gənclər ili" elan olunması kimi mühüm addımlar atılmışdır. Eyni zamanda, 2001-ci ildə Gənclərlə iş üzrə Dövlət Komitəsinin təsis olunması bu sahədə institusional əsasların gücləndirilməsinə xidmət etmişdir.
1998 -ci ildə qəbul edilmiş və təhsil sahəsində islahatların hüquqi əsasını təşkil edən "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədi, yalnız struktur dəyişikliklərini deyil, eyni zamanda gənclərin elmi potensialının reallaşdırılması, beynəlxalq miqyasda bilik yarışlarına və akademik tədbirlərə inteqrasiya olunması istiqamətində də məqsədyönlü tədbirləri nəzərdə tutan fundamental sənəd olmuşdur.

Əldə olunan nailiyyətlərin davamlılığının təmin olunması və gənclərin dövlət idarəçiliyi sisteminə effektiv inteqrasiyası məqsədilə, 1999-cu ildə yaradılan Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, yeni nəsil rəhbər kadrların – idarəçilik üzrə ixtisaslaşmış, strateji düşüncə qabiliyyətinə malik mütəxəssislərin formalaşdırılması üçün baza platforması rolunu oynamışdır. Heydər Əliyev dəfələrlə vurğulamışdır ki, gələcəyin idarəetmə sistemi, məhz bu gün yüksək intellektual və mənəvi keyfiyyətlərə malik gənclərin iştirakı ilə formalaşmalıdır.

Nəticə etibarilə, Heydər Əliyevin gənclərə yönəlmiş siyasəti yalnız XX əsrin sonlarında deyil, XXI əsrdə də öz aktuallığını qorumaqda davam edir. Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən bu strateji xətt uğurla davam etdirilir, gənclərin intellektual, sosial və yaradıcı potensialının üzə çıxarılması məqsədilə genişmiqyaslı proqramlar həyata keçirilir. Bu

prosesin ideoloji dayağı olan “Azərbaycanın gələcəyi gənclərə əmanətdir” kəlamı, nəinki keçmişin siyasi irsini, həm də gələcəyin mənəvi və strateji hədəflərini ehtiva edən proqramatik tezis kimi bu gün də qüvvəsini qoruyur.

**Ədəbiyyat**


1. A. Bəşirli “Heydər Əliyev. Prezidentlik xronikası: 1993–2003”. Bakı. 2023
2. R.B.Hacıyev. “Heydər Əliyev və Azərbaycan Respublikasında gənclər siyasəti (1993–2003-cü illər)”. Bakı. 2012
3. Heydər Əliyev. Bakı Dövlət Universitetində Gənclərlə Görüş. Bakı. 1997
4. Heydər Əliyev. Azərbaycan Gəncləri Forumu. Bakı. 1998
5. Heydər Əliyev. Gənclər Forumu, Azərbaycan Gənclər və İdman Nazirliyi. Bakı. 2001


# İNSAN HÜQUQLARININ MÜDAFİƏSİNDƏ MİLLİ VƏ BEYNƏLXALQ MEXANİZMLƏRİN MÜQAYİSƏLİ TƏHLİLİ


**Validə Cabbarova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: validajabbarova@gmail.com



***Açar sözlər:*** insan hüquqları, milli mexanizmlər, beynəlxalq mexanizmlər, hüquqi müdafiə, insan hüquqlarının qorunması, hüquqi mexanizmlərin müqayisəsi, Avropa İnsan Hüquqları Məhkəməsi, BMT mexanizmləri, milli insan hüquqları institutları, hüquqi təminatlar.

İnsan hüquqları, hər bir fərdin ləyaqətli və azad şəkildə yaşamaq haqqını təmin edən fundamental prinsiplər sistemidir. İnsan hüquqlarının qorunması üçün həm milli, həm də beynəlxalq səviyyədə müxtəlif mexanizmlər formalaşmışdır. Milli səviyyədə bu müdafiə mexanizmləri konstitusiya, qanunvericilik aktları, müstəqil məhkəmə sistemi və insan hüquqları üzrə ixtisaslaşmış qurumlar (ombudsman institutları, konstitusiya məhkəmələri, insan hüquqları üzrə ixtisaslaşmış milli komissiyalar və s.) vasitəsilə həyata keçirilir. Beynəlxalq səviyyədə isə Birləşmiş Millətlər Təşkilatı (BMT), Avropa Şurası, Avropa İnsan Hüquqları Məhkəməsi, İnsan Hüquqları Şurası və digər beynəlxalq təşkilatlar tərəfindən yaradılmış müqavilə və qeyri-müqavilə əsaslı mexanizmlər bu hüquqların qorunmasına xidmət edir. Beynəlxalq sistemlərə daxil olan qurumlar universal dövri icmal mexanizmləri və dövlətlərin beynəlxalq öhdəliklərini yerinə yetirib-yetirmədiklərini qiymətləndirir, fərdi şikayətləri araşdırır və hüquq pozuntularına dair tövsiyələr verir. Milli və beynəlxalq mexanizmlər bir-birini tamamlayaraq insan hüquqlarının daha geniş şəkildə təmin edilməsinə imkan verir. Lakin bu sistemlərin tətbiqindəki fərqlər, effektivlik səviyyələri, hüquqi icra mexanizmləri və hesabatlılıq prosedurları diqqətlə təhlil edilməlidir. Müqayisəli yanaşma, hər iki sistemin üstünlüklərini və məhdudiyyətlərini üzə çıxararaq insan hüquqlarının müdafiəsində daha effektiv modellərin formalaşdırılmasına töhfə verir. [1, s 336].

Müqayisə nəticəsində məlum olur ki, milli mexanizmlər daha sürətli icra və lokal kontekstə uyğunlaşma imkanına malik olduğu halda, beynəlxalq mexanizmlər obyektivlik və beynəlxalq təzyiq vasitəsilə hüquq müdafiəsini gücləndirir. Lakin beynəlxalq mexanizmlərin hüquqi qərarlarının icrası çox vaxt dövlətlərin siyasi iradəsinə bağlı olduğu üçün onların effektivliyi müəyyən hallarda zəif ola bilər. Bu səbəbdən insan hüquqlarının müdafiəsində hər iki sistemin bir-birini tamamlaması, qarşılıqlı əməkdaşlıq və hüquqi

harmonizasiya mühüm əhəmiyyət daşıyır. Beləliklə, insan hüquqlarının müdafiəsində optimal nəticəyə nail olmaq üçün milli və beynəlxalq hüquq müdafiə mexanizmlərinin gücləndirilməsi, onların effektiv tətbiqi və vətəndaşların bu sistemlərə çıxış imkanlarının artırılması vacibdir. Milli və beynəlxalq mexanizmlərin effektiv fəaliyyət göstərməsi üçün mühüm şərtlərdən biri də onların qarşılıqlı informasiya və hüquqi əməkdaşlıq imkanlarının gücləndirilməsidir. Məsələn, bir çox hallarda milli məhkəmələr Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarına istinad etməklə qərar qəbul edir və bu təcrübə hüquq sistemlərinin qarşılıqlı zənginləşməsinə səbəb olur. Eyni zamanda, milli ombudsman institutları və ya insan hüquqları üzrə komissiyalar beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək həm hesabatlılıq səviyyəsini artırır, həm də beynəlxalq hüquq normalarının tətbiqinə dair praktik təcrübə əldə edirlər.[2, s 398].

Bununla yanaşı, qeyd edilməlidir ki, bəzi hallarda milli və beynəlxalq hüquq müdafiə mexanizmləri arasında ziddiyyətlər də ortaya çıxa bilər. Bu, əsasən hüquqi qiymətləndirmə meyarlarının fərqliliyi, hüquq sistemlərinin struktur fərqləri və ya dövlətlərin beynəlxalq qərarlara münasibətindəki siyasi mövqelərlə bağlıdır. Belə hallarda hüquqi kolliziya və normativ ixtilaflar baş verir ki, bu da insan hüquqlarının müdafiəsi prosesini çətinləşdirə bilər. Belə problemlərin qarşısının alınması üçün milli qanunvericiliyin beynəlxalq hüquqi öhdəliklərlə tam uyğunlaşdırılması və normativ sabitliyin təmin olunması zəruridir. Bu sistemlər bir-birinin alternativi deyil, əksinə, qarşılıqlı dəstək və tamamlayıcılıq prinsipinə əsaslanmalıdır.

Bütün bu qeyd olunanlar fonunda insan hüquqlarının müdafiəsində həm milli, həm də beynəlxalq mexanizmlərin qarşılıqlı fəaliyyətinin səmərəliliyi hüquqi institutların müstə-qilliyi, məhkəmə sisteminin effektivliyi, vətəndaş cəmiyyətinin fəallığı və hüquqi

maarifləndirmə səviyyəsi kimi amillərlə sıx bağlıdır. Məsələn, əgər bir ölkədə məhkəmə hakimiyyəti müstəqil deyilsə və ya vətəndaş cəmiyyəti təzyiq altındadırsa, o zaman milli mexanizmlərin real müdafiə funksiyasını yerinə yetirməsi sual altına düşür. Bu hallarda beynəlxalq mexanizmlərin rolu daha da ön plana keçir. Bundan əlavə, insan hüquqlarının müdafiəsi sahəsində texnologiyaların rolu da getdikcə artır. Elektron hüquqi müraciət sistemləri, hüquq pozuntularının rəqəmsal əsasda izlənməsi və onlayn hüquqi yardım platformaları vətəndaşların hüquqlarına daha sürətli və effektiv müdaxilə edilməsinə imkan verir. Bu da həm milli, həm də beynəlxalq hüquq müdafiə mexanizmlərinin çevikliyini və fəaliyyət səmərəsini artırır.

Digər bir önəmli məqam, hüquq müdafiə mexanizmlərinin vətəndaşlar üçün əlçatanlığıdır. Həm milli, həm də beynəlxalq səviyyədə hüquq müdafiəsi alətlərinin mövcudluğu ilə yanaşı onların effektiv işləməsi və bütün vətəndaşlar üçün əlçatan olması məqsədi ilə hüquqi yardım sistemlərinin inkişaf etdirilməsi, ictimai hüquqi maarifləndirmə kampaniyalarının aparılması və qeyri-hökumət təşkilatlarının fəaliyyətinin dəstəklənməsi xüsusilə vacibdir.[3, s 236].

## Ədəbiyyat


1. Donnelly, J. (2013). *Universal human rights in theory and practice (3rd ed.).* Cornell University Press. 336 pages
2. Mertus, J. A. (2009). *The United Nations and human rights: A guide for a new era (2nd ed.).* Routledge. 398 pages
3. Nowak, M. (2005). *Introduction to the International Human Rights Regime*. Martinus Nijhoff Publishers. 236 pages

# HEYDƏR ƏLİYEV VƏ AZƏRBAYCAN KONSTİTUSİYASI

**Mirvari Cavadlı**
*Azərbaycan Respublikasının Prezident yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: cavadlimirvari@gmail.com

Azərbaycanın ictimai-siyasi tarixində misilsiz xidmətləri, hüquqi və demokratik dövlət quruculuğunda böyük uğurları və Xalqına hər zaman sevgisi və dərin hörməti ilə seçilən Dahi şəxsiyyət, Ümumilli Lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusudur. Heydər Əliyevin şəxsiyyəti və siyasi irsi Azərbaycan xalqının dövlətçiliyinin, milli özünüdərkinin və təməli onun dövründə qoyulmuş, cari dövrdə uğurla davam etdirilən inkişaf strategiyasının ən dolğun ifadəsidir.

Heydər Əliyev ən mürəkkəb dövrlərdə düzgün strategiyalar ilə xalqını düzgün yola yönəldən, dövlətini təcrid vəziyyətindən uğurla çıxaran və bütün sahələrdə davamlı inkişafa nail olan müdrik rəhbər, siyasi lider olmuşdur. Məhz Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrlərdə Azərbaycan Respublikası müstəqil inkişaf yoluna qədəm qoymuş, ölkədə ictimai-siyasi sabitlik təmin edilmiş və dövlətin təməlləri hüquqi baza əsasında möhkəm formalaşdırılmışdır. Xüsusilə, 1990-cı illərin əvvəl-lərində, çətin siyasi şəraitdə, dövlətdə vətəndaş müharibəsi təhlükəsi yarandığı bir şəraitdə Heydər Əliyevin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışı, müasir Azərbaycan Respublikasının tarixinin ən önəmli səhifələrindəndir. 1993-cü il 15 iyunda Ulu Öndərin yenidən hakimiyyətə gəlməsi ilk növbədə ölkədə idarəetmə sisteminin yenidən qurulması, hüquqi islahatların həyata keçirilməsi ilə müşayiət olundu. Bu, xalqın əsl

qurtuluşu idi. Heç təsadüf deyilki, 15 iyun Azərbaycan Respublikasında Milli Qurtuluş Günüdür və bu tarix xalq üçün ictimai, siyasi və tarixi baxımdan çox böyük əhəmiyyət kəsb edir.

Heydər Əliyevin rəhbərliyi ilə keçirilən siyasi, hüquqi və institusional islahatlar müstəqil Azərbaycan dövlətinin hüquqi əsaslarını formalaşdırmışdır. Çünki bu islahatlardan əvvəl mövcud olan sistem demokratik cəmiyyət quruculuğuna, qanunun aliliyinin təmin olunmasına və insan hüquq və azadlıqlarının müdafiəsinə təminat vermirdi. Bu da öz növbəsində, dövləti həm daxilən zəiflədir, həm də beynəlxalq aləmdən təcrid edirdi.

1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikaşının Konstitusiyası məhz Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq ümumxalq səsverməsi yolu ilə qəbul edilmişdir. Bu Konstitusiya, dövlət quruculuğunun hüquqi bazasını yaratdı, demokratiyanın təməllərini qoydu və insan hüquq və azadlıqlarının təminatı və müdafiəsi baxımından mühüm mərhələ oldu. Bu sənəd müstəqil Azərbaycanın ilk əsas qanunu kimi, ölkənin idarəetmə strukturunu müəyyənləşdirdi. Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci ilin noyabr ayının 12 də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmiş və dərc edildiyi gündən, yəni 1995-ci il 27 noyabr tarixindən qüvvəyə minmişdir. Konstitusiyanın önəm və əhəmiyyətini nəzərə alaraq, Heydər Əliyev tərəfindən 1996-ci il noyabr ayının 1-də müvafiq Fərman qəbul edilməsilə, hər il noyabr ayının 12-si Konstitusiya günü kimi qeyd edilməyə başlanmışdır. Konstitusiya, müstəqillik dövründə əldə olunan nailiyyətlərin hüquqi təməlini təşkil edərək, dövlətin gələcək inkişaf kursunu müəyyənləşdirdi. Müstəqil Azərbaycan Res-pub-likasının Konstitusiyası 5 bölmə, 12 fəsil və 158 maddəddən ibarətdir. Konstitusiyanın Preambula hissəsi "Azərbaycan Xalqı" ifadəsi ilə başlayır və burada Xalq təntənəli sürətdə müvafiq ülvi niyyətləri bəyan edir. Preambulada, Azərbaycan dövlətinin suverenliyini və

müstə-qilliyini qorumaq, demokratik idarəetmə sistemini təmin etmək, vətəndaş cəmiyyətinin qurulmasına şərait yaratmaq, hüquqi və dünyəvi dövlət qurmaq, insan hüquq və azadlıqlarının müdafiəsi, sosial ədalətə əsaslanan həyat şəraitinin formalaşdırılması, beynəlxalq hüquqa və ümumbəşəri dəyərlərə sadiqlik kimi məqsədlər öz əksini tapmışdır. Konstitusiyanın 158 maddəsindən 48-nin (III fəsil) insan hüquq və azadlıqlarının qorunmasına həsr olunması, onun demokratik dəyərlərə, humanizmə əsaslandığının bariz göstəricisidir. Bu Ulu Öndər Heydər Əliyevin rəhbərlik etdiyi Konstitusiya Komissiyasının böyük məsuliyyət və peşəkarlıqla həyata keçirdiyi fəaliyyətin uğurlu nəticəsidir. Konstitusiyanın 12-ci maddəsində insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsinin Dövlətin ali məqsədi kimi müəyyənləşdirilməsi müvafiq yanaşmanın nəticəsidir. Konstitusiyanın 7-ci maddəsində Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi və unitar Respublika elan olunmuş-dur. Azərbaycan Respublikasının Konstitusiyasına 2002, 2009 və 2016-cı illərdə dəyişiklik və əlavələr olmuşdur.

Heydər Əliyevin Konstitusiya quruculuğu sahəsindəki fəaliyyəti də Azərbaycanın hüquqi dövlət quruculuğunda bünövrə rolunu oynamışdır. H.Əliyevin rəhbərliyi ilə tərtib olunan və xalqın iradəsinə əsaslanaraq qəbul edilən Əsas Qanun, Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi formalaşdırılması və inkişafının əsas təminatına çevrilmişdir. Azərbaycan Respublikasının Konstitusiyası yalnız hüquqi sənəd olmaqla kifayətlənmir, eyni zamanda Ulu Öndər Heydər Əliyevin siyasətinin uğurlu nəticəsi kimi müstəqil Azərbaycan Respublikasının hüquqi təməllərini formalaşdırır.

**Ədəbiyyat**

1. Ə.Seyidov. *“Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası”*. Bakı: UniPrint, 2009. s. 256.
2. R. İsmayılov. *“HEYDƏR ƏLİYEV: HÜQUQİ DÖVLƏTİN BANİSİ”*// Respublika, 2023, № 81, s. 8.
3. https://modern.az/news/409012/
4. http://www.anl.az/down/meqale/respublika/2013/may/308670.htm
5. https://constcourt.gov.az/az/details/1586

## DAVAMLI ŞƏHƏR İNKİŞAFI VƏ AĞILLI ŞƏHƏRLƏR

**Fərid Cavadzadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: cavadzadafarid@gmail.com

Şəhərlərin davamlı inkişafının əsas məqsədləri insanlar üçün layiqli yaşayış yeri təmin etmək, sakinlərin sağlamlığı və fəal uzunömürlülüyü, yaxşı maaşla iş və onunla birlikdə məmnuniyyət, ekoloji mühitin sağlamlığı və qorunması, təbiət mühiti ilə balansda yaşamaq, əmlak və şəxsiyyətin təhlükəsizliyi, infrastrukturun inkişafı, tarixi irsin və landşaftın qorunmasıdır.

Dayanıqlı ağıllı şəhər, texnoloji infrastrukturların şəhərləşmənin artan tələblərini mənfi iqtisadi, ekoloji və sosial təsirlər olmadan qarşılamaq üçün əməliyyatları yaratdığı, tətbiq etdiyi və dəstəklədiyi bir şəhərdir. Ağıllı şəhərdə texnoloji inkişaf yerli idarəetmə, təhsil, səhiyyə, enerji, infrastruktur və nəqliyyat sektorlarına harmonik və mənalı şəkildə inteqrasiya olunur [2].

Dayanıqlı şəhərsalma, uzunmüddətli faydaları ilə əhəmiyyətlidir; bunlara artan gəlirlər, həyat keyfiyyətinin yaxşılaşması və

ekoloji təsirin azalması daxildir. Dayanıqlı təşəbbüsləri maliyyələşdirməklə şəhərlər iş yerləri və böyümə yarada bilər, eyni zamanda enerji istehlakını, tullantıları və çirklənməni azalda bilər. Bundan əlavə, dayanıqlı inkişaf yaşayış şəraitini yaxşılaşdıraraq cəmiyyətin müxtəlif təbəqələrinin sosial inklüzivliyini asanlaşdırır [3].

Son on ildə şəhərlərin qarşılaşdığı müxtəlif problemləri həll etmək üçün təklif olunan yeni yanaşmalardan biri Ağıllı Şəhər (AŞ) konsepsiyasıdır. AŞ, müasir texnologiyalar və yenilikçi həllər vasitəsilə yüksək həyat keyfiyyəti təmin etməyi hədəfləyən bir modeldir. Bu konsepsiya, iqtisadi, sosial, ekoloji və həyat keyfiyyətinə təsir göstərən müxtəlif amilləri idarə edən "ağıllı" sistemlərin birləşməsini nəzərdə tutur. AŞ, şəhərdəki vəziyyətləri analiz edir və bu problemləri həll etmək üçün texnoloji həllər təklif edir. Lakin, AŞ-nin yaradılması infrastruktur, şəbəkə, təhlükəsizlik kimi bir sıra çətinliklərlə üzləşir. Bu səbəbdən, bir çox tədqiqat mərkəzləri AŞ konsepsiyasının elmi və nəzəri məsələlərini araşdırır və bu tədqiqatlar, AŞ-nin qurulmasından əvvəl və sonra qarşılaşılacaq çətinlikləri əhatə edir. Nəticədə, AŞ layihələri hələ də bir çox şəhərlərdə inkişaf mərhələsindədir. Bununla yanaşı, AŞ-nin effektivliyini sübut etmək və xərcləri azaltmaq üçün daha çox vaxt tələb olunur. [1].

Azərbaycanda ağıllı şəhər anlayışının həyata keçirilməsi ölkənin davamlı inkişafı üçün mühüm əhəmiyyət daşıyır. Gələcəkdə bu cür layihələrin genişlənməsi, ölkə iqtisadiyyatına müsbət təsir göstərəcək və vətəndaşların həyat səviyyəsini yüksəldəcək. Ancaq bu cür layihələrin uğurlu olması üçün müvafiq infrastrukturun yaradılması, dövlət və özəl sektorun əməkdaşlığı, habelə müasir texnologiyaların tətbiqi vacibdir. Eyni zamanda, əhalinin texnoloji savadının artırılması və bu yeniliklərə adaptasiya olunması da əsas faktorlardan biridir. Azərbaycanda ağıllı şəhər layihələrinin həyata keçirilməsi ilə əlaqədar yerli mütəxəssislər, qurumlar və beynəlxalq tərəfdaşlar arasında daha sıx əməkdaşlıq və informasiya mübadiləsi tələb olunur.

Bu cür təşəbbüslər, şəhərlərin inkişafına və ölkənin gələcəyinə müsbət təsir göstərəcək.

Azərbaycanda ağıllı şəhər layihəsinin tətbiqi istiqamətində aşağıdakı təklifləri vermək olar:

– nəqliyyat sisteminin intellektual idarə idilməsi. Bu sistem, trafik işıqforlarını və yolları real vaxtda idarə edərək nəqliyyat axınının optimallaşdırılmasına kömək edə bilər;

– ağıllı şəhərlər üçün internetin əlçatanlığı vacibdir. Şəhər mərkəzlərində pulsuz Wi-Fi nöqtələrinin yaradılması və bununla yanaşı, genişzolaqlı internetin artırılması, vətəndaşların və müəssisələrin daha effektiv işləməsini təmin edə bilər;

– şəhərlərdə tullantıların idarə olunması üçün ağıllı sistemlərdən istifadə olunması. Bu tullantıların daha səmərəli toplanmasına imkan yaradar;

– şəhərlərdə günəş panelləri və külək enerjisi kimi yaşıl enerjinin istifadə olunduğu infrastrukturların qurulması ilə enerjidən daha səmərəli istifadə edilə bilər;

– rəqəmsal sağlamlıq xidmətlərinin genişləndirilməsi. məsafədən həkim müayinəsi və sağlamlıq izləmə tətbiqləri genişləndirilə bilər.

## Ədəbiyyat


1. Qasımov V.Ə., Əsədova M.Y. *Dünyada və Azərbaycanda "ağıllı şəhər"lərdə tətbiq olunan ağıllı həllər*. Mingəçevir Dövlət Universiteti Dayanıqlı inkişaf, cild 1, № 2, 2021, s.122-126.
2. Padmaprya V., D.J. Sujatha. *Future of Sustainable Smart Cities* 2021, p.17-34.
3. Proceedings of International Conference on Sustainable Development of European Smart Cities, Smart EU 2023.

# AZƏRBAYCAN RESPUBLİKASININ BMT-nin İQLİM DƏYİŞMƏLƏRİ HAQQINDA ÇƏRÇİVƏ KONVENSİYASI KONFRANSLARINDA İŞTİRAKI

**Əzizə Cəfərova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: jafarovaaziza@gmail.com

1992-ci ildə Braziliya Federativ Respublikasının Rio-de-Janeyro şəhərində keçirilən Birləşmiş Millətlər Təşkilatının Ətraf Mühit və İnkişaf Konfransında BMT-nin İqlim Dəyişmələri haqqında Çərçivə Konvensiyası *(United Nations Framework Convention on Climate Change-UNFCCC)* qəbul edilməklə qlobal iqlim dəyişikliyinə qarşı mübarizədə beynəlxalq əməkdaşlığın əsası qoyulmuş və gələcəkdə bu sahə üzrə daha effektiv tədbirlərin görülməsi məqsədilə bir çərçivə yaradılmışdır. UNFCCC-hər bir ölkənin karbon emissiyalarını azaltmaqla iqlim sistemindəki dəyişikliklər ilə mübarizədə ölkələr arasında imzalanan beynəlxalq müqavilədir. Azərbaycan Respublikasında UNFCCC-nin ratifikasiyası 1995-ci ilin 10 yanvar tarixində olmuşdur.

1995-ci ildə Almaniya Federativ Respublikasının Berlin şəhərində keçirilən UNFCCC-nin İlk Tərəflər Konfransı *(The first Conference of the Parties-COP1)* iqlim sisteminə təhlükəli təsirlərin yol verilməməməsi üçün inkişaf etmiş ölkələrin 2000-ci il tullantılarının 1990-cı ildəki səviyyəyədək azaldılması ilə, karbon emissiyalarını azaltmaqda uzunmüddətli məqsədlərə nail olunmasının mümkünlüyü qərarına gəlinmişdir. Bu yolda daha konkret tədbirlərin hazırlanması məqsədilə danışıqların aparılmasını zəruri edən, COP1-in əsas nəticəsi, “Berlin Mandatı” *(The Berlin Mandate)* qəbul edilmişdir.

Bu Mandat növbəti danışıqlar üçün zəmin yaratmış, 1997-ci ilin dekabrında Yaponiyanın Kioto şəhərində keçirilən COP3 zamanı beynəlxalq iqlim sazişi-“Kioto protokolu” *(The Kyoto Protocol)* qəbul edilmiş, 2005-ci ilin 16 fevral tarixində qüvvəyə minmişdir. Azərbaycan Respublikası bu Protokola Milli Məclisinin 2000-ci il 18 iyul tarixli Qərarı ilə qoşulmuşdur. UNFCCC-yə əlavə olaraq qəbul edilən Protokolda qlobal istiləşmənin qarşısını almaq məqsədilə atmosferə istixana qazlarının tullantılarını məhdudlaşdırmaq üçün daha konkret öhdəliklər müəyyənləşdirilmişdir. Protokol şərti olaraq iki mərhələdən ibarət olmuşdur ki, 2008-2012-ci illəri əhatə edən birinci dövründə istilik effekti verən qaz emissiyalarının azaldılmasına dair məcburi öhdəliklər müəyyən edilmişdir. 2012-ci ildə Qətər Dövlətinin Doha şəhərində keçirilən COP18 zamanı 2013-2020-ci illəri əhatə edən ikinci öhdəlik dövrü “Doha əlavəsi” qəbul edilmişdir.

2015-ci ildə Fransa Respublikasının Paris şəhərində keçirilən COP21 zamanı “Paris Sazişi” *(The Paris Agreement)* qəbul edilmiş, 2016-cı ildə qüvvəyə minmişdir. Sazişin məqsədi temperatur artımının 2°C-dən aşağı saxlanılması və artımın 1.5°C-dək məhdudlaşdırılması olmuş və 190-dan çox ölkə tərəfindən ratifikasiya edilmişdir. Azərbaycan Respublikasında isə Milli Məclisinin 2016-cı il 28 oktyabr tarixli Qərarı ilə bu Saziş təsdiq edilmiş və Konvensiya Katibliyinə milli səviyyədə müəyyənləşdirilmiş (*istixana qaz emissiyalarının baza ili ilə müqayisədə 2030-cu ilədək 35%, 2050-ci ilədək 40%-ə qədər azaldılması*) töhfələrini təqdim etmişdir.

2021-ci ilin noyabrında Birləşmiş Krallığın Qlazqo şəhərində keçirilmiş COP26 Konfransında ölkəmiz “Bərpa Olunan Enerji və Enerji Səmərəliliyinə dair Qlobal Vəd” təşəbbüsünə qoşulmuş, yaşıl enerjiyə keçidi sürətləndirməyi, bərpa olunan enerjinin artırılmasını və işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur ərazilərində

“netto sıfır emissiya” zonasının yaradılmasını öz öhdəliyinə götürmüşdür. Bu Vəd qlobal istiləşməni 1.5°C-yə qədər məhdudlasdırmaq üçün 2030-cu ilə qədər bərpa olunan enerji mənbələrinin qoyuluş gücünü üç dəfə artıraraq ən azı 11000 QVt-a çatdırılması, habelə enerji səmərəliliyinə nail olunmasının orta illik tempini iki dəfə artıraraq 2%-dən 4%-dək yüksəldilməsindən ibarətdir.

Konfransda fosil yanacaqlardan istifadənin tamamilə dayandırılması və istixana qazı emissiyalarının azaldılması üçün “Qlobal Metan Vədi”nə *(The Global Methane Pledge-GMP)* qoşulmaq təşəbbüsü irəli sürülmüşdür, ölkəmiz 2024-cü ilin fevral ayında bu təşəbbüsə qoşulduğunu elan etmişdir.

2023-cü ilin dekabrında Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilmiş COP28 zamanı SOCAR “Neft və Qazın Dekarbonizasiyası Xartiyası”na *(The Oil & Gas Decarbonization Charter - OGDC)* qoşularaq 2030-cu ilə qədər apstrim seqmentində metan emissiyalarını və məşəldə davamlı yandırmaları, 2050-ci ilə qədər isə neft-qaz əməliyyatlarında karbon izini sıfıra endirmək öhdəliyi götürmüşdür. Tədbir çərçivəsində keçirilən iclasda Tərəflər Konfransının 29-cu sessiyasının Azərbaycan Respublikasında keçirilməsi ilə bağlı qərar verilmişdir.

COP29 çərçivəsində Azərbaycan Respublikasının Energetika Nazirliyi, İqtisadi Əməkdaşlıq Təşkilatı və BMT-nin Sənaye İnkişafı Təşkilatı ilə birgə əməkdaşlıq çərçivəsində Təmiz Enerji Mərkəzi *(CECECO)* yaradılmışdır. Bu Mərkəz bərpa olunan enerji mənbələrinin inkişaf etdirilməsi, enerji sahəsində İƏT ölkələri arasında əməkdaşlığın genişləndirilməsi, “Azərbaycan-Türkiyə-Avropa” və “Mərkəzi Asiya-Azərbaycan” yaşıl enerji dəhlizləri vasitəsiylə əməkdaşlıq çərçivəsində regional enerji şəbəkələrinin inteqrasiyasının dəstəklənməsi, sıfır emissiya hədəflərinə çatmaq üçün strateji vahid platformadır.

COP29 tədbiri çərçivəsində işğaldan azad edilmiş ərazilərdə yaşıl enerji zonasının yaradılması üzrə beynəlxalq əməkdaşlıq sahəsində bir neçə sənədlər imzalanmışdır.

2024-cü ilin 12 noyabr tarixində Azərbaycan Respublikasının Hökuməti, Energetika Nazirliyi və "Şəfəq (Cəbrayıl)" Solar Limited" şirkəti arasında Cəbrayıl rayonunda "Şəfəq" Günəş Elektrik Stansiyasının *(GES)* tikintisi məqsədilə İcarə müqavilələri imzalanmışdır. Hesablamalara əsasən, bu GES-da il ərzində təqribən 500 milyon kVt.st elektrik enerjisinin istehsalı gözlənilir və bununla da bir ildə 120-150 milyon m3 təbii qaza qənaət etməklə 260-330 min ton karbon emissiyası azaldılmış olur.

2024-cü ilin 15 noyabr tarixində Füzuli rayonunda qoyuluş gücü 160 MVt olan GES-ı layihəsi üzrə Azərbaycan Respublikasının Energetika Nazirliyi, "SOCAR Green" MMC və Çin Xalq Respublikasının "China Energy Overseas Investment Co. Ltd" arasında "Anlaşma Memorandumu" imzalanmışdır.

2024-cü ilin 20 noyabr tarixində Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi, "Clean Energy Invest" MMC və "Baltech Green" MMC arasında Azərbaycan Respublikasının Kəlbəcər rayonunda 200 MVt gücündə külək elektrik stansiyasının quraşdırılması çərçivəsində "Anlaşma Memorandumu" imzalanmışdır.

2024-cü ilin 21 noyabr tarixində Azərbaycan Respublikasının Energetika Nazirliyi ilə 100 MVt gücündə Qobustan GES-ın layihələndirilmə, maliyyələşdirilmə, tikinti və istismarı üzrə ölkəmizdə keçirilən ilk bərpa olunan enerji hərracının qalibi Çin Xalq Respublikasının "Universal International Holdings Limited" şirkəti arasında müvafiq sənədlər imzalanmışdır. Qobustan GES-da illik 260 milyon KVt·saat elektrik enerjisi istehsal edilməklə karbon emissiyaları 12 min ton azaldılmış olacaqdır.

2024-cü ilin 13 noyabr tarixində Azərbaycan Respublikası, Qazaxıstan Respublikası, Özbəkistan Respublikasının Hökumətləri, Nazirlik və müvafiq şirkətləri, Səudiyyə Ərəbistanı Krallığının "ACWA POWER" şirkəti arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində əməkdaşlığa dair "Strateji tərəfdaşlıq haqqında Saziş", "İcra Proqramı", "Anlaşma Memorandumu" imzalanmışdır. "Xəzər Yaşıl Enerji Dəhlizi" təşəbbüsü sayəsində Azərbaycanla Mərkəzi Asiya ilk trans-Xəzər enerji dəhlizini reallaşdırılmış olacaqdır.

Əlavə olaraq, ölkəmizdə bərpa olunan enerji layihələrinin inkişafına dair Çin Xalq Respublikasının "China Datang Co. Ltd", "Power China Resources Limited", "TBEA Co., Ltd" şirkətləri ilə də ayrı-ayrılıqda "Anlaşma Memorandumu"ları imzalanmışdır.

## Ədəbiyyat


1. Hüquqi aktların vahid elektron bazası - https://e-qanun.az/
2. Azərbaycan Respublikası Prezidentinin rəsmi internet saytı - https://president.az/
3. Azərbaycan Respublikasının Energetika Nazirliyinin rəsmi internet saytı - https://minenergy.gov.az/

# DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ TƏHSİLİN ƏSAS İSTİQAMƏTLƏRİ

**Məhəmməd Cəfərov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
*e-mail: mceferov030@gmail.com*

**Xülasə**

Davamlı inkişafın əsas şərtlərindən biri kimi təhsil, cəmiyyətin iqtisadi, sosial və mədəni inkişafını təmin edən mühüm vasitə hesab olunur. Təhsil insan kapitalının formalaşması, ekoloji düşüncənin inkişafı və milli dəyərlərin aşılanmasında əsas rol oynayır. Azərbaycan Respublikasında qəbul edilmiş dövlət strategiyaları bu sahədə innovativ idarəetmə, keyfiyyətli kadr hazırlığı və beynəlxalq standartlara uyğun təhsil mühitinin yaradılmasını hədəfləyir. Davamlı inkişaf üçün təhsil həm də ətraf mühitin qorunması, bərabər təhsil imkanlarının yaradılması və ömürboyu öyrənmənin təşviqinə yönəlmişdir.

***Açar sözlər:*** təhsil, təhsil sistemi, davamlı inkişaf,davamlı təhsil,təhsil prinsipləri.

Müasir dünyada baş verən meyillərdən əsasını davamlı inkişaf anlayışını şərtləndirən əsas komponentlərdən birini təhsil təşkil etməkdədir. Belə ki, təhsil elə bir prosesdir ki, burada insanlar bilik və bacarıqlar əldə edir, inkişaf etdirir və mədəni proseslərə cəlb olunmaqla cəmiyyətin dəyərlərini mənimsəyir. Bu çərçivədə təhsilin rolu aşağıdakı üç funksiyanın yerinə yetirilməsi ilə özünü biruzə verir:

1. İqtisadi funksiya. İnsanlar müasir və faydalı biliklər əldə edir, həmin bilikləri öz işlərində tətbiq edərək ölkənin iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına səbəb olur.

2. Sosial funksiya. İnsanlar sosial bacarıqlar vasitəsilə digər insanlarla ünsiyyət və kommunikasiya əlaqələri qurur.

3. Mədəni funksiya. Milli-mədəni dəyərlər və şəxsiyyətin formalaşması, insanın yaradıcılıq qabiliyyətinin üzə çıxarılması.

Təhsil sistemi anlayışı təhsil pillələri və səviyyələri üzrə mövcud qaydalar əsasında yaradılan və fəaliyyət göstərən təhsil müəssisələrini, təhsil sahəsində həyata keçirilən dövlət standartlarını və proqramlarını, təhsilin idarə olunmasını təşkil edən dövlət orqanlarını və qurumlarını əhatə edir. Təhsil sistemi planetimizin və ölkələrin inkişaf ehtiyaclarının ödənilməsi üçün davamlı həll yollarının müəyyənləşdirilməsində və təşviq edilməsində mərkəzi element rolunu oynayır. Müasir dünyada hər bir dövlətin qarşısında qoyulan əsas vəzifələrdən biri ölkənin milli maraqları nəzərə alınmaqla təhsil sisteminin prioritetlər və dəyərlər çərçivəsində inkişafının təmin edilməsidir.

Azərbaycan Respublikasında təhsilin məzmunu, təşkili və idarə olunması, təhsil sisteminin strukturu, təhsilin formaları, pillələri və səviyyələri, təhsil sistemində elmi tədqiqat fəaliyyəti, təhsil sahəsində dövlətin qarşısında duran vəzifələr, təhsil subyektlərinin hüquq və vəzifələri "Təhsil haqqında" baycan Respublikasının Qanunu ilə tənzimlənir. Həmin Qanuna əsasən təhsil sisteminin strukturuna məktəbəqədər, ümumi, peşə, orta ixtisas, ali, əlavə təhsil müəssisələri, təhsil sahəsində müxtəlif xidmətlər göstərən təşkilatlar, elmi tədqiqat institutları və mərkəzləri, infrastruktur obyektlər, idarəetmə funksiyasını həyata keçirən dövlət orqanları və qurumları, onların tabeliyində olan müəssisə və idarələr, habelə ictimai birliklər, qeyri-hökumət təşkilatları, elmi şuralar və sair daxildir.

Təhsil sahəsində dövlətimizin qarşısında duran vəzifələr sırasına təhsil sisteminin inkişaf etdirilməsi ilə bağlı strate-

giyaların, konsepsiyaların, prioritet inkişaf istiqamətlərinin müəyyən edilməsi, dövlət proqramlarının təsdiq edilməsi və onların icrasına nəzarət edilməsi, təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiya olunması və beynəlxalq standartlara uyğun olan təhsil mühitinin yaradılması, təhsil sisteminin işçiləri üçün dövlət təltiflərinin, fəxri adların, mükafatların müəyyən edilməsi və digər stimullaşdırıcı tədbirlərin görülməsi aid edilmişdir.

Ölkə başçısının 2013-cü il 24 oktyabr tarixli 13 nömrəli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası", 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı ilə həmin Strategiyanın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planı təsdiq edilmişdir. Strategiyada qabaqcıl texnologiyalara əsaslanan, bacarıqlı müəllim və təhsil menecerlərindən ibarət olan, dünya ölkələri sırasında keyfiyyət cilərinə görə mühüm mövqe tutan təhsil sisteminin yaradılması üçün aşağıdakı beş strateji istiqamətdə tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur:

1. kompetensiyaya əsaslanan şəxsiyyətyönlü təhsil məznunun yaradılması, təhsilin bütün pillələri üzrə kurikulumların inkişafı;

2. tədris prosesində innovativ təlim metodlarından istifadə edərək təhsilalanların nailiyyətlərini qiymətləndirən, istedadını üzə çıxaran, təhsilin məzmununun səmərəli mənimsənilməsini təmin edən peşəkar təhsilverənlərin formalaşması;

3. təhsil müəssisələrində şəffaf, səmərəli, nəticəyönlü idarəetmə mexanizmlərinin, təhsildə keyfiyyət təminatı üzrə hesabat və informasiya sistemlərinin yaradılması;

4. informasiya-kommunikasiya texnologiyalarına, əsaslı təlim metodologiyasına uyğun olan və ömür boyu təhsili təmin edən təhsil infrastrukturunun (müasir təhsil kompleksləri) yaradılması;

5. təhsil sisteminin maliyyələşdirilməsi modelinin iqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı ölkələrinin təhsil sistemlərinin standartlarına uyğun qurulması.

Son illər dünyada baş verən qlobal iqlim dəyişmələri, ətraf mühitin sənaye və məişət tullantıları ilə daha çox çirklənməsi, meşələrin qırılması, resursların tükənməsi, biomüxtəlifliyin azalması kimi kritik və mürəkkəb problemlər ekoloji təhsilin zəruriliyini şərtləndirmişdir. Ekoloji təhsil ekosistemin qorunması, ətraf mühitə qarşı məsuliyyət, ekoloji problemlərin müntəzəm olaraq araşdırılması, bu problemlərin həlli istiqamətində təkliflərin verilməsi üçün insanların müvafiq bilik, bacarıq və informasiya ilə təmin edilməsidir. Ekoloji təhsilin əsas parametrlərinə ekoloji düşüncə, ətraf mühitə olan həssas münasibət, ekoloji fəallıq, bilik, bacarıq və təcrübə aiddir. Ekoloji təhsilli insanlar ekoloji problemləri anlayır, operativ və ağıllı qərarlar qəbul edir, hadisələrə tənqidi yanaşır, təbii mühitin keyfiyyətini yaxşılaşdırmaq üçün daha səmərəli addımlar atırlar.

Bununla bağlı davamlı inkişaf üçün təhsilin başlıca məqsədləri aşağıdakılardır:

- Hər yaşda insanlar üçün ətraf mühitin mühafizəsi və bərpası məsələləri üzrə təhsilin təmin edilməsi;
- Ətraf mühitin qorunması və yaxşılaşdırılması barədə mövzuların bütün təlim proqramlarına daxil edilməsi, burada əsas problemlərin səbəblərinin analiz edilməsi, gələcəkdə bu sahədə rəhbər və icraçı şəxslərin, menecerlərin hazırlanmasına xüsusi diqqətin ayrılması;
- Şagirdlərin, tələbələrin, ictimaiyyətin ətraf mühitin vəziyyəti, o cümlədən təhlükəsiz su, kanalizasiya, qida və təbii ehtiyatlardan istifadənin ekoloji nəticələri haqqında yerli, regional və ölkə səviyyəsində aparılan tədqiqatlara cəlb olunmasının təmin edilməsi.

Davamlı inkişaf üzrə təhsilin qarşısında duran əsas məsələlərə aşağıdakıları aid etmək olar:

- Əhalinin yaşayış yerindən, gəlir səviyyəsindən, cinsindən, dinindən, dilindən, etnik mənsubiyyətindən və digər amillərdən asılı olmayaraq bütün kateqoriyalar üzrə sosial fənlər, ətraf mühit və iqtisadiyyat sferasında keyfiyyətli təhsilə bərabər çıxış imkanlarının təmin edilməsi;
- Təhsil sisteminin formalaşdırılması üçün maddi-texniki, hüquqi bazanın, kadr potensialının və infrastrukturun yaradılması;
- Formal, qeyri-formal və informal təhsil vasitəsilə davamlı inkişafın təşviq edilməsi;
- Milli mədəniyyətlərin, adət və ənənələrin öyrənilməsi, onların müxtəlif xalqların və millətlərin təhsilində rolunun araşdırılması;
- Distant təhsil imkanlarının qiymətləndirilməsi və bu növ təhsilin üstünlükləri nəzərə alınmaqla təhsil müəssisələrində distant təhsilə keçidin sürətləndirilməsi;
- Davamlı inkişaf problemləri haqqında mövzuların müəllimlərin tədris etdikləri fənn proqramlarına (kurikulumlara) daxil edilməsi, şagird və tələbələrin bu istiqamətdə biliklərə yiyələnməsi;
- Ali təhsil müəssisələrində elmi tədqiqat işlərinin aparılmasının davamlı inkişaf ilə əlaqələndirilməsi;
- Şagird, tələbə və müəllimlərin davamlı inkişaf məsələləri üzrə dərsliklər və tədris-metodik vəsaitlərlə təmin edilməsi;
- Təhsil proqramlarının (kurikulumların) beynəlxalq və ümumavropa miqyasında tanınması və tətbiq edilməsi;
- Cəmiyyətin bütün sektorlarında idarəetmə qərarları qəbul edən rəhbər şəxslərə və dövlət qulluqçularına peşəkar və davamlı təlimlərin keçirilməsi.

## Ədəbiyyat


1. Ələkbərov U. K. Davamlı inkişaf və ekoloji sivilizasiyanın idarə edilməsinin əsasları, Bakı, Təhsil, 2017, 176 s.
2. Ələkbərov U. K. Davamlı inkişaf naminə kadr potensialının təkmilləşdirilməsi: Azərbaycan modeli, Bakı, Elmin İnkişafı Fondu, 2018, 252 s.
3. Ələkbərov U. K. İnklüziv inkişafın idarə edilməsinin əsasları, 2018, 216 s.
4. Ələkbərov U. K. "İnsan və Biosfer" (MaB, UNESCO) Azərbaycan Milli Komitəsinin əsərləri. 17, Bakı, Təhsil, 2022, 256 s.
5. Ebekozien, A., Aigbavboa, C. O., Samsurijan, M. S., Radin Firdaus, R. B., & Rohayati, M. I. (2025). Expanded corporate social responsibility framework: companies' role in improving higher education institutions infrastructure to Sustainable Development Goal 4. *Journal of Facilities Management*,*23*(1), 1-18.
6. Patel, V., Pauli, N., Biggs, E., Barbour, L., & Boruff, B. (2025). Why bees are critical for achieving sustainable development 1. In *The Routledge Handbook of Global Sustainability Education and Thinking for the 21st Century* (pp. 37-51). Routledge India.
7. Sodiqova, N. T., & Khalilov, B. B. (2025). Sustainable Development Goals: Tourism's Contribution To A Sustainable Future And Supporting Tourism Industry By The Tools Of Marketing. *Analysis Of Modern Science And Innovation*, *1*(5), 87-97.

# KİÇİK SAHİBKARLIĞIN DAVAMLI İNKİŞAFDAKI ROLU VƏ DƏSTƏK MEXANİZMLƏRİ

**Tural Cəlilzadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: tural.celilzade0720@gmail.com

## Giriş

Müasir dövrdə davamlı inkişaf konsepsiyası dünya ölkələrinin sosial-iqtisadi siyasətində əsas strateji istiqamətlərdən birinə çevrilmişdir. Bu konsepsiya iqtisadi artımın sosial rifah və ətraf mühitin qorunması ilə uzlaşdırılmış şəkildə həyata keçirilməsini nəzərdə tutur. Bu baxımdan, kiçik sahibkarlığın rolu xüsusi əhəmiyyət kəsb edir. İqtisadiyyatın çevik və dinamik komponenti kimi kiçik sahibkarlıq həm iqtisadi,həm ekoloji, həm də sosial dayanıqlılığın təmin olunmasında mühüm funksiyalar yerinə yetirir.

## 1. Kiçik sahibkarlığın davamlı inkişafda strateji rolu

Kiçik sahibkarlıq sektoru davamlı inkişafa aşağıdakı əsas istiqamətlərdə mühüm töhfələr verir:

1.1.*Məşğulluğun artırılması.*

Kiçik biznes yeni iş yerlərinin yaradılmasında önəmli rol oynayır. Xüsusilə gənclər, qadınlar və aztəminatlı sosial qruplar üçün iş imkanları təmin etməklə, sosial inteqrasiyanı və gəlir bölgüsündə balansı gücləndirir.

1.2.*İqtisadiyyatın şaxələndirilməsi.*

Kiçik müəssisələr sənaye, xidmət və kənd təsərrüfatı kimi müxtəlif sahələrdə fəaliyyət göstərməklə iqtisadi strukturun diversifikasiyasına kömək edir. Bu, iqtisadiyyatın bir sahədən asılılığını azaldaraq daha dayanıqlı sistem formalaşdırır.

1.3. *Regionların inkişafı.*

Kiçik sahibkarlıq regionlarda qeyri-mərkəzləşmiş iqtisadi inkişafı stimullaşdırır. Bu, bölgələrdə həyat səviyyəsinin yaxşılaşmasına, kənddən şəhərə miqrasiyanın azalmasına və sosial sabitliyə səbəb olur.

1.4.*İnnovasiya və çeviklik.*

Kiçik bizneslər idarəetmədə daha çevik olduqları üçün bazardakı dəyişikliklərə tez reaksiya verə bilir və yeni texnologiyaların tətbiqində qabaqcıl ola bilirlər. Bu, davamlı iqtisadi artım üçün vacib şərtlərdəndir.

1.5 *Ətraf mühitin qorunması.*

Lokal və az miqyaslı istehsal sayəsində ətraf mühitə təsir miqdarı aşağı olur və daha məsuliyyətli resurs istifadəsi həyata keçirilir.

1.6. *Sosial məsuliyyət və inklüzivlik.*

Kiçik müəssisələr daha çox yerli icmalarla əlaqədə olduqlarına görə sosial ehtiyaclara daha həssas yanaşırlar. Sosial sahibkarlıq nümunələri də əsasən kiçik biznes çərçivəsində formalaşır.

**2.Mövcud çağırışlar və dəstək mexanizmləri**

Kiçik sahibkarlığın davamlı inkişafda rolunun artması üçün müəyyən maneələrin aradan qaldırılması zəruridir:

- Kapital resurslarına məhdud çıxış;
- Təlim və ixtisaslı kadr çatışmazlığı;
- Bazar rəqabətində böyük müəssisələrə qarşı zəif mövqe;
- İnfrastrukturun kifayət qədər inkişaf etməməsi;
- Qanunvericilik və vergi yükü ilə bağlı inzibati çətinliklər.

Bu problemlərin aradan qaldırılması üçün dövlətin dəstəyi vacibdir. Aşağıdakı tədbirlər bu sahədə effektiv nəticələr verə bilər:

- Sahibkarlıq fəaliyyətinə vergi güzəştləri və subsidiyalar;
- Təlim proqramları və inkubasiya mərkəzlərinin yaradılması;
- Mikro və kiçik müəssisələrə uyğun maliyyə alətlərinin inkişafı;
- Regionlarda investisiya təşviqi siyasəti.

## Nəticə

Kiçik sahibkarlıq davamlı inkişafın əsas dayaqlarından biri kimi çıxış edir. O, iqtisadi artımın sosial bərabərlik və regional balansla uzlaşdırılmış şəkildə həyata keçirilməsinə şərait yaradır. Bu baxımdan, kiçik biznesin təşviqi və inkişafına yönəlik dövlət siyasətləri davamlı inkişaf məqsədlərinin reallaşması üçün mühüm vasitədir.

## Ədəbiyyat


1. Mahmudov M.M., Mahmudova İ.M. *Regionların sosial-iqtisadi inkişafının tənzimlənməsi.* Bakı: ADİU, 2011.
2. Manafov Q.N. *Sahibkarlıq fəaliyyətinin sosial-iqtisadi aspektləri.* Bakı, 2012.
3. Əliyev Z.M. *Sahibkarlığın inkişafında dövlət dəstəyi mexanizmləri.* Bakı, 2018.
4. Qasımova S.S. *İnnovasiyalı iqtisadiyyat və kiçik biznes.* Bakı: UNEC nəşriyyatı, 2020.
5. OECD. SMEs and Sustainable Development: Key Issues and Policy Responses. OECD Publishing, 2022.
6. United Nations. Transforming Our World: The 2030 Agenda for Sustainable Development. UN, 2015.
7. Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi. Davamlı inkişaf üzrə milli prioritetlər. Bakı, 2021.
8. World Bank. Small and Medium Enterprises (SMEs) Finance. Washington, 2022.

# CƏLİLABAD RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAF PERSPEKTİVLƏRİNİN MÖVCUD VƏZİYYƏTİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Nərgiz Eminova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*e-mail: eminovan63@gmail.com*

## Xülasə

Tədqiqat Cəlilabad rayonunun sosial-iqtisadi inkişaf imkanlarının kompleks şəkildə təhlilinə həsr olunmuşdur. Rayonun iqtisadi inkişafının əsas istiqamətləri, kənd təsərrüfatı və sənaye sahəsində əldə olunan nailiyyətlər, infrastruktur layihələrinin təsiri və sosial sahədə baş verən dəyişikliklər geniş şəkildə araşdırılmışdır. Rayonun iqtisadi potensialı, təbii və insan resursları, dövlət proqramlarının təsiri və yerli icmaların rolu qiymətləndirilmişdir. Təhlil nəticəsində rayonun gələcək inkişafı üçün prioritet istiqamətlər və tövsiyələr müəyyən edilmişdir.

## Giriş

Azərbaycanın cənub bölgəsində yerləşən Cəlilabad rayonu respublikanın aparıcı aqrar bölgələrindən biridir. Rayonun iqtisadi strukturunda kənd təsərrüfatı əsas yer tutur. Lakin son onilliklərdə dövlətin həyata keçirdiyi sosial-iqtisadi inkişaf proqramları sayəsində regionun iqtisadiyyatında çoxşaxəli inkişaf meyilləri müşahidə olunur. Rayonda kənd təsərrüfatı ilə yanaşı, sənaye və xidmət sahələri də inkişaf etməkdədir. Müasir infrastruktur layıhələri, əhalinin sosial rifahını yüksəltmək üçün həyata keçirilən tədbirlər və sahibkarlıq fəaliyyətinin genişlənməsi Cəlilabadın iqtisadi portretini əhəmiyyətli dərəcədə dəyişdirmişdir.

Tədqiqatın əsas məqsədi Cəlilabad rayonunun sosial-iqtisadi inkişaf səviyyəsini qiymətləndirmək, mövcud potensialı və problemləri müəyyənləşdirmək və gələcək inkişaf üçün perspektiv istiqamətləri əsaslandırmaqdır. Bu məqsədlə rayonda baş verən struktur dəyişikliklər, dövlət siyasətinin təsiri, iqtisadi və sosial göstəricilər, əhalinin məşğulluq səviyyəsi, infrastruktur layihələri və investisiya imkanları təhlil edilmişdir.

Cəlilabad rayonu zəngin təbii resurslara, məhsuldar torpaqlara və mülayim iqlim şəraitinə malikdir. Bu amillər kənd təsərrüfatı sahəsində yüksək məhsuldarlığın təmin olunmasına şərait yaradır. Əsas məhsullar buğda, arpa, qarğıdalı, kartof, xurma, alma və digər meyvələrdir. Rayonda bitkiçiliklə yanaşı, heyvandarlıq da mühüm yer tutur. İri buynuzlu mal-qara və qoyun sürülərinin saxlanılması, süd və ət məhsullarının istehsalı yerli tələbatı qarşılayır və əlavə olaraq regional bazarlara çıxarılır. Eyni zamanda fərdi təsərrüfatlarda quşçuluq da geniş yayılmışdır.

Cəlilabad istixana təsərrüfatlarının sayına görə ölkənin aparıcı bölgələrindən biridir. 2015-ci ildən başlayaraq burada 200-dən çox istixana yaradılmış, bu istixanalarda pomidor, xiyar, bibər kimi tərəvəzlər yetişdirilmişdir. İstixana məhsullarının bir hissəsi daxili bazarda realizə olunur, digəri isə ixrac üçün nəzərdə tutulur. Dövlət tərəfindən bu sahəyə xüsusi dəstək göstərilir, subsidiyalar və güzəştli kreditlər təqdim olunur.

Rayonun iqtisadiyyatında emal sənayesi də mühüm yer tutur. Bu sahədə şərabçılıq, meyvə-tərəvəz konservləşdirilməsi, un istehsalı və süd emalı üzrə fəaliyyət göstərən müəssisələr xüsusi rol oynayır. Məsələn, 'Cəlilabad Şərab' zavodu və konserv məhsulları istehsal edən sexlər həm daxili bazar üçün, həm də ixrac üçün məhsullar istehsal edir. Bu müəssisələr rayonda yeni iş yerlərinin yaradılmasına və iqtisadi aktivliyin artırılmasına xidmət edir.

## Nəticə və təkliflər

Cəlilabad rayonu güclü kənd təsərrüfatı və sosial infrastruktur bazasına malik olmaqla yanaşı, emal sənayesində də inkişaf potensialına sahibdir. Rayonun coğrafi mövqeyi və təbii resursları onu strateji baxımdan əhəmiyyətli bölgəyə çevirir.

Tövsiyə olunan istiqamətlər:
- Aqrar sektorda texnoloji yeniliklərin tətbiqi;
- İxracyönümlü emal müəssisələrinin genişləndirilməsi;
- Peşə təhsili və kadr hazırlığının gücləndirilməsi;
- Turizm və xidmət sahələrinin inkişaf etdirilməsi;
- Miqrasiyanın qarşısını almaq üçün gənclər üçün iş imkanlarının artırılması.

Bu tədbirlərin həyata keçirilməsi Cəlilabad rayonunun dayanıqlı inkişafını təmin edə və digər bölgələr üçün nümunə rolunu oynaya bilər.

## Ədəbiyyat

1. Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi – "Rəqəmsal kənd" təşəbbüsü. Rəsmi sayt [Elektron resurs]. – Əldəetmə rejimi: https://www.digital.gov.az, sərbəst. – Bölmə: Pilot layihələr – "Ağıllı kənd". – Müraciət tarixi: 02.04.2025.
2. Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi. Rəsmi sayt [Elektron resurs]. – Əldəetmə rejimi: https://www.agro.gov.az, sərbəst. – Bölmələr: Statistika, Regionlar üzrə kənd təsərrüfatı. – Müraciət tarixi: 02.04.2025.
3. Azərbaycan Respublikası Prezidentinin rəsmi saytı [Elektron resurs]. – Əldəetmə rejimi: https://president.az, sərbəst. – Bölmə: Dövlət proqramları → Regionların sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı. – Müraciət tarixi: 02.04.2025.
4. Sabaha-inamla.az. Regional iqtisadi və aqrar icmallar [Elektron resurs]. – Əldəetmə rejimi: https://sabaha-inamla.az, sərbəst. – Müraciət tarixi: 02.04.2025.

5. https://azertag.az/ru/xeber/rasporyazhenie_prezidenta_azerbaidzhanskoi_respublikio_dopolnitelnyh_merah_po_uskoreniyu_socialno_ekonomicheskogo_razvitiya_dzhalilabadskogo_raiona-106055?utm_source
6. https://azertag.az/ru/xeber/v_dzhalilabade_obsuzhdeny_itogi_socialno__ekonomicheskogo_razvitiya_2006_goda-659149?utm_source=
7. https://anl.az/down/meqale/azerbaycan/2010/iyun/123773.htm

# DÖVLƏT VƏ BƏLƏDİYYƏ İDARƏÇİLİYİNİN MÜASİR PROBLEMLƏRİ

**Tural Eynəliyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: eyntural550@gmail.com

***Açar sözlər:*** dövlət idarəçiliyi, yerli idarəetmə, qloballaşmış müasir metodlar, inkişaf problemləri, dövlət idarəetməsində səmərəlilik.

İdarəçilik məqsəd, istiqamət və prioritetlərin müəyyənləşdirilməsi daxil olmaqla, fəaliyyət prinsipləri və metodologiyanın, texnologiya və metodların seçilməsini, proqram və layihələrin hazırlanmasını, qərarların qəbul və icra ediləsini nəzərdə tutur. Onun əsasını insan, cəmiyyət, dünya mədəniyyəti inkişafının obyektiv qanunauyğunluqlarının elmi şəkildə dərk edilməsi və yaradıcılıqla istifadə edilməsi təşkil edir.

Hər bir ölkənin siyasi sistemindən asılı olmayaraq, inzibati quruluşunda yerli özünüidarəetmə orqanları vardır və cəmiyyətin

sosial-iqtisadi inkişafında vacib rol oynayır. Bu yerli özünüidarəetmə orqanlarının geniş tədqiqatının aparılması günümüzün aktu-al mövzusudur.

Müasir idarəetmənin formalaşmasında qloballaşmanın rolu xüsusi qeyd edilməlidir. Belə ki, idarəetməni qloballaşmadan ayrı dəyərləndirmək olmaz, yəni, idarəetmədəki dəyişikliklər qloballaşma ilə birmənalı şəkildə bağlıdır. Qloballaşma ictimai idarəetmənin tərkib hissələri olan mərkəzi və yerli idarəetmə orqanlarının iş prinsipində dəyişikliklərə səbəb olmuşdur ki, iki qurum arasında səlahiyyət və məsuliyyət bölgüsü yaratmışdır. Nəticədə idarəetmədə yaşanan müasir dəyişikliklər və demokratikləşmə meyilləri yerli idarəetmədə sakinlərin iştirak səviyyəsinin artırılması və problemlərin ən qısa zamanda həllini tapmasını ehtiva edir. Nəticə etibarı ilə beynəlxalq səviyyədə özünəməxsus önəm daşıyan yerli idarəetmələr qloballaşma ilə bərabər demokratik sistemlərin inkişafına, ictimai iştirakın artımına böyük təsir göstərmişdir.

İnsanlar qrup halında birləşərək birgə fəaliyyət göstərdikləri zamandan etibarən onların işini təşkil və koordinasiya etmək üçün idarəetməyə ehtiyac yaranmışdır. İdarəetmə pərakəndə halda fəaliyyət göstərən insanları birləşdirərək səmərəli və məhsuldar təşkilata çevirir. Dövlətin nəhəng təşkilat kimi yaranması və indiyə qədər yaşaması da məhz idarəetmə sayəsində mümkün olmuşdur.

Dövlət idarəçiliyi və yerli özünüidarə həm birlikdə, həm də ayrılıqda elmi araşdırmanın nisbətən yeni və sürətlə inkişaf edən sahəsidir. Peşəkar dövlət və bələdiyyə qulluqçularının hazırlanmasına zəruri tələbin olması, son illərdə ölkəmizdə bu sahədəki tədqiqatlara marağı artırmı.şdır.

Bütün idarəetmə formaları içərisində dövlət idarəçiliyi xüsusi yer tutur. Dövlət idarəçiliyi dedikdə dövlətin öz hakimiyyət qüvvəsinə əsaslanaraq insanların ictimai həyat fəaliyyətinə onun

qaydaya salmaq, qoruyub saxlamaq, və ya yenidən qurmaq məqsədilə praktiki, təşkilatçı və tənzimləyici qarşılıqlı təhsili nəzərdə tutulur.Əlbəttə, mürəkkəb ictimai hadisələrə verilən təriflər həmişə şərti və nisbətən məhdud xarakter daşıyır, hansısa vacib bir xüsusyyət, qarşılıqlı əlaqə nəzərə alınmır.Burada dövlət idarəçiliyinə verilmiş tərif də belədir.lakin dövlət idarəçiliyinin belə müəyyən edilməsinin əsas müsbət cəhəti ondadır ki, dövlət idarəçiliyinin tamlığını, sistemliliyini, geniş əhatə dairəsini əks etdirən 3 cəhət nəzərə alınır.

a. Dövlətin sistemli təşkil olunmuş idarəetmə subyekti olması,

b. İnsanların ictimai həyat fəaliyyətini idarəetmə təsirinə məruz qalması və bu təsiri qarşılıqlı surətdə qəbul etməsi,

c. Qarşılıqlı idarəetmə təsirinin özünün dövlət və cəmiyyət arasında qarşılıqlı əlaqə yaratması.

Sosial sistem dedikdə, elementləri sosial subyekt sayılan sistem nəzərdə tutulur.Sosial sistemin digər mühüm cəhəti məqsədyönlü olmasıdır, yəni belə sistemi bir və ya bir neçə fəaliyyət məqsədləri vardır. Nəhayət, sistemin məqsədə çatması üçün fəaliyyəti idarə olunmalıdır. Beləliklə, dövlət idarəçilik sistemi məqsədyönlü və idarə olunan sosial sistem növüdür. Dövlət idarəçilik sistemi cəmiyyətdə ictimai prosesləri idarə edən əsas subyektdir. Bununla yanaşı ictimai sistemi təkcə dövlət idarə etmir, ictimai idarəetməni digər subyektlərlə birlikdə həyata keçirdir. Beləliklə, dövlət idarəçilik sistemini müəyyənləşdirərkən nəzərə almaq lazımdır ki, belə sistemi nüfuz etdiyi təsir obyektlərinə digər subyektlər də təsir edə bilər. Digər tərəfdən isə belə dövlət idarəçilik sisteminin bir neçə məzmunlu tərifini təklif etmək məqsədəuyğn olar.

İslahat qanun səviyyəsində həyata keçirilən dəyişikliklərdir. Bu dəyişikliklər yeni idarəetmə sisteminin yaradılması, yeni orqanın yaradılması, orqan daxili struktur dəyişikliyinin baş verməsi və s. istiqamətdə aparılır. İslahatların həyata keçirilməsinin əsas məqsədi

cəmiyyətdə qanunların səmərəli işləməsinin və həyat şəraitinin yaxşılaşdırılmasını təmin etməkdir. Bəzən dövlət orqanlarında məmur-vətəndaş münasibətlərində problemlər yaranır. Bu kimi halların olması dövlət aparatının işinin səmərəli şəkildə həyata keçirilməsini çətinləşdirir. Ona görə də müəyyən dəyişikliklərin edilməsinə zərurət yaranır ki, bu dəyişikliklər islahatlar vasitəsilə həyata keçirilir. Vətəndaşlara şəffaf, operativ xidmətlərin göstərilməsini, xidmətlərin daha əlçatan və keyfiyyətli olmasını təmin etmək üçün dövlət və bələdiyyə idarəçiliyində islahatlar həyata keçirilərək cəmiyyətin tələbatına uyğun dövlət və bələdiyyə idarəçilik sistemi formalaşdırılır.

Dövlətin, onun idarəetmə aparatının fəaliyyəti müasir dövlət xüsusi insititutu olan dövlət qulluğu tərəfindən həyata keçirilir. Dövlət qulluğu insititunun fəaliyyətinin əhəmiyyətli dərəcədə təkmilləşdirilməsi dövlət idarəetmə islahatlarının ən vacib istiqamətlərindən biridir. Dövlət qulluğu insititutu həm də islahatların strategiya taktikasının reallaşdırılmasında xüsusi rol oynayan ən mühüm dövlət mexanizmlərindən biridir ki, cəmiyyətin bütün sistemlərinin (siyasi, iqtisadi, sosial, mədəni, elmi) fəaliyyətinin səmərəliliyi, son nəticədə isə hər bir vətəndaşın hüququnun real təmin olunması həlledici dərəcədə məhz o mexanizmdən asılıdır.

## Ədəbiyyat


1. https://azlib.org/media/books/Dovlet_ve_belediyye_idarechiliyinin_muasir_problemleri_11zon.pdf
2. İbrahimov, İ.H. *Beynəlxalq təcrübədə bələdiyyə idarəetməsi:* dərs vəsaiti. / İ. H. İbrahimov, A. A. Qurbanov, V. D. Bağırlı; elmi red. X. Hüseynova; BBU - Bakı, 2023.- 287 s
3. Xəlilov, Qədir Rövşən oğlu. *Yerli özünüidarəetmə hakimiyyəti və öz müqəddəratını təyinetmə hüququ:* monoqrafiya / Q. R.

Xəlilov; məsul red. Ə. İ. Sadıqov.- Bakı: Elm və təhsil, 2017.- 296 s.
4. *Dövlət və bələdiyyə idarəçiliyi:* dərslik / Ş. H. Hacıyev [et al.]; elmi red. K. A. Şahbazov; Azərbaycan Dövlət İqtisad Universiteti.- Bakı, 2010.- 440 s.
5. Fuad Məmmədov. *İdarəetmə mədəniyyəti, Xarici ölkələrin təçrübəsi.* Bakı, 2013. – 672 s.
6. Hasanoğlu M., *"Azerbaycan Cumhuriyeti'nde Devletin Yeniden Yapılandırılması ve Yerel Yönetimi Güçlendirme Çalışmaları",* Sayıştay Dergisi, 2008, Nisan-Haziran, Sayı 69,

# AZƏRBAYCANIN DÜNYA İQTİSADİYYATINDA MÖVQEYİNİ ÖNƏ ÇIXARAN İPƏK YOLUNDA ORTA DƏHLİZİN ROLU

**Türkan Eyubova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: turkan.ashurova@dia.edu.az

**Xülasə**

Azərbaycan ərazisindən keçən orta dəhliz qlobal logistikanın yeni arxitekturasının ən mühüm həlqəsinə çevrilir. Xüsusilə geosiyasi gərginliklər səbəbindən şimal marşrutunun cəlbediciliyinin azalması fonunda onun əhəmiyyəti artıb. Əsas ticarət yollarının kəsişməsində yerləşən unikal coğrafi mövqeyinə malik Azərbaycan Avrasiyanın əsas logistika mərkəzinə çevrilməyə çalışır, nəqliyyat infrastrukturunun inkişafına fəal sərmayələr qoyur.

***Açar sözlər:*** Azərbaycan, orta dəhliz, logistika, coğrafi mövqe, ticarət yolları.

Orta Dəhliz və ya Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu kimi də tanınan Mərkəzi Dəhliz Çini Mərkəzi Asiya, Xəzər dənizi, Cənubi Qafqaz və Türkiyə vasitəsilə Avropa ilə birləşdirən Avrasiya nəqliyyat şəbəkəsinin əsas komponentlərindən biridir. Rusiya ərazisindən keçən ənənəvi Şimal Dəhlizindən fərqli olaraq, Orta Marşrut yük tranziti üçün daha çevik, təhlükəsiz və sərfəli həll yolu təqdim edir [2].

Mərkəzi Dəhlizdə iştirak edən əsas ölkələr Çin, Qazaxıstan, Azərbaycan, Gürcüstan və Türkiyədir. Malların daşınması multimodal vasitələrlə həyata keçirilir: dəmir yolu, Xəzər dənizi ilə dəniz və avtomobil nəqliyyatı. Bu, xarici risklərə yüksək dərəcədə uyğunlaşma və davamlılıq təmin edir [4].

Çinin irimiqyaslı infrastruktur layihələrini özündə əks etdirən "Bir Kəmər və Yol" təşəbbüsünün işə salınmasından sonra Mərkəzi Dəhlizin rolu əhəmiyyətli dərəcədə artıb. Azərbaycan üçün bu dəhlizdə iştirak onun nəqliyyat qovşağı kimi mövqeyini möhkəmləndirmək və tranzit daşımalardan əldə olunan gəlirləri artırmaq üçün strateji fürsətə çevrilib [1].

Azərbaycan Orta Nəqliyyat Dəhlizinin əsas iştirakçısı kimi öz mövqeyini ardıcıl olaraq möhkəmləndirir, nəqliyyat infrastrukturunun və logistika sistemlərinin modernləşdirilməsinə irimiqyaslı investisiyalar yatırır. Qəbul edilmiş "Tranzit potensialının artırılması üzrə 2024-2026-cı illər üçün Fəaliyyət Planı"nda ölkə qarşısında yükdaşımaların 2022-ci il göstəriciləri ilə müqayisədə 27% artırılması kimi iddialı məqsəd qoyulub ki, bu da nəqliyyat sektoruna verilən yüksək prioriteti vurğulayır [3].

Dünya Bankının hesabatına görə, 2022-ci ildə Azərbaycanın ixracı əsasən minerallar hesabına 72%, qeyri-mineral ixrac isə 50% artıb ki, bu da iqtisadiyyatın tədricən şaxələndirilməsinin göstəricisidir [3].

Mərkəzi Dəhlizdə iştirak Azərbaycana tranzit daşımalardan əldə etdiyi gəlirləri əhəmiyyətli dərəcədə artırmağa imkan verib. Malların Çindən Avropaya və geriyə ölkə ərazisindən daşınması logistika şirkətlərinin, liman infrastrukturunun, gömrük və sərhəd xidmətlərinin inkişafına töhfə verir. Xüsusilə, Ələtdəki Bakı Beynəlxalq Dəniz Ticarət Limanı sürətli və səmərəli nəqliyyat logistikasını təmin edən yüklərin daşınması üçün əsas məntəqəyə çevrilib.

Azərbaycan nəqliyyat, logistika və infrastruktur sahələrində xarici investisiyalar üçün cəlbedici platformaya çevrilir. Xarici tərəfdaşlar terminalların tikintisinə, dəmir yollarının modernləşdirilməsinə, dəniz limanlarının genişləndirilməsinə sərmayə qoyurlar. Çin, Türkiyə, Avropa İttifaqı, beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq çərçivəsində investisiya layihələri xüsusilə aktivdir.

Azərbaycan Mərkəzi Dəhlizdə iştirak edən əsas ölkələrlə əməkdaşlığı gücləndirir. Türkiyə ilə (BTQ, Zəngəzur dəhlizi) birgə infrastruktur layihələri və inteqrasiya təşəbbüsləri həyata keçirilir. Qazaxıstan və Özbəkistanla əlaqələr Türk Şurası və nəqliyyat alyansları çərçivəsində inkişaf edir. Logistika Çinlə "Bir kəmər, bir yol" təşəbbüsü çərçivəsində fəal şəkildə inkişaf edir. Bu cür əməkdaşlıq Azərbaycanın Şərqlə Qərb arasında əlaqə rolunu gücləndirir, vahid Avrasiya iqtisadi məkanının formalaş-masına töhfə verir.

Azərbaycanın Mərkəzi Dəhlizdəki rolunun təhlili bu qənaətə gəlməyə imkan verir ki, ölkə Avrasiya üçün strateji nəqliyyat və logistika qovşağı kimi əhəmiyyət qazanır. Mərkəzi Dəhlizdə iştirak iqtisadiyyatın şaxələndirilməsinə, logistik xidmətlərdən əldə edilən gəlirlərin artmasında rol oynayır.

**Ədəbiyyat**

1. Насиров А.Д. *Развитие транспортных коридоров в Центральной Азии и новые региональные инициативы в*

*транспортно-логистической сфере* // Транспорт Шёлкового Пути. - 2021. - № 1. - с. 12-19.
2. Пылин А. *Международные транспортные коридоры на Южном Кавказе и их транзитный потенциал* // Геоэкономика энергетики. - 2018. - № 4. - с. 121-137.
3. Роль Азербайджана в развитии Срединного коридора https://aircenter.az/ru/single/roly-azerbaydjana-v-razvitii-sredinnogo-koridora-1459
4. Степанов Н.С. *Транспортные коридоры в рамках Китайской инициативы «Один пояс - один путь»* // Вестник НГИЭИ. - 2021. - № 8 - с. 112-119.

# TURİZM POTENSİALI DAVAMLI İNKİŞAFIN AMİLİ KİMİ: REALLIQLAR VƏ PERSPEKTİVLƏR (ŞƏKİ ŞƏHƏRİNİN TİMSALINDA)

**Xəyal Ədilov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: xayaladilov@mail.ru

Davamlı inkişaf ideyası müasir dövrdə regional inkişaf strategiyalarının əsas dayaqlarından birinə çevrilmişdir. BMT-nin 2030 Gündəliyində də göstərildiyi kimi, iqtisadi artım yalnız sosial və ekoloji balansın qorunması şərti ilə məqsədəuyğun sayılır [4]. Bu kontekstdə turizm sektoru təkcə iqtisadi gəlir mənbəyi deyil, həm də ətraf mühitin mühafizəsi və mədəni irsin qorunması baxımından strateji əhəmiyyət kəsb edir.

Azərbaycanın qədim şəhərlərindən biri olan Şəki bu baxımdan əlamətdar nümunədir. UNESCO-nun Dünya İrsi Siyahısına daxil edilmiş bu şəhər həm turizm baxımından cəlbedici, həm də davamlı inkişaf modeli üçün sınaq meydanıdır. Şəki Azərbaycanın ən zəngin

mədəni-tarixi irsə malik şəhərlərindən biridir. Qədim İpək Yolu üzərində yerləşməsi onun ticarət və mədəniyyət mərkəzi kimi inkişafına şərait yaratmışdır. Şəki xanlarının sarayı, Karvansaray kompleksi, yerli memarlıq üslubu və sənətkarlıq ənənələri bu şəhəri regional turizm mərkəzinə çevirir. UNESCO tərəfindən 2019-cu ildə "Şəki şəhəri və Xan Sarayı"nın Dünya İrsi Siyahısına salınması beynəlxalq turist axınının artmasına və şəhərin tanınmasına səbəb olmuşdur [3]. Şəki şəhərinin turizm infrastrukturu son illərdə əhəmiyyətli dərəcədə yenilənmiş, mehmanxana, restoran, turizm marşrutları, ekskursiya xidmətləri sahəsində irəliləyişlər əldə olunmuşdur. Bununla belə, bu inkişafın davamlılıq prinsipləri çərçivəsində qiymətləndirilməsi və gələcək üçün strateji planlaşdırılması zəruridir.

Turizmin davamlı inkişafda rolu üç əsas istiqamətdə özünü göstərir: iqtisadi, sosial və ekoloji. İqtisadi baxımdan, turizm sektoru məşğulluğun artırılması, yerli məhsulların satışının təşviqi və xidmət sektorunun genişlənməsi baxımından önəmlidir. Şəkidə bu tendensiya artıq özünü göstərməkdədir: sənətkarlıq məhsullarına (şəbəkə, ipək, şirniyyat) tələbat artmış, ailəvi qonaq evləri və fərdi təşəbbüslər fəallaşmışdır. Sosial baxımdan, turizm yerli əhalinin mədəni irsə münasibətini gücləndirir, onların öz dəyərlərinə sahib çıxmasına stimul verir. Xüsusilə gənc nəsil üçün alternativ məşğulluq imkanları yaradır, əhali miqrasiyasını azalda bilir. Ekoloji baxımdan, düzgün idarə olunan turizm təbiətə zərər vermədən resursların istifadəsini təşviq edir. Lakin bu istiqamətdə Şəkidə müəyyən problemlər mövcuddur. Məsələn, artan turist axını nəticəsində bərk tullantıların idarə olunması, su resurslarının istismarı və avtomobil nəqliyyatı ilə bağlı problemlər daha qabarıq şəkildə üzə çıxmağa başlamışdır [2].

Şəki şəhərində turizmin davamlı inkişafının qarşısında duran əsas problemlərdən biri idarəetmənin parçalanmışlığı və koor-

dinasiya çatışmazlığıdır. Turizmlə bağlı dövlət orqanları, bələdiyyələr və özəl sektor arasında strateji əməkdaşlığın olmaması resursların səmərəsiz istifadəsinə və uzunmüddətli planlaşdırmanın zəifliyinə səbəb olur [1]. Digər mühüm məsələ turizm fəaliyyətlərinin mövsümi xarakter daşımasıdır. Turistlərin əsas axını yay aylarında baş verir, bu isə iqtisadi dövriyyənin il boyu bərabər paylanmasına imkan vermir.

Ümumiləşdirsək, Şəki şəhəri həm mədəni irsi, həm də təbii gözəllikləri ilə Azərbaycan turizmində xüsusi yer tutur. Turizmin davamlı inkişaf amili kimi qiymətləndirilməsi yalnız iqtisadi göstəricilərlə məhdudlaşmamalı, sosial və ekoloji meyarları da əhatə etməlidir. Bütün maraqlı tərəflərin koordinasiyalı fəaliyyəti və strateji planlaşdırma sayəsində Şəki nümunəsi regional dayanıqlı turizmin inkişafı üçün modelə çevrilə bilər.

**Ədəbiyyat**


1. Aliyev, T. *Regional turizmin idarə olunmasında çağırışlar: Şəki-Zaqatala iqtisadi rayonu nümunəsində.* Bakı: İqtisadiyyat Nəşriyyatı, 2021.
2. Quliyev, R., & Abbasov, E. *"Turizm və ətraf mühit: Şəki şəhərində ekoloji davamlılıq problemləri."* Azərbaycan Coğrafiya Jurnalı, 2020, 18(2), 87–99.
3. UNESCO. Sheki with the Khan's Palace. 2019. URL: https://whc.unesco.org/en/list/1549/
4. United Nations. Transforming our world: the 2030 Agenda for Sustainable Development. 2015. URL: https://sdgs.un.org/2030agenda

# MİNATƏMİZLƏMƏ PROSESİNİN POST-MÜNAQİŞƏ ƏRAZİLƏRİNDƏ SOSİAL-İQTİSADİ İNFRASTRUKTURUN BƏRPASINDA VƏ DAVAMLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ ROLU

**Mehran Əhmədli**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: mehran_ahmedov@hotmail.com

2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsi nəticəsində Qarabağ və ətraf rayonlar  işğaldan azad edilmişdir. Azad edilən bu ərazilər uzun illər ərzində Ermənistan Silahlı Qüvvələrinin nəzarətində olmuş və bu müddət ərzində həmin torpaqlarda geniş miqyaslı minalama işləri həyata keçirilmişdir. Bu səbəbdən müharibədən sonra həmin ərazilərin yenidən məskunlaşdırılması və sosial-iqtisadi infrastrukturun bərpası üçün ən vacib məsələlərdən biri minatəmizləmə prosesi olmuş-dur.

Minatəmizləmə fəaliyyətləri həm hərbi və humanitar baxımdan, həm də iqtisadi, sosial və ekoloji baxımdan da əhəmiyyətlidir. Azərbaycanın işğaldan azad olunmuş torpaqlarında həyatın bərpası, infrastrukturların yenidən qurulması, investisiya qoyuluşları və köçkünlərin geri dönüşü məhz bu prosesin uğurlu icrasından asılıdır. Minatəmizləmə işləri bir tərəfdən təhlükəsizliyi təmin edərək insanların həyat və fəaliyyət sahələrini bərpa etməyə şərait yaradırsa, digər tərəfdən isə genişmiqyaslı sosial-iqtisadi layihələrin icrasına zəmin yaradır.

Hazırda Azərbaycan Respublikası ərazisində minatəmizləmə işləri əsasən Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) tərəfindən həyata keçirilir. Eyni zamanda, Müdafiə Nazirliyi, Fövqəladə Hallar Nazirliyi və digər müvafiq qurumlar da bu işə cəlb

olunmuşdur. 2020-ci ildən bu yana Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında on minlərlə hektar ərazi mina və partlamamış hərbi sursatlardan təmizlənmişdir. Ancaq təmizlənməsi gözlənilən sahələr hələ də kifayət qədər genişdir. Ümumilikdə təxminən 300 min hektar ərazidə minalama ehtimalı mövcuddur və bu da regionun geniş iqtisadi potensialının reallaşmasına mane olur.

Minatəmizləmə prosesi infrastruktur layihələrinin icrası ilə birbaşa əlaqəlidir. Yolların, su və elektrik xətlərinin çəkilməsi, məktəb, xəstəxana, sosial xidmət obyektlərinin tikintisi üçün ilkin şərt məhz həmin ərazilərin minalardan təmizlənməsidir. Məsələn, Ağdam, Füzuli, Zəngilan kimi rayonlarda həyata keçirilən "ağıllı kənd" və "ağıllı şəhər" layihələri, iri infrastruktur təşəbbüsləri minatəmizləmə prosesinin uğurla aparılmasına paralel olaraq həyata keçirilir.

Eyni zamanda, bu fəaliyyətlərin davamlı inkişaf məqsədləri ilə uyğunluğu da xüsusi vurğulanmalıdır. BMT-nin Dayanıqlı İnkişaf Məqsədləri (DİM) çərçivəsində "sülh və ədalətli cəmiyyətlərin qurulması", "dayanıqlı şəhər və icmalar" və "iqtisadi artım və layiqli əmək" kimi hədəflər məhz təhlükəsiz və minalardan azad ərazilərdə gerçəkləşə bilər. Burada həmçinin ətraf mühitin mühafizəsi də ön plandadır – çünki minalanmış ərazilərdə təbii mühit pozulur və torpaq istifadəyə yararsız hala düşür.

Minatəmizləmə həm də əhalinin psixoloji rahatlığı üçün mühüm əhəmiyyət kəsb edir. Qarabağ bölgəsinə geri dönmək istəyən keçmiş məcburi köçkünlər, yalnız təhlükəsiz və yaşamaq üçün uyğun şərait olan yerlərdə məskunlaşmağa hazırdırlar. Ona görə də mina təmizliyi prosesi qayıdış strategiyasının ayrılmaz hissəsidir və bu baxımdan strateji planlaşdırma ilə yanaşılmalıdır. Azərbaycan hökumətinin qəbul etdiyi "Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində bu məsələyə xüsusi yer ayrılmışdır.

Nəticə olaraq, minatəmizləmə prosesi Azərbaycanın post-münaqişə dövründə uğurlu inkişaf modelinin əsasında dayanır. Bu fəaliyyət sosial təhlükəsizliyi təmin etməklə yanaşı, iqtisadi dirçəliş, infrastrukturun bərpası və məcburi köçkünlərin doğma yurdlarına qayıdışı üçün fundamental şərtdir. Minatəmizləmə ilə bərabər həyata keçirilən planlı quruculuq işləri, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində gələcək nəsillər üçün sülh və rifaha əsaslanan bir həyat modelinin qurulmasına xidmət edir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) – Rəsmi hesabatlar və statistika, www.anama.gov.az
2. "Böyük Qayıdışa dair I Dövlət Proqramı" – Azərbaycan Respublikası Nazirlər Kabineti, 2022.
3. Beynəlxalq münasibətlərin təhlili mərkəzi-Azad edilmiş ərazilərdə bərpa prosesinin əsas istiqamətləri


## DAVAMLI İNKİŞAF ŞƏRAİTİNDƏ PENSİYA TƏMİNATI İSLAHATLARI


**Nicat Əhmədli**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nijat.ahmadli7@gmail.com


Pensiya təminatı sosial müdafiə sisteminin əsas tərkib hissəsi olmaqla, yaşlı əhalinin rifahını və cəmiyyətin sosial sabitliyini təmin edən mühüm vasitədir. Davamlı inkişaf prinsipləri fonunda pensiya təminatı həm sosial ədalətin, həm də iqtisadi dayanıqlığın təmin edilməsində mərkəzi rol oynayır.

Azərbaycan Respublikasında son onilliklər ərzində həyata keçirilən pensiya islahatları bu sahədə nəzərəçarpacaq dəyişikliklərə səbəb olmuşdur. Bu tezisdə pensiya sistemindəki əsas islahatlar təhlil olunur və onların davamlı inkişaf məqsədləri ilə əlaqələndiril-məsi araşdırılır.

2006-cı ildə qəbul edilən "Əmək pensiyaları haqqında" Qanunla pensiya sisteminin hüquqi əsasları yenidən qurulmuş, fərdi uçot və sosial sığorta mexanizmlərinə keçid təmin edilmişdir. 2017-ci ildə isə islahatlar daha da dərinləşdirilərək pensiyanın baza hissəsi ləğv edilmiş və yalnız fərdi yığım əsasında hesablanan sığorta hissəsi tətbiq olunmağa başlamışdır. Eyni zamanda, pensiya yaşı mərhələli şəkildə 65 yaşa qədər artırılmış, pensiya hüququ isə minimal kapital meyarı əsasında müəyyən olunmuşdur. Bu islahatlar sistemin maliyyə dayanıqlığını artırmağa yönəlsə də, əhalinin sosial təminat hüquqlarının qorunması ilə bağlı yeni çağırışlar meydana çıxarmışdır.

Pensiya təminatının davamlı inkişafla əlaqəsi əsasən BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin 1.3-cü hədəfi ilə birbaşa əlaqəlidir. Bu hədəf universal və adekvat sosial müdafiə sistemlərinin qurulmasını tələb edir. Azərbaycanda bu istiqamətdə müəyyən nailiyyətlər əldə edilmişdir. Minimum pensiya məbləğinin mərhələli şəkildə artırılması, rəqəmsallaş-dırma və proaktiv pensiya təyinatı mexanizmlərinin tətbiqi sistemin funksionallığını artırmışdır. Eyni zamanda, əmək bazarında rəsmi məşğulluğun təşviqi məqsədilə sosial sığorta haqlarının bölgüsündə dəyişikliklər edilmiş və könüllü yığım sisteminin tətbiqinə dair hüquqi baza yaradılmışdır.

Nəticə etibarilə, ölkəmiz pensiya təminatı sistemində mühüm irəliləyişlər əldə etməsinə baxmayaraq bu sahədə ehtiyacların davamlı inkişaf hədəfləri ilə uyğunlaşdırılması, ümumilikdə sistemin gələcək sabitliyinin və sosial funksionallığının təmin olunmasında həlledici olacaqdır.

Bu baxımdan, davamlı inkişaf şəraitində vacib çağırış-lardan birini ölkədə qeyri-formal məşğulluğun mövcudluğu və könüllü pensiya yığım sisteminin yaradılmamasıdır. Bundan başqa, yalnız birpilləli (dövlət) pensiya modelinə əsaslanan struktur, gələcəkdə artacaq demoqrafik təzyiqlər fonunda davamlılığı risk altına sala bilər. Beynəlxalq təcrübə göstərir ki, çoxpilləli pensiya modelləri (baza pensiyası, icbari sığorta və könüllü yığım) pensiya system-lərinin həm sosial, həm də maliyyə sabitliyini təmin edə bilər.

Fikrimizcə, bu sahədə aşağıdakı istiqamətlər üzrə tədbirlərin həyata keçirilməsi zəruridir:

- könüllü yığım mexanizmlərinin inkişafı üçün vergi güzəştləri və inzibati təşviqlərin tətbiq olunması;
- qeyri-formal sektorda çalışan şəxslərin sosial sığorta sisteminə cəlb olunması üçün sadələşdirilmiş rejimlərin hazırlanması;
- gender və sosial həssas qruplar üçün hədəflənmiş pensiya siyasətlərinin formalaşdırılması və s.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Əmək pensiyaları haqqında Qanun (2006). http://e-qanun.az/framework/11566
2. World Bank. (2017). *Pension System Review for Azerbaijan*. https://documents.worldbank.org
3. SSA. (2022). *International Update*. https://www.ssa.gov/policy/docs/progdesc/intl_update/
4. UNDP. (2020). *Human Development Report: Azerbaijan*. https://hdr.undp.org
5. ƏƏSMN (2024). Minimum pensiya haqqında məlumat. https://sosial.gov.az

# AZƏRBAYCANIN MÜASİR İNKLÜZİV İNKİŞAFINDA SU LAYİHƏLƏRİNİN DAVAMLI İDARƏ EDİLMƏSİ

**Elşan Əhmədov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: elshan.ahmadov@dia.edu.az

**Xülasə**

Azərbaycanın əldə etdiyi davamlı inkişaf nəticələri müasir müstəqil dövlətimizin memarı ulu öndər Heydər Əliyevin sayəsində mümkün olmuşdur. Ümummilli lider XX-ci əsrdə qazanılan uğurlara əsaslanaraq XXI əsrin hədəflərini uzaqgörənliklə ortaya qoydu. Heydər Əliyev müasir Azərbaycanın idarə olunması sahəsində inklüzivlik siyasətinin müəllifidir. Müasir dövrdə cəmiyyətin və təbiətin qarşılıqlı əlaqələrinin inkişafı mərhələsində inklüziv inkişafda su layihələrirnin səmərəli planlaşdırılması, insan potensialının inkiafı, ekoloji problemiərin həlli və su sərfiyyatında səmərəliliyin artımı üçün əsas istiqamətlərdəndir.

***Açar sözlər:*** inkluziv inkişaf, səmərəli su layihələri, su resurslarının qiymətləndirilməsi.

Suyun inkluziv idarəsinin təmini ilə bağlı dünya ölkələri arasında beynəlxalq əlaqələr müstəvisində onlarla konvensiya, saziş və anlaşma imzalanmışdır. Eyni zamanda hər bir ölkə öz daxilində bu istiqamətlərdə işlər aparmışlar. Azərbaycan Respublikasının Rəhbərliyi davamlı inkişaf və iqtisadi-ekoloji tərəqqi istiqamətində islahat mahiyəti daşıyan onlarla tədbirlər proqramı hazırlamış və bu istiqamətə xüsusi diqqət yetirmişdir. Tədbirlər proqramının məqsədlərindən biri də Risk Altındakı Su obyektlərinin (RASO) layihələndirilməsidir. Məqsəd layihə tədbirlərin həyata keçirilməsindən sonra risk altındakı su obyektlərinin artıq

riskə məruz qalmadığını təmin etməkdir. Tədbirlər Proqramı həm təzyiq, həm də su obyekti baxımından səciyyəvidir. O, hər bir Risk Altındakı Su obyetinin (RSO) riskə məruz qalmasına səbəb olan spesifik təzyiqlərə diqqət yetirir. [9]

Ölkəmizdə infrastruktur quruculuğunun əsas sahələrindən olan su təchizatı sferasında mühüm işlər görülmüşdür. Bu istiqamətdə dövlətin birbaşa dəstəyi ilə çoxsayılı layihələr həyata keçirilmişdir. Onlar arasında yeni sututarların yaradılması və şəbəkə infrastrukturunun genişləndirilməsi üzrə iri layihələr də icra edilmişdir. Həyata keçirilən tədbirlər hesabına su təsərrüfatı sisteminin inkişafı sürətlənmiş, məhdud şirin su ehtiyatlarına malik Azərbaycanda əhalinin fasiləsiz içməli su ilə təminatı və irriqasiya sistemi əhəmiyyətli dərəcədə yaxşılaşmış və müasirləşdirilmişdir.

Ölkənin şirin su ehtiyatlarının azlığı, son illərdə müşahidə olunan qlobal iqlim dəyişikliyi və orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların xeyli azalması, digər tərəfdən, əhalinin sürətli artımı, həyat standartlarının yüksəlməsi, ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı şəbəkələrinin genişləndirilməsi nəticəsində suya tələbatın artması respublikanın su təhlükəsizliyinin təmin edilməsi istiqamətində təxirəsalınmaz tədbirlərin həyata keçirilməsini şərtləndirir. Məhdud su ehtiyatları şəraitində, yeni iqtisadi çağırışlar nəzərə alınmaqla, ölkənin su təchizatı sistemi daha da yaxşılaşdırılır, ekosistemin inkişafı ilə uyğunluğu təmin olunmasə üçün innovasiyaların tətbiqi təşviq edilir.

Ölkə ərazisində mövcud olan su çatışmazlığı və su anbarlarında yaranmış vəziyyət nəzərə alınaraq, su ehtiyatlarının artırılması, istehlakçıların içməli su və suvarma suyu ilə təchizatının yaxşılaşdırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı" təsdiq etmişdir. Su ehtiyatlarından

səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlərə əsasən dövlət qurumlarının fəaliyyəti əlaqələndirilmişdir. Suvarma, içməli su təchizatı, energetika və sənaye sahələrində su ehtiyatlarından səmərəli və qənaətli istifadə təmin edilərək, elmi müəssisələrlə, mütəxəssislərlə, qeyri-hökumət təşkilatları ilə, beynəlxalq ekspertlər və beynəlxalq maliyyə qurumları ilə əməkdaşlıq təmin edilir. Sudan səmərəli istifadə layihələrin həyata keçirilməsi ilə bağlı torpaqların dövlət kadastrı və daşınmaz əmlakın dövlət reyestri üzrə müvafiq məlumatların "Azmelsutəsərrüfat" ASC-yə və "ADSEA" ASC-yə təqdim olunur. "Azərkosmos" Açıq Səhmdar Cəmiyyəti su ehtiyatlarının qiymətləndirilməsi və onlardan səmərəli istifadənin təmin edilməsi ilə bağlı Komissiyanın fəaliyyətinə peyk xidmətləri vasitəsilə zəruri dəstək göstərilməsini təmin edir.

Digər dövlət və özəl layihələr arasında Almaniyanın Yenidənqurma üzrə Kredit Agentliyinin (KfW) Açıq Proqramı Şəkidə su təchizatı infrastrukturunun reabilitasiyası üçün layihə proqramı hazırlamışdır. Asiya İnkişaf Bankı (Yaponiya Xüsusi Fondu) və KfW arasında Şəki şəhərində su təchizatı və kanalizasiya xidmətləri (STK) layihəsinin əlaqələndirilməsi və birgə maliyyələşdirilməsinə dair razılıq əldə olunmuşdu. Bütün risk altında olan su obyekti üçün məişət çirkab suları mühüm təzyiq kimi müəyyən edilmişdir. Çirkab sularının emalı zavodlarının risk altında olan su obyektlərinə təsirinin qiymətləndirilməsi məişət çirkab sularının hazırkı vəziyyətinin qiymətləndirilməsini tələb etməkdədir. Daha sonra məişət çirkab sularının çaya və su anbarına təsirinin təfsilatlı monitorinqini əsas layihə proqramına daxil edilməkdədir.

Balakənin tullantı atılma sahəsi Balakəndən cənuba doğru 2 km məsafədə, Balakənçay çayının sol sahilində çay kanalından təxminən 400 metr aralıda yerləşir. Hazırda tullantı sahəsi daha çox məişət tullantılarının atılması üçün istifadə edilir, çünki mövcud sənaye müəssisələri daha fəaliyyət göstərmədiyinə görə şəhərdə sənaye tullantısı

yoxdur. Sahə hasarlanmayıb, heç bir təhlükəsizlik və gözətçilər yoxdur, və sahənin fəaliyyətinə heç bir sanitar nəzarət həyata keçirilmir. Tullantılar kortəbii şəkildə sahəyə atılır. Qax üçün poliqon Qaxın cənubunda Kürmükçay çayının sahili boyunca 2 km-lik məsafədə yerləşir (poliqondan çaya qədər olan məsafə 120 metrdir). Poliqonun sahəsi hasarlanmayıb və fəaliyyət təsbit edilmiş normalara riayət etmir. Poliqon mühafizə olunmur və heç bir sanitar nəzarət yoxdur. Gəncəçay çayında bərk tullantılardan yaranan təzyiqlər qəsəbə və rayonlarda tullantıların idarəçiliyi(ndə çatışmazlıq) ilə əlaqədardır.

Atılan tullantıların miqdarı Avropa İttifaqının bərk tullantılar üzrə siyasətinə müvafiq olaraq mümkün qədər çox bərk tullantıların azaltmaq, təkrar istifadə (məsələn təkrar istifadə edilə bilən butulkalar) və təkrar emalı (məsələn, metal, şüşə, plastik) üçün tədbirləri həyata keçirməklə azaldılmalıdır. Lakin səlahiyyətli orqanların, vətəndaşların və müəssisələrin azaltmaq, təkrar istifadə və təkrar emalda nə qədər səmərəli olmasından asılı olmayaraq, hər zaman tullantı qalığı qalacaqdır, hansı ki atılmalıdır. Hövzədə olan bütün bərk tullantıların atıldığı bir sanitar poliqona alternativ olaraq, Göygöl rayonunda sanitar poliqon qurulması və Gəncə şəhərinin tullantı yerləşdirmə sahəsinin sanitar poliqonun tələblərinə cavab verməsi üçün yenidən qurulması təklif olunur. Sanitar poliqonlar o sahələrdir ki, orda zibil təhlükəsiz olana qədər ətraf mühitdən təcrid olunur.

Sanitar poliqonun tərtibatı

İstənilən sahənin sanitar poliqon hesab edilə bilməsindən öncə onun layihələndirilməsi və istismarında dörd əsas şərtə əməl edilməlidir:

1. Tam və ya qismən hidrogeoloji izolyasiya: əgər sahə təbii şəkildə çirkab sularının axması təhlükəsizliyinə malik olan ərazidə yerləşə bilmirsə, sahənin bünövrəsindən sızıntıları (çirkab suları) azaltmaq və ətrafdakı torpaqların və yeraltı suların çirklənməsini azaltmağa kömək göstərmək üçün əlavə üzlük materialları bura gətirilməlidir. Əgər üzlük-torpaq və ya sintetik-çirkab

sularının toplanması sistemi olmadan təchiz edilmişdirsə, son nəticədə bütün çirkab suları ətrafdakı mühitə gedib çatacaqdır. Çirkab suların toplanması və emalı əsas tələb kimi vurğulanmalıdır.

2. Formal mühəndislik hazırlıqları: layihələndirmə yerli geoloji və hidrogeoloji araşdırmalar nəticəsində tərtib edilməlidir. Tullantıların yerləşdirilmə planı və yekun bərpa planı da həmçinin işlənib hazırlanmalıdır.
3. Müvəqqəti nəzarət: sahənin hazırlanması və tikintiyə, tullantıların yerləşdirilməsi və müntəzəm fəaliyyət və texniki xidmətə nəzarət etmək üçün təlim görmüş işçi heyət poliqonda yerləşməlidir.
4. Tullantıların planlaşdırılmış yerləşdirilməsi və üzərinin örtülməsi: tullantılar təbəqələrə ayrılmalı və sıxlaşdırılmalıdır. Gündəlik olaraq üzəri örtülən kiçik işçi sahə tullantının yoluxucular və ziyanverici həşəratlar üçün daha az əlçatan olmasına kömək edəcəkdir.

Ərazidəki sanitar poliqonlar üçün say və yerləşmələr üzrə daha təfsilatlı təklif tullantıların idarəçiliyi planlarının işlənib hazırlanması zamanı verilməlidir. 16 nömrəli su obyekti-Əyriçay su anbarının və 17 nömrəli su obyekti-Yuxarı Əyriçay su anbarının Ciddi şəkildə Dəyişikliyə məruz qalmış Su Obyekti kimi qeydiyyata alınması təklif edilir ki, bununla da Əyriçay çayının bəndləşdirilməsi qəbul edilir. Digər tərəfdən isə bu, iki su obyektinin çirklənməsinin (su nohurunda su bitkilərinin həddən artıq artmasının) qəbul edilə bilməsi mənasını vermir, onlar yaxşı ekoloji vəziyyəti təmin etməlidirlər.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında
2. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında
3. Abbasov, R., 2011, Kür hövzəsinin dağ çaylarının ekoloji axınının qiymətləndirilməsi. H. Gökçekus və digərləri (eds.): "Mövcudluq və dayanıqlılıq, Ətraf Mühit Yer Elmləri"ndə bir fəsil, 1369. DOI 10.1007/978-3-540-95991-5_129
4. Əhmədov E.N. Heydər Əliyev Azərbaycanda su resurslarının davamlı idarə edilməsi sahəsində aparılan innovativ islahatların müəllifidir. Heydər Əliyev İrsi (94), doktorant və dissertantların Respublika Elmi Praktiki Konfransı (DİA) 2017. s.34-47.
5. Əhmədov E.N. Heydər Əliyev Azərbaycanın su diplomatiyasının müəllifidir. Heydər Əliyev İrsi (100), doktorant və dissertantların Respublika Elmi Praktiki Konfransı (DİA) 2017. s.34-47.
6. Directive of the European Parliament and of the Council of the European Union number 2000/60 /EC of 23 October 2000 establishing a framework for Community action in the field of water policy (Water Framework Directive);
7. Deltares Reports. Corporate Sustainability. https://www.deltares.nl/en/about-us/annual-review/

# AZƏRBAYCANDA KƏND TƏSƏRRÜFATI MƏHSULLARININ EMALI SEKTORUNUN DAVAMLI İNKİŞAF PERSPEKTİVLƏRİ

**Pərviz Əkbərov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: perviz0712@gmail.com

Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və qeyri-neft sektorunun inkişafı fonunda kənd təsərrüfatı məhsullarının emalı sektoru strateji əhəmiyyət daşıyır. Bu sahə həm yerli istehsalın dəyər zəncirini uzadır, həm də ixrac qabiliyyətini artıraraq milli iqtisadiyyata yeni nəfəs gətirir.

1. Dəyər zəncirinin tamlaşdırılması – kənd təsərrüfatı məhsullarının xammal kimi deyil, emal olunmuş məhsul şəklində bazara çıxarılması yerli istehsalın səmərəliliyini artırır.

2. Texnoloji modernizasiya və innovasiya ehtiyacı – sektorun davamlı inkişafı müasir texnologiyaların tətbiqindən və avtomatlaşdırma səviyyəsindən birbaşa asılıdır.

3. Dövlət dəstəyi və hüquqi-normativ baza – vergi güzəştləri, subsidiyalar və investisiya təşviqləri emal sənayesinin genişlənməsinə əlverişli zəmin yaradır.

4. İxrac potensialının inkişafı – emal olunmuş məhsulların beynəlxalq sertifikatlara uyğunluğu Azərbaycana dünya bazarlarında daha rəqabətli mövqe qazandıra bilər.

5. Kooperasiya və regional emal klasterləri – fermerlərlə emal müəssisələrinin effektiv əməkdaşlığı xammal təminatında davamlılıq və keyfiyyət təmin edir.

6. İnsan kapitalına sərmayə – müasir bilik və bacarığa malik kadrların hazırlanması sektorun dinamik inkişafında həlledici rol oynayır.

7. Ekoloji davamlılıq və tullantısız istehsal – ətraf mühitin qorunması ilə yanaşı, emal prosesi zamanı yaranan tullantılardan əlavə dəyər yaratmaq mümkündür (məs: bioqaz, kompost və s.).

Azərbaycanda kənd təsərrüfatı məhsullarının emalı sektoru iqtisadi və sosial inkişaf üçün böyük potensiala malikdir. Bu potensialdan tam istifadə etmək üçün kompleks yanaşma – texnoloji, institusional, sosial və ekoloji baxış tələb olunur. Davamlı inkişaf üçün dövlət, özəl sektor və beynəlxalq tərəfdaşlar arasında sinxron əməkdaşlıq vacibdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyi. (2023). Aqrar sahənin inkişafı üzrə strateji yol xəritəsi.
2. FAO (2022). Agro-processing in Azerbaijan: Challenges and Opportunities.
3. Əhmədov, V. (2021). *“Kənd təsərrüfatının emalı sənayesi və onun inkişaf istiqamətləri”.* Azərbaycan İqtisadiyyatı Jurnalı, №3, s. 45-52.
4. Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2016). Kənd təsərrüfatı məhsullarının istehsalı və emalı üzrə kompleks tədbirlər planı.
5. Dünya Bankı (2022). Agribusiness and Value Chain Development in the South Caucasus.
6. Həsənli, R. (2020). *“İxracyönümlü kənd təsərrüfatı məhsullarının emalı: Azərbaycan təcrübəsi”.* Milli İqtisadiyyat və İnkişaf, № 4, s. 33-39.

# MÜSTƏQİLLİYİN İLK İLLƏRİNDƏ AZƏRBAYCAN-AVROPA İTTİFAQI MÜNASİBƏTLƏRİNİN SPESİFİK XÜSUSİYYƏTLƏRİ

**Aygün Əliyeva**
*Bakı Slavyan Universiteti*
e-mail: aygun.ibrahimova9785@gmail.com

Azərbaycan Respublikası 1991-ci il 18 oktyabr tarixində dövlət müstəqilliyini bərpa etdikdən sonra bir çox beynəlxalq təşkilatlara üzv olmaqla regional təşkilatlarda da fəal iştirak etməyə başlamışdı. Lakin bu təşkilatlara üzvlük Avropaya inteqrasiya üçün yetərli deyildi. Gələcək inkişafını Qərb modelinə bağlayan Azərbaycan üçün Avropa İttifaqı ilə əməkdaşlıq və sıx əlaqələr qurulması prioritet məsələlərdən biri idi. Ancaq müstəqilliyin ilk illərində ölkə daxilindəki gərgin vəziyyət, digər tərəfdən də Ermənistanın Azərbaycan torpaqlarına təcavüzü ölkənin bu təşkilatla daha fəal əməkdaşlıq etməsi önündə əngəllər yaradırdı. Digər tərəfdən Avropa İttifaqı da postsovet ölkələrini, o cümlədən Azərbaycanı Avropaya inteqrasiya etmək baxımından hələ ki, hazır hesab etmirdi.

1992-ci il 22 oktyabr tarixində Azərbaycanda Avropa İttifaqının Texniki Yardım Proqramı üzrə Milli Koordinasiya Bürosu təsis edilmişdi [6, s. 23]. Ancaq bu təşkilatla əməkdaşlıq 1993-cü il fevralın 27-də quruldu [4, s. 88]. İlk dövrlərdə əməkdaşlıq əsasən iqtisadi sahələri əhatə edir, Avropa İttifaqının respublikamıza humanitar xarakterli yardımlar göndərməsi ilə tamamlanırdı [3, s. 155]. Lakin 1992-ci ildən başlayaraq Azərbaycan Respublikası artıq Avropa İttifaqının diqqət mərkəzində idi. Belə ki, Avropa İttifaqının Azərbaycanla bağlı ilkin təmasları əsasən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı idi. 1992-ci il

mayın 22-də Brüsseldə Avropa İttifaqı tərəfindən Dağlıq Qarabağa dair bəyanat qəbul edildi. Bu bəyanatın mənfi tərəfi o idi ki, Dağlıq Qarabağ icmasını tərəf kimi təqdim edirdi. Halbuki münaqişədə tərəf Dağlıq Qarabağ icması deyil, birbaşa olaraq Ermənistan Respublikası idi [1, s. 150]. Avropa İttifaqının 18 iyun 1992-ci ildə qəbul etdiyi növbəti bəyanatında da elə bir təəssürat yaranır ki, sanki baş verən münaqişə Azərbaycan ərazisində deyil və təcavüzə məruz qalan, ərazi bütövlüyü pozulan Azərbaycan deyil. Lakin bu bəyanatın müsbət tərəfi də var idi. Bəyanatda ATƏM-in himayəsi altında keçiriləcək Minsk Konfransına qədər regionda sülhü bərpa etmək məqsədi ilə Romada ilkin fövqəladə görüş keçirməyə çağırış edilirdi [1, s. 151].

Ümumiyyətlə, Azərbaycan Respublikası Avropa İttifaqı ilə əməkdaşlıq qurduqdan sonra istər bu beynəlxalq təşkilatın, istərsə də Azərbaycan Respublikasının əsas istəyi mövcud problemin dinc yolla və qısa zamanda beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olmaq idi. Artıq 1993-cü il 7 aprel tarixində Avropa İttifaqı məlum münaqişə ilə bağlı növbəti bəyanatla çıxış etdi [1, s. 151-152]. Həmin bəyanatda təşkilata üzv dövlətlər münaqişə ilə bağlı narahatlığını, əməliyyatların Kəlbəcər və Füzuli rayonları istiqamətində genişlənməsindən təəssüfləndiklərini ifadə etməklə kifayətlənirdilər. Təəssüf doğuran hal bu idi ki, təcavüzə məruz qalan Azərbaycan Respublikasına münasibətdə nə konkret münasibət bildirilir, nə də münaqişənin əsl səbəbləri və səbəbkarı barədə hər hansı bir fikir irəli sürülürdü [2, s. 146]. Avropa İttifaqı bacardığı qədər məsələyə neytral mövqe nümayiş etdirməklə təcavüzkarın kim olduğunu belə etiraf etməkdən çəkinirdi. Avropa İttifaqının 1993-cü il 24 iyun tarixli bəyanatı da maraqlıdır. Bu bəyanatda cənab Rafaellinin təqdim etdiyi ATƏM planının Dağlıq Qarabağ mübahisəsinin bütün iştirakçıları tərəfindən qəbul edilməsi alqışlanır. İtaliyanın Xarici İşlər Nazirliyinin yüksək vəzifəli rəsmisi

professor Mario Rafaellinin təqdim etdiyi planın mahiyyəti də maraq doğurur. Bu plana görə Dağlıq Qarabağa İtaliyanın ərazisi hesab edilən Cənubi Tirol kimi muxtariyyət verilməsi nəzərdə tutulurdu. Qeyd edək ki, Cənubi Tirolun geniş qanunverici və idarəetmə hüquqları var, həm alman, həm də italyan dillilərin hüquqları qorunur. Xarici siyasət və müdafiə məsələləri isə mərkəzin tabeliyindədir. Yığılan verginin təxminən 90 faizi əyalətdə qalır, ayrıca İtaliyanın dövlət büdcəsinə də ayrılmalar edilir. Cənubi Tirolda qəbul edilən hər hansı qanunla bağlı ziddiyyət yaranarsa, məsələ Konstitusiya məhkəməsində həll edilir. Vəzifəyə təyin etmə rotasiya qaydası üzrə tətbiq olunur [5, s. 38]. Bu model başlanğıcda həm Ermənistan, həm də Azərbaycan Respublikası tərəfindən dəstəklənsə də daha sonra Ermənistanın ambisiyalarına görə istənilən nəticəni vermədi. Hadisələrin sonrakı inkişafında da Azərbaycan problemi hərbi yolla həll etdiyinə görə ortada Dağlıq Qarabağla bağlı hansısa status problemi də qalmadı və münaqişə Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapdı.

1993-cü il 3 sentyabr tarixində Avropa İttifaqı tərəfindən daha bir bəyanat verildi. Bu sənəddə ermənilərin Azərbaycana qarşı hərbi hücumları pislənir və qaçqınların sayının həddən artıq çoxalması ilə bağlı narahatlıq ifadə edilirdi. Eyni zamanda Avropa İttifaqı ATƏM-in Minsk qrupunun Ermənistan və Azərbaycan arasında sülhün əldə edilməsi istiqamətində göstərdiyi cəhdləri dəstəklədiyini bəyan edirdi. Ən mühüm məqam isə hər iki tərəfdən BMT qətnamələrinə hörmət göstərilməsinin tələb olunması, Kəlbəcər, Ağdam, Füzuli, Cəbrayıl rayonlarından qoşunların çıxarılmasının zəruriliyinin qeyd edilməsi idi. Bu bəyanatın ən qüsurlu cəhətlərindən biri də sözsüz ki, Ermənistandan Azərbaycan ərazilərinə hücum edən yerli erməni qüvvələrinə yardım göstərməmək tələbi idi. Çünki Azərbaycanda hərbi əməliyyatları yerli ermənilər deyil, birbaşa olaraq Ermənistan ordusu həyata keçirirdi [1, s. 153].

Bütövlükdə, fikrimizi ümumiləşdirərək belə qənaətə gələ bilərik ki, yaranışının ilk illərində əsas hədəfi beynəlxalq aləmdə mövqelərini daha da möhkəmləndirmək olan Azərbaycan Respublikası Avropa İttifaqı ilə əməkdaşlıq qurmaqla nəinki bu məqsədinə nail oldu, hətta ölkəmizin gələcəkdə həm siyasi, həm iqtisadi, həm də sosial sferalarda daha sürətli inkişafı üçün münbit zəmin yaratdı.

**Ədəbiyyat**


1. Əhmədov, E.İ. *Ermənistanın Azərbaycana təcavüzü: Sənədlər və materiallar.* I kitab. – Bakı: Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu, – 2015. – 324 s.
2. Həmidov, S.S. Avropa İttifaqında siyasi inteqrasiya problemi : / siyasi elmlər üzrə fəlsəfə doktoru dis./ – Bakı, 2007. – 205 s.
3. Hüseynova, H.K. Azərbaycan Avropa inteqrasiya prosesləri sistemində: / siyasi elmlər doktoru dis. / – Bakı, 2001. – 314 s.
4. Qasımov, M.C. *Azərbaycanın xarici siyasəti: konsepsiya məsələləri* / M. Qasımov; elmi red.: Həsən Əlibəyli. – Bakı: Mütərcim, – 1997. – 124 s.
5. Şahinoğlu, E. *Dağlıq Qarabağ: statussuz status: dünyanın 10 muxtariyyət təcrübəsi* / E.Şahinoğlu. – Bakı: Qanun, – 2010. – 80 s.
6. Vaqif qızı, L. Azərbaycan Respublikası ilə Avropa İttifaqı arasında əməkdaşlıq (1991-2008-ci illər): / tarix üzrə fəlsəfə doktoru dis. / – Bakı, 2017. – 172 s.

# AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT QULLUĞUNDA İNNOVASİYALAR:SİSTEMLİ TƏHLİL

**Gülnarə Əliyeva[1], Elvin Əzizbəyov[2]**

[1,2]*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: eazizbayov@dia.edu.az

**Xülasə**

Təqdim olunan məqalə Azərbaycan Respublikasında dövlət qulluğu sistemində innovasiyaların tətbiqi təcrübəsinin təhlilinə həsr olunmuşdur. Məqalədə Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin cari vəziyyəti araşdırılmış, dövlət qulluğunda həyata keçirilən innovasiyalar və informasiya-kommunikasiya texnologiyaları (İKT) əsaslı yeniliklər təhlil olunmuşdur.

***Açar sözlər:*** Dövlət idarəçiliyi, dövlət qulluğu sistemi, innovasiya, təcrübə.

## Giriş

Davamlı olaraq yenilənən müasir dövlət qulluğu sistemində dövlət qulluqçularının şəxsi yaradıcılıq potensialı və müasir idarəetmə innovasiyalarının effektiv tətbiqi bacarıqları mühüm əhəmiyyət daşıyır. Dövlət qulluğu sistemində rəqəmsal texnologiyaların tətbiqinin genişlənməsi müasir dövlət idarəçiliyində vətəndaş məmnunluğunun artırılması, şəffaflığın təmin edilməsi, operativliyin yüksəldilməsi, optimal qərarvermə proseslərinin dəstəklənməsi, uzaqdan idarəetmənin həyata keçirilməsi və mövcud resurslardan səmərəli istifadə olunması baxımından xüsusi əhəmiyyət kəsb edir.

## Azərbaycan Respublikasında dövlət qulluğu sistemində innvoasiyaların tətbiqi təcrübəsi

Azərbaycanda dövlət qulluğu sistemində müasir innovasiyaların tətbiqi 2000-ci illərin ortalarından başlayır. Ölkədə kadrların yenidən hazırlanması və peşəkarlığının artırılması istiqamətində atılan ilk addımlar, dövlət qulluğu sisteminin innovativ inkişafının başlanğıcı kimi qiymətləndirilə bilər. Dövlət qulluğunun innovativ yeniliklərlə təmin edilməsi həm də strateji əhəmiyyət kəsb edir. Bu strategiyanın prioritetlərindən biri, cəmiyyətin inkişaf tendensiyalarını nəzərə alaraq idarəetmə qərarlarının hazırlanması və onların həyata keçirilməsi prosesidir. Dövlət qulluğu sistemində tətbiq ediləcək innovasiyaların müəyyənləşdirilməsində bu məqam həlledici rol oynayır.

Azərbaycan Respublikasında dövlət qulluğu sisteminin innovasiyalar üzərində qurulmasının təmin edilməsi istiqamətində ən mühüm addımlardan biri "bir pəncərə" sisteminin tətbiq edilməsidir. Bu sistem təqdim olunan dövlət xidmətlərinin keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəlməsini təmin etmiş və dövlət xidmətlərindən daha çox sayda insanın yararlanmasına imkan yaratmışdır.

Qeyd olunduğu kimi Azərbaycan Respublikasında həyata keçirilən dövlət qulluğu sisteminin təkmilləşdirilməsi strategiyası geniş spektrli innovativ texnologiyalara əsaslanır. Son onillikdə dövlət qulluğu sistemində İKT-nin tətbiq olunması istiqamətdə bir sıra ciddi nailiyyətlər də əldə edilmişdir. Azərbaycanda elektron hökumətin əsası 2003-cü ildə qəbul edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya kommunikasiya texnologiyaları üzrə Milli Strategiyası (2003-2012-ci illər)" ilə qoyulmuşdur. E-hökumət portalı hal-hazırda da aktiv şəkildə fəaliyyət göstərir. Bu portal üzərindən dövlət qurumlarının təklif etdikləri xidmətlərdən vətəndaşların keyfiyyətli şəkildə yararalanması üçün hər cür şərait

yaradılmışdır. Bu portalın istifadəyə verilməsə cəmiyyətə digər bir sıra elektron xidmətlərin göstərilməsi üçün də baza rolunu oynayır.

Bununla yanaşı, göstərilmiş xidmətlərin və əldə edilmiş nəticələrin qiymətləndirilməsi də oldquca əhəmiyyətli məsələlərdəndir. Azərbaycanda dövlət xidmətlərinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi tərəfindən həyata keçirilir [1]. Agentlik Azərbaycan Respublikası Prezidentinin Dövlət Xidmətlərinin Elektron Reyestrinin yaradılması ilə bağlı tədbirlər haqqında Fərmanına əsasən dövlət xidmətlərinin qiymətləndirilməsi işini aparır. Aparılan qiymətləndirmə xidmətə müraciət imkanları (elektron, poçt, birbaşa), xidmətin göstərilmə müddəti, xidmətin təşkilində istifadə edilən informasiya ehtiyatlarının elektronlaşdırılması və digər dövlət orqanlarının informasiya sistemləri ilə inteqrasiyası kimi əsas parametrlərə malik "ASAN xidmət indeksi" nə əsaslanır.

Azərbaycan Respublikasında dövlət qulluğu sistemində innovasiyaların tətbiqi istiqamətində bir sıra digər işlər də görülmüşdür. Buna misal olaraq Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanan Sərəncamlarla yaradılmış "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs [2] və DOST Agentliyini [3] göstərmək kifayətdir. Bütün bu innovativ addımların qlobal miqyasda mühüm nəticələri də olmuşdur. Bu uğurlu nəticələrə ASAN Xidmətin əldə etdiyi mükafatları nümunə gətirmək kifayət edəcəkdir. 2014-cü ildə qlobal miqyaslı konsaltinq və audit şirkəti olan "Price water house Coopers" (PwC) tərəfindən dünyanın 18 iri şəhərində aparılmış araşdırmasına əsasən, dünyanın yalnız bir neçə şəhərində vətəndaşlar rahat şəkildə və vaxt itirmədən istədikləri sənədləri əldə edə bilirlər. Bir sıra əhəmiyyətli kriteriyalar əsasında aparılmış araşdırmanın nəticələrinə görə, "ASAN xidmət" dünyada ilk üçlüyə daxil olmuşdur [4].

## Nəticə

Aparılmış tədqiqatın nəticələrinə görə, Azərbaycan Respublikasında dövlət qulluğunun inkişafı istiqamətində tətbiq olunan innovasiyaların təbiəti göstərir ki, elektron idarəetmə ən səmərəli innovasiya növüdür. Bu, dövlət idarəçiliyinin bütün sahələrində optimallaşdırılmasının ən təsirli mexanizmlərindən biri kimi mühüm rol oynayır.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin yaradılması və dövlət orqanları tərəfindən vətəndaşlara göstərilən xidmətlərin təkmilləşdirilməsi ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı, Bakı şəhəri, 13 iyul 2012-ci il.
2. Elektron hökumətin inkişafı və rəqəmsal hökumətə keçid ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 14 mart 2018-ci il.
3. “Əhalinin məşğulluğu, əmək, sosial müdafiə və təminat sahələrində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında”.Azərbaycan Respublikası Prezidentinin Fərmanı. Bakı, 9 avqust 2018-ci il.
4. https://azertag.az/xeber/Azerbaycanda_yaradilmis_ASAN_xidmet_beynelxalq_sirket_terefinden_yuksek_deyerlendirilib-884112

# HEYDƏR ƏLİYEV AZƏRBAYCAN KONSTİTUSİYASININ MÜƏLLİFİ KİMİ: STRATEJİ İDARƏETMƏ VƏ DAVAMLI İNKİŞAFIN HÜQUQİ ƏSASLARI

**Nəzrin Əliyeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
*e-mail: nazrin.aliyeva@meclis.gov.az*

Ümummilli Lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin memarı və 1995-ci il Konstitusiyasının əsas müəllifi olaraq ölkəmizin suverenliyinin möhkəmləndirilməsi və davamlı inkişafın təmin edilməsində həlledici rol oynamışdır. 1995-ci ildə yeni Konstitusiyanın hazırlanması məqsədilə yaradılmış Konstitusiya Komissiyasına şəxsən Heydər Əliyev sədrlik etmişdir. Onun rəhbərliyi ilə tərtib edilmiş layihə Konstitusiya hüququnun əsas prinsiplərini müəyyənləşdirmiş və ümumxalq səsverməsi ilə qəbul edilmişdir. Bu səbəbdən də, Heydər Əliyev haqlı olaraq Azərbaycanın müstəqil Konstitusiyasının müəllifi hesab olunur. Bu Əsas Qanun ölkədə hüquqi dövlət quruculuğunun təməlini qoymuş, cəmiyyətin firavanlığı və ədalətli sosial-iqtisadi sistem arzusu Konstitusiyanın Preambulasında əks olunaraq davamlı inkişafın hüquqi bazasının başlanğıcını təşkil etmişdir. Nəticədə Konstitusiya ölkənin uzunmüddətli inkişaf kursunu və inzibati modernləşmə strategiyasını təmin edən əsas hüquqi akt kimi həlledici rol oynayıb.

Konstitusiyada təsbit olunan bir sıra vacib müddəalar – iqtisadi azadlıqlar, ətraf mühitin qorunması, sosial təminat hüquqları və dövlətin tənzimləyici funksiyaları – dövlət idarəçiliyində inkişafın ayrı-ayrı strateji istiqamətlərini müəyyən etdi. Bu, Heydər Əliyevin idarəçilik fəlsəfəsində “güclü dövlət, hüquqi əsaslar üzərində qurulmalıdır” prinsipinin təzahürü idi. O, dövlətçilikdə sabitliyin yalnız qanun hakimiyyəti şəraitində mümkün olduğunu vurğulayır,

bütün qərarlar və islahatlar üçün Konstitusiyanı ən yüksək meyar kimi nəzərdən keçirirdi.

Azərbaycan Respublikasının Konstitusiyası qəbul olunduğu dövrdən etibarən davamlı (dayanıqlı) inkişaf prinsiplərini hüquqi müstəviyə gətirmişdir. Əsas Qanunun 15-ci və 16-cı maddələri iqtisadi və sosial inkişafın qarşılıqlı əlaqəsinə dair dövlətin öhdəliklərini müəyyən edir. Maddə 15-də iqtisadiyyatın müxtəlif mülkiyyət növlərinə əsaslanaraq xalqın rifahına xidmət etməsi, dövlətin bazar münasibətləri zəminində sosial yönümlü iqtisadiyyatın inkişafına şərait yaratması öz əksini tapmışdır. Maddə 16-da isə Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın sosial müdafiəsinə, rifahının yüksəldilməsinə və layiqli həyat səviyyəsinin təmin edilməsinə qayğı göstərməsi konstitusion norma kimi təsbit olunmuşdur. Bununla, sosial ədalət və iqtisadi tərəqqi birgə dövlət prioriteti kimi müəyyən edilmişdir.

Konstitusiyanın 39-cu maddəsi isə hər kəsin sağlam ətraf mühitdə yaşamaq hüququnu bəyan edir və dövlətin ekoloji tarazlığın qorunmasına təminat verdiyini bildirir. Bu maddələr ölkənin davamlı inkişaf siyasətinin üç əsas sütununu – iqtisadi rifah, sosial ədalət və ekoloji balansı – ali hüquqi norma səviyyəsinə yüksəltdi. Ümummilli Liderin təşəbbüsü ilə həmin konstitusion prinsipləri reallaşdırmaq üçün əhəmiyyətli qanunvericilik addımları atıldı. Xüsusilə, mülkiyyət münasibətlərinin liberallaşdırılması, torpaq islahatları və iqtisadi fəaliyyətin tənzimlənməsi sahəsində mühüm qanunlar qəbul edildi. Məsələn, 1996-cı ildə "Torpaq islahatları haqqında", 1999-cu ildə "Ekoloji təhlükəsizlik haqqında", 2000-ci ildə "Ətraf mühitin mühafizəsi haqqında" və "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" qanunlar qüvvəyə mindi. Bu hüquqi aktlar Konstitusiyada ifadə olunmuş prinsiplərin tətbiqi üçün möhkəm zəmin yaradaraq, davamlı inkişaf konsepsiyasını normativ-hüquqi müstəvidə gerçəkləşdirdi.

Heydər Əliyevin rəhbərliyi dövründə həyata keçirilən institusional islahatlar davamlı inkişaf strategiyasının reallaşmasına xidmət etmişdir. Xüsusilə, milli sərvətlərin şəffaf və səmərəli idarə olunması, gəlirlərin hazırki və gələcək nəsillərin maraqları nəzərə alınmaqla istifadə edilməsi məqsədilə Dövlət Neft Fondu yaradıldı. Ulu Öndərin 29 dekabr 1999-cu il tarixli Fərmanı ilə təsis edilən Neft Fondu (SOFAZ) ölkənin neft-qaz gəlirlərinin nəsillərarası bərabərlik prinsipi əsasında toplanıb idarə olunmasını təmin edən suveren fond kimi fəaliyyətə başladı. Bu fondun əsas missiyası enerji sektorundan əldə olunan vəsaitləri hazırki və gələcək nəsillərin ehtiyacları naminə qorumaq və səmərəli yönəltməkdir. Fondun yaradılması ilə Heydər Əliyev strateji dövlət idarəçiliyi aləti olaraq, təbii ehtiyatların dayanıqlı inkişaf məqsədləri üçün istifadə edilməsinə nail oldu.

Bununla paralel, ölkənin regionları arasında balanslı inkişaf strategiyasına xüsusi diqqət yetirildi. 1998-ci ildən etibarən qəbul olunan regional sosial-iqtisadi inkişaf proqramları, paytaxt və regionlar arasında iqtisadi fərqlərin azalmasına, hər bir bölgənin potensialının reallaşmasına yönəlmişdi. Həmin dövrdə dövlət investisiya siyasəti regionlarda infrastrukturun bərpası, yeni iş yerlərinin yaradılması və sosial xidmətlərin yaxşılaşdırılmasına isti-qamətlənmişdi. Nəticədə, ölkə daxilində daha tarazlı və inklüziv bir inkişaf modeli formalaşmağa başladı ki, bu da davamlı inkişafın vacib tərkib hissəsidir.

Dövlət idarəçiliyinin şəffaflığı və hesabatlılığı sahəsində də vacib institusional dəyişikliklər həyata keçirildi. Konstitusiya əsasında 2001-ci ildə yaradılmış Hesablama Palatası (Ali Audit orqanı) və digər nəzarət qurumları dövlət büdcəsi və sərvətlərinin istifadəsinə nəzarəti gücləndirdi. Bu institutlar vasitəsilə maliyyə intizamı və şəffaf hesabatlılıq təmin edilərək korrupsiya risklərinin azaldılması, vəsaitlərin səmərəli bölgüsü hüquqi cəhətdən nəzarət altına alındı. Beləliklə, Heydər Əliyevin irəli sürdüyü institusional

islahatlar paketi davamlı inkişafın idarəetmə mexanizmlərini formalaşdırdı: strateji dövlət fondları, regionlar üzrə proqramlar və nəzarət orqanları sayəsində uzunmüddətli və dayanıqlı inkişaf siyasəti üçün institusional təminat yaradıldı.

Davamlı inkişafın ayrılmaz tərkib hissəsi olan ekoloji və sosial sabitlik, Heydər Əliyevin dövlət siyasətində xüsusi yer tuturdu. Ətraf mühitin mühafizəsi istiqamətində atılan addımlar bunu əyani göstərir. 1998-ci ildə qəbul edilmiş Milli Ekoloji Fəaliyyət Proqramı və ardınca ekoloji qanunvericilik aktları ölkədə çevrənin qorunmasını dövlət siyasətinin əsas prioritetlərindən birinə çevirdi. Yuxarıda qeyd olunan "Ətraf mühitin mühafizəsi haqqında" (2000) və "Xüsusi mühafizə olunan təbiət əraziləri haqqında" (2000) qanunlar müstəqillik dövründə ekoloji hüquq sahəsində fundamental normativ bazanı formalaşdırdı . Həmçinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yaradılması (2001) ölkədə ekoloji problemlərin həllinə kompleks və daimi nəzarət sisteminin qurulduğunu göstərdi. Konstitusiyanın tələblərinə uyğun olaraq bu addımlar indiki və gələcək nəsillərin sağlam mühitdə yaşamaq hüququnun təmin edilməsinə xidmət edirdi.

Sosial sabitlik və əhalinin sosial rifahının yaxşılaşdırılması istiqamətində də Heydər Əliyevin Konstitusiyadan irəli gələn təşəbbüsləri mühüm rol oynadı. Konstitusiyanın 16-cı maddəsi dövlətin aztəminatlı təbəqələrin müdafiəsi, hər kəsin layiqli həyat səviyyəsinin təmin edilməsi öhdəliyini qoyur. Bu prinsipə uyğun olaraq 1995-ci ildən sonra əhalinin sosial müdafiəsini gücləndirən bir sıra proqramlar tətbiq edildi. Xüsusilə, sosial təminat sistemi yenilənərək pensiya və müavinətlərin verilməsi sahəsində islahatlar aparıldı, müharibə veteranları, qaçqın və məcburi köçkünlər, əlillər kimi həssas qrupların müdafiəsi üçün xüsusi dövlət fondları və proqramları formalaşdırıldı. Təhsil və səhiyyə sahəsində də konstitusion öhdəliklərə əsaslanaraq yeni qanunlar qəbul olundu, infrastruktur layihələri gerçəkləşdirildi (məsələn, ümumtəhsil məktəblərinin

maddi bazasının yaxşılaşdırılması, kənd yerlərində tibb məntəqələrinin bərpası və s.). Bu sosial islahatlar cəmiyyətdə sosial ədalət prinsiplərini möhkəmləndirdi və geniş kütlənin dövlətə inamını artırdı.

Atılan bütün bu addımlar Heydər Əliyevin idarəçilik fəlsəfəsinin mərkəzində dayanan "insan amili"nə — yəni vətəndaşın mənafeyinə xidmət etmək prinsipinə — tam uyğun gəlirdi. Ulu Öndər çıxışlarında dəfələrlə qeyd edirdi ki, dövlət siyasətinin ali məqsədi xalqın rifahıdır (Konstitusiyanın 12-ci maddəsində də dövlətin ali məqsədi insan hüquq və azadlıqlarının təminatı və layiqli həyat səviyyəsinin təmin olunması kimi göstərilir). Bu mənada, həm ekoloji təhlükəsizliyə, həm də sosial rifaha yönəlmiş hüquqi tədbirlər ölkədə dayanıqlı inkişaf üçün sabit və ədalətli mühiti təmin etmişdir.

Nəticə olaraq, Heydər Əliyevin müəllifi olduğu 1995-ci il Konstitusiyası və onun əsasında formalaşmış mükəmməl hüquqi sistem müasir Azərbaycanın davamlı inkişaf strategiyasının təməlini təşkil edir. Möhkəm konstitusion baza və sabit idarəetmə modeli ölkədə siyasi-ictimai sabitliyi bərqərar etmiş, sosial-iqtisadi tərəqqiyə şərait yaratmışdır. Ən əsası, bu Konstitusiya indiki və gələcək nəsillərin mənafelərini nəzərə alan dövlət quruculuğu modelini mümkün etmiş, davamlı dövlətçilik ənənəsini formalaş-dırmışdır. Azərbaycanın əldə etdiyi iqtisadi yüksəliş və sosial rifah artımı da göstərir ki, düzgün hüquqi əsaslar üzərində qurulmuş idarəçilik dayanıqlı nəticələr verir.

Beləliklə, Heydər Əliyevin əsasını qoyduğu konstitusion dövlət modeli və müəyyən etdiyi inkişaf prioritetləri bu gün də Azərbaycan Respublikasının dayanıqlı inkişaf kursunun hüquqi dayaq nöqtəsidir. Onun irəli sürdüyü strateji xəttin davam etdirilməsi Azərbaycanın həm indiki, həm də gələcək nəsillər üçün müasir, sabit və balanslı inkişafını təmin edəcək ən başlıca amildir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995)
2. Azərbaycan Respublikası Prezidentinin 29 dekabr 1999-cu il tarixli 240 nömrəli Fərmanı ilə Dövlət Neft Fondunun yaradılması
3. "Ətraf mühitin mühafizəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (2000).
4. "Xüsusi mühafizə olunan təbiət əraziləri və obyektləri haqqında" Azərbaycan Respublikasının Qanunu (2000)
5. İsmayılov, V.S. (2023). "Müasir Azərbaycanın dövlət idarəçiliyində dəyişikliklərin idarə olunması"
6. Konstitusiya Məhkəməsinin rəsmi məlumatı: https://constcourt.gov.az/az/details/1596


# ŞƏRQİ ARALIQ DƏNİZİNİN ENERJİ TƏHLÜKƏSİZLİYİ KONTEKSTİNDƏ KİPR PROBLEMİ


**Səbinə Əliyeva**
*Bakı Slavyan Universiteti*
e-mail: aliyevasabina23@yahoo.com


Son onilliklərdə Şərqi Aralıq dənizi bölgəsində əhəmiyyətli geosiyasi dəyişikliklər baş vermişdir. Yeni karbohidrogen ehtiyatlarının kəşfi regionun geosiyasi və təhlükəsizlik dinamikasındakı dəyişikliklərin əsas hərəkətverici qüvvəsi olmuşdur. Şərqi Aralıq dənizində, o cümlədən Kipr sahillərində sualtı karbohidrogen ehtiyatlarının kəşfi bölgəyə geosiyasi və geoiqtisadi üstünlüklər gətirməklə yanaşı böyük güclərin və bölgə ölkələrinin marağını artırdı, onları öz strateji hesablamalarına və beynəlxalq perspektivlərinə yenidən baxmağa sövq etdi, həmçinin dövlətlərarası münasibətlərə də sirayət edərək bölgədə qeyri-sabitlik yaratdı. Regiona

artan enerji maraqlarının rəqabəti, geosiyasi ziddiyyətlərin kəskinləşməsi fonunda Kipr probleminin həllinə yanaşmalar da yeni meyarlar qazandı. Bu gün bölgənin enerji təhlükəsizliyi kontekstində problemin həlli xüsusilə aktualdır və regionun enerji sabitliyi problemin siyasi həllini labüd edir.

ABŞ geosiyasi Araşdırmalar Mərkəzinin (USGS) 2010-cu il hesabatına görə, Kipr adasının ətrafında ümumilikdə 30 milyard barrel neft ehtiyatı vardır [3, s.20]. Kipr Respublikası adı altında faktiki kiprli yunan hakimiyyətinin təbii qaz ehtiyatlarını öz mülkiyyəti hesab etməsi, kiprli türklərlə bölüşmək niyyətində olmaması, resursların birtərəfli kəşfi və istismarı haqqında digər dövlətlərlə müqavilələr imzalaması Türkiyənin və Şimali Kiprin etirazları ilə qarşılandı və Türkiyənin özünün müstəsna iqtisadi zona və kontinental şelf zonası hesab etdiyi sularda kəşfiyyat işlərinə başlamasına səbəb oldu. Türkiyənin məsələ ilə bağlı mövqeyi ondan ibarətdir ki, karbohidrogen yataqları bütün Kipr xalqının, o cümlədən kiprli türklərin sərvətidir və əldə edilən gəlirlər ada xalqı arasında bərabər bölüşdürülməlidir. Lakin Eni, Total, ExxonMobil kimi beynəlxlaq enerji şirkətlərinin bölgədə resursların kəşfi və istismarı fəaliyyətinə başlaması Şimali Kiprin Türkiyənin "Türkiyə Petrolleri" şirkətinə ada ətrafındakı resursların istismarı üçün lisenziya verməsinə və Piri Rəis gəmisinin ərazidə seysmik kəşfiyyat işlərinə başlamasına səbəb oldu [2, s.5-6]. Nəticədə enerji amili bölgədəki vəziyyəti gərginləşdirərək yeni böhranın yaranmasına gətirib çıxardı.

Şərqi Aralıq dənizi regionundan qaz ehtiyatlarının Avropaya nəqlinin təmin edilməsini, Aİ ölkələrinin Rusiyadan enerji asılılığının azalmasını nəzərdə tutan EastMed Qaz forumu kimi enerji layihələri Avropanın enerji təhlükəsizliyi üçün xüsusilə əhəmiyyətlidir. Layihənin 2025-ci ilə qədər reallaşdırılması planlaşdırılsa da, bu günə qədər gerçəkləşdirilməmişdir, hətta bir sıra iqtisadi, maliyyə,

siyasi, texniki çətinliklər səbəbilə ləğv edilmə ehtimalı da vardır. ABŞ da ilk əvvəllər layihəni dəstəkləsə də, daha sonra dəstəyini geri çəkmişdir. ABŞ rəsmiləri açıqlamalarında daha ekoloji alternativlərin olduğunu, boru xəttinin inşasının böyük maliyyə tələb etdiyini, hətta EastMed boru xəttindən tamamilə imtina edilməsinin zəruri olduğunu bildirmişdir [1]. Cənubi Kiprin və Yunanıstanın Kipr türk hökuməti və Türkiyə ilə karbohidrogen hasilatı təşəbbüslərini müzakirə etməyəcəyi barədə israrlı mövqeyi, birtərəfli fəaliyyəti, kiprli türklərin suveren hüquqlarını heçə sayaraq onları EastMed boru kəməri layihəsindən təcrid etməsi Kiprə aid beynəlxalq müqavilələrin şərtlərini pozur, regionun enerji təhlükəsizliyini təhdid edir, üstəlik, münaqişənin əbədiləşdirilməsinə kömək edir.

Beləliklə, bu gün Kipr problemi artıq nəinki adanın daxili siyasi situasiyasına təsir edən etnik və siyasi problemdir, həm də enerji, təhlükəsizlik məsələsidir, bütün regionun enerji təhlükəsizliyini təhdid edən beynəlxalq münaqişədir. Göründüyü kimi enerji amili bir tərəfdən Kipr probleminin həlli istiqamətində maraqlı dövlətlərin dialoquna və əməkdaşlığına imkan yaradır, digər tərəfdən isə problemin eskalasiyasına, hərbi meyar qazanması ehtimalını da artırır. Bu baxımdan Şərqi Aralıq dənizində karbohidrogen ehtiyatları tərəflərin maraqları nəzərə alınmaqla kəşf və istismar edilməli, əldə edilə gəlirlər ada xalqı arasında ədalətli paylanmalı, regionda sabitlik və təhlükəsizliyin təmin edilməsinə xidmət etməlidir. Yalnız bu halda bölgədə sülh təmin edilə və Kipr probleminin tənzimlənməsi istiqamətində yenidən konstruktiv dialoq və əməkdaşlıq üçün əlverişli mühit imkanı yarana bilər.

## Ədəbiyyat

1. Chrysopoulos P. Why is the U.S. Pulling the Plug on the EastMed Pipeline? Greek Reporter, 13 January, 2022 // https://greekreporter.com/2022/01/13/us-eastmed-pipeline-gas/

2. Olgun M.E. Hydrocarbons Will Determine the Political Future of Cyprus, Istituto Affari Internazionali, IAI Papers 19, 2019 // https://www.iai.it/sites/default/files/iaip1920.pdf
3. Terzi F., Asal U.Y. Doğu Akdeniz'deki Gelişmelerin Kıbrıs Sorununa Yansıması: Enerji Jeopolitiğinde Yeni Dönem ve Jeostratejik Dönüşüm, DOI: 10.26466/opus.873401, OPUS Ulislararası Toplum Araştırmaları Dergisi, C. 18, S. 40, 2021 // https://dergipark.org.tr/tr/download/article-file/1552184

# DÖVLƏT İDARƏÇİLİYİNDƏ HƏSSAS ƏHALİ QRUPLARI İLƏ İŞİN ƏHƏMİYYƏTİ

**Yusif Əliyev**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: yusif.aliyev.97@outlook.com

Dövlət idarəçiliyi cəmiyyətin müxtəlif təbəqələrinə xidmət göstərmək üçün geniş bir sahəni əhatə edir. Həssas əhali qrupları isə xüsusi qayğı və dəstək tələb edən şəxslərdən iba-rətdir. Bu qruplar sosial, iqtisadi, psixoloji və fiziki çətinliklərlə üzləşən insanlardan ibarət olub, onların cəmiyyətin əsas resurslarına bərabər daxil olmaları təmin edilməlidir. Həssas əhali qruplarına aid olanlar arasında şəhid ailəsi üzvləri, əlilliyi olan şəxslər, aztəminatlı ailələrin üzvləri, məcburi köçkünlər, ünvanlı sosial yardım alanlar, etnik və dini azlıqlar və digər qruplar mövcuddur.

Bu tezisin yazılmasının əsas məqsədi Azərbaycanda dövlət idarəçiliyində həssas əhali qrupları ilə işin əhəmiyyətini göstərmək və bu qrupdan olan şəxslərin ehtiyaclarının qarşılanması üçün dövlət siyasətinin gücləndirilməsinə dair istiqamətlər təklif etməkdir.

Həssas qrupların ehtiyaclarına yönəlmiş effektiv siyasətlərin tətbiqi, cəmiyyətin bütün üzvlərinin bərabər imkanlarla yaşamasını təmin edəcək və dövlətin sosial ədalət prinsiplərini möhkəmləndirəcəkdir.

Həssas əhali qruplarının xüsusiyyətləri, onların həyat şəraitinə və qarşılaşdıqları çətinliklərə görə fərqlidir. Bu qruplar adətən dövlətin sosial xidmətlərinə daha çox ehtiyac duyurlar.

Eyni zamanda bu qrupdan olan şəxslərin əksəriyyəti, cəmiyyətdə zəif sosial və iqtisadi vəziyyətə malikdir. Əlil insan-lar, yaşlılar, qaçqınlar və az gəlirli ailələr dövlətin sosial yardımlarına və xidmətlərinə daha çox ehtiyac duyurlar. Əlil insanların işlə təmin olunması, sosial xidmətlərdən istifadə edilməsi və bərabər hüquq-larının qorunması sahəsində ciddi çətinliklər mövcuddur. Həmçinin həssas əhali qruplarının üzləşdiyi psixoloji təsirlər də olduqca əhəmiyyətlidir. Bu təsirlər onların sosial həyatlarını, əmək bazarına inteqrasiyalarını və ümumi rifahlarını məhdudlaşdırır.

Həssas əhali qrupları ilə işin aparılmasında dövlətin rolu, onların ehtiyaclarını qarşılayacaq sosial siyasətləri və xidmətləri təmin etməkdir. Dövlətin siyasətləri sosial müdafiə sistemlərini gücləndirmək, iqtisadi bərabərsizlikləri aradan qaldırmaq və bərabər hüquqlar təmin etmək məqsədi güdür. Həssas əhali qrupları üçün sosial xidmətlər və dəstək proqramları, onların həyat keyfiyyətini artırmağa yönəlmişdir. Əlil insanlar üçün reabilitasiya xidmətləri, yaşlılar üçün səhiyyə və sosial xidmətlər, uşaqlar üçün təhsil və psixoloji dəstək, qaçqınlar üçün yaşayış təminatı kimi xidmətlər dövlət tərəfindən həyata keçirilir.

Həssas əhali qruplarına yönəlik təklif kimi dövlətin həssas əhali qruplarına dəstək verməsi üçün siyasətlərini daha da

gücləndirməsi, sosial yardımların və təhsil imkanlarının artırılması, işləmək üçün əlverişli şəraitlərin yaradılması, bu qrupların hüquqlarının qorunması üçün addımların atılmasını göstərmək olar. İctimai və özəl sektor arasında əməkdaşlığın gücləndirilməsi, həssas əhali qruplarına verilən dəstəyin effektivliyini artıracaq. Özəl sektorun sosial məsuliyyət proqramları dövlət tərəfindən nəzərdə tutulan sosial xidmətlərə əlavə dəstək verə bilər.

Dövlət idarəçiliyində həssas əhali qruplarına xidmət göstərilməsi yalnız hüquqi təminatlarla bitmir. Bu, həm də sosial və iqtisadi bərabərliyin təmin edilməsi, bu qrupların ehtiyaclarının qarşılanması üçün hərtərəfli bir yanaşma tələb edir. Dövlətin, sosial xidmətlər və dəstək proqramları vasitəsilə bu qruplara yönəlik siyasətləri gücləndirməsi vacibdir. Həmçinin, ictimai və özəl sektor arasında əməkdaşlığın inkişafı, beynəlxalq təcrübələrdən yararlanma, sosial siyasətlərin daha da təkmilləşdirilməsi, həssas əhali qruplarının həyat keyfiyyətini yüksəldəcəkdir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Elektron Hökümət Portalı - Rəsmi məlumat və xidmətlər üçün.
2. Azərbaycan Respublikasında sosial xidmətin inkişafına dair 2023-2026-cı illər üçün dövlət proqramı. Bakı, 2023.
3. "Azərbaycanda həssas əhali qruplarının sosial müdafiəsi". Maarifləndirici-kütləvi toplu. Bakı, "İMZA" 2023, 72 səh.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASININ MÜƏLLİFİ KİMİ

**Nərmin Əlizadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nermin_elizade@icloud.com

1995-ci il Azərbaycan dövlətçiliyi üçün əlamətdar bir tarix kimi yadda qaldı. Məhz bu ildə Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın ilk Konstitusiyası qəbul olundu. Bu fundamental hüquqi sənəd dövlət idarəçiliyi sahəsində əsaslı islahatların həyata keçirilməsinə hüquqi zəmin yaratdı və Azərbaycan Respublikasının demokratik, hüquqi və dünyəvi dövlət kimi inkişaf istiqamətini müəyyən etdi.Heydər Əliyev ölkə rəhbəri kimi Konstitusiyanın hazırlanması və qəbul edilməsində aparıcı rol oynamışdır. Onun təşəbbüsü ilə yaradılmış Konstitusiya Komissiyası geniş miqyaslı elmi-praktik iş apararaq, beynəlxalq təcrübəyə əsaslanan, lakin milli maraqlara tam cavab verən bir sənəd hazırladı. 1995-ci il 12 noyabr tarixində ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiya dövlət idarəçiliyi sisteminin hüquqi əsaslarını formalaşdırdı.

Konstitusiyada dövlət hakimiyyətinin qanunverici, icraedici və məhkəmə qolları arasında bölgü prinsipi aydın şəkildə əks etdirilmişdir. Bu, idarəetmədə səmərəliliyin və şəffaflığın təmin olunmasına, eyni zamanda vətəndaşların hüquq və azadlıqlarının qorunmasına yönəlmişdir. Heydər Əliyevin siyasi iradəsi nəticəsində hüquqi və institusional islahatlar həyata keçirilmiş, dövlət idarəçiliyində müasir yanaşmalar tətbiq edilmişdir.

Heydər Əliyev təkcə Konstitusiyanın müəllifi kimi deyil, həm də dövlət idarəçiliyi sisteminin banisi kimi çıxış etmişdir. Onun

idarəçilik fəlsəfəsi şəffaflıq, məsuliyyət və vətəndaşlara xidmət prinsiplərinə əsaslanmışdır. Bu prinsiplər bu gün də Azərbaycan Respublikasının idarəçilik praktikasında əsas rol oynayır.

Nəticə etibarilə, Heydər Əliyevin müəllifi olduğu Azərbaycan Respublikasının Konstitusiyası dövlət idarəçiliyinin bütün sahələrində islahatların aparılmasına şərait yaratmış, ölkənin hüquqi və institusional inkişafına mühüm töhfə vermişdir. Bu irs bu gün də öz aktuallığını qoruyur və gələcək nəsillər üçün örnək təşkil edir.

**Ədəbiyyat**


1. Əsgərov Zahirə Ağasəlim qızı. Konstitusiya Hüququ [Dərslik]. Bakı: Bakı Universiteti Nəşriyyatı, 2011.
2. Nağıyev Fəxrəddin. Konstitusiya Hüququ. Bakı: Qanun Nəşriyyatı, 2025.
3. Qaracayev Ceyhun. Azərbaycan Respublikasının Konstitusiya Hüququ [Dərslik]. Bakı: Baku State University Press, 2023.
4. American Russian Institute. Constitution (Fundamental Law) of the Azerbaijan Soviet Socialist Republic of March 14, 1937. New York: American Russian Institute, 1950.
5. Yavuz, M. Hakan (ed.). Heydar Aliyev and the Foundations of Modern Azerbaijan. Cham: Palgrave Macmillan, 2024.
6. Heydar Aliyev Heritage Research Center. Heydar Aliyev: Independence of Azerbaijan is Eternal. Baku: Heydar Aliyev Heritage Research Center, 2000.
7. Azərbaycan Milli Kitabxanası. Heydər Əliyev və müstəqil Azərbaycanın ilk Konstitusiyası. Baku: ANL, 2017.
8. Heydar Aliyev Foundation. Azerbaijan. Baku: Heydar Aliyev Foundation, 2010.
9. Nuriyeva İlahə. Azərbaycan tarixi: ən qədim zamanlardan – XXIəsrin əvvəllərinə qədər [Dərslik]. Bakı: Mütərcim, 2015.
10. Əsədov Orxan & Cəbrayılov Rasim. Azərbaycan Respublikasının parlamenti. Bakı: Elm, 2008.

# HEYDƏR ƏLİYEVİN YENİ NEFT STRATEGİYASI: AZƏRBAYCANIN ENERJİ TƏHLÜKƏSİZLİYİ VƏ GEOSİYASİ MÜSTƏQİLLİYİNİN FORMALAŞMASI


**Gülay Əmiraslanova**
*Azərbaycan Respublikasının Prezident yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: veyisovag@gmail.com


1990-cı illərin əvvəllərində Azərbaycan müstəqilliyini yeni qazanmış, lakin siyasi qeyri-sabitlik, vətəndaş müharibəsi təhlükəsi, iqtisadi böhran və xarici təzyiqlərlə üzləşmişdi. Belə bir mürəkkəb və təhlükəli şəraitdə Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın gələcək taleyini formalaşdıracaq dərin və uzaqgörən bir strateji kurs müəyyənləşdirdi. Bu kurs, xalq arasında "Yeni Neft Strategiyası" kimi tanınan və əslində dövlət müstəqilliyinin möhkəmləndirilməsi, iqtisadi inkişafın təmin olunması, beynəlxalq aləmdə etibarlı tərəfdaş statusunun qazanılması məqsədi daşıyan kompleks yanaşma idi.

Heydər Əliyev çox yaxşı anlayırdı ki, Azərbaycanın əsas üstünlüklərindən biri Xəzər dənizindəki zəngin neft və qaz ehtiyatlarıdır. Lakin bu sərvətlərin ölkə üçün real mənfəətə çevrilməsi üçün ölkənin nə maliyyə imkanları, nə də texnoloji potensialı yetərli deyildi. Məhz buna görə, o, qətiyyətli addımlar ataraq xarici sərmayədarlarla əməkdaşlığa əsaslanan neft siyasəti formalaşdırdı. Bu siyasətin kulminasiya nöqtəsi 1994-cü il sentyabrın 20-də imzalanan və tarixə "Əsrin Müqaviləsi" kimi düşən neft sazişi oldu. Bu müqavilə Azərbaycanı beynəlxalq enerji bazarına çıxardı və ölkəyə milyardlarla dollarlıq sərmayə cəlb olundu.

Yeni Neft Strategiyası yalnız yataqların işlənməsi ilə məhdudlaşmırdı. Neftin dünya bazarlarına çıxarılması üçün infrastruktur

layihələri–Bakı–Novorossiysk, Bakı–Supsa və ən əsası Bakı–Tbilisi–Ceyhan (BTC) neft kəməri kimi beynəlxalq layihələr həyata keçirildi. BTC layihəsi Azərbaycanın enerji təhlükəsizliyində və geosiyasi müstəqilliyində mühüm rol oynadı. Bu kəmər sayəsində Azərbaycan nəinki iqtisadi müstəqillik qazandı, həm də regionun enerji xəritəsində mühüm tranzit mərkəzinə çevrildi.

Neft gəlirlərinin düzgün və davamlı idarə olunması üçün 2000-ci ildə Dövlət Neft Fondu yaradıldı. Bu fond vasitəsilə gəlirlər şəffaf şəkildə yönləndirildi və ölkənin sosial, infrastruktur və humanitar inkişafına xidmət etdi. Azərbaycan iqtisadi cəhətdən güc-ləndi, milli valyutanın sabitliyi təmin olundu və yoxsulluq səviyyəsi əhəmiyyətli dərəcədə azaldıldı.

Heydər Əliyevin bu strateji yanaşması təkcə iqtisadi sferada deyil, həm də Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqeyinə təsir göstərdi. Ölkə etibarlı enerji tərəfdaşına çevrildi, Qərb dünyası ilə münasibətlər möhkəmləndi, Avropa İttifaqı və ABŞ ilə enerji əməkdaşlığı daha da dərinləşdi.

Bu siyasət müstəqillik dövründə Azərbaycanın modern dövlət quruculuğunun əsas sütunlarından birinə çevrildi. Onun uğurlu davamı Prezident İlham Əliyev tərəfindən təmin edildi. İlham Əliyev dövründə "Cənub Qaz Dəhlizi" kimi mühüm qaz layihələri həyata keçirildi və Azərbaycan təkcə neft yox, həm də qaz ixracatçısı kimi Avropanın enerji təhlükəsizliyində mühüm rol oynamağa başladı. Bu isə Heydər Əliyevin irəli sürdüyü strategiyanın zamanla necə çevik, uzunmüddətli və dayanıqlı olduğunu bir daha sübut edir.

Bu gün Azərbaycan artıq yalnız enerji daşıyıcılarını ixrac edən ölkə deyil, həm də regional əməkdaşlıq təşəbbüsləri irəli sürən, enerji tranzitində əsas oyunçulardan birinə çevrilmiş dövlətdir. Heydər Əliyevin neft strategiyası bu uğurun əsasını qoymuş, Azərbaycanın tarixində dönüş nöqtəsi olmuşdur. O, nefti sadəcə

təbii sərvət kimi deyil, strateji alət kimi görərək onun üzərində müstəqil və sabit dövlətin təməlini qurmuşdur.


## Ədəbiyyat

1. Əliyev, H. (1997). Müstəqilliyimiz əbədidir. Bakı: Azərbaycan Nəşriyyatı.
2. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) – www.oilfund.az
3. BP Azerbaijan – www.bp.com/azerbaijan
4. Cornell, S. E. (2011). Azerbaijan since independence. Routledge.
5. Mehdiyev, R. (2009). Heydər Əliyev və müasir Azərbaycan. Bakı: Elm Nəşriyyatı.


# YERLİ ÖZÜNÜİDARƏETMƏDƏ İNFORMASİYA AXINININ OPTİMALLAŞDIRILMASI: NEFTÇALA TƏCRÜBƏSİ


**Ataş Əsədov**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: esedovatash@gmail.com


## Giriş

Müasir idarəetmənin əsas istiqamətlərindən biri kimi informasiya axınının düzgün təşkili xüsusi əhəmiyyət kəsb edir. Yerli özünüidarəetmə sistemlərində informasiya axınının operativ və səmərəli təşkili vətəndaşların məlumatlandırılması, qərar qəbuletmədə iştirak imkanlarının genişləndirilməsi və şəffaflığın təmin olunmasında mühüm rol oynayır. Neftçala rayonu bu sahədə qabaqcıl təcrübələrdən birinə malik bölgələrdən biri kimi fərqlənir. Bu məqalədə Neftçala rayonunun informasiya siyasəti və idarəetmədə tətbiq olunan innovativ yanaşmalar təhlil olunacaq.

## Yerli özünüidarəetmədə informasiya axını anlayışı

İnformasiya axını, idarəetmə sistemində məlumatın ötürülməsi, paylaşılması və geri bildirim proseslərini əhatə edir. Yerli idarəetmədə bu axın həm dövlət orqanları arasında, həm də vətəndaşlarla münasibətlərdə mühüm əhəmiyyət daşıyır. Optimal informasiya axını problemi vaxtında aşkar etməyə, ictimai rəyin formalaşmasına və idarəetmənin effektivliyinə birbaşa təsir edir.

## Neftçala rayonunda informasiya axınının təşkili.

Neftçala rayonunda informasiya axınının təşkili məqsədilə bələdiyyələr və yerli icra orqanları bir sıra rəqəmsal texnologiyalardan istifadə edir. Əhalinin məlumatlandırılması üçün rəsmi veb səhifələr, sosial media platformaları, ictimai panolar və mobil bildiriş sistemləri geniş tətbiq olunur. Bələdiyyə qərarları, büdcə məlumatları və yerli təşəbbüslər haqqında vətəndaşlar açıq və operativ şəkildə məlumatlandırılır.

## Elektronlaşdırma və rəqəmsal platformaların rolu

Neftçala rayonunda 'Elektron Bələdiyyə' sisteminin tətbiqi yerli idarəetmədə səmərəliliyin artırılmasına mühüm töhfə vermisdir. Vətəndaşlar onlayn şəkildə təklif və şikayətlərini bildirə, iclas protokolları ilə tanış ola bilirlər. Bu sistem vasitəsilə aparılan sorğular və ictimai dinləmələr qərar qəbuletmə prosesində iştirakçılığın artmasına şərait yaratmışdır.

## İctimai iştirakçılıq və məlumatın paylaşılması

İnformasiya axınının qarşılıqlı və faydalı olması üçün ictimai iştirakçılıq zəruridir. Neftçalada keçirilən açıq dinləmələr, ictimai müzakirələr, əhalinin təkliflərinin dinlənilməsi kimi tədbirlər nəticəsində vətəndaşlar idarəetmə prosesində aktiv rol oynayır. Bu da informasiya mübadiləsinin təkcə yuxarıdan-aşağıya deyil, eyni zamanda aşağıdan-yuxarıya istiqamətində də baş verməsini təmin edir.

## Təlim və maarifləndirmə tədbirləri

Yerli idarəedicilərin və vətəndaşların informasiya texnologiyaları sahəsində bilik və bacarıqlarının artırılması informasiya

axınının keyfiyyətinə bilavasitə təsir edir. Neftçala rayonunda bu məqsədlə mütəmadi olaraq ixtisasartırma kursları, seminarlar və maarifləndirmə aksiyaları həyata keçirilir. Eyni zamanda, məktəblilər və gənclər üçün bələdiyyə fəaliyyəti ilə bağlı təlimlər keçirilir.

**İnformasiya təhlükəsizliyi və hüquqi çərçivə**

Məlumatların mühafizəsi və şəxsi məlumatların qorunması informasiya idarəçiliyinin ayrılmaz tərkib hissəsidir. Neftçala rayonunun yerli strukturları bu sahədə hüquqi tələblərə əməl edir, məlumatların saxlanması və yayılması zamanı təhlükəsizlik protokollarına ciddi şəkildə riayət olunur.

**Perspektivlər və inkişaf istiqamətləri**

Gələcəkdə Neftçala rayonunda informasiya axınının daha da təkmilləşdirilməsi üçün süni intellekt, böyük verilənlər analizi və smart texnologiyaların tətbiqi nəzərdə tutulur. Bununla yanaşı, daha geniş əhali təbəqələrinin idarəetmə prosesində iştirakını təmin etmək üçün mobil tətbiqlərin hazırlanması planlaşdırılır.

## Ədəbiyyat

1. Azərbaycan Respublikası Bələdiyyələrinin İnkişafına dair Dövlət Proqramı, 2019–2023
2. www.neftchala-ih.gov.az – Neftçala Rayon İcra Hakimiyyətinin rəsmi saytı
3. Elektron hökumət portalı – www.e-gov.az
4. AMEA-nın “İctimai İdarəetmə və Rəqəmsallaşma” jurnalı, 2021, №3
5. Dövlət İmtahan Mərkəzi – Bələdiyyələrin informasiya fəaliyyəti üzrə təlim materialları, 2020

# AZƏRBAYCAN RESPUBLİKASININ GEOSİYASİ MÖVQEYİNİN MÖHKƏMLƏNDİRİLMƏSİ AMİLLƏRİNİN TƏHLİLİ: BEYNƏLXALQ TƏŞKİLATLARDA FƏALİYYƏTİ NÜMUNƏSİNDƏ

**Əsgər Əsgərov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: askeraskerovv222@gmail.com

**Xülasə**

Bu məqalə Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakı və onun ölkənin geosiyasi mövqeyinin möhkəmləndirilməsinə təsiri təhlil edilir. Məqalədə Azərbaycanın BMT və onun alt qurumları, eləcə də İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı kimi beynəlxalq qurumlarla əməkdaşlığının müxtəlif aspektləri araşdırılır. Azərbaycanın bu təşkilatlarda fəal iştirakı regional və qlobal məsələlərdə söz sahibi olmaq, milli maraqları müdafiə etmək və diplomatik mövqeyini gücləndirmək üçün vacib bir vasitədir. Azərbaycan həmçinin Avropanın enerji təhlükəsizliyini təmin etmək və Türkiyə ilə strateji tərəfdaşlığını gücləndirmək yolu ilə regionda və dünyada öz təsirini artırır. Məqalədə Azərbaycanın iqtisadi və sosial sahələrdə Dünya Bankı, Beynəlxalq Valyuta Fondu və Avropa Yenidənqurma və İnkişaf Bankı ilə əməkdaşlığı da vurğulanır. Ümumilikdə, Azərbaycanın beynəlxalq təşkilatlarda iştirakı onun geosiyasi mövqeyinin gücləndirilməsi, qlobal əməkdaşlığın inkişafı və regional sabitliyin təmin edilməsi üçün mühüm bir amil kimi qəbul edilir. Azərbaycanın bu strategiyası ölkənin regional liderlik mövqeyini qorumağa və beynəlxalq arenada daha təsirli olmasına kömək edir.

***Açar sözlər:*** Azərbaycan Respublikası, beynəlxalq təşkilatlar, geosiyasi mövqe, BMT, İƏT, Qoşulmama Hərəkatı.

## Giriş

Azərbaycanın geosiyasi mövqeyinin möhkəmləndirilməsində bir sıra əsas amillər rol oynayır. Bunlara beynəlxalq təşkilatlarda fəal iştirak, Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı və Avropanın enerji təhlükəsizliyində ölkənin rolu daxildir. Azərbaycan və Türkiyə arasındakı əlaqələr yalnız tarixi və mədəni bağlarla məhdudlaşmır, həm də hərbi, enerji, nəqliyyat və iqtisadi sahələrdə dərin əməkdaşlığa əsaslanır. Şuşa Bəyannaməsi kimi sənədlər bu tərəfdaşlığı daha da möhkəmləndirir və regionda sabitliyə töhfə verir. Azərbaycanın neft və qaz resursları Bakı-Tbilisi-Ceyhan və Cənub Qaz Dəhlizi kimi layihələr vasitəsilə Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayır. BMT, Qoşulmama Hərəkatı və İƏT kimi təşkilatlarda iştirak isə Azərbaycanın beynəlxalq arenada mövqeyini gücləndirir. Hazırkı qlobal çağırışlar fonunda Azərbaycanın bu strategiyalar vasitəsilə geosiyasi mövqeyini möhkəmləndirməsi xüsusi əhəmiyyət kəsb edir. Bu kontekstdə tədqiqatın məqsədi Azərbaycanın geosiyasi mövqeyinin gücləndirilməsində beynəlxalq təşkilatlarda iştirakı və strateji tərəfdaşlıqların rolunu araşdırmaqdır.

## BMT-nin təşkilatlarında Azərbaycan

Azərbaycanın BMT təşkilatları ilə əməkdaşlığı ölkənin davamlı inkişaf, ətraf mühitin mühafizəsi və beynəlxalq nüfuzunun gücləndirilməsində mühüm rol oynayır. BMT-nin İnkişaf Proqramı (UNDP) ilə tərəfdaşlıq çərçivəsində yoxsulluğun azaldılması, icmaların dayanıqlılığının artırılması, iqlim dəyişikliyinə uyğunlaşma və biomüxtəlifliyin qorunması kimi sahələrdə mühüm layihələr həyata keçirilmişdir. UNDP-nin COP28-də fəal iştirakı, Azərbaycanın Paris Sazişi və BMT-nin 2030 Gündəliyinə

sadiqliyini daha da gücləndirmişdir. Təşkilat həmçinin İKT sahəsində islahatlar və minalardan təmizləmə prosesinə də dəstək verir [5].

UNESCO ilə əməkdaşlıq Azərbaycanın mədəni irsinin qorunması və tanıdılması istiqamətində atdığı vacib addımlardan biridir. Şəki, Qobustan və digər obyektlərin Dünya İrsi Siyahısına daxil edilməsi bu sahədəki nailiyyətləri təsdiqləyir. Lakin 2022-ci ildə Mehriban Əliyeva UNESCO-nun xoşməramlı səfiri vəzifəsindən istefa etdi. Bu, UNESCO-nun Azərbaycanın işğaldan azad edilmiş ərazilərdə Ermənistanın törətdiyi dağıntılara laqeyd qalmasına etiraz olaraq, həm diplomatik, həm də siyasi bir jest idi [1].

COP29-un Bakıda keçirilməsi isə Azərbaycanın qlobal ekoloji təşəbbüslərdə liderlik ambisiyasını ortaya qoyur. Bu tədbir ölkəyə regional əməkdaşlığı gücləndirmək, beynəlxalq tərəfdaşlıqları möhkəmləndirmək və Dayanıqlı İnkişaf Məqsədlərinə doğru irəliləmək üçün geniş imkanlar yaradır. Azərbaycanın bu sahədə atdığı addımlar, gələcək nəsillər üçün daha yaşıl və dayanıqlı bir gələcəyin təmin olunmasına yönəlmişdir [4].

## İqtisadi təşkilatlarda Azərbaycan

Azərbaycan iqtisadi islahatlar, davamlı inkişaf və sosial-iqtisadi problemlərin həlli məqsədilə Dünya Bankı və Beynəlxalq Valyuta Fondu (BVF) ilə sıx əməkdaşlıq edir. Bu təşkilatların texniki və maliyyə dəstəyi iqtisadi dayanıqlığın və inkişafın gücləndirilməsinə xidmət edir. Eyni zamanda, Azərbaycan Avropa Yenidənqurma və İnkişaf Bankı (EBRD) ilə əməkdaşlıq edərək infrastruktur layihələrini maliyyələşdirir, özəl sektoru stimullaşdırır və regional əlaqələri möhkəmləndirir. Asiya İnkişaf Bankı (ADB) ilə tərəfdaşlıq isə iqtisadi artımın təşviqi, siyasət islahatlarının həyata keçirilməsi və davamlı inkişaf layıhələrinin reallaş-

dırılmasına yönəlib. Bu əməkdaşlıqlar Azərbaycanın yaşayış standartlarını yüksəltmək və regional inkişafda rolunu artırmaq məqsədlərinə xidmət edir.

**Qoşulmama Hərəkatında Azərbaycan**

Onun əsas prinsipləri sülh, təhlükəsizlik və inkişafdır. Azərbaycan 26 may 2011-ci ildə Balidə keçirilən Sammitdə Qoşulmama Hərəkatına qoşulmuş və bu, ölkənin neytral və müstəqil xarici siyasətə sadiqliyini göstərmişdir.

Azərbaycan 2019-2022-ci illərdə Hərəkata sədrliyi qəbul etmiş, daha sonra bu müddət üzv dövlətlərin xahişi ilə 2023-cü ilə qədər uzadılmışdır. Bu dövrdə Azərbaycan Hərəkatın məqsədlərini irəli aparmaq, münaqişələrin həlli, davamlı inkişaf və əməkdaşlığı gücləndirmək kimi prioritetlərə fokuslanmışdır. Eyni zamanda, qarşılıqlı hörmət, suverenlik və daxili işlərə qarışmamaq prinsiplərinin təşviqi ilə Hərəkatın beynəlxalq nüfuzunu artırmışdır.

Sədrliyi dövründə Azərbaycan konstruktiv dialoq və konsensusa əsaslanan qərarların qəbulunu təşviq etmiş, üzv ölkələr arasında həmrəylik və əməkdaşlıq üçün fəal platforma yaratmışdır. Bu liderlik, Azərbaycanın qlobal sülh və təhlükəsizlik sahəsindəki rolunu və Qoşulmama Hərəkatına sadiqliyini bir daha təsdiqləmişdir [2].

**İslam Əməkdaşlıq Təşkilatında Azərbaycan**

Əvvəllər İslam Konfransı Təşkilatı kimi tanınan İslam Əməkdaşlıq Təşkilatı (İƏT) 57 üzv dövlət arasında əməkdaşlıq və həmrəyliyi təşviq edən mühüm platformadır. Azərbaycan 1991-ci ilin dekabrında İƏT-ə üzv olmuş və bu, ölkənin İslam dünyası ilə əlaqələrini gücləndirməsinə, regional münaqişələrin həlli və İslam birliyinin təşviqinə töhfə verməsinə şərait yaratmışdır.

İƏT Ermənistan-Azərbaycan münaqişəsi boyunca Azərbaycanın mövqeyini dəstəkləmiş, Ermənistanın təcavüzünü pisləyən

qətnamələr qəbul etmiş və Azərbaycanın ərazi bütövlüyünü dəstəkləmişdir. Bu beynəlxalq dəstək Azərbaycanın diplomatik mövqeyini gücləndirmişdir.

2021-ci ildə Prezident İlham Əliyev İƏT Baş Katibi Yusif ibn Əhməd Əl-Usaymini qəbul edərək ona “Dostluq” ordeni təqdim etmiş, Xarici İşlər Naziri Ceyhun Bayramov isə İƏT rəsmiləri ilə əməkdaşlıq və münaqişə məsələlərini müzakirə etmişdir [3].

Azərbaycan İƏT çərçivəsində fəal iştirak etməklə İslam həmrəyliyini, qarşılıqlı dəstəyi və ortaq problemlərin həllinə töhfə verməyi hədəfləyir. İƏT ilə sıx əməkdaşlıq, yüksək səviyyəli qarşılıqlı əlaqələr və ortaq təşəbbüslərdə iştirak Azərbaycanın İslam dünyasındakı mövqeyini və təşkilatın məqsədlərinə sadiqliyini nümayiş etdirir.

## Nəticə

Tədqiqatımızın nəticəsi kimi qeyd edə bilərik ki, beynəlxalq təşkilatlar Azərbaycan Respublikasının xarici əlaqələrinin formalaşdırılmasında, mühüm tərəfdaşlıqların, enerji diplomatiyasının, münaqişə vasitəçiliyinin və sosial-iqtisadi inkişaf təşəbbüslərinin həyata keçirilməsində mühüm rol oynayır. Müxtəlif beynəlxalq platformalarda fəal iştirak etməklə Azərbaycan milli maraqlarını, regional əməkdaşlığı təşviq edir, eləcə də qlobal sülhə və rifaha töhfə verir. Azərbaycan mürəkkəb geosiyasi çağırışlarla üzləşdikcə beynəlxalq təşkilatlarla əməkdaşlığı, xarici siyasət hədəflərini müəyyənləşdirmək və qlobal arenada diplomatik qarşılıqlı əlaqələri təşviq etmək üçün vacib olacaqdır. Azərbaycanın balanslaşdırılmış regional siyasəti Avrasiya məkanının mürəkkəbliyində naviqasiya etmək və milli maraqlarını qorumaq üçün vacibdir. Azərbaycan qonşu ölkələrlə konstruktiv əməkdaşlıq etmək, strateji tərəfdaşlarla ittifaqları gücləndirmək və geosiyasi dinamikaları müdrikliklə idarə etmək məqsədi ilə, regional inteqrasiyanı təşviq etmək, təhlükəsizliyi artırmaq və bölgədə sabitliyi təmin etmək niyyətindədir.

Azərbaycanın regional işlərdə fəal rol oynaması davam etdikcə balanslaşdırılmış xarici siyasətə sadiqliyi ölkənin və geniş Avrasiya regionunun gələcək trayektoriyasını formalaşdırmaqda mühüm rol oynayacaq.

## Ədəbiyyat


1. Abdullayev, V. İtirən YUNESKO olacaq. URL:https://www.cumhuriyyet.net/sonxeber/185139-itir%C9%99n-yunesko-olacaq.html
2. AZƏRBAYCAN — QOŞULMAMA HƏRƏKATI. URL: https://azerbaijan.az/related-information/196
3. Azərbaycan beynəlxalq aləmdə. URL: https://files.preslib.az/projects/azerbaijan/gl9.pdf
4. Hikmət Hacıyev: COP29 Azərbaycan üçün həm çağırış, həm də fürsətdir. URL: https://report.az/xarici-siyaset/hikmet-haciyev-cop29-azerbaycan-ucun-hem-cagiris-hem-de-fursetdir/
5. Relations between Azerbaijan and UNDP. URL:https://mfa.gov.az/en/category/international-organisations/relations-between-azerbaijan-and-undp

# ŞƏMKİR RAYONUNDA MAVİ İQTİSADİYYATIN SOSİAL-İQTİSADİ İNKİŞAF POTENSİALI

**Fərid Fikrətli[1], Mehman Axundov[2]**
*[1,2]Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: farid.fikretli@sanatorium.az;
azfiri@azeurotel.com

Şəmkir rayonun inkişafında mavi iqtisadiyyatın rolu, həm iqtisadi artımın təmin edilməsi, həm də sosial rifahın yüksəlməsi baxımından əhəmiyyətlidir. Şəmkir rayonunda mavi iqtisadiyyatın sosial-iqtisadi inkişaf potensialının təhlili bu sahədəki siyasət və gələcək tədbirlərin həyata keçirilməsi üçün zəmin yarada bilər.

Mavi iqtisadiyyatın əsas prinsipləri – su hövzələrindən və dənizdən asılı olan iqtisadi fəaliyyətləri əhatə edir. Bu, balıqçılıq, akvakultura, su turizmi, su mühitin və biomüxtəlifliyinin qorunması, içməli su, suvarma, texniki məqsədlərlə istifadəsi ilə bağlı dəniz suyunun duzsuzlaşdırılması, bərpa olunan enerji kimi sahələri əhatə edir. Mavi iqtisadiyyatın əsas məqsədi su resurslarını ekoloji və sosial cəhətdən davamlı şəkildə istifadə edərək, həm iqtisadi inkişafı, həm də sosial rifahı artırmaqdır.

Şəmkir rayonun ərazisində yerləşən su anbarları və çaylar, balıqçılıq və akvakultura fəaliyyətləri üçün əlverişli şərait yaradır. Bu ərazilərdə yaradılacaq *su turizmi* infrastrukturu, rayona turist axını və ətraf mühitin mühafizəsini təmin edəcək. Su elektrik stansiyaları və bərpa olunan enerji mənbələri, rayonun enerji ehtiyaclarının qarşılanmasında mühüm rol oynaya bilər. Bu isə yerli iqtisadiyyata əlavə sərmayələr cəlb edərək, iqtisadi artımı sürətləndirə bilər.

Mavi iqtisadiyyatın Şəmkir rayonundakı sosial-iqtisadi inkişafa təsiri çoxşaxəli olmaqdadır. Bu təsirləri üç əsas sahə üzrə analiz etmək mümkündür: iqtisadi inkişaf, sosial rifah və ətraf mühitin qorunması. Mavi iqtisadiyyatın inkişafı, Şəmkir rayonunun iqtisadiyyatına müsbət təsir göstərir. Balıqçılıq və akvakultura sahələrinin inkişafı, yerli əhali üçün yeni iş imkanları yaradaraq, işsizlik səviyyəsinin azalmasına səbəb olur. Eyni zamanda, su turizminin inkişafı ilə bağlı yaradılacaq infrastruktur, rayona xarici və daxili sərmayələrin cəlb edilməsinə səbəb ola bilər. Bu da iqtisadi artımın sürətləndirilməsinə kömək edir. Mavi iqtisadiyyatın sosial rifah üzərindəki təsiri, iş yerlərinin yaradılması və yerli icmaların həyat şəraitinin yaxşılaşdırılması ilə ölçülə bilər. Balıqçılıq və turizm sahələrində yeni iş imkanlarının yaranması, əhalinin gəlirlərinin artırılmasına səbəb olacaq. Bu isə öz növbəsində sosial gərginliyin azaldılması və cəmiyyətin rifahının artırılması ilə nəticələnəcək.

Mavi iqtisadiyyatın əsas prinsiplərindən biri, təbii resursların davamlı istifadəsi və ətraf mühitin mühafizəsidir. Şəmkir rayonunda bu sahədə həyata keçiriləcək layihələr, su ehtiyatlarının qorunmasına və ətraf mühitin sağlamlaşdırılmasına kömək edəcək. Su hövzələrinin təmizlənməsi və ekosistemlərin qorunması, rayonun təbiətinə olan təsiri azaltmağa yönəldiləcək. Şəmkir rayonunda mavi iqtisadiyyatın inkişafı üçün bir sıra mövcud imkanlar və çağırışlar mövcuddur. Rayonun təbii su resursları, balıqçılıq və akvakultura kimi fəaliyyətlərin inkişafına əlverişli şərait yaradır. Lakin bu sahədə bir neçə çağırış da mövcuddur:

- infrastruktur problemləri – su turizmi və akvakultura sahələrinin inkişafı üçün müasir infrastruktur tələb olunur. Bu infrastrukturun qurulması üçün dövlət və özəl sektordan ciddi sərmayə qoyuluşları lazımdır;

- ekoloji risklər – mavi iqtisadiyyatın inkişafı ilə bağlı su hövzələrinin istifadə edilməsi və ekosistemlərin müdafiəsi məsələləri önə çıxır. Bu sahədə balanslı yanaşmaların tətbiq edilməsi və davamlı ekoloji idarəetmə sistemlərinin qurulması vacibdir;
- təlim və ixtisaslaşdırılmış işçi gücü – mavi iqtisadiyyatın səmərəli inkişafı üçün ixtisaslaşmış işçi qüvvəsi və təlim proqramları vacibdir. Şəmkir rayonunda bu istiqamətdə təhsil və təlim proqramlarının inkişafı, gələcəkdə yerli iş gücünün ehtiyaclarını qarşılayacaq.

Beləliklə, Şəmkir rayonunda mavi iqtisadiyyatın inkişafı, həm iqtisadiyyatın, həm də sosial rifahın artırılmasında mühüm rol oynayır və əhəmiyyətli potensiala malikdir. Su resurslarının səmərəli idarə olunması, balıqçılıq, akvakultura və turizmin inkişafı rayonun iqtisadiyyatına müsbət təsir göstərir, yerli əhalinin həyat şəraitini yaxşılaşdırır və ətraf mühitin qorunmasına yardım edir. Lakin, bu sahənin davamlı inkişafı üçün infrastruktur məsələləri, ekoloji risklər və işçi qüvvəsinin təlimi sahəsində ciddi tədbirlər görülməlidir. Gələcəkdə Şəmkir rayonunda mavi iqtisadiyyatın inkişafı, daha geniş sosial və iqtisadi faydalar təmin edə bilər.

## Ədəbiyyat

1. Mavi iqtisadiyyat və davamlı inkişaf. BMT İnkişaf Proqramı (UNDP), 2019.
2. Əliyev, R. Şəmkir rayonunda mavi iqtisadiyyatın inkişaf perspektivləri // İqtisadiyyat və İnkişaf, 2020, #11(3), S. 45-61.

# QUSAR RAYONUNDA TURİZMİN İNKİŞAF DİNAMİKASININ İDARƏ OLUNMASI: MÖVCUD PROBLEMLƏR VƏ HƏLLİ YOLLARI

**Elvira Hacıbalayeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail:elvira.rih@mail.ru

"Turizm"- fransız sözü olan "tour"dan götürülüb, mənası "gəzinti", "səfər" deməkdir. Termin olaraq isə ilk dəfə V.Jemko 1830- cu ildə istifadə etmişdir. 1954-cü ildə BMT-nin qəbul etdiyi rəsmi anlayışa görə turizm - insanın sağlamlığı və fiziki inkişafının möhkəmləndirilməsinə təsir edən, həmçinin daimi yaşayış yerindən kənara hərəkətlə əlaqəli aktiv istirahətdir. "Turizm" anlayışına daha geniş səciyyəni Monte-Karlo Turizm Akademiyası vermişdir. Turizm Akademiyasına görə turizm – sağlamlıq və işgüzar məqsədlə, asudə vaxtda dərketmə maraqlarının təmini, həmçinin gəlmə ərazisində haqqı ödənilən fəaliyyətlə məşğulluqdan başqa, insanların daimi yaşayış yerini müvəqqəti tərk etməsidir. B.Ə.Bilalov «turizm» sözünün mənasını aşağıdakı formada izah etmişdir: «Turizm-fransız sözü olmaqla mənası fiziki şəxslərin müvəqqəti olacağı ölkədə (yerdə) ödənişli fəaliyyətlə məşğul olmamaq şərti ilə istirahət, sağlamlaşdırma, tanış olma, idrakı (tarix və mədəniyyət sərvətlərindən bəhrələnmə və sair), iş-peşə (vəzifə borclarının icra edilməsi istisna olmaqla), idman və dini məqsədlərlə daimi yaşayış yerlərindən müvəqqəti getmələridir (səyahətləridir)».

Hazırda turizm dünyada öz perspektivliyinə görə qeyri-neft sahələri arasında aparıcı mövqe tutur və sürətlə inkişaf edən sahələrdəndir. Ölkəmizdə də turizm regionların sosial-iqtisadi inkişafının prioritet sahələrindən biri kimi qəbul edilmişdir.

Turizmin inkişafı baxımından Qusar rayonu xüsusi əhəmiyyətə malikdir. Şahdağın ətəyində yerləşən və "Azərbaycanın Şimal qapısı" adlandırılan, ərazisi 1499,5 $km^2$, əhalisi 01 yanvar 2025-ci il tarixinə 102819 nəfər olan Qusar rayonu turizm baxımından çox böyük potensiala malikdir. Gözəl təbiəti, zəngin fauna və florası, əhalinin etnik tərkibi, özünəməxsus maddi və mənəvi dəyərləri, tarix və mədəniyyət abidələri, ləziz təamları burada turizm bir çox istiqamətlərinin inkişafına zəmin yaratmışdır. 2012-ci "Şahdağ" Qış-Yay Turizm Kompleksinin istifadəyə verilməsi isə rayonda yay turizmi ilə yanaşı, qış turizminin də inkişaf etməsinə və Qusarın Azərbaycanın aparıcı turizm bölgəsinə çevrilməsinə çox böyük təkan vermişdir.

Bu tezisin yazılmasının əsas məqsədi, Qusar rayonunun Azərbaycanda turizmin inkişafında rolu və önəmini vurğulamaq, rayonda turizmin inkişaf dinamikasını təhlil etmək, bu sahədə mövcud problemləri öyrənmək və həlli yollarını axtarmaqdan ibarətdir.

Qusar rayonunda turizm sektorunun bütün göstəriciləri üzrə artan dinamika müşahidə olunur. Rayonda 01.01.2025-ci il tarixində 20 mehmanxana və mehmanxana tipli obyekt fəaliyyət göstərir ki, bu mehmanxanalarda nömrələrin sayı 940, yerlərin sayı isə 2169-dur. 2024-cü ildə həmin obyektlərdə 92383 şəxs yerləşdirilmişdir ki, onlardan 38660-ı Azərbaycan, 53723-ü əcnəbi vətəndaşlar olmuşdur. 2024-cü ildə 2023-cü illə müqayisədə mehmanxana və mehmanxana tipli obyektlərdə yerləşmiş şəxslərin sayı 48,9 (2023-cü ildə 62056 nəfər) faiz artmışdır. 2024-cü ildə mehmanxana və mehmanxana tipli obyektlərdə məhsulun (xidmətlərin) satışından 44106,9 min manat gəlir əldə edilmiş və 2023-cü ilə nisbətən (2023-cü ildə 25262,7) məhsulun satışından əldə edilmiş gəlir 74,6 faiz artmışdır. Təbii ki, bu müsbət göstəricilərlə yanaşı turizm sahəsində bir sıra problemlər də mövcuddur ki, bunlara rayonda infrastruktur

çatışmazlıqları, bu sahədə ixtisaslı kadr çatışmazlığı, məlumatlandırma və tanıtım (reklam) səviyyəsinin lazımi səviyyədə olmaması, investisiya problemləri kimi məsələləri misal gətirmək olar. Nəticə olaraq deyə bilərəm ki, Qusar rayonunun turizm potensialı yüksək olsa da, onun inkişafı və idarəolunması sistemli yanaşma tələb edir. Dövlət, özəl və yerli icmaların birgə fəaliyyəti bu sahədə mövcud problemlərin həllinə və müsbət nəticələrin əldə olunmasına, bütün bunlar da ölkəmizdə, o cümlədən Qusar rayonunda turizm inkişafına, yeni iş yerlərin açılmasına, xidmət, ticarət, iaşə və iqtisadiyyatın digər sahələrinin inkişafına və xalqımızın rifah halının yüksəlməsinə öz töhfəsini verəcəkdir.

## Ədəbiyyat


1. Hüseynov İ, Əfəndiyeva N. “Turizmin əsasları”. “Mars Print” nəşriyyat poliqrafiya müəssisəsi, Dərslik. 7-8 səh.
2. Bilalov B.Ə, Gülalıyev Ç.G N. “Turizmin əsasları”. ,Dərslik, 10-11 səh.
3. qusar-ih.gov.az.Təhlil üçün
4. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi, Qusar rayon Statistika İdarəsi “Qusar rayonunun Sosial-iqtisadi İnkişaf haqqında Təhlili Məruzə”ləri , Qusar 2023, 2024 .Təhlil üçün.

# KONSTİTUSİYA MÜHAKİMƏ İCRAATININ ƏSAS MƏRHƏLƏLƏRİ

**Aidə Həmidova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: hemidovaida@mail.ru

Konstitusiya mühakimə icraatı müvafiq prosessual hərəkətlərin, aktların məcmusu, sistemi olmaqla yanaşı, digər prosessual fəaliyyət növlərində olduğu kimi, müəyyən daxili struktura malikdir, mərhələlərdən ibarətdir. Mərhələlərdən hər biri ardıcıl olaraq bir-birini əvəz etməklə, vahid məqsədə nail olmağa istiqamətlənmişdir. Bu konstitusiya mühakimə icraatının ümumi məqsədlərinin reallaşmasıdır. Konkret olaraq isə konstitusiya mühakimə icraatının bütün mərhələlərinin bilavasitə məqsədi konstitusiya işinin həll olunması, onun müqəddəratının müəyyən edilməsidir.

İlk növbədə qeyd etmək lazımdır ki, qüvvədə olan qanunvericilikdə konstitusiya mühakimə icraatının mərhələləri bilavasitə və ardıcıl açıqlanmır, onun yalnız ayrı-ayrı əsas məqamları diqqət mərkəzində olur. Bununla o, digər prosessual qanunvericilik sahələrindən fərqlənir. Konstitusiya Məhkəməsi haqqında Qanunda yalnız konstitusiya mühakimə icraatına dair bəzi ümumi məsələlər, habelə icraatın ayrı-ayrı növlərinin əsasları müəyyən edilməkdədir. Həmin normaların təhlili əsasında müəyyən etmək olar ki, Azərbaycan Respublikasında konstitusiya mühakimə icraatı aşağıdakı əsas mərhələlərdən ibarətdir:

1) Konstitusiya Məhkəməsinə sorğu, müraciət, şikayətin ünvanlanması vasitəsilə konstitusiya işinin başlanmasına təşəbbüs göstərilməsi;
2) Konstitusiya Məhkəməsinə ünvanlanmış sorğunun, müraciətin, şikayətin Konstitusiya Məhkəməsində ilkin olaraq öyrənilməsi və bununla əlaqədar məruzəçi-hakimin təyin edilməsi;

3) Müvafiq sorğunun, şikayətin, müraciətin Konstitusiya Məhkəməsinin palatasının müzakirəsinə çıxarılması, yaxud Konstitusiya Məhkəməsi haqqında Qanunda göstərilmiş hallarda Konstitusiya Məhkəməsinin sədri tərəfindən birbaşa olaraq Konstitusiya Məhkəməsi Plenumunun iclasına çıxarılması;
4) Konstitusiya Məhkəməsinin palatasında icraata qəbul edilmiş, yaxud birbaşa olaraq Konstitusiya Məhkəməsinin Plenumunun müzakirəsinə çıxarılmış sorğunun, müraciətin məhkəmə baxışına hazırlanması;
5) Sorğu, müraciət, şikayətə dair Konstitusiya Məhkəməsinin Plenumu tərəfindən məhkəmə araşdırmasının keçirilməsi;
6) Sorğu, müraciət, şikayətə dair Konstitusiya Məhkəməsi Plenumunun qərar layihəsinin hazırlanması və müzakirəsi;
7) Konstitusiya Məhkəməsi Plenumu qərar layihəsinin qəbulu;
8) Konstitusiya Məhkəməsi Plenumu qərarının qüvvəyə minməsi, dərc olunması və icrası.

Konstitusiya Məhkəməsi haqqında Qanunun 40-cı maddəsinə uyğun olaraq həyata keçirilməsi üsullarından asılı olaraq konstitusiya mühakimə icraatının iki növü fərqləndirilir:

1) konstitusiya məhkəmə icraatı;
2) xüsusi konstitusiya icraatı.

Eyni zamanda Qanunla müəyyən edilmişdir ki, Konstitusiya Məhkəməsində baxılan konstitusiya işləri üzrə konstitusiya məhkəmə icraatı aşağıdakı növlərdə həyata keçirilir:

1) Azərbaycan Respublikası Konstitusiyasının 130-cu maddəsinin III hissəsinin 1-7-ci bəndlərində, V və VII hissələrində nəzərdə tutulmuş məsələlərin həlli üçün verilmiş sorğular və ya şikayətlər ilə əlaqədar işlərin icraatı;
2) qanunvericilik, icra və məhkəmə hakimiyyətləri arasında səlahiyyətlər bölgüsü ilə bağlı mübahisələrlə əlaqədar sorğular üzrə işlərin icraatı.

Konstitusiya Məhkəməsində baxılan konstitusiya işləri üzrə xüsusi konstitusiya icraatının isə aşağıdakı növləri həyata keçirilir:

1) müharibə şəraitində Azərbaycan Respublikası Milli Məclisinin çağırışının səlahiyyət müddətinin uzadılması ilə əlaqədar işlərin icraatı;
2) Azərbaycan Respublikası Milli Məclisi deputatları seçkilərinin nəticələrinin yoxlanılması və təsdiqi ilə əlaqədar işlərin icraatı;
3) yeni seçilmiş Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasının keçirilməsi vaxtının təyin edilməsi ilə əlaqədar işlərin icraatı;
4) müharibə şəraitində Azərbaycan Respublikası Prezidentinin səlahiyyət müddətinin uzadılması ilə əlaqədar işlərin icraatı;
5) Azərbaycan Respublikası prezidenti seçkilərinin nəticələrinin rəsmi elan edilməsi ilə əlaqədar işlərin icraatı;
6) Azərbaycan Respublikası prezidentinin istefa ərizəsinə baxılması ilə əlaqədar işlərin icraatı;
7) Azərbaycan Respublikası prezidentinin səhhətinə görə öz səlahiyyətlərini icra etmək qabiliyyətini tamamilə itirdiyi barədə məlumatı aydınlaşdırmaq üçün Azərbaycan Respublikası Milli Məclisinin müraciəti ilə əlaqədar işlərin icraatı;
8) Azərbaycan Respublikası prezidentinin vəzifədən kənarlaşdırılması məsələsi ilə əlaqədar işlərin icraatı;
9) Azərbaycan Respublikası Konstitusiyasının və qanunlarının şərh edilməsi üçün verilən sorğular və müraciətlər ilə əlaqədar işlərin icraatı;
10) Azərbaycan Respublikası Milli Məclisinin və ya Azərbaycan Respublikası prezidentinin Azərbaycan Respublikası Konstitusiyasının mətnində dəyişikliklər edilməsi haqqında təkliflərinə dair Konstitusiya Məhkəməsinin rəyinin çıxarılması ilə əlaqədar işlərin icraatı.

## Ədəbiyyat


1. "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının 2003-cü il tarixli Qanunu.
2. Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavə və dəyişikliklər edilməsi barədə" 11 iyun 2004-cü il tarixli 688-II QD saylı AR Qanununun III hissəsinin 9-cu bəndinin və III hissəsinin 7-ci

bəndinin ARK 130-cu maddəsinin IX hissəsinə uyğunluğunun yoxlanılmasına dair 25 yanvar 2005-ci il tarixli Qərar.
3. Abdullayev F. Azərbaycan Respublikası Konstitusiya Məhkəməsi Plenumunun hüquqi mövqeləri. 2 cilddə. I cild. Yeni nəşr. Bakı, 2018.
4. Nağıyev F. Konstitusiya hüququ. Mühazirə mətnləri. Azərbaycan dilində. Bakı, Qanun, 2009
5. Гараджаев Дж., Конституционное право Азербайджанской Республики. Учебник для вузов. Баку: 2023.

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN GƏNCLƏR SİYASƏTİNİN FORMALAŞMASI VƏ İNKİŞAF İSTİQAMƏTLƏRİ

**Murad Həsənxanlı**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: mhsnxanli@gmail.com

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə hazırlanmış və 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyasının təhlili göstərir ki, sənəddə gənclərin təhsil, məşğulluq, sosial müdafiə və hüquq bərabərliyi sahəsində hüquqları aydın şəkildə təsbit olunmuşdur. Bu hüquqlar gənclərin cəmiyyətin fəal üzvü kimi formalaşmasını təmin etmək məqsədilə sosial-iqtisadi və hüquqi mexanizmlərlə dəstəklənir. Məsələn, Konstitusiyanın 17-ci maddəsi ailə və uşaqların dövlət himayəsində olduğunu, valideynsiz uşaqlara xüsusi qayğı göstərildiyini və uşaq hüquqlarının qorunduğunu müəyyən edir. Bu, dövlətin gənc nəslin rifahına verdiyi əhəmiyyətin konstitusion əsasını təşkil edir [1].

Müstəqillik dövründə gənclər siyasətinin hüquqi bazasının formalaşmasında isə ulu öndər Heydər Əliyevin rolu mühüm olmuşdur. Onun təşəbbüsü ilə qəbul edilmiş "Gənclər siyasəti haqqında" 2002-ci il Qanunu [5] 1991-ci il qanunundan [4] fərqli olaraq, sistemli və strateji yanaşmanı əks etdirərək dövlətin gənclərə dair siyasətini daha sabit və məqsədyönlü şəkildə yönləndirməyə şərait yaratmışdır.

Ulu Öndər Heydər Əliyev tərəfindən 29 iyul 1999-cu ildə imzalanmış "Dövlət gənclər siyasəti haqqında" fərman Azərbaycanda gənclər siyasətinin sistemli əsasda qurulmasında dönüş nöqtəsi olmuşdur [2]. Fərmanla gənclərin tarixi roluna və milli-azadlıq hərəkatındakı iştirakına diqqət çəkilərək, onların dövlət quruculuğunda fəal iştirakı üçün strateji istiqamətlər müəyyən edilmişdir. Gənclərin mənəvi tərbiyəsi və sosial-iqtisadi inkişafı əsas prioritetlərdən biri kimi qeyd olunmuş, bu məqsədlə Gənclər və İdman Nazirliyinin yaradılması və elmi araşdırma mərkəzlərinin təsisi təmin edilmişdir.

Bütün bu hüquqi sənədlərdən görürük ki, Heydər Əliyevin əsasını qoyduğu dövlət gənclər siyasətinin əsas hədəfləri arasında vətənpərvərlik ruhunda tərbiyə, mənəvi-əxlaqi dəyərlərin aşılanması, zərərli vərdişlərdən qorunma və gənclərin mədəni həyata cəlbi xüsusi yer tutur. Dövlət gənclərin maariflənməsi üçün televiziyada, mətbuatda, teatr və kinoda xüsusi proqramların hazırlanmasını dəstəkləyir, onların sosial adaptasiyası üçün "Gənclər evi" sosial xidmət müəssisələri şəbəkəsi yaratmışdır [3]. Eyni zamanda, istedadlı və yaradıcı gənclərin təhsil və peşə inkişafı, həm ölkə daxilində, həm də xaricdə dəstəklənir, sosial müdafiəyə ehtiyacı olan və risk qrupuna daxil olan gənclərə fərdi yardım və reabilitasiya imkanları yaradılır. Fiziki və reproduktiv sağlamlığın qorunması, zərərli vərdişlərlə mübarizə və sağlam həyat tərzinin təşviqi dövlətin prioritetlərindən biridir. Gənclərin məşğulluğunun

təmin olunması məqsədilə isə peşə hazırlığı, işlə təminat proqramları və kənd yerlərində torpaq və güzəştli kredit imkanları təqdim olunur. Gənc ailələrə ipoteka və mənzil dəstəyi ilə yanaşı, nikah və ailə institutunun möhkəmləndirilməsinə yönəlmiş maarifləndirici tədbirlər də həyata keçirilir. Bütün bu istiqamətlərdə Heydər Əliyevin gəncləri milli inkişafın əsas aparıcı qüvvəsi kimi qəbul etməsi, bu siyasətin strateji və uzunmüddətli xarakter daşımasını təmin etmişdir.

**Ədəbiyyat**


1. Azərbaycan Respublikasının Konstitusiyası. 12 noyabr 1995-ci il. № 00. URL: https://e-qanun.az/framework/897
2. Dövlət gənclər siyasəti haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. № 169. 29 iyul 1999-cu il. URL: https://e-qanun.az/framework/4825
3. Gənclər evi sosial xidmət müəssisələri şəbəkəsinin yaradılması Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı. 8 iyun 2016-cı il. № 218. URL: https://e-qanun.az/framework/33040
4. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. № 269-XII. 13 noyabr 1991-ci il. URL: https://e-qanun.az/framework/6781
5. Gənclər siyasəti haqqında Azərbaycan Respublikasının Qanunu. № 297-IIQ. 9 aprel 2002-ci il. URL: https://e-qanun.az/framework/1619

# GƏNCLİYİN FORMALAŞMASINDA AİLƏ VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN ROLU

**Aytən Həsənli**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: aytanhasanli01@gmail.com

Gənclik fərdin həyatında ən kritik dönüş nöqtələrindən biridir və bu dövrdə düzgün istiqamətləndirmə şəxsi inkişaf, cəmiyyətlə qarşılıqlı əlaqə və dəyərlər baxımından uzunmüddətli təsirlər yaradır. Gəncliyin formalaşması fərdin fiziki və psixoloji inkişaf prosesini, eləcə də sosial və mədəni kimliyini formalaşdıran mərhələdir. Bu dövrdə fərdin mühitinin, xüsusən də ailənin və təhsil müəssisələrinin böyük təsiri olur. Ailə uşaq üçün ilk təhsil və sosiallaşma sahəsidir, təhsil müəssisələri isə daha sistemli öyrənmə prosesini başlatır. Bu yazıda biz gənclərin formalaşmasının əhəmiyyətini və bu prosesdə ailə və təhsil müəssisələrinin rolunu araşdıracağıq.

Yeniyetməlik fərdlərin həyatında keçid dövrüdür. Uşaqlıqdan yetkinliyə keçidin başlanğıcıdır. Bu dövrdə fiziki inkişafdan tutmuş psixoloji yetkinliyə qədər bir sıra mühüm dəyişikliklər baş verir. Gənclər sosial rollarını müəyyənləşdirmək, şəxsiyyətlərini formalaşdırmaq, dəyər mühakimələrini aydınlaşdırmaq kimi proseslərdən keçirlər. Onlar həmçinin ailədən müstəqillik əldə etmək, həmyaşıdları ilə əlaqələr qurmaq, emosional və sosial bacarıqları inkişaf etdirmək kimi mühüm vəzifələrlə üzləşirlər.

Fərdlərin gənclik illərində davranışları sonrakı illərdə onların qərar və davranışlarına böyük təsir göstərir. Bu dövrdə edilən müsbət müdaxilələr insanın sağlam yetkin olmasına imkan verir.

Əks halda, mənfi qarşılıqlı təsirlər fərdin cəmiyyətlə uyğunsuzlaşmasına, psixoloji problemlər yaşamasına, gələcək həyatının keyfiyyətinin aşağı düşməsinə səbəb ola bilər. Gənclərin sosial həyata inteqrasiyası təkcə onların şəxsi inkişafı deyil, həm də cəmiyyətin ümumi rifahı üçün böyük əhəmiyyət kəsb edir.

Ailə insanın ilk təhsil aldığı, dəyərlərin və davranışların formalaşdığı yerdir. Ailə uşağın fərdi, emosional və sosial inkişafının təməl daşlarını qoyur. Sevgi, güvən, aidiyyət və təhlükəsiz mühitin təmin edilməsi gənclərin özünə inam qazanmasına və sağlam şəxsiyyətlər inkişaf etdirməsinə imkan verir. Bundan əlavə, ailə daxilində öyrənilən dəyər və normalar gənclərin sosial qaydalara uyğunlaşmasına və cəmiyyətdə məsuliyyətli şəxsiyyətlərə çevrilməsinə şərait yaradır.

Təhsil müəssisələri ailədə qazanılan dəyərləri gücləndirir və fərdlərin daha geniş bir cəmiyyət kontekstində özlərini inkişaf etdirə biləcəkləri mühitlər təmin edir. Məktəb gənclərin həm bilik əldə etmələrinə, həm də sosial bacarıqlarını inkişaf etdirmələrinə imkan verən platformadır. Məktəbdə verilən akademik təhsil fərdlərin zehni inkişafını dəstəkləməklə yanaşı, onlara sosial bacarıqlar, empatiya və qruplarda hərəkət etmək bacarığını da təmin edir. Bundan əlavə, müəllimlər və məktəb rəhbərləri şagirdlərin psixoloji və emosional inkişafına dəstək verməklə, onları cəmiyyətə sağlam şəkildə hazırlamaq vəzifəsini öz üzərinə götürürlər.

Təhsil müəssisələrinin rolu təkcə akademik uğurlarla məhdudlaşmır. Məktəblər fərdlərə sosial əlaqələr qurmağa və müxtəlif düşüncə strukturları ilə tanış olmağa imkan verir. Müxtəlif fəaliyyətlərdə və qrup işlərində iştirak gənclərə əməkdaşlıq etməyi, rəhbərlik etməyi və başqalarını başa düşməyi öyrənməyə kömək edir. Bundan əlavə, məktəbdə verilən dəyər tərbiyəsi və əxlaq dərsləri gənclərin sosial məsuliyyətlərini dərk etmələrinə və etik dəyərlərlə təchiz olunmasına şərait yaradır.

Ailə və təhsil müəssisələri gənclərin inkişafında bir-birini tamamlayan iki əsas aktordur. Ailə uşağın təməl dəyər və inanclarını mənimsədiyi ilk yer olsa da, məktəb bu dəyərləri möhkəmləndirən və sosial həyata inteqrasiyanı təmin edən bir mühitdir. Ailə ilə məktəb arasında sağlam ünsiyyət şagirdin uğurunu və sosial adaptasiyasını artırır. Ailənin məktəb prosesində iştirakı şagirdə dəstək vermək, psixoloji cəhətdən təhlükəsiz mühit yaratmaq və akademik uğuru təşviq etmək üçün vacibdir.

Məktəbdə əldə edilən bilik və bacarıqlar gənclərin həyatlarında qarşılaşdıqları çətinliklərin öhdəsindən gəlmək bacarığını təkmilləşdirir. Ailə bu prosesi dəstəkləməklə gənclərin məktəbdəki təcrübələrini daha mənalı edir və onların özlərini təhlükəsiz şəkildə ifadə etmələrinə kömək edir. Beləliklə, ailə ilə məktəb arasındakı qarşılıqlı əlaqə şəxsiyyətlərin inkişafına böyük töhfə verir.

**Ədəbiyyat**


1. Feinstein, L. "What Do We Know About the Role of Childhood Education in Shaping Lifelong Outcomes?", London, "Institute of Education Press", 2004, 220 p.
2. Grolnick, W. S. "The Psychology of Parental Control: How Well-Meant Parenting Backfires", Mahwah, "Lawrence Erlbaum Associates", 2019, 360 p.
3. Harris, J. R. "The Nurture Assumption: Why Children Turn Out the Way They Do", New York, "Free Press", 2017, 340 p.

# AZƏRBAYCAN RESPUBLİKASINDA GƏNCLƏR SİYASƏTİ VƏ KADR POTENSİALININ FORMALAŞDIRILMASI

**Gülnar Həsənova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: gulnarhesenova0991@gmail.com

Təhlillər göstərir ki, axırıncı on illiklərdə Azərbaycanın iqtisadi, siyasi, sosial, hüquqi sahələrində köklü dəyişikliklə aparılmış, hakimiyyət sistemində, mülkiyyət münasibətlərində yenidən qurma prosesi getmiş, müasir dövlət qulluğu institutu formalaşmışdır.

Ulu Öndər Heydər Əliyevin Respublikamıza rəhbərlik etdiyi dövr ərzində aparılan siyasi, hüquqi, sosial, iqtisadi islahatlar nəticəsində dövlət idarəçilik sisteminin gələcək inkişaf strategiyası müəyyənləşdirildi, və demokratik hüquqi dövlət quruculuğunun əsasları formalaşdırıldı.

Prezident İlham Əliyev müstəqil Azərbaycan dövlətinin qarşısında geniş inkişaf perspektivləri ilə bağlı mühüm vəzifələrin durduğunu və bu vəzifələrin öhdəsindən gəlməyə qadir olan vətənpərvər, yüksək savadlı gənclərin hazırlanmasını ölkəmizin tərəqqisinin, xalqımızın firavan həyata qovuşmasının mühüm şərtlərindən biri kimi qiymətləndirdi. Ölkədə dövlət qulluğunun peşəkar və səriştəli, müasir şəraitdə işləməyə, mürəkkəb funksiyaların öhdəsindən gəlməyə, çevik reaksiyaya və analitik təhlilə, yaradıcı təfəkkürə və yüksək intellektə malik olan dövlət qulluqçuları ilə təmin etməyə yönələn kadr siyasətinin yürüdülməsi üçün ardıcıl islahatlar həyata keçirilməyə başlandı.

Gənclərin hərtərəfli inkişafı ölkənin sosial-iqtisadi, elmi və mədəni inkişafı ilə sıx əlaqədədir, onun qlobal rəqabətə davamlılığının, milli təhlükəsizliyinin vacib şərtlərindəndir. Dövlət gənclər siyasəti gənclərin öz bilik və bacarıqlarının, potensialının səmərəli reallaşdırılmasını, cəmiyyətdə layiqli yer tutmasını təmin edən şəraitin yaradılması məqsədilə müəyyən edilmiş prioritetlər və həyata keçirilən tədbirlər sistemidir.

Son 10 ildə Azərbaycan bütün sahələrdə mühüm uğurlar qazanmış, insan potensialının inkişafına görə "orta insan inkişafı ölkələri" qrupundan "yüksək insan inkişafı ölkələri" kateqoriyasına daxil olmuşdur. Bu, əhalinin müxtəlif təbəqələri, o cümlədən gənclər üçün iqtisadi imkanların yeni səviyyədə yaradılması, hüquqların genişləndirilməsi və maddi təminatın möhkəmləndirilməsi deməkdir. Ötən dövrdə sosial müdafiə sistemi təkmilləşdirilmiş, aktiv məşğulluq siyasətinə əsaslanan əmək bazarı formalaşdırılmış, yoxsulluğa qarşı mübarizə uğurla davam etdirilmişdir. Bunlarla yanaşı, mədəni irsin qorunması, gənclərlə iş və idman siyasətinin çevikliyinin artırılması, demoqrafiya və miqrasiya məsələlərinin effektiv tənzimlənməsi kimi vacib tədbirlər yeni nəsil üçün yüksək sosial rifah və insan kapitalının inkişafını təmin etmişdir .

Yeni Azərbaycan Partiyasının sədri, cənab Prezident İlham Əliyev gənclər siyasəti sahəsində bir sıra qanunlar qəbul edilmiş, müxtəlif illər üzrə inkişaf konsepsiyaları hazırlanmış, gənclər sektorunda görünməmiş uğurlara imza atılmışdır. 2019-cu ildə dövlət başçısının apardığı kadr və struktur islahatları ilə yadda qalan proseslərdə də, perspektivli və təcrübəli gənclərin dövlət idarəçiliyində mühüm postlara təyin olunmasının kifayət qədər nümunələrini görmək mümkündür. Şübhəsiz ki, bütün bu addımlar Azərbaycanda insan inkişafının daha da yüksəlməsinə, əhalimizin sosial-iqtisadi problemlərinin həllinə yönəlir.

Ümummilli lider Heydər Əliyevin bizə irs qoyduğu bu zəngin təcrübəyə əsaslanaraq, eləcə də beynəlxalq təcrübəyə istinad edərək idarəçilik mədəniyyəti yüksək olan, yeniləşən dünyamızın tələblərinə cavab verən kadr bazasını genişləndirmək bu gün dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Belə ki, gənclərin dövlət idarəçiliyinə cəlb olunması, onların potensialının üzə çıxarılması üçün hərtərəfli şərait yaradılması, könüllülük hərəkatının genişləndirilməsi mühüm tələbə çevrilib.

Gənc kadrların peşəkarlığının, səriştəliliyinin yüksək olmasından ölkənin nəinki bugünü, həmçinin gələcəyi də çox asılıdır. Eyni zamanda gənc kadrların üzərinə çox böyük məhsuliyyət düşür. Bizlər öyrənərək öyrətməyə bacarmalıyıq və dövlətimizin etibarlı əllərə verilməsi üçün layiqli kadrlar yetişdirilməsi üçün əlimizdən qələni etməliyik. İdarəçilik işinin səmərəliliyini yüksəltməyə nail olmaq məqsədi ilə bu gün ölkəmizdə aparılan islahatlar dövlətimizin qarşısında təkcə kadr hazırlanması kimi yox, həm də siyasi bir vəzifə kimi durmaqdadır.

Bu baxımdan, təbiidir ki, indi idarəetmə kadrlarının nəzəri və praktiki hazırlığı məsələlərinə olan tələb də artır. İndi hazırlanan kadrlar gərək ekstremal vəziyyətlərdə düzgün, məntiqli qərar qəbul etmə, konkret şəraitə uyğun vəzifələrin öhdəsindən gəlmə, mühakimə bacarığına malik olmaq kimi keyfiyyətlərə yiyələnməlidirlər. Onlar dövlət idarəçiliyində bu kimi keyfiyyətlərini ortaya qoymağı bacarmalıdırlar. Odur ki, bu vəzifələrə uyğun kadrlar hazırlanması, onların səriştəliliyi, peşəkarlığının artırılması işi də daim təkmilləşməli, kadrların elmi-nəzəri səviyyəsi yüksəldilməli və praktiki iş təcrübələri artırılmalıdır. Bunun üçün tədris prosesinin təşkili, onun forma və metodları da inkişaf etdirilməli, təkmilləşdirilməlidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının "Gənclər siyasəti" haqqında 9 aprel 2002-ci il tarixli Qanunu
2. Hüseynova N.Ş. Dövlət qulluğu və kadr siyasəti. Bakı: "Adiloğlu", 2013, 255 s.
3. Qəndilov S.M. Dövlət idarəçilik nəzəriyyəsi. Bakı: "Elm və təhsil", 2013, 189 s.
4. Məlikova M.F. Dövlət və hüquq nəzəriyyəsi. Bakı: "Maarif", 2012, 532 s.
5. Rəhimli R. "Azərbaycanda dövlət qulluqçularının hazırlanması" // Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan bölməsinin xəbərləri. İctimai və humanitar elmlər seriyası, № 3, 2017, s.42-51


# MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏTİN İNKİŞAFINDA HEYDƏR ƏLİYEV FONDUNUN YERİ VƏ ROLU (SOSİOLOJİ BAXIŞ)


**Günel Həsənova**

*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*

e-mail: gunellhsnova@gmail.com


## Giriş

Mədəniyyət bir xalqın kimliyini və dəyərlərini yaşadan gücdür. Qloballaşmanın təsiri ilə milli mədəniyyətlərin üzləşdiyi təhlükə artdıqca onların qorunması və inkişaf etdirilməsi xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan cəmiyyətində bu missiyanı üzərinə götürən əsas institutlardan biri də Heydər Əliyev Fondudur [1]. Bu fond təkcə mədəni irsin qoruyucusu deyil, həm də yeni mədəni təşəbbüslərin yaradılmasına şərait yaradan simvolik güc mərkəzi kimi çıxış edir [2]. Mövzunun tədqiqinin əsas məqsədi Heydər

Əliyev Fondunun mədəniyyət və incəsənət sahəsindəki fəaliyyətinin sosioloji təhlilinə konseptual yanaşmaq və bu təsirin müsbət nəticələrini şərh etməkdir. Mövzu aşağıdakı istiqamətlərdə təhlilə cəlb olunmuşdur.

## Heydər Əliyev Fondunun yaranması və fəaliyyət istiqamətləri

Təhlilin ilk addımı tarixi-sistemli metodla həyata keçirir. Heydər Əliyev Fondu 2004-cü ildə qurulmuş və qısa zamanda Azərbaycanın ictimai həyatında mühüm aktora çevrilmişdir[1]. Ümummilli lider Heydər Əliyevin ideyalarının davam etdirilməsi, təhsil, mədəniyyət və sosial sahələrdə layihələrin dəstəklənməsi fondun əsas məqsədlərindən hesab olunur. Eyni zamanda mədəniyyət və incəsənət sahəsində Fondun fəaliyyəti həm milli irsin qorunması, həm də yeni istedadların üzə çıxarılması baxımından xüsusi yer tutur. Buraya muğamın təbliğindən tutmuş beynəlxalq sərgilərdə iştirakadək geniş spektrli təşəbbüslər də daxildir [3]. Diqqət yetirəcəyimiz digər istiqamət Mədəniyyət və incəsənət sahəsində fondun həyata keçirdiyi layihələr və onların sosial təsiridir. Fondun həyata keçirdiyi layihələr yalnız mövcud mədəni irsin qorunmasına deyil, həm də yeni mədəni dəyərlərin formalaşmasına, yaradıcı təbəqələrin inkişafına yönəlib. Ən diqqətçəkən təşəbbüslərdən biri "Muğam Televiziya Müsabiqəsi"dir [3]. Bu layihə vasitəsilə yüzlərlə gənc istedad üzə çıxarılmış, muğamın təbliği və yeni nəsillərə sevdirilməsi istiqamətində mühüm addımlar atılmışdır. Fikrimcə, bu layihə Azərbaycan cəmiyyətində milli musiqi dəyərlərinə olan marağı canlandırmaqla bərabər, həm də mədəni özünüdərkin gücləndirilməsində əvəzsiz rol oynamışdır. Belə təşəbbüslər yalnız sənət yox, həm də kimlik məsələsidir – insanlar öz mənsubiyyətlərini muğam vasitəsilə bir daha hiss edirlər. Digər layihə fondun "İncəsənət naminə təhsil" layihəsidir, hansiki, gənclərin yaradıcılıq potensialının aşkarlanmasına və onların

peşəkar inkişafına yönəlmişdir [1]. Bu layihənin xüsusilə regionlarda yaşayan uşaqlar üçün əlçatan edilməsi,fikrimcə, sosial bərabərlik prinsipinin təcəssümüdür.

Fondun həyata keçirdiyi layihələrdə beynəlxalq əməkdaşlıq da xüsusi önəm kəsb edir. Məsələn, Azərbaycan xalçası, muğam sənəti və aşıq sənətinin UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edilməsi təkcə diplomatik uğur deyil, həm də milli identikliyin beynəlxalq aləmdə qəbul olunması baxımından mühüm nailiyyətdir[4].Eyni zamanda, Fondun fəaliyyətində bir başqa diqqətçəkən məqam -mədəniyyətin yalnız elit təbəqələr üçün deyil, hər bir vətəndaş üçün əlçatan olması prinsipinə uyğun olaraq, Fond müxtəlif sosial qruplara yönəlik tədbirlər həyata keçirmişdir. Nəticədə, bu inklüziv yanaşma, mədəniyyətin sosial bərabərliyin formalaşmasında daşıyıcı qüvvə olduğunu sübut edir.

## Nəticə

Heydər Əliyev Fondunun mədəniyyət sahəsindəki layihələri Azərbaycanın mədəniyyətini gücləndirərək, hər bir vətəndaş üçün mədəniyyətə bərabər çıxış imkanı yaradır. Bu baxımdan, Fondun fəaliyyəti Azərbaycan cəmiyyətində mədəniyyətin formalaşmasında və gücləndirilməsində mühüm rol oynamağa davam edir[4].

## Ədəbiyyat


1. Əliyeva, F. (2018). *Heydər Əliyev Fondunun fəaliyyəti və onun mədəniyyətin inkişafına təsiri*. Bakı: Elm və Təhsil Nəşriyyatı.
2. Quliyev, M. (2021). *Qloballaşma dövründə mədəniyyət siyasəti: Azərbaycan nümunəsi*. Sosioloji Araşdırmalar Jurnalı, №2, s. 45-53.
3. Heydər Əliyev Fondu Rəsmi Saytı. (n.d.). www.heydar-aliyev-foundation.org
4. UNESCO (2020). *Intangible Cultural Heritage Lists*. https://ich.unesco.org

# HEYDƏR ƏLİYEVİN DÖVLƏT İDARƏÇİLİYİ KONSEPSİYASININ AZƏRBAYCAN RESPUBLİKASININ KONSTİTUSİYASINDA ƏKS OLUNMASI

**Kamran Həsənov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyasının*
e-mail: kamranhasanov177@gmail.com

***Açar sözlər:*** konstitusiya, dövlət idarəçiliyi, prezidentlik institutu, müstəqillik

Ümummilli lider Heydər Əliyev müasir Azərbaycan dövlətçiliyinin qurucusu kimi ölkənin hüquqi, siyasi və inzibati əsaslarını formalaşdırmaqda mühüm rol oynamışdır. 1995-ci ildə qəbul olunmuş Azərbaycan Respublikasının Konstitusiyası onun rəhbərliyi ilə hazırlanmış və ölkənin hüquqi inkişafında dönüş nöqtəsinə çevrilmişdir. Bu sənəd idarəçilik sistemində sabitliyin, qanunçuluğun və səmərəliliyin təmin olunması üçün hüquqi baza yaratmışdır.

Heydər Əliyevin dövlət idarəçiliyi fəlsəfəsi güclü və çevik icra hakimiyyətinin qurulmasına, hüquqi dövlət və vətəndaş cəmiyyətinin əsaslarının möhkəmləndirilməsinə yönəlmişdi. Bu idarəçilik modeli Konstitusiyada əks olunaraq Prezident institutunun səlahiyyətləri, səlahiyyət bölgüsü və dövlət orqanlarının qarşılıqlı əlaqəsi ilə hüquqi çərçivəyə salınmışdır.

Bu tezisdə Heydər Əliyevin idarəetmə konsepsiyasının Konstitusiyada necə əks olunduğu, bu modelin dövlət idarəçiliyinin hüquqi bazasının formalaşmasında rolu və müasir dövrdə davamlılığı təhlil olunur.

Heydər Əliyevin idarəçilik fəlsəfəsi ölkədə sabitliyin və milli həmrəyliyin təmin olunmasına, idarəetmədə effektivlik və operativliyə əsaslanırdı. O, güclü icra hakimiyyətinin müstəqilliyini yeni qazanan ölkə üçün həyati vacib hesab edirdi [3].

1993-cü ildən sonra həyata keçirilən struktur və hüquqi islahatlar nəticəsində Prezidentlik institutunun gücləndirilməsi, səlahiyyətlərin mərkəzləşdirilməsi və dövlət orqanlarının fəaliyyətinin koordinasiyası təmin edildi [2]. Bu model hüquqi baxımdan 1995-ci il Konstitusiyası ilə təsdiqlənmişdir.

Azərbaycan Respublikasının Konstitusiyası dövlət hakimiyyətinin üç qolu – qanunvericilik, icra və məhkəmə orqanları arasında səlahiyyət bölgüsünü müəyyən edir. İcra hakimiyyətinin başında dayanan Prezident həm dövlət başçısı, həm də Silahlı Qüvvələrin ali baş komandanıdır [1].

Konstitusiyada Prezidentin sərəncamvermə, Nazirlər Kabinetini formalaşdırma və icra hakimiyyətinə rəhbərlik etmə səlahiyyətləri açıq şəkildə müəyyən olunmuşdur [4]. Bu səlahiyyətlər idarəetmədə çevikliyin və siyasi sabitliyin qorunmasına xidmət etmişdir [7].

Konstitusiya yalnız hüquqi sənəd deyil, həm də idarəçilikdə sabitliyin əsas təminatçısıdır. Heydər Əliyevin müəyyən etdiyi idarəetmə prinsipləri – qanunun aliliyi, güclü prezidentlik institutu və vətəndaş hüquqlarının qorunması – bu sənəddə hüquqi müstəvidə möhkəmləndirilmişdir [6].

Sonrakı illərdə – 2002, 2009 və 2016-cı illərdə Konstitusiyaya edilən dəyişikliklər idarəçilik mexanizminin müasir tələblərə uyğun inkişafına şərait yaratmışdır [5]. Bu dəyişikliklər Heydər Əliyev tərəfindən əsasları qoyulmuş idarəetmə modelinin zamanın çağırışlarına uyğun təkamül etdiyini göstərir.

Heydər Əliyevin dövlət idarəçiliyi konsepsiyası müstəqil Azərbaycan dövlətinin hüquqi-siyasi dayağını formalaşdırmışdır.

Bu model 1995-ci il Konstitusiyasında hüquqi əsaslarını taparaq, ölkədə sabitliyin, hüquqi nizamın və idarəetmədə funksionallığın təmin olunmasında həlledici rol oynamışdır.

Konstitusiyada Prezident institutunun gücləndirilməsi və dövlət orqanlarının strukturlaşdırılması idarəetmənin effektivliyinə xidmət etmiş, hüquqi dövlətin inkişafını təmin etmişdir. Bu gün də həmin idarəçilik fəlsəfəsi müasir Azərbaycan dövlətçiliyinin əsas təməl prinsipləri olaraq aktuallığını qoruyur.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası (1995), www.president.az
2. Əliyev, H. Dövlət və cəmiyyət quruculuğu məsələləri. Bakı 2000. Səda nəşriyyatı.
3. Əliyev, H. Müstəqilliyimiz əbədidir. Bakı 1997. Azərnəşr.
4. Əliyev, R. Konstitusiya hüququ. Bakı 2015. Hüquq ədəbiyyatı
5. Əliyeva, G. "Heydər Əliyev və müasir dövlət idarəçiliyi modeli". Dövlət və Hüquq jurnalı, №4. 2021
6. Hüseynov, A. Azərbaycan Konstitusional hüququnda idarəetmə prinsipləri. Bakı 2018. Qanun nəşriyyatı
7. Mirkasimov, A. Azərbaycan dövlət idarəçiliyi sistemi. Bakı 2003. Elm nəşriyyatı

# “BÖYÜK QAYIDIŞ” PROQRAMI ÇƏRÇİVƏSİNDƏ CƏBRAYIL RAYONUNUN YENİDƏN QURULMASI

**Novruz Həsənov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: novruzefendi@gmail.com

İşğaldan azad edilmiş ərazilərdə bərpa işlərinin aparılması, yalnız fiziki infrastrukturların tikintisi ilə məhdudlaşmır. Bu ərazilərdə ciddi ekoloji, sosial və iqtisadi zərərlər meydana gəlib və bu problemləri həll etmək üçün kompleks bir yanaşma tələb olunur.

Həmin ərazilərdə kifayət qədər günəş və külək enerjisi potensialı olduğunu nəzərə alaraq, bu ərazilərin təbii resurslarının səmərəli şəkildə istifadəsi və iqtisadi potensialının artırılması üçün yeni iqtisadi layihələr və investisiya cəlb etmə strategiyaları hazırlanır. Bu proseslərin düzgün şəkildə həyata keçirilməsi, ərazilərin yalnız fiziki deyil, həm də sosial və iqtisadi cəhətdən bərpasını təmin edəcəkdir.

Azərbaycan, yerli xüsusiyyətləri nəzərə alaraq, öz post-konflikt bərpa modelini yaratmağa çalışır. Bu model, həm iqtisadiyyatın, həm də sosial infrastrukturun bərpasını əhatə edir.

"Böyük Qayıdış" proqramı yalnız ərazilərin fiziki bərpası ilə məhdudlaşmır, eyni zamanda sosial və iqtisadi canlanma məqsədi güdür. Sosial tərəfdən, təhsil, səhiyyə və digər sosial xidmətlərin bərpası, insanların həyat şəraitinin yaxşılaşdırılması üçün önəmli addımlardır. Bu sahələrə sərmayə qoyuluşu, insanların psixoloji və sosial adaptasiyasını asanlaşdıracaq və onların öz doğma torpaqlarına geri qayıtmasını sürətləndirəcəkdir.(1)

Cəbrayıl rayonu, işğaldan azad edilmiş ərazilərdən biridir və burada təbii resurslar baxımından böyük potensial mövcuddur. Cəbrayılın təbii sərvətlərinin düzgün şəkildə idarə olunması və bu ərazilərin bərpası, əhalinin qayıdışını sürətləndirəcək və sosial-iqtisadi inkişafı təmin edəcəkdir. Dövlət, bu rayonun iqtisadi potensialını nəzərə alaraq, müxtəlif infrastruktur layıhələri həyata keçirir və bu ərazilərə investisiyalar cəlb etməyə çalışır.Cəbrayıl rayonunda Sənaye Parkının yaradılması regionun sənaye potenisalının reallaşmasına imkan verəcək. Şərqi Zəngəzur iqtisadi rayonu təbii ehtiyatlarının həcmi baxımından seçilən rayonlarımızdandır. Bu, sənaye məhsullarının istehsalı üçün yeni imkanlar yaradır.(2)

Cəbrayılın yenidən qurulmasında mühüm addımlar atılmaqdadır. Əsas diqqət infrastrukturların bərpasına yönəldilmişdir. Cəbrayılın minalardan təmizlənməsi, yolların bərpası, su və elektrik təchizatı sistemlərinin yenidən qurulması və sosial xidmətlərin təqdim edilməsi bu ərazinin inkişafı üçün vacib addımlardır. Bu proseslər, həm də işğaldan əvvəlki iqtisadi fəaliyyətin bərpasına və yerli əhalinin iqtisadiyyatla əlaqəsinin möhkəmləndirilməsinə xidmət edəcəkdir.

"Böyük Qayıdış" proqramı çərçivəsində məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması üçün müxtəlif tədbirlər həyata keçirilir. Bu tədbirlər arasında təhsil, səhiyyə, iş imkanları, sosial dəstək və infrastrukturun inkişafı mühüm yer tutur. Məcburi köçkünlərin geri qayıtması, yalnız fiziki bərpa ilə deyil, həm də insanların sosial və iqtisadi vəziyyətinin yaxşılaşdırılması ilə mümkün olacaqdır.(3)

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu ərazi bütövlüyü və suverenlik prinsipləri, onun siyasi kursunu inamlı şəkildə davam etdirən cənab Prezident İlham Əliyevin rəhbərliyi altında uğurla reallaşdırılıb. Hazırda Qarabağda aparılan quruculuq işləri

ölkənin gücünü və dövlət başçısının siyasi iradəsini nümayiş etdirir. Bu siyasət milli birliyi, inkişafı və xalqın rifahını təmin etməyə yönəlib.

"Böyük Qayıdış" proqramı, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin bərpası və məcburi köçkünlərin öz doğma torpaqlarına qayıtması üçün kompleks bir yanaşma təqdim edir. Proqram, yalnız fiziki infrastrukturun bərpası ilə məhdudlaşmır, həmçinin sosial və iqtisadi inkişafı təmin etmək üçün bir sıra təşviqlər və layihələr həyata keçirilir. Cəbrayıl rayonunun yenidən qurulması və burada həyata keçirilən infrastruktur layihələri, Azərbaycanın post-konflikt dövründəki inkişafının parlaq nümunələrindəndir.

**Ədəbiyyat**


1. "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası".
2. https://www.yeniazerbaycan.com/Arxiv_e61757_az.html
3. https://azertag.az/xeber/boyuk_qayidis_qarabag_ve_serqi_zengezur_yeni_inkisaf_dovrunu_yasayir-3368295


## BANK SEKTORUNDA İT İNFRASTRUKTURUNUN TƏKMİLLƏŞDİRİLMƏSİ


**Sibel Həsənova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: sibel.hsnva999@gmail.com


Müasir dövrdə rəqəmsallaşma bank sektorunda əməliyyatların sürətli, təhlükəsiz və əlçatan şəkildə həyata keçirilməsində mühüm rol oynayır. Artan rəqabət və müştəri tələbləri bankları İT

infrastrukturunu davamlı yeniləməyə və innovativ texnologiyalara üstünlük verməyə məcbur edir.

Bu tədqiqatın məqsədi bank sektorunda İT infrastrukturunun mövcud vəziyyətini araşdırmaq, onun təkmilləşdirilməsi yollarını və rəqəmsal texnologiyaların əməliyyat səmərəliliyinə təsirini təhlil etməkdir. Xüsusilə süni intellekt, bulud və blokçeyn texnologiyalarının tətbiqi önə çıxır.

- **Sünî intellekt (AI):** AI alqoritmləri özəlliklə fırıldaqçılıq hallarını erkən mərhələdə aşkarlamaq, müştəri davranışını təhlil etmək və daha şəxsi yönləndirilməli maliyyə məhsulları təklif etmək üçün çox effektivdir.
- **Bulud texnologiyaları:** Bankların əməliyyatlarının elastikliyini artırır və eyni zamanda xərclərin azaldılmasına imkan yaradır.
- **Blokçeyn:** Banklar arası maliyyə əməliyyatlarında şəffaflıq və təhlükəsizlik təmin edir.

Bank sektorunda İT infrastrukturunun təkmilləşdirilməsi zamanı qarşılaşılan əsas problemlər və mövcud imkanlar aşağıdakı şəkildə ümumiləşdirilə bilər:

**Problemlər:**

1. **Məlumat təhlükəsizliyi:**

Banklar müştəri məlumatlarını qorumaq üçün təhlükəsizlik sistemlərini daim yeniləməlidirlər. Kiberhücumlar ciddi maliyyə itkiləri və etibar itkisinə səbəb ola bilər.

2. **Köhnəlmiş sistemlər:**

Bəzi banklar köhnə İT sistemlərindən istifadə etdikləri üçün yenilikləri tətbiq etməkdə çətinlik çəkirlər. Modernləşmə isə vaxt və maliyyə tələb edir.

3. **Maliyyə xərcləri:**

Yeni texnologiyaların tətbiqi böyük investisiyalar tələb edir və bu, xüsusilə kiçik banklar üçün çətinlik yaradır.

**İmkanlar:**

1. **Texnoloji irəliləyişlər:**

Süni intellekt, blokçeyn, bulud və Big Data texnologiyaları bank əməliyyatlarını daha sürətli və səmərəli edir.

2. **Müştəri məmnuniyyətinin artırılması:**

Rəqəmsal xidmətlər və fərdi yanaşmalar müştəri təcrübəsini yaxşılaşdırır, mobil tətbiqlər isə funksionallığı artırır.

3. **Xərc optimallaşdırılması:**

Bulud texnologiyaları və avtomatlaşdırma vasitəsilə banklar əməliyyat xərclərini azalda bilər.

**Təkliflər:**

Bank sektorunun rəqəmsal inkişafını sürətləndirmək üçün aşağıdakı tədbirlərin həyata keçirilməsi vacibdir:

• Məlumat təhlükəsizliyini gücləndirmək üçün qabaqcıl kiber müdafiə sistemlərinin tətbiqi.

• Köhnə İT sistemlərinin mərhələli modernləşdirilməsi və yeni texnologiyalara inteqrasiya.

• İnsan resurslarının inkişafı məqsədilə ixtisaslaşdırılmış təlimlərin təşkili.

Bu tədbirlər problemlərin aradan qaldırılmasına və bank sektorunun rəqəmsal transformasiyasına töhfə verəcəkdir.

## Ədəbiyyat


1. Məmmədov R., Hüseynov E. *Bank sistemində informasiya texnologiyalarının tətbiqi və inkişaf perspektivləri*. Bakı: İqtisad Nəşriyyatı, 2018, 210 səh.
2. İsmayılov A. *Azərbaycan bank sektorunda rəqəmsallaşma prosesləri və çağırışlar*. Bakı: UNEC Nəşriyyatı, 2021, 180 səh.
3. Əliyev F. *Maliyyə sektorunda innovativ texnologiyaların rolu*. Bakı: Elm və Təhsil, 2019, 165 səh.

# RABİTƏ SEKTORUNUN AZƏRBAYCAN İQTİSADİYYATINA TƏSİRİ: ƏLDƏ EDİLƏN GƏLİRLƏR

**Albina Həşimova**
*Azərbaycan İdman Akademiyası*
e-mail:albina-hesimova@mail.ru

Müasir dövrdə informasiya-kommunikasiya texnologiyalarının (İKT) inkişafı və rəqəmsallaşma proseslərinin sürətlənməsi ilə rabitə sektoru qlobal və milli iqtisadiyyatlarda strateji əhəmiyyətli sahəyə çevrilmişdir. Xüsusilə də 21-ci əsrdə informasiya cəmiyyətinə keçidin təmin olunmasında rabitənin rolu misilsizdir. Azərbaycan Respublikasında da bu sahəyə göstərilən dövlət qayğısı, qəbul olunan proqramlar və həyata keçirilən islahatlar nəticəsində rabitə və İKT sektoru sürətlə inkişaf etmiş, yeni texnologiyalar tətbiq olunmuş və innovativ xidmətlər təqdim edilmişdir.

Rabitə və yüksək texnologiyalar sektoru Azərbaycanın ümumi daxili məhsuluna (ÜDM) verdiyi töhfə baxımından dinamik inkişaf göstərən sahələrdəndir. Xüsusilə, mobil və stasionar rabitə xidmətləri, internet provayderlərinin fəaliyyəti, həmçinin beynəlxalq rabitə əlaqələri vasitəsilə əldə edilən gəlirlər ilbəil artmaqdadır. Bu gəlirlər yalnız dövlət büdcəsinə daxil olmur, eyni zamanda sektorda çalışan minlərlə insan üçün məşğulluq imkanları yaradır, yeni texnologiyaların ölkəyə gətirilməsi ilə innovativ iqtisadi mühitin formalaşmasına töhfə verir.

Rabitə sektoru informasiya cəmiyyətinin əsas dayaqlarından biri olmaqla, iqtisadi artımın, rəqəmsallaşmanın və innovativ inkişafın aparıcı qüvvəsidir. Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyaları sahəsi son illərdə sürətli inkişaf göstərərək qeyri-neft sektorunun mühüm tərkib hissəsinə çevrilmişdir. Xüsusilə, bu sektorun iqtisadiyyata verdiyi töhfə və əldə olunan

gəlirlər iqtisadi sabitliyin möhkəmlənməsi baxımından əhəmiyyətli yer tutur.

Dövlət Statistika Komitəsinin məlumatlarına əsasən, 2023-cü il ərzində rabitə və informasiya xidmətləri sahəsində əldə edilən gəlir 2 milyard 414 milyon manat təşkil etmişdir ki, bu da öncəki illə müqayisədə 13,3% artım deməkdir. Bu gəlirin təxminən 72%-i mobil rabitə xidmətlərinin payına düşür. Həmçinin, internet xidmətlərinin də payı artmaqda davam edir; yüksək sürətli internetə olan tələbat nəticəsində bu sahədən daxilolmalar da nəzərəçarpacaq şəkildə yüksəlmişdir.

Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəsmi hesabatına görə, 2022–2024-cü illər ərzində informasiya texnologiyaları və rabitə sahəsinə dövlət və özəl sektor tərəfindən ümumilikdə 1,8 milyard manatdan çox investisiya yönəldilmişdir. Bu investisiyalar əsasən fiber-optik şəbəkələrin genişləndirilməsi, 5G texnologiyasına keçid, regionlarda rəqəmsal xidmətlərin əlçatanlığının artırılması və e-hökumət sisteminin təkmilləşdirilməsi istiqamətində reallaşdırılmışdır.

**Cədvəl 1**

**2019–2023-cü illərdə Azərbaycan üzrə rabitə xidmətlərindən əldə olunan gəlirlər və əsas göstəricilər**

| İllər | Rabitə xidmətlərindən əldə olunan gəlir (mln AZN) | İKT sektorunun ÜDM-də payı (%) | Genişzolaqlı Internet abunəçiləri (min nəfər) | Mobil istifadəçilərin sayı(mln nəfər) |
|---|---|---|---|---|
| 2019 | 1,923 | 1.8% | 2,200 | 10.3 |
| 2020 | 2,110 | 1.9% | 2,450 | 10.5 |
| 2020 | 2,370 | 2.1% | 2,750 | 10.7 |
| 2021 | 2,640 | 2.3% | 3,050 | 11.0 |
| 2022 | 2,890 | 2.4% | 3,350 | 11.2 |

***Mənbə:*** *Dövlət Statistika Komitəsi. 2023-cü il*

Rabitə sektorunun inkişafı təkcə iqtisadi göstəricilərlə deyil, eyni zamanda sosial təsirlərlə də xarakterizə olunur. Belə ki, bölgələrdə yeni rabitə infrastrukturunun qurulması ucqar ərazilərdə yaşayan əhali üçün informasiya və xidmətlərə çıxışı asanlaşdırmış, kənd təsərrüfatı, təhsil və səhiyyə sahələrində rəqəmsal həllərin tətbiqini stimullaşdırmışdır. Bununla yanaşı, sektorun inkişafı yeni iş yerlərinin açılmasına və ixtisaslı kadr potensialının formalaşmasına da müsbət təsir göstərmişdir.

Əldə edilən gəlirlər eyni zamanda dövlət büdcəsinə vergi və digər rüsumlar şəklində daxil olur. 2023-cü ildə rabitə sektorundan dövlət büdcəsinə daxilolmalar 320 milyon manata yaxın olmuşdur. Bu göstərici sektorda dövriyyənin artması və şəffaflaşdırma tədbirlərinin gücləndirilməsi ilə birbaşa bağlıdır. Araşdırmalardan göründüyü kimi, rabitə sektoru Azərbaycanın milli iqtisadiyyatında xüsusi yerə malikdir və qeyri-neft sektorunun inkişafında aparıcı sahələrdən biri kimi çıxış edir. Əldə edilən gəlirlər, sektora yönəldilən investisiyalar və müasir texnologiyaların tətbiqi rabitənin strateji əhəmiyyətini daha da artırır.

## Ədəbiyyat

1. Azərbaycanın Statistik Göstəriciləri // Statistik məcmuə. – Bakı: – 2023, – 725 s.

2.Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı: Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər

3.Əliyev, Ə.B. Xidmət sahələrinin iqtisadiyyatı. Dərs vəsaiti. “Təhsil” Nəşriyyatı, Səh 136, Bakı–2017.

4.Rahmanov, F.P.Sosial Sfera ve Sosial Siyasət. Dərs Vəsaiti, “MSV NƏŞR”,səh-436 Bakı-2021

# HEYDƏR ƏLİYEV DÜHASI KONTEKSTİNDƏ ƏQLİ MÜLKİYYƏTİN MİLLİ İNKİŞAF STRATEGİYASINDAKI YERİ VƏ ROLU

**Aydan Hüseynova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: huseynova.aydan@mail.ru

Əqli mülkiyyət müasir dövrdə dövlətlərin iqtisadi və elmi inkişafının əsas sütunlarından biri hesab olunur. Bu sahənin səmərəli fəaliyyəti texnologiyaların yayılmasına, ixtiraçılığın stimullaşdırılmasına və sahibkarlığın inkişafına xidmət edir. Azərbaycan Respublikasında əqli mülkiyyət sisteminin qurulması və inkişaf etdirilməsi Ümummilli liderimiz Heydər Əliyevin dövlətçilik siyasətində mühüm yer tutmuşdur.

Ulu öndərimizin yaratdığı əqli mülkiyyət sisteminin əsası Azərbaycanın mədəni irsinin və yaradıcı düşüncənin hüquqi şəkildə qorunmasına yönəlmişdir. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə Azərbaycan müəllif hüquqları institutunu quraraq və inkişaf etdirərək, mədəni irsin qorunmasını genişləndirdi. 1993-cü ildə Müəllif Hüquqları Agentliyinin yaradılması və 1996-cı ildə "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanunun qəbul edilməsi, ölkəmizdə əqli mülkiyyət sisteminin hüquqi əsaslarını formalaşdırdı. Qanunun mühüm aspektlərindən biri Azərbaycan xalqının qeyri-maddi mədəni irsini – folklor nümunələrini və ənənəvi bilikləri hüquqi şəkildə qorumaq üçün müvafiq mühitin yaradılması idi. 2003-cü ildə Milli Məclisdə qəbul edilən və Heydər Əliyev tərəfindən imzalanan "Azərbaycan folkloru nümunələrinin hüquqi qorunması haqqında" qanun layihəsi bu sahədəki mühüm hüquqi təşəbbüslərdən biri idi. Bununla yanaşı, ulu öndərin

təşəbbüsü ilə hazırlanan və qəbul edilən qanunvericilik aktları ixtira, faydalı model və sənaye nümunələrinin qorunması üçün beynəlxalq standartlara uyğun hüquqi mexanizmlər yaratdı. "Patent haqqında" və "Əmtəə nişanları və coğrafi göstəricilər haqqında" qanunlar qüvvəyə mindi. Patentlərlə bağlı hüquqi prosedurlar sadələşdirildi və dövlət ekspertizası institutu formalaşdırıldı.

Ulu öndərin apardığı uzaqgörən siyasətin davamı olaraq, cənab prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən struktur, institusional və iqtisadi islahatlar nəticəsində 2018-ci ildə əqli mülkiyyət sistemində əhəmiyyətli təşkilati və funksional dəyişikliklər baş vermişdir, Azərbaycan Respublikasının Müəllif Hüquqları Agentliyi və ləğv edilmiş Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsinin Patent və Əmtəə Nişanları Mərkəzinin birləşməsi nəticəsində Azərbaycan Respublikasının Əqli Mülkiyyət Agentliyi yaradılmışdır. Prezident İlham Əliyevin həyata keçirdiyi institusional islahatlar çərçivəsində uzun illər bir-birindən ayrılıqda fəaliyyət göstərən sənaye mülkiyyətinin (ixtiralar, faydalı modellər, sənaye nümunələri, əmtəə nişanları) və müəlliflik hüququnun (Copyright) bir örtük altında birləşdirilərək, Əqli Mülkiyyət Agentliyinin yaradılması dövlət başçısının bu sahəyə olan diqqət və qayğısının təzahürüdür. Bütün bunlar Respublika Elmi-Texniki Kitabxanasının Agentliyin tərkibinə verilməsi və Agentliyin tabeliyində üç mərkəzin – Patent və Əmtəə Nişanlarının Ekspertizası, Əqli Mülkiyyət Hüquqlarının Təminatı və Texnologiyaların Kommersiyalaşdırılması və Transferi Mərkəzlərinin yaradılması ilə nəticələndi.

Dövlət başçısının qərarları ilə əqli mülkiyyət sisteminin qarşısında duran vacib vəzifələr müəyyənləşdirilmiş, eyni zamanda bu vəzifələrin yerinə yetirilməsi məqsədilə ölkə prezidentinin təşəbbüsü ilə həyata keçirilən iqtisadi islahatlar siyasəti ilə uyğunlaşdırılmış strateji yanaşmalar hazırlanmışdır.

"Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" və "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası" kimi proqram sənədlərində əqli mülkiyyətin inkişafı yeni iqtisadi modelin əsasını təşkil edən ən mühüm faktor olaraq vurğulanır.

Nəticə etibarilə, ulu öndər Heydər Əliyevin əsasını qoyduğu əqli mülkiyyət sistemi Azərbaycanın müasir inkişafında və qlobal miqyasda tanınmasında mühüm rol oynayır. Onun irsini davam etdirən cənab prezident İlham Əliyev əqli mülkiyyət sahəsindəki islahatları sürətləndirərək ölkəmizin mövqeyinin beynəlxalq arenada daha da möhkəmlənməsinə zəmin yaratmışdır. Bu islahatlar yalnız hüquqi bazanın gücləndirilməsinə deyil, eyni zamanda innovasiya, yaradıcılıq və iqtisadi inkişafın sürətləndirilməsinə xidmət edir. Beləliklə, Azərbaycan əqli mülkiyyətin qorunması və inkişafı sahəsində dünya səviyyəsində nümunəvi bir ölkə olaraq gələcəyin qlobal iqtisadiyyatına daxil olmaq üçün möhkəm bir bünövrə üzərində durur.

**Ədəbiyyat**


1. Kamran İmanov, *Əqli mülkiyyətin yenidən dərk edilməsi və kreativ iqtisadiyyat,* Bakı– 2024
2. Kamran İmanov, *"Səadətə aparan əqldir",* Bakı– 2023
3. Kamran İmanov, *Heydər Əliyev Azərbaycanın milli əqli mülkiyyət sisteminin müəllifi və yaradıcısıdır,* Bakı – 2019

# HEYDƏR ƏLİYEVİN AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN FORMALAŞMASI VƏ İNKİŞAFINDA ROLU

**Nərmin Hüseynova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: narminhva01@gmail.com

Ulu öndər Heydər Əliyevin hakimiyyəti illərində müstəqilliyin möhkəmləndirilməsinə yönəlmiş xarici və daxili siyasətdə böyük rol oynayan Azərbaycan Respublikasının beynəlxalq münasibətlərdə tutduğu mövqe ölkənin gələcəyinə inamı daha da artırmışdır. Bu əlaqələrin əsasını təşkil edən və daha etibarlı olan Azərbaycan-Türkiyə münasibətlərinin inkişafyönümlü olması təqdirəlayiq fakt kimi diqqəti daha çox cəlb edir. Bu əlaqələr siyasi, iqtisadi və mədəni aspektlərdə hərtərəfli qurulub. Bu regionlarda aparılan siyasət hər iki dövlətin maraqlarına xidmət edirdi. Heydər Əliyevin Türkiyə Cümhuriyyəti ilə qarşılıqlı və isti münasibətlər quracağına inamı ortaq türkçülük kökünə əsaslanan münasibətlər, eləcə də 20-ci əsrin əvvəllərində Azərbaycan-Türkiyə münasibətlərinin yaxınlığına dəlalət edən çoxsaylı görüşlər, söhbətlər, qarşılıqlı yardım, fanatizm, qardaşlıq və s. əlaqələr yenidən canlandı. Müstəqilliyini bərpa edən Azərbaycan Cümhuriyyətini ilk tanıyan dövlətin Türkiyə Cümhuriyyəti olması bu əlaqələri daha da dərinləşdirdi.

Prezident Heydər Əliyev milli köklərimizin, adət-ənənələrimizin, dilimizin, dinimizin və tarixi keçmişimizin oxşarlığına, coğrafi yaxınlığımıza görə Türkiyə ilə iqtisadi əlaqələrə önəm verdiyini bildirdi. “Əsrin müqaviləsi” imzalanandan sonra dünya dövlətlərinin Azərbaycan iqtisadiyyatına investisiya yatırmağa

marağı artıb. Heydər Əliyev iş adamlarını çəkinmədən investisiya qoymağa əmin etdi: “Əgər dünyanın doqquz-on böyük neft şirkəti Azərbaycanda iş görmək üçün müqavilə bağladısa, 3 milyard dollardan çox kapital qoymaq qərarına gəldisə, demək, onlar Azərbaycanın bu gününə də, gələcəyinə də inanırlar... Neft müqaviləsini imzalamağımız bütün iş adamları üçün, o cümlədən Türkiyənin iş adamları üçün həm böyük örnəkdir, həm də sübut edir ki, Azərbaycanda iş görmək, buraya çoxlu kapital qoymaq olar...”. Heydər Əliyev təhsilə böyük önəm verərək, 1992-ci ildə Türkiyə ilə imzalanan protokolla hər il 100 naxçıvanlı gəncin Türkiyədə təhsil almasını təmin etmişdir. Dili, dini eyni olan, eyni adət-ənənələrə malik olan Azərbaycan ilə Türkiyə arasında əlaqələrin uzun tarixi var. Sovetlər İttifaqının dağılmasından sonra Ümummilli Lider Heydər Əliyev türk dövlətlərini dəstəkləyərək Qazi Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsinin vaxtının gəldiyini, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin digər dövlətlərlə olan əlaqələrdən dostluq və qardaşlıq münasibətləri kimi seçiləcəyini bəyan etdi. O, elm, mədəniyyət, ədəbiyyat adamlarının daim birliyi təmin etdiyini, milli adət-ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutdurmadıqlarını, böyük türk sənətkarlarının çətin anlarda da öz əsərləri ilə türk dövlətlərini birləşdirdiklərini bildirmişdir. Türkiyə ilə həm iqtisadi, həm də qardaşlığımızı gücləndirmək baxımından iqtisadi əlaqələrimizin inkişafına üstünlük verdi.

Eyni dilə, dinə, oxşar adət və ənənələrə malik Azərbaycan və Türkiyə arasında əlaqələrin böyük tarixi vardır. Ümummilli lider Heydər Əliyev Sovet İttifaqının dağılmasından sonra türk dövlətlərinə sahib çıxaraq onların inkişaf etdirilməsi üçün Türkiyənin üzərinə düşən vəzifələr haqqında Qazi Mustafa Kamal Atatürkün vəsiyyətinin yerinə yetirilməsi zamanının gəldiyini, Türkiyə ilə Azərbaycan arasında iqtisadi, ticarət, elm, mədəniyyət, təhsil və digər sahələrdə əlaqələrin başqa dövlətlərlə olan

əlaqələrdən dostluq, qardaşlıq əlaqələri kimi fərqlənəcəyini bildirirdi. Elm, mədəniyyət, ədəbiyyat adamlarının həmişə birgəliyi təmin etdiklərini, milli ənənələrimizi, milli mədəniyyətimizi, dilimizi, tariximizi unutmağa qoymadıqlarını, böyük türk sənətkarların öz əsərləri ilə türk dövlətlərini mürəkkəb vəziyyətdə də birləşdirdiyini bildirirdi. Həm iqtisadi nöqteyi-nəzərdən, həm də qardaşlığımızın möhkəmləndirilməsi nöqteyi-nəzərindən Türkiyə ilə iqtisadi əlaqələrin inkişafına üstünlük verirdi.

## Ədəbiyyat


1. Əliyev, Heydər. Müstəqilliyimiz əbədidir: 1-ci kitab, iyun, 1993, may, 1994, (çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr), Bakı: Azərnəşr, 1997.
2. Ramilə, Dadaşova. Heydər Əliyevin Azərbaycanın Türkiyə İlə Münasibətlərinin İnkişafına Baxışları, Avrasya İncelemeleri Dergisi
3. Hasanov, İlham. "Haydar Aliyev döneminde Azerbaycan'ın dış politikası (1993-2001)". Yüksek Lisans Tezi, Ankara Universitesi, 2003.
4. https://respublika-news.az/news/heyder-eliyevin-azerbaycan-turkiye-munasibetlerinin-inkisafinda-rolu


# "BÖYÜK QAYIDIŞ" PROQRAMI ÇƏRÇİVƏSİNDƏ ŞUŞANIN İNKİŞAF PERSPEKTİVLƏRİ


**Nəzrin Hüseynova**

*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: nazrinhuseynn@gmail.com


Şuşanın 28 illik işğaldan azad edilməsi 44 günlük Vətən müharibəsində tarixi zəfərimizi şərtləndirdi. Şuşanın abidələr şəhəri

olduğunu söyləyən ümummilli lider Heydər Əliyev onun Azərbaycan üçün müstəsna əhəmiyyətini yüksək qiymət-ləndirərək bildirmişdir ki, "Şuşasız Qarabağ, Qarabağsız isə Azərbaycan yoxdur". Bir vaxtlar "Kiçik Paris", "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan, Azərbaycanın ictimai-siyasi həyatında mühüm xidmətləri olan bir sıra görkəmli xadimlərin vətəni, eləcə də tarixi mədəniyyət mərkəzi və Qarabağın baş tacı olan Şuşa şəhəri artıq işğaldan azaddır. Ümummilli lider Heydər Əliyevin siyasətini uğurla davam etdirərək Azərbaycanın milli və dövlətçilik maraqlarını daim üstün tutan Prezident, Ali Baş Komandan İlham Əliyev 2020-ci il noyabrın 8-də Şuşa şəhərinin azad olunması münasibətilə xalqa müraciətində demişdir: "İyirmi səkkiz il yarım işğal altında olan Şuşa azad edildi! Şuşa indi azaddır! Biz Şuşaya qayıtmışıq! Biz bu tarixi Qələbəni döyüş meydanında qazandıq. 2020-ci il noyabrın 8-i Azərbaycan tarixində əbədi qalacaqdır. Bu tarix əbədi yaşayacaq. Bu, bizim şanlı Qələbəmizin, Zəfərimizin günüdür!"

Tarixi zəfərimizdən 5 il ötməsinə baxmayaraq qısa müddət ərzində Qarabağda və Şərqi Zəngəzurda iri miqyaslı yenidənqurma işləri görülmüş və sürətlə davam etdirilir. Şuşa şəhərinin baş planı hazırlanarkən onun tarixi əzəmətinin qorunması əsas götürülüb. Azərbaycanının Mədəniyyət paytaxtında həyata keçirilən bütün layihələr tarixlə müasirliyin vəhdəti üzərində qurulur.

2024-cü il oktyabrın 21-də "Şuşa şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiqlənib. Baş plana əsasən, Şuşanın yeni yaşayış massivi 6 məhəllədən ibarət olacaq. Hər məhəllə üzrə əhali sayı təxminən 2 min nəfər nəzərdə tutulub. Tikinti-quruculuq prosesində şəhərin özünəməxsus memarlıq üslubunun maksimum gözlənilməsinə xüsusi diqqət yetirilir. Şuşanın özünəməxsusluğunu onun coğrafi quruluşu və mövqeyi formalaşdırır.

Şuşada aparılan quruculuq prosesində bir sıra yeni texnologiyalardan istifadə ediləcəkdir. Müasir dünyada ağıllı-şəhərlərin

yaradılması qloballaşmanın və 4-cü sənaye inqilabının yaratdığı bir çox problemləri də aradan qaldıra bilər. Həmçinin, şəhərləri daha davamlı, əhatəli və təhlükəsiz hala gətirmək BMT-nin Davamlı İnkişaf Məqsədlərindən biri olaraq müəyyənləşib. Ümumiyyətlə, "smart city" konsepsiyasını işğaldan azad olunmuş ərazilərdə reallığa çevirmək üçün ilk növbədə davamlı beynəlxalq təcrübələri öyrənmək, növbəti mərhələdə isə onları tətbiq və təşviq etmək üçün əsasən informasiya və kommunikasiya texnologiyalarından geniş istifadə etmək perspektivləri mövcuddur. Bütövlükdə, ölkə iqtisadiyyatı üçün əhəmiyyətli olan su ehtiyatlarına qənaət edilməsi baxımından işğaldan azad olunmuş ərazilərdə yaradılacaq "ağıllı şəhər" konsepsiyası əsasında su istehlakının azaldılması mümkün olacaq. Ağıllı suvarma sistemləri, su sızıntısı, su keyfiyyəti və istehlakının izlənməsi kimi tətbiqetmələr bir gündə adam başına su istehlakını 25-80 litr arasında saxlaya bilər. Bulud əsaslı informasiya texnologiyaları tətbiqetmələri təkcə insan həyatını deyil, həmçinin əraziidarəetməsini də asanlaşdıra bilər. Yerli dövlət idarəetmə orqanları, bələdiyyələr, özəl müəssisələr və vətəndaşlar öz həyat keyfiyyətini artıran daha yaxşı qərarlar vermək üçün məlumatları bu elektron tətbiqlər vasitəsilə real vaxtda qəbul, təhlil və idarə edə bilər. "Ağıllı şəhər" həllərini ən çox tətbiq edən 5 şəhər - Sinqapur, London, Amsterdam, Honq-Konq, Nyu-York həm də dünyanın əsas turizm mərkəzləridir. Deməli "ağıllı şəhər" texnologiyaları böyük potensiala malik Qarabağ regionunda turizm sektorunu inkişaf etdirmək üçün əlavə imkan yarada bilər. Bu aspektdən ilk olaraq pilot layihə kimi Şuşa şəhərinin "ağıllı şəhər" konsepsiyası çərçivəsində qurulması turizm potensialına əlavə üstünlük verəcək. Məsələn, Şuşada interaktiv məlumatverici lövhələr quraşdırılması, turizm xidmətləri ilə bağlı mobil tətbiqlər, tarixi abidələr, keçmiş münaqişənin izləri haqqında məlumat verən robot-bələdçilər, intellektual nəqliyyat sistemi, "yaşıl enerji" istehsalının tətbiq

olunması ilə ekoloji daha təmiz turizm məkanlarının mümkünlüyü regiona xarici turist axınına şərait yaradacaq. “Ağıllı şəhər”lə bərabər, postkonflikt ərazilərdə “ağıllı kənd” layihəsinin də həyata keçirilməsi nəzərdə tutulur. “Ağıllı şəhər” və “ağıllı kənd” texnologiyalarının tətbiqi Qarabağ regionunu dünyanın süni intellekt və təbiət gözəlliyinin vəhdətindən yaranan turizm incisinə və eyni zamanda, Azərbaycanın innovasiya-startap fabrikinə çevirə bilər. Şuşada tullantı yığımında ağıllı texnologiyaların tətbiqi ilə Azərbaycanda ilk dəfə tullantı yığımı üçün yeraltı konteynerlər quraşdırılacaq. Bu, tullantıların toplanması, daşınması və utilizasiyasını əhatə edir. Artıq Şuşada üzvi və qeyri-üzvi tullantılar ayrı-ayrılıqda yığılır və poliqonda basdırılır. Gələcəkdə isə Şuşa şəhərində tullantıların idarə olunmasının müasir formada qurulacağı gözlənilir. Bura yeraltı konteynerlərin qurulması aiddir. Hələlik bu sistem Azərbaycanda tətbiq olunmayıb. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə qurumun fəaliyyət dairəsi genişləndirilib və işğaldan azad edilən Şuşa şəhərinin ərazisində bütün bərk məişət tullantılarının yığılması, daşınması, yerləşdirilməsi və zərərsizləşdirilməsi “Təmiz Şəhər” ASC-yə həvalə edilib.

Şuşa təkcə ölkəmiz üçün deyil bütün türk və islam dünyası üçün də əhəmiyyətlidir. Tarixi-mədəni əhəmiyyət kəsb edən Şuşanın bu gün əvvəlki görkəminin özünə qaytarılması, eləcə də dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi üçün sürətli işlər həyata keçirilir. Tarixi-mədəni əhəmiyyəti və Azərbaycan xalqı üçün müstəsna mənəvi dəyərə malik olması Şuşaya xüsusi qayğı və həssaslıqla yanaşılmasını zəruri edir. “Böyük Qayıdış” proqramına əsasən əhalinin Şuşa şəhərinə köçürülməsininin davam etdirilməsi, tarixi abidələrin bərpası, Mədəniyyət paytaxtımızın möhtəşəm tədbirlərə ev sahibliyi etməsi Şuşa şəhərinin əvvəlki simasının özünə qaytarılması yolunda görülən işlərin miqyasından və dövlətimizin artan qüdrətindən xəbər verir.

**Ədəbiyyat**

1. https://mod.gov.az/az/pre/39525.html
2. https://ereforms.gov.az/az/ekspert-yazilari/qarabag-quot-smart-region-quot-a-cevrilecek-10
3. https://www.xalqqazeti.az/az/siyaset/201431-sen-seherler-gozeli-olacaqsan-susa

# CƏLİLABAD RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÜASİR VƏZİYYƏTİ VƏ PERSPEKTİVİ

**Nuranə Hüseynzadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nurana.huseynzade@celilabad-ih.gov.az

Bu gün özünün sürətli inkişaf dövrünü yaşayan Cəlilabadda sosial sahənin yenilənməsi ilə bərabər, iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatı sahələrinin inkişafı təmin edilib. Bu rayonda kənd təsərrüfatına yararlı torpaqlar yüz min hektardan çoxdur. Bunun 3/4 əkin, qalanı otlaq və biçənək sahələridir. Rayon üzrə hər nəfərə 0,44 hektar torpaq düşür. Əhalinin 159 min nəfərinə və ya 32163 ailəyə torpaq payı verilib. Taxılçılıq, üzümçülük, kartofçuluq, tərəvəzçilik, bostançılıq, meyvəçilik, yemçilik, eyni zamanda heyvandarlıq sahələri davamlı inkişaf edir.

Prezident İlham Əliyev Cəlilabada növbəti səfəri zamanı şəhərə içməli su xəttinin, yeni yolların, telekommunikasiya xidmətinin açılışı ilə bərabər, "Günəşli" heyvandarlıq kompleksinin və "Avanqard" MMC-nin dənli və paxlalı bitkilərin təmizlənməsi və qablaşdırılması müəssisəsinin də istismara buraxılmasında iştirak

edib. Bu kimi tədbirlər insanların rahatlığını təmin edən amillər hesab edilməlidir.

Cəlilabadda kənd təsərrüfatı məhsullarının yarıdan çoxunu bitkiçilik, qalanını isə heyvandarlıq məhsulları təşkil edir. Aqrar sahədə 200-ədək fiziki və hüquqi şəxs, o cümlədən 4 dövlət müəssisəsi, 30-a qədər xidmət təşkilatı və kooperativ, onlarca fərdi sahibkarlıq təsərrüfatı fəaliyyət göstərir.

Prezident İlham Əliyevin müvafiq sərəncamına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən icra olunan özünüməşğulluq proqramı Cəlilabad rayonunda da aztəminatlı ailələrin sosial yardım proqramından asılılığının aradan qalxmasına, onların kiçik sahibkarlıq fəaliyyətinə başlamasına imkan yaradıb. Onlarca işsiz və işaxtaran şəxs əsasən kənd təsərrüfatı üzrə kiçik ailə təsərrüfatlarını yaratmaq üçün mal və materiallarla təmin edilib.

Kənd təsərrüfatı ilə yanaşı, rayonda tikinti-quruculuq, abadlıq işləri də öz ahəngi ilə davam edir. Son illərdə Cəlilabad və Göytəpə şəhərində xeyli sayda küçələrə asfalt döşənmiş, piyadalar üçün səki-lər salınmışdır.

Rayonun fasiləsiz elektirik enerjisi ilə təmin edilməsindən ötrü elektirik şəbəkəsi tərəfindən müəyyən işlər görülmüşdür.

Əhalinin qaz təchizatının yaxşılaşdırılması məqsədi ilə xidmət sahəsi tərəfindən tədbirlər görülmüş, rayonun yaşayış məntəqələrinə təbii qazın normal verilməsi üçün qaz xəttlərində təmir-bərpa işləri aparılmışdır.

Əhaliyə göstərilən rabitə xidmətinin səviyyəsinin yüksəl-dilməsi məqsədi ilə şəhər və kəndlərdə 134 ədəd rabitə dirəyi təmir edilmiş 91 ədəd yeni dayaq basdırılmış, hava xətlərində təmir bərpa işləri aparılmışdır.

Əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması məqsədi ilə rayonun Boyxanlı, Cəfərxanlı, Xəlilabad, Komanlı, Təzəkənd və Üçtəpə kəndlərində subartezian quyuları qazılmışdır.

**Ədəbiyyat**

1. AR-da iqtisadi rayonların yeni bölgüsü haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. B, 07.072021
2. "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorlarını əhatə edən Strateji Yol Xəritələri" (6 dekabr 2016-cı il) Azərbaycan Respublikasında sitrus meyvəçiliyinin inkişafına dair 2018–2025-ci illər üçün Dövlət Proqramı.
3. "Azərbaycan Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalına və emalına dair Strateji Yol Xəritəsi" (6 dekabr 2016-cı il)

## ERMƏNİSTANIN XARİCİ SİYASƏTİNƏ TƏSİR EDƏN ƏSAS FAKTORLAR

**Fidan Xəlilova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: phd.fidan.khalilova@gmail.com

Xarici siyasət dövlətin regional və ya qlobal miqyasda beynəlxalq aləmdə milli maraqlarını təmin etmək üçün həyata keçirdiyi fəaliyyət növüdür. Bu fəaliyyət siyasi, iqtisadi, mədəni, humanitar, hərbi, təhlükəsizlik və digər sahələri əhatə edən strateji maraqların reallaşdırılmasına yönəlib. [4]

Dövlətin xarici siyasətinin formalaşmasına və həyata keçirilməsinə təsir edən bir sıra amillər var və hər bir dövlətin xarici siyasətinin təhlili zamanı bu meyarlara diqqət yetirilməsi vacibdir. Beləliklə, bir çox hallarda bu amillər xarici siyasətin əsas istiqamətlərini və məqsədlərini və hətta onun həyata keçirilməsi

mexanizmlərini müəyyən edir. Ona görə də dövlətlərin xarici siyasət trayektoriyasının təhlili zamanı bir sıra strateji əhəmiyyət kəsb edən amillər nəzərə alınır. Bu amillərə beynəlxalq sistemin xarakteri, dünyada mövcud vəziyyət, dövlətin milli gücünün kəmiyyət və keyfiyyət göstəriciləri (geosiyasi mövqeyi, hərbi gücü, iqtisadi potensialı, hökumət strukturu, diplomatik fəaliyyətin keyfiyyəti, milli xüsusiyyətləri və s.), dövlətlərin ikitərəfli və çoxtərəfli münasibətləri və s. daxildir. Xarici siyasətə təsir edən daxili amilləri də qeyd etmək lazımdır. Bunlara ictimai rəy, media qurumlarının fəaliyyəti, siyasi rejimin mahiyyəti, milli ideologiyalar, siyasi partiyalar, vətəndaş cəmiyyətinin rolu və s. daxildir. Dövlətlərin xarici siyasətini istiqamətləndirən ən təsirli amillərdən biri kimi ideoloji amilə xüsusi diqqət yetirmək lazımdır. [3]

Soyuq Müharibədən sonrakı nizamın sonu böyük güc rəqabəti fenomenini geri qaytardı və həm qlobal, həm də regional aktyorların yenidən formalaşmasını sürətləndirdi. Cənubi Qafqaz da Yaxın Şərq kimi təkcə Rusiyanın deyil, ABŞ, Aİ, hətta Çin və Hindistanın da maraqlarının kəsişdiyi regiona çevrilib. Belə olan halda regionda öz müstəqilliyini bərpa etmiş kiçik dövlətlər üçün yeni dünya nizamının xarakteri xarici siyasətə ciddi təsir göstərmişdir. Ona görə də Ermənistanın xarici siyasətində bu amillərin rolunu hiss etmək mümkündür. [1]

1990-cı illərin əvvəllərində müstəqilliyini elan edən Ermənistanın xarici siyasətində idealist yanaşma üstünlük təşkil edirdi. Müstəqilliyinin ilk illərində Ermənistanın xarici siyasət məqsədləri yeni hərbi münaqişələrin qarşısının alınması, kommunikasiya və maddi-texniki təcridin aradan qaldırılması, iqtisadi inkişafın artırılması və ölkənin enerji təchizatının təmin edilməsi idi. Ermənistanın zaman-zaman seçdiyi müxtəlif istiqamətlər və strategiyalar təhlil edilərkən onun xarici siyasətinə təsir edən amillər də nəzərə alınmalıdır. Bir ölkənin xarici siyasətini müəyyən edən

amilləri ümumi şəkildə sadalasaq; bunlardan ölkənin coğrafi mövqeyi, iqtisadi potensialı, qərar qəbuletmə mexanizmi, siyasi quruluşu, regional xüsusiyyətləri və s. aid edilə bilər. [6]

Ermənistanın xarici siyasətinə təsir edən əsas faktorları aşağıdakı kimi qruplaşdırmaq olar: [2]

- geosiyasi və regional faktorlar;
- iqtisadi struktur amili;
- əhali;
- siyasi sistem və quruluş;
- liderlər;
- diaspora və başqa ölkələrdə yaşayan ermənilər;
- xarici asılılıq;
- ideologiyalar (erməni milliyyətçiliyi, "Türkofobiya").

Göründüyü kimi, xarici siyasətə təsir edən bəzi amillər mühüm rol oynayır. Bu amillərə geosiyasi, iqtisadi, əhalinin sayı və keyfiyyəti, dövlətin siyasi sistemi və strukturu, liderlər, xarici təsirlər, beynəlxalq və regional vəziyyət və s. daxildir. [5] Məqalədə bu amillər Ermənistanın nümunəsi vasitəsilə təhlil edilir. Ermənistanın xarici siyasətinin müəyyən edilməsində yuxarıda qeyd olunan amillərin rolu təhlil edilib. Ermənistanın coğrafi mövqeyi, əhalisi, siyasi rejimi və iqtisadi potensialı təhlil edilib. Eyni zamanda dövlətin xarici siyasətinin formalaşmasında liderlərin, diasporun, ideologiyanın və xarici asılılıq amilinin rolu xüsusi vurğulanıb. Nəticə etibarı ilə Ermənistanın xarici siyasətinə təsir edən amillər arasında diasporun və xüsusilə erməni millətçiliyinin, eləcə də ümumi amillərin rolu diqqət çəkir.

## Ədəbiyyat


1. Antonyan, Davit. (2024). Armenia’s Foreign Policy Diversification Amid New Geopolitical Realities. Applied Policy Research Institute of Armenia.

2. Assist.Prof.Dr. Sedat Lachiner “Armenian Foreign Policy and Basic Determining Factors 1991-2002” Armenian studies journal.
3. Babaoglu Hikmet, “Foreign Politics”, Baku – “Science” 2019;
4. George Modelski, A Theory of Foreign Policy, (Princeton: 1962);
5. Peter Magdashian, “Armenia: Economic Division Widens”, IWPR, Institute for War & Peace Reporting, CRS No. 106, 20 November 2001.
6. “The Development of Armenia’s Foreign Policy and Power Dynamics in the Region”. (2023). Journal of International Relations and Security, 22(4): 45-67

## İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYASININ TƏTBİQİ İLƏ TƏHSİLİN TƏKMİLLƏŞDİRİLMƏSİ

**Ləman Xəlilova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: xlilovalman911@gmail.com

Bu tezisdə informasiya və kommunikasiya texnologiyalarının (İKT) təhsil sisteminin inkşafında oynadığı rol, bu sahədə Heydər Əliyevin siyasi irsinin təsir mexanizmləri və Konstitusiyanın müasir təhsil modelinin formalaşmasındaki rolu şərh olunur.

Müasir informasiya cəmiyyətində təhsilin texnoloji innovasiyalarla sintezi bilik iqtisadiyyatının formalaşmasına və qlobal rəqabət qabiliyyətinin artırılmasına xidmət edir. Tədris prosesində yeni texnologiyaların tətbiqi, elektron resurslardan istifadə və distant təhsilin inkişafı müasir dövrün əsas tələblərindəndir.

Azərbaycanda bu prosesin əsasları ümummilli lider Heydər Əliyevin siyasi strategiyasında mühüm yer tuturdu. O, təhsili ölkənin dayanıqlı inkişafının əsas prinsiplərindən biri kimi görür, modernləşməni prioritet hesab edirdi. Onun rəhbərliyi ilə təhsildə informasiya texnologiyalarının tətbiqi, məktəblərin texniki bazasının gücləndirilməsi və beynəlxalq proqramlara qoşulma istiqamətində mühüm addımlar atılmışdır.

Heydər Əliyevin siyasi irsi əsasında yaradılan təhsil islahatları Azərbaycanda innovativ təhsil sisteminin qurulmasına zəmin yaratmış və bu prosesin davamlı inkişafını təmin etmişdir.

Azərbaycan Respublikasının Konstitusiyasında təhsilə xüsusi önəm verilmiş və Heydər Əliyevin rəhbərliyi ilə bu, aşağıdakı istiqamətlərdə əksini tapmışdır:

- Hər kəsin bərabər təhsil alma huququnun təmin edilməsi;
- Təhsilin ödənişsiz olması və hamı üçün mövcudluğunun qorunması;
- Dövlətin təhsilin inkişafını stimullaşdırması və məktəb infrastrukturlarını modernləşdirərək bilik çağırışlarına cavab verməsi.

  Heydər Əliyevin rəhbərliyi altında informasiya texnologiyalarının təhsilə inteqrasiyası strateji istiqamət kimi müəyyən edilmiş və bu sahədə bir sıra mühüm addımlar atılmışdır. Təhsildə İKT-nin tətbiqi biliklərin daha əlçatan olmasını təmin etməklə yanaşı, tədris prosesinin keyfiyyətini artırmış və innovativ yanaşmaların genişlənməsinə şərait yaratmışdır. Bu istiqamətdə həyata keçirilən əsas tədbirlər aşağıdakılardır:

- *Kompüterlərin şagird və tələbələr arasında istifadəsinin yayılması* – Təhsil müəssisələrində kompüter texnologiyalarının tətbiqi genişləndirilmiş, məktəblər və universitetlər müasir avadanlıqlarla təmin olunmuşdur.

- *Elektron tədris resurslarının yaradılması və vəsaitlərin əlçatanlığı* – Müasir dövrdə bilik əldə etmə prosesində elektron resurslar mühüm rol oynayır. Heydər Əliyevin rəhbərliyi dövründə elektron dərsliklərin hazırlanmasına başlanılmış, onlayn tədris materiallarının yaradılması və istifadəsi təşviq edilmişdir.
- *Distant təhsilin inkişafı və regionlarda keyfiyyətli təhsil imkanlarının yaradılması* – Ölkənin bütün bölgələrində təhsilin əlçatanlığını artırmaq məqsədilə distant təhsil imkanları genişləndirilmişdir. Xüsusilə ucqar rayonlarda yaşayan şagird və tələbələrin yüksək keyfiyyətli təhsil almasını təmin etmək üçün onlayn kurslar və interaktiv tədris metodları tətbiq edilmişdir.
- *Beynəlxalq təhsil proqramlarına qoşulma və xarici universitetlərlə əməkdaşlıq* – Azərbaycan təhsil sisteminin beynəlxalq standartlara uyğun inkişafını təmin etmək məqsədilə xarici universitetlərlə əməkdaşlıq əlaqələri genişləndirilmişdir. Bu çərçivədə tələbə mübadilə proqramları, ikili diplom sistemləri və birgə elmi layihələr təşviq olunmuşdur.

İKT-nin təhsildə istifadəsi Azərbaycanda bilik iqtisadiyyatının əsasını qoyan strateji yanaşmalardan biridir. Heydər Əliyevin yaratdığı hüquqi baza bu istiqamətdə davamlı inkişafı təmin edir. Hazırda bu siyasət müasir dövrdə yeni texnologiyalarla zənginləşdirilir və Azərbaycan təhsil sisteminin beynəlxalq arenada rəqabət qabiliyyətli olmasını şərtləndirir.

## Ədəbiyyat

1. Əliyev H. *Müstəqilliyimiz əbədidir*, Azərbaycan Nəşriyyatı, 2001, 320 səh.

2. Məmmədov R., Hüseynov A. *Azərbaycanda təhsil və innovasiyalar*, Bakı Universiteti Nəşriyyatı, 2015, 245 səh.
3. Həsənli T. "İKT-nin təhsildə rolu və inkişaf perspektivləri", *Təhsil və Elm Jurnalı*, 2020, Cild 15, Nömrə 2, səh. 45-58.

## AZƏRBAYCANIN DÖVLƏT İDARƏÇİLİYİ PEŞƏKARLIĞININ BEYNƏLXALQ TƏCRÜBƏYƏ ÇEVRİLMƏSİ

**Anar İbadov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət idarəçilik Akademiyası*
*e-mail:* aibadov2020@ada.edu.az

**Xülasə**

Son illərdə istər beynəlxalq təşkilatların, istərsə də ayrıca dövlətlərin Azərbaycanın dövlət idarəçiliyi təcrübəsinə marağı artmışdır. Xüsusi ilə dövlət xidmətlərinin təşkili modeli geniş maraq doğuraraq, təcrübə transferi üçün əməkdaşlıq təkliflərinin sayının artması müşahidə olunur. Tezisin əsas fikrinə görə, Azərbaycanda müvəffəqiyyətli dövlət idarəçiliyi islahatları nəticəsində gəldiyi mövcud mərhələnin yerli təcrübənin beynəlxalq nümunəyə çevrilməsidir. Məqalədə Azərbaycanın dövlət idarəçiliyi təcrübəsinin formalaşmasına təsir edən inzibati islahatlar təhlil edilərək başlıca xüsusiyyətləri təhlil edilmişdir.

***Açar sözlər:*** inzibati islahatlar, idarələşmə, beynəlxalq təcrübə, təcrübə transferi, ASAN xidmət.

Dünyada dövlət idarəçiliyi təcrübələrinin formalaşması, müvəffəqiyyətli inzibati islahatların həyata keçirilməsi ilə baş verməktədir. Veberist bürokratiyaya əsaslanan dövlət idarəçilik anlayışından neoliberal siyasətə və idarələşməyə (Governance)

əsaslanan effektiv dövlət idarəçiliyinə keçid bir sıra islahatlarla gerçəkləşmişdir. Beynəlxalq təcrübədə Fulton hesabatı, Teçerin "Növbəti addımlar" (Next Steps) və "Keyfiyyət üçün rəqabət" (Competing for Quality) kimi tanınan islahatları qeyd etmək olar. Bu islahatlar biri birindən bazar əsaslı, idarəetmə əsaslı, proqram əsaslı və mərhələli-tədricən olmaq üzrə strategiyaları ilə seçilir.

Müstəqillik illərindən başlayaraq günümüzə qədər Azərbaycanda çox sayda dövlət idarəçiliyi sahəsinə aid islahatlar həyata keçirilmişdir. Xüsusi ilə Azərbaycan Ümummilli Lideri Heydər Əliyevin və onun davamçısı olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbükarlığı ilə həyata keçirilən idarəçilik islahatları dünya təcrübəsinə yenilik gətirəcək şəkildə xüsusi səmərəliliyi və özünəməxsusluğu ilə seçilir. Azərbaycanda ilk dəfə dövlət idarəçiliyi islahatlarının təhlilini həyata keçirən Ronald Young və Eldar Azadov bu islahatları mərhələlərə ayırmışdır. Onlara görə, 1991-1993-cü illər idarəçiliyin itirilməsi və xərcmərclik, 1994-1995-ci illər siyasi tabillik və idarəçiliyin bərpa olması, 1996-1998-ci illər iqtisadi dirçəliş və dövlət idarəçiliyi islahatlarının başlanğıcı, 1999-cu illərdən sonrakı illər isə səmərəli dövlət idarəçiliyi sisteminin formalaşdırılması mərhələləri olmuşdur.[7] Manaf Bağırzadə ASAN xidmətin qurulmasını və elektron hökümətə keçidi əhatə edən idarəçilik islahatlarını növbəti mərhələ olaraq 2013-2019-cu illərini Azərbaycanda yeni dövlət idarəçiliyi prinsiplərinin institusionallaşması mərhələsi kimi qeyd etmişdir.[5] Bu tezisdə 2020-ci ildən etibarən növbəti mərhələnin dövlət idarəçiliyi təcrübəsinin beynəlxalq nümunəyə çevrildiyi iddia edilir. Beləki son illərdə Rumınya, Özbəkistan, Efiyopiya, Qırğızıstan, Uqanda, Mərakeş, Monteneqro kimi çox sayda ölkələr yerli dövlət idarəçiliyi təcrübəsinin öyrənilməsi və transferi üçün Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq memorandumu

imzalanmışdır.[6] Qeyd etmək lazımdır ki, yeni dövlət idarəçiliyi prinsiplərini təmin edən ASAN xidmət modeli və ASAN xidmət indeksi qısa zamanda praktiki təcrübəylə özünü təsdiqləmiş və beynəlxalq təşkilatlarının mükafatına layiq görülmüşdür.

**Ədəbiyyat**


1. Bagirzade, M. (2023). Etymology and semantic basis of the termination of the expression (governance). *Terminology Issues*, *01*, 97. https://doi.org/10.59849/2663-8967.2023.1.97
2. Dike, Ego. E. (2019). The New Public Administration and Service Delivery in Public Organizations in Nigeria. *International Journal of Academic Multidisciplinary Research*, *3*.
3. Goldfinch, S. F. (2023). Handbook of public administration reform. In *Handbook of Public Administration Reform*. https://doi.org/10.4337/9781800376748
4. OSBORNE, David, PLASTRIK, Peter (1997) Banishing Bureaucracy: The Five Strategies for Reinventing Government, Addison-Wesley Publishing Company.
5. Shahin S., Fuad M., Manaf B. (2025). Azerbaijan's Experience In Commercialisation Of Digital Public Services: The ASAN Service Model, . Public Administration Issues, (2).
6. State Agency for Public Service and Social Innovations under the President of the Republic of Azerbaijan. (2024). *Memorandums of understanding*. https://vxsida.gov.az/en/page/emekdasliq-memorandumlari (2025.04.03)
7. Yang, R., & Azadov, E. (2005). *Public Administration Reforms: Achievements, Problems, Prospects* (A. Nuriyev (ed.)). CBS Polygraphic Production.

# TOVUZ RAYONUNDA KİÇİK VƏ ORTA SAHİBKARLIĞIN İNKİŞAF PERSPEKTİVLƏRİ

**Alı İbrahimov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: maliye.ali@mail.ru

Respublikanın Qərb bölgəsində yerləşən, Qazax-Tovuz iqtisadi rayonuna daxil olan Tovuz rayonu bərəkətli, münbit torpağa, əlverişli iqlimə malik olmaqla kənd təsərrüfatının bir çox sahələrinin inkişaf etdirilməsi üçün əlverişli məkandır.

Bununla yanaşı, Tovuz rayonu turizm-rekreasiya ehtiyatları və onlardan istifadə imkanları ilə də olduqca zəngindir. Rəngarəng təbii şəraiti, həm düzənlik həm də dağlıq relyefi, təbii və müalicəvi su ehtiyatları, ekoloji təmiz ətraf mühiti bu bölgəni özünəməxsus edir.

Rayonun "Qədim İpək Yolu"nun üzərində yerləşməsi nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi üçün də əlverişli zəmin yaradır, yerli və xarici turistlərin dəmir yolu və avtomobil nəqliyyat vasitələri ilə turizm məkanına səfər etmələrini asanlaşdırır.

Məlum olduğu kimi, Azərbaycanda, xüsusilə də bölgələrində sahibkarlığın, kiçik və orta biznesin daha da inkişaf etdirilməsi, yeni iş yerlərinin və müəssisələrin yaradılması, əhalinin sosial rifah halının yaxşılaşdırılması dövlət siyasətinin prioritet istiqamətlərdəndir.

Bu tezisin yazılmasının əsas məqsədi, Tovuz rayonunun müxtəlif sahələr üzrə iqtisadi potensialına diqqət çəkməklə onun ölkə iqtisadiyyatına verə biləcəyi tövhəni nəzərə çatdırmaqdır.

Belə ki, kənd təsərüüfatı məhsullarının istehsal etdirilməsi, şərabçılıq, nəqliyyat-logistika və turizm-rekreasiya infrastrukturlarının yaradılması imkanlarının mövcduluğu sahibkarlığın, ələxsus

da kiçik və orta sahibkarlıq subyektləri üçün yeni imkanlar vəd etməklə rentabelli investisya potensialından xəbər verir.

Rayonun inzibati ərazisinə daxil olan “Ceyrançöl qış otlaq” sahələrində heyvandarlığın inkişaf etdirilməsi üçün bir sıra aqroparkların yaradılması, Bakı-Qazax magistral yolunun Tovuz rayonundan keçən hissəsində nəqliyyat-logistika mərkəzinin inşa edilməsi, rayonun “Əsrik dərəsi” və “Xınna dərəsi” adlanan əraziləri və Kür çayı boyunca turizm-rekreasiya və iaşə məkanlarının inkişaf etdirilməsi Tovuz rayonunda mikro, kiçik və orta sahibkarlığın daha da genişlənməsi ilə nəticələnəcəkdir.

Rayonda kiçik və orta sahibkarlığın inkişaf perspektivləri geniş olmaqla yanaşı, mövcud potensialdan səmərəli istifadə etməklə regionların sosial-iqtisadi inkişaf səviyyəsinin yüksəldilməsini və onlar arasında fərqin minimuma çatdırılması üçün yeni imkanlar açır.

Bu isə ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda müxtəlif iqtisadi xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin və iş yerlərinin açılmasına, nəticədə əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan verəcəkdir.

Təcrübə göstərir ki, kiçik və orta biznes müxtəlif dövlətlərin iqtisadi çiçəklənməsinə səbəb olan və istehsalın canlanmasına və əhalinin iqtisadi fəallığının yüksəldilməsinə güclü stimul verən mühüm amildir. Kiçik sahibkarlıq iqtisadiyyatın ən çevik və nəticəli sektorlarından biridir, habelə ÜDM-in xeyli hissəsinin yaradılması onun payına düşür, iqtisadi fəal əhalinin xeyli hissəsi onda işləyir. İş yerinin yaradılmasından başqa, rəqabət qabiliyyətli, dinamik və diversifikasiyalı iqtisadiyyatın yaradılmasında da kiçik və orta biznesin mühüm rolu vardır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Elektron Hökümət Portalı - Rəsmi məlumat və xidmətlər üçün.
2. Kütləvi informasiya vasitələri.
3. Azərbaycan Milli Elmlər Akademiyası tərəfindən yayımlanan məqalələr və tədqiqatlar.

# HEYDƏR ƏLİYEV – MÜSTƏQİL AZƏRBAYCANIN KONSTİTUSİYASININ BANİSİ VƏ HÜQUQİ DÖVLƏT QURUCUSU

**Nigar İbrahimova**

*Azərbaycan Respublikasının Prezidenti yanında*

*Dövlət İdarəçilik Akademiyası*

e-mail: n.n.ibrahimova@mail.ru

***Açar sözlər:*** Konstitusiya, demokratiya, insan hüquqları, etik və milli dəyərlər, hüquqi dövlət

Azərbaycan dövlətçiliyinin əsas dayaqları olan Konstitusiya, demokratiya və insan hüquqları milli və ümumbəşəri etik dəyərlərlə sıx bağlıdır. Müstəqillik əldə olunduqdan sonra bu sahələrdə həyata keçirilən islahatlar hüquqi dövlətin qurulmasına, insan haqlarının və demokratik prinsiplərin möhkəmləndirilməsinə şərait yaratdı.

Müstəqil Azərbaycanın ilk Konstitusiyası Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 1995-ci il noyabrın 12-də ümumxalq referendumu ilə qəbul edilmişdir. Bu sənəd yalnız hüquqi baza deyil, həm də dövlət müstəqilliyinin, milli ideologiyanın – azərbaycançılığın və xalq iradəsinin ifadəsi kimi tarixə düşmüşdür.

Konstitusiya Heydər Əliyevin təşəbbüsü ilə təkcə qanunlar toplusu deyil, həm də mənəvi və etik dəyərlərin qoruyucusu kimi

hazırlanmışdır. Ulu Öndər Heydər Əliyevin irsi bu prinsipləri dövlətçilik fəlsəfəsinin əsasına çevirmişdir. Onun çağırışı bu gün də aktualdır: *"Hər bir şəxs Konstitusiyaya və qanunlara dönmədən əməl etməli, hüquqlarını bilməli və qorumağa çalışmalıdır."*

O, Azərbaycanın hüquqi, demokratik və dünyəvi dövlət kimi inkişafında əsas rol oynamış, vətəndaşların hüquq və azadlıqlarının təminatçısı kimi çıxış etmişdir.

Demokratiya və hüquqi dövlət anlayışları Heydər Əliyev üçün qanunun aliliyi, vətəndaş həmrəyliyi və etik şüurla sıx bağlı idi. O, dövlətin insanla qarşılıqlı münasibətlər sisteminə əsaslanmalı olduğunu, hüquq və azadlıqların yalnız tanınmaqla deyil, eyni zamanda qorunmalı olduğunu dəfələrlə vurğulamışdır.

Azərbaycan Respublikasının Konstitusiyası çoxəsrlik dövlətçilik ənənələrinə söykənərək, ədalət, azadlıq və təhlükəsizlik prinsiplərini təmin edən ali sənəd kimi çıxış edir. Bu sənəd, həmçinin beynəlxalq hüquq normalarına uyğun şəkildə hazırlanmış, Avropa Şurası prinsiplərinə əsaslanmışdır.

Ulu Öndərin təşəbbüsü ilə həyata keçirilən hüquqi islahatlar, xüsusilə ölüm hökmünün ləğvi (1998), insan ləyaqətinə verilən yüksək dəyərin təzahürüdür. Onun rəhbərliyi ilə hüquqi, siyasi və iqtisadi azadlıqların təmin olunması Azərbaycan cəmiyyətində demokratik dəyərlərin möhkəmlənməsinə xidmət etmişdir.

**Ədəbiyyat**


1. Eldar Həsənov. Azərbaycanın dövlət və hüququnun əsasları. Bakı: Azərnəşr, 2009, 528 s.
2. Heydər Əliyev. Müstəqilliyimiz əbədidir. II cilddə, Bakı: "Şərq Qərb", 2013, 632 s.
3. Heydər Əliyev. Dövlət xalq üçündür. Bakı: "Adiloğlu", 2008, 400 s.

4. Məqalə. Ulu Öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğunda etik prinsiplər (fəlsəfi, hüquqi, ictimai-siyasi təhlil). Heydər Əliyevin siyasi irsi və Azərbaycançılıq. Məqalələr Toplusu, "Elm və Təhsil", Bakı 2020, 448 s.

## DÖVLƏT İDARƏETMƏSİNİN İNFORMASİYA TƏMİNATI VƏ MEDİA İLƏ İŞİN TƏŞKİLİ

**Rəmzi İbrahimov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ramzi.ibrahimov@alimajlis.gov.az

Müasir dövrün tələbləri və texnologiyanın sürətli inkişafı dövlət idarəetməsində informasiya təminatının və media ilə işin təşkilinin əhəmiyyətini artırıb. Dövlətin şəffaf və səmərəli fəaliyyət göstərməsi, cəmiyyətin müxtəlif sahələrində dövlətin fəaliyyəti barədə məlumatlılığın təmin edilməsi üçün düzgün, effektiv informasiya siyasətinin həyata keçirilməsi vacibdir. Bu, eyni zamanda, dövlətin ictimaiyyətlə münasibətlərinin inkişafını və media ilə əlaqələrinin səmərəli təşkilini tələb edir.

Azərbaycan Respublikasında da bu istiqamətdə mühüm islahatlar həyata keçirilmiş və dövlət idarəetməsində informasiya təminatı, media ilə işin təşkili strateji hədəflərdən biri kimi müəyyən edilmişdir. Bu tezisin yazılmasının əsas məqsədi, Azərbaycanda dövlət idarəetməsinin informasiya təminatı və media ilə işin təşkili sahəsində görülən işləri, eləcə də bu istiqamətdə həyata keçirilən tədbirləri qeyd etməkdir.

Dövlət idarəetməsinin informasiya təminatı və media ilə işin təşkili yalnız hüquqi və institusional çərçivələrdə deyil, həm də

informasiya məkanının bütün iştirakçıları ilə düzgün əlaqələr qurulmasını tələb edir. Bu sahədə Azərbaycan Respublikası müxtəlif qanunvericilik və normativ hüquqi aktlar qəbul edərək informasiya təminatını təkmilləşdirmişdir. Müvafiq qanunlar, xüsusilə "İnformasiya əldə etmək haqqında" və "Media haqqında" Azərbaycan Respublikasının qanunları dövlətin informasiya siyasətinin əsas çərçivəsini müəyyən edir.

İnformasiya əldə etmək hüququ və media azadlığı Azərbaycanın Konstitusiyasında qorunan əsas hüquqlar sırasındadır. Azərbaycan Respublikası Konstitusiyasının 50-ci maddəsi vətəndaşların informasiya əldə etmək hüququnu təmin edir və dövlət orqanlarının fəaliyyətinə dair məlumatların açıq olmasını şərtləndirir. Bundan başqa, Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamları əsasında Elektron Hökumət platformalarının inkişafı da dövlət idarəetməsinin informasiya təminatını optimallaşdırmışdır.

"ASAN xidmət" mərkəzləri dövlət xidmətlərinin təqdimatında böyük irəliləyişə səbəb olmuşdur. Bu mərkəzlər vətəndaşlara yüksək keyfiyyətli və vaxtında dövlət xidmətləri göstərir. Eyni zamanda, "e-Gov" sistemi də dövlət vətəndaş əlaqələrini yeni bir səviyyəyə çatdırıb. Bununla yanaşı, "Açıq Hökumət Məlumatları" portalı da Azərbaycan Respublikası dövlət qurumlarının şəffaflığını artırmaq məqsədini daşıyır.

Dövlətin fəaliyyətini cəmiyyətə çatdırmaq və ictimai rəyi formalaşdırmaq baxımından media ilə qarşılıqlı əlaqələrin düzgün qurulması vacibdir. Azərbaycan Respublikasında Medianın İnkişafı Agentliyinin yaradılması media sahəsində islahatların aparılmasında və peşəkar jurnalistlərin hazırlanmasında mühüm addım olmuşdur.

Ölkəmizdə media ilə işin düzgün təşkili ictimaiyyətin dövlət siyasətinə olan inamını artırır, informasiya təhlükəsizliyini təmin edir və şəffaflığı gücləndirir. Dövlət qurumlarında peşəkar mətbuat

xidmətlərinin formalaşdırılması, sosial media vasitəsilə məlumatlandırmanın gücləndirilməsi və şəffaflığın artırılması dövlət-media münasibətlərinin sağlam əsaslar üzərində qurulmasına xidmət edir.

Müasir dövrdə məlumatların doğruluğu və etibarlılığı, eləcə də internet üzərindən yayılan saxta xəbərlər və dezinformasiyanın qarşısının alınması məsələləri dövlətin informasiya siyasətinin mühüm tərkib hissəsinə çevrilmişdir. Elə bu tədbirlərdən biri də dövlət başçısı cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Azərbaycan Respublikasının 2025–2028-ci illər üçün süni intellekt strategiyası"nın qəbul edilməsidir. Bu strategiya yalnız texnoloji yenilikləri dəstəkləməklə kifayətlənmir, eyni zamanda dövlət idarəçiliyi, iqtisadiyyat, elm və təhlükəsizlik sahələrində süni intellektin effektiv istifadəsini təmin etməyə yönəlib. Süni intellektin inkişafı ilə bağlı qəbul edilən Dövlət Proqramı bu sahənin planlı şəkildə inkişaf etdirilməsinə və gələcək çağırışlara uyğun olaraq idarə edilməsinə imkan yaradır.

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da hər bir sivil cəmiyyətin inkişaf göstəricisi hesab olunan söz və məlumat azadlığının təmin olunması medianın fəaliyyəti üçün hərtərəfli şərait yaradıb.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası
2. "İnformasiya əldə etmək haqqında" Azərbaycan Respublikasının Qanunu
3. "Media haqqında" Azərbaycan Respublikasının Qanunu
4. Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamları

# AZƏRBAYCAN RESPUBLİKASININ DİASPOR SİYASƏTİNİN DÖVLƏT İDARƏÇİLİYİ SİSTEMİNDƏ ROLU

**Rəna İmanbəyli**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: renaiman97@gmail.com

Müasir dövrdə dövlət idarəçiliyi yalnız daxili idarəetmə mexanizmləri ilə məhdudlaşmır, eyni zamanda qlobal proseslərə adaptasiya olunmuş, strateji xarici siyasət komponentlərini özündə ehtiva edən kompleks sistemə çevrilmişdir. Bu kontekstdə diaspor siyasəti milli maraqların müdafiəsi, dövlətin beynəlxalq nüfuzunun artırılması və milli kimliyin qorunması baxımından mühüm vasitə kimi çıxış edir .

Azərbaycan Respublikasında diaspor siyasətinin formalaşması və dövlət idarəçiliyi sisteminə inteqrasiyası xüsusilə 2000-ci illərin əvvəllərindən etibarən intensiv xarakter almışdır. Bu sahədə dönüş nöqtəsi Prezident Heydər Əliyevin 2001-ci ildə verdiyi "Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin inkişaf etdirilməsi haqqında" Sərəncam və 2002-ci ildə Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin (bundan sonra - Komitə) yaradılması olmuşdur. Əvvəlcə "Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsi" adlandırılan bu qurum, 2008-ci ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Diasporla İş üzrə Dövlət Komitəsi" adı ilə fəaliyyətini davam etdirməkdədir. Komitənin yaradılması diasporla sistemli işin institusional əsasını təşkil etmiş və bu siyasəti dövlət idarəçiliyinin sabit istiqamətinə çevirmişdir.

Diaspor siyasəti Azərbaycan üçün təkcə mədəni əlaqələrin təşkili deyil, həm də informasiya təhlükəsizliyi, ölkə reallıqlarının beynəlxalq ictimaiyyətə çatdırılması və Ermənistan-Azərbaycan münaqişəsi kontekstində xarici ictimai rəyə təsir vasitəsi kimi xüsusi əhəmiyyət daşıyır. Bu çərçivədə Komitə Avropa, ABŞ, Rusiya, Türkiyə və digər ölkələrdə diaspor təşkilatlarının qurulmasına, şəbəkələşməsinə və koordinasiyasına dəstək vermişdir.

Dövlətin diasporla iş strategiyası təkcə siyasi deyil, həm də sosial-mədəni məqsədlərə xidmət edir. Diaspor təşkilatları vasitəsilə Azərbaycan dili, mədəniyyəti və tarixi təbliğ olunur. Bu, həm milli kimliyin qorunmasına, həm də vətəndaş cəmiyyətinin gücləndirilməsinə yönəlmiş addımdır. Bu siyasət həmçinin xaricdə yaşayan azərbaycanlıların hüquqlarının qorunması və onların yaşadıqları ölkələrdə aktiv vətəndaş cəmiyyətinin bir hissəsinə çevrilməsi məqsədini daşıyır.

Azərbaycanın diaspor siyasəti digər ölkələrlə müqayisədə spesifik xüsusiyyətlərə malikdir. Məsələn, post-sovet ölkələrində diaspor siyasəti çox zaman siyasi alət kimi, Rusiya modelində isə "compatriot policy" kontekstində istifadə olunur . ABŞ-da isə diaspor əsasən lobbiçilik gücü ilə seçilir və milli maraqlara təsir göstərmək üçün siyasi arenada fəal rol oynayır. Türkiyə isə diaspor siyasətini həm ideoloji, həm də iqtisadi strategiya kimi tətbiq edərək "Türk dünyası" ideyasını önə çəkir. Azərbaycan isə bu modellərin müəyyən elementlərini birləşdirərək özünəməxsus çevik və adaptiv diaspor siyasəti formalaşdırmışdır.

Beləliklə, diaspor siyasəti müasir dövlət idarəçiliyinin tərkib hissəsi olaraq yalnız dövlətin xarici əlaqələrində deyil, həm də milli birlik və informasiya təhlükəsizliyinin qorunmasında vacib amildir. Azərbaycan Respublikasının bu sahədəki təcrübəsi göstərir ki, güclü diaspor şəbəkəsi dövlətin həm sərt, həm də yumşaq güc potensialını artıran mühüm vasitələrdən biridir.

## Ədəbiyyat


1. Əliyev, İ. (2010). Dövlət idarəçiliyi: nəzəri və praktiki aspektlər. Bakı: Azərbaycan Dövlət İqtisad Universiteti nəşriyyatı.
2. Həmidov, R. (2016). Dövlət siyasəti və idarəetmə. Bakı: Təhsil nəşriyyatı.
3. Qarayev, E. (2019). Diaspor və milli kimlik. Bakı: Elm və Təhsil.
4. Azərbaycan Respublikasının Prezidentinin Rəsmi Sərəncamı (2002). "Xaricdə yaşayan azərbaycanlılarla əlaqələrin inkişaf etdirilməsi haqqında". Azərbaycan Respublikasının Prezidenti. http://www.president.az
5. Diasporla İş üzrə Dövlət Komitəsinin rəsmi saytı – www.diaspora.gov.az
6. Sheffer, G. (2003). Diaspora Politics: At Home Abroad. Cambridge University Press.
7. Cohen, R. (2008). Global Diasporas: An Introduction. Routledge.
8. Məmmədli, A. (2020). "Türkiyə və Azərbaycan diaspor siyasətinin müqayisəli təhlili." Beynəlxalq Münasibətlər və Diplomatiya Jurnalı, №1.
9. Brubaker, R. (2005). The 'Diaspora' Diaspora. Ethnic and Racial Studies, 28(1), 1–19.
10. Azərbaycan Respublikasının Konstitusiyası.

# GƏNCLƏRİN PENSİYA SİSTEMİNƏ İNTEQRASİYASI: MAARİFLƏNDİRMƏ VƏ MALİYYƏ SAVADLILIĞININ ROLU

**Xəlil İmanzadə**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: ximanzade@internet.ru

Müasir dövrdə pensiya sistemi cəmiyyətin sosial rifahını təmin etmək baxımından əhəmiyyətli vasitədir. Şübhəsiz ki, gənclərin erkən yaşlardan etibarən pensiya sisteminə maraq göstərməsi, bu sistemə inteqrasiya olunması sosial-iqtisadi baxımdan ölkənin davamlı inkişafı üçün vacibdir. Lakin gənclər arasında maliyyə savadlılığının aşağı olması və pensiya sisteminə dair maarifləndirmənin kifayət etməməsi bu prosesə mane olur.

Pensiya - əmək qabiliyyətini itirmiş, yaşına görə işləməyən və ya əlil olan şəxslərə verilən daimi sosial ödənişlərdir. Çox vaxt bu ödənişlər əvvəlcədən yığılıb sığortalanmış məbləğlərin hesabına verilər. Azərbaycan Respublikasında bu sahə "Əmək Pensiyaları Haqqında" və "Sosial Sığorta Haqqında" Qanunlarla təşkil olunur. Bu qanunlara görə, əmək pensiyaları sığorta stajına, ödəniş məbləğinə və toplandığı kapitala görə hesablanır. Əlavə olaraq, fərdi şəxsi hesab sisteminin tətbiqi, şəffaflıq və ədalətlilik prinsiplərinə əsaslanan bir sistemin qurulmasına xidmət edir.

Əmək pensiyası hüququ əldə etmək üçün şəxsin müəyyən edilmiş yaş həddinə çatması və tələb olunan sığorta stajına malik olması vacibdir. Bu şərtlər pensiya sisteminin uzunmüddətli maliyyə sabitliyini qorumağa yönəlib. Həmçinin, könüllü sığorta mexanizmlərinin təşviqi də gənclər üçün əlavə alternativlər yaradır.

Pensiya yaşı gənc nəsildə uzaq perspektiv kimi görünə bilər. Lakin erkən mərhələdən bu sistemə daxil olmaq uzunmüddətli dövrdə daha yüksək pensiya almaq ümidini artırır. BMT və OECD kimi beynəlxalq təşkilatların araşdırmaları göstərir ki, maliyyə savadlılığı olan gənclər pensiya sisteminə daha çox inam göstərir və öz maliyyə gələcəyini planlaşdırmaqda daha effektiv olurlar.

Azərbaycanda gənclər arasında maliyyə savadlılığını artırmaq üçün marifəndirmə proqramları, treninqlər və sosial media vasitəsilə təbliğat vacibdir. Dövlət Sosial Müdafiə Fondu və Gənclər Təşkilatları bu istiqamətdə birgə təşəbbüs göstərə bilər. Bu fəaliyyətlərə məktəblərdə və universitetlərdə pensiya və sosial sığorta mövzusunda dərslərin keçirilməsi, simulasiya oyunları və praktiki təcrübələr də daxil edilə bilər.

Beynəlxalq təcrübədə, məsələn, Şimali Avropa ölkələrində məktəblilər üçün maliyyə planlaşdırması dərslərinin keçirilməsi pensiya sisteminə inamı artırmışdır. Bununla yanaşı, rəqəmsal platformalar və mobil tətbiqlər vasitəsilə gənclərə pensiya haqqında fərdi məlumatların təqdim olunması onların qərarvermə prosesini asanlaşdırır.

Gənclərin pensiya sisteminə inteqrasiyası sosial sığorta prinsipinə əsaslanan davamlı sistemin formalaşmasına təkan verir. Maliyyə savadlılığı və maarifləndirmə yolu ilə bu istiqamətdə nəsillər arası dialoq qurmaq və davamlı rifah təmin etmək mümkün ola bilər. Bu prosesdə hökumət strukturları, qeyri-hökumət təşkilatları və media mühüm rol oynayır.

Pensiya sisteminin davamlılığı yalnız dövlətin deyil, həm də cəmiyyətin bütün təbəqələrinin, xüsusilə də gənclərin iştirakı ilə mümkündür. Gənclərin erkən yaşlardan sistemə qoşulması, gələcəkdə sosial rifahın və iqtisadi sabitliyin təmin olunmasına töhfə verəcəkdir.

**Ədəbiyyat**

1. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu – https://e-qanun.az/framework/11566
2. OECD (2020). Financial Literacy and Retirement Planning in Youth.
3. United Nations Department of Economic and Social Affairs (UNDESA) reports on social protection and youth involvement.

# AZƏRBAYCAN RESPUBLİKASINDA İNFORMASİYA CƏMİYYƏTİNİN YARANMASININ MÜHÜM CƏHƏTLƏRİ

**Saleh İsmayılov**
*Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti*
e-mail: ismayilovsalehh@gmail.com

## Giriş

İnformasiya cəmiyyəti, bu gün müstəqil Azərbaycan Respublikasının dövlət siyasətinin əsas istiqamətlərindən birini təşkil edir. İnformasiya cəmiyyəti insan fəaliyyətinin bütün sahələrində baş verən kompleks dəyişikliklərinin məhsulu hesab olunur. Ona görədə bu problemin təhlili və araşdırılması kompleks yanaşma tələb edir. Azərbaycanın informasiya cəmiyyətinin qurulması müstəqillik dövrü ilə sıx bağlıdır. İKT-nin inkişafı, demokratik və iqtisadi cəmiyyətin formalaşmasına səbəb olur, eyni zamanda iqtisadi inkişafı artırır, sosial ədaləti yüksəldir və insan hüquqlarının müdafiəsinə kömək edir.

**Anlayışın tarixi kontekstdə təsviri**

İnformasiya cəmiyyəti biliklərin və informasiyanın geniş yayılmasını, eyni zamanda paylaşılmasını və istifadəsini təmin edən bir sosial-iqtisadi system kimi təsvir edilir. Dünyamızın necə sürətli

inkişaf etdiyini gördükdə isə informasiya cəmiyyətinin nə dərəcədə önəmli olduğunu görmək mümkündür. Ölkəmizə nəzər saldıqda isə prezidentimiz İlham Əliyevin bu sahədə apardığı uğurlu siyasət özünü göstərir. Ümumimilli lider Heydər Əliyevin bu siyasətin başlanğıcını qoyduğunu qeyd etmək vacibdir. XX əsrin əvvəllərində başlayan müstəqillik mücadiləsi dövrü, Azərbaycanın informasiya mühitinin ilkin inkişafına təsir etmişdir. Bu dövrdə, milli mədəniyyətin, ədəbiyyatın və informasiya mübadiləsinin erkən formaları, mətbuatın yaranmasıyla özünü göstərmişdir. 1906-cı ildən etibarən Bakıda fəaliyyət göstərən "İkilik" və "Tərcüman" kimi jurnallar, milli dəyərlərin qorunması və cəmiyyətin maariflənməsi baxımından əhəmiyyətli rol oynamışdır. Bu cür nəşrlər, insanları daha geniş məlumatlandırmaqla yanaşı, sosial məsələlər və milli identiti formalaşdırmaqda istifadə edilirdi. 1920-ci ildən sonra, Azərbaycan Sovet Sosialist Respublikasının tərkibinə daxil olduqdan sonra, informasiya istehsalı və yayılması dövlət tərəfindən ciddi şəkildə nəzarət altına alınmışdır. İkinci Dünya Müharibəsi dövründə, informasiya mühitindəki dəyişikliklər, dövlətin təbliğat fəaliyyətlərini daha da gücləndirmiş, bununla yanaşı, insanların həyatına dair gerçəklikləri düzgün şəkildə çatdırmaqda çətinliklər yaratmışdır.

1991-ci ildən etibarən Azərbaycan müstəqillik qazanaraq yeni bir informasiya cəmiyyətinin yaranması üçün zəmin yaranmışdır. 1991-ci ildən sonra, ölkənin müstəqilliyini bərpa etməsi ilə, informasiya cəmiyyətinin formalaşması məqsədilə bir sıra strateji addımlar atılmışdır. Bu dönəmdə, Azərbaycan hökuməti informasiya cəmiyyətinin əsas prinsiplərini formalaşdırmış, Dövlət İnformasiya Resursları Mərkəzi yaradılmış və informasiya resurslarının sistemləşdirilməsinə yönəlmiş layihələr irəliləməyə başlamışdır. İnternetin istifadəsinin genişləndirilməsi, telefon və kommunikasiya sistemlərinin modernləşdirilməsi, eyni zamanda, kütləvi informasiya vasitələrinin müstəqil fəaliyyəti üçün normativ-hüquqi baza

yaradılması, ölkədə müasir informasiyanın yayılması üçün mühüm şərtlərdən biri oldu. Bununla yanaşı, 1995-ci il Konstitusiyasının qəbul edilməsi, vətəndaşların informasiya əldə etmək hüququnu təsbit edərək, informasiya mühitinin daha da genişlənməsinə zəmin yaratdı. İlk inkişaf dövrü həmçinin, ümummilli lider Heydər Əliyevin rəhbərliyi altında yürüdülən siyasi kursla sıx bağlıdır.

Son illərdə, informasiya cəmiyyətinin yaranması və inkişafı ilə bağlı Azərbaycan Respublikası əhəmiyyətli addımlar atmışdır. Bu istiqamətdə həyata keçirilən islahatlar, elektron hökumət sisteminin təşkili və informasiya texnologiyalarının (İT) geniş istifadəsi ilə müşayiət olunur. Dövlət, məlumatların mübadiləsini asanlaşdırmaq və vətəndaşların məlumat əldə etməsini təmin edən müasir platformalar yaratmaq məqsədini güdərlə, inzibati xidmətlərin elektronlaşdırılması layihələrini irəlilətmişdir. "Elektron hökumət" sisteminin tətbiqi, vətəndaşların müxtəlif dövlət xidmətlərinə və məlumatlarına rahat şəkildə çıxışını təmin etmiş, bürokratik maneələri azaltmışdır. Beynəlxalq əlaqələr, informasiya cəmiyyətinin formalaşmasında əhəmiyyətli bir rol oynayır, çünki qlobal əməkdaşlıq, məlumat mübadiləsi və müasir texnologiyaların tətbiqi vasitəsilə Azərbaycan beynəlxalq səhnədə daha aktiv bir iştirakçıya çevrilmişdir. Müxtəlif beynəlxalq təşkilatlarla, xüsusilə BMT, UNESCO və Avropa İttifaqı kimi qurumlarla yaradılan əlaqələr, informasiya cəmiyyətinin inkişafını dəstəkləmək üçün qlobal standartların tətbiqinə yönəlib.

## Ədəbiyyat

1.https://e-qanun.az/framework/3525
2.https://mincom.gov.az/az/nazirlik/tarix/2004-2013

# DÖVLƏT STATİSTİKA SİSTEMİNİN DAVAMLI İNKİŞAFA TƏSİRİ

**Böyükağa İsrəfilov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: boyukagha.israfilov@stat.gov.az

XX əsrin 90-cı illərinin ortalarında uzaqgörən siyasətçi Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə ölkəmizin Davamlı inkişaf yoluna keçməsi üçün bir çox zəruri tədbirlər həyata keçirilmişdir. Ulu öndər Heydər Əliyev BMT İnkişaf Proqramının tövsiyələrinə əsaslanaraq BMT-nin Rio-de Janeyro konfransında (1992), Minilliyin Forumunda (2000) Yohannesburq Sammitində (2002) Davamlı inkişafla bağlı qəbul edilmiş beynəlxalq sənəd-lərdən irəli gələn öhdəliklərin yerinə yetirilməsi məqsədi ilə ölkə-mizin inkişafı naminə bu istiqamətdə bir çox mühüm qərarlar qəbul etmişdir. Bu qərarlar aşağıdakılardır [8]:

1. Ümumimilli lider Heydər Əliyevin 2 mart 2001-ci il tarixli, 636 saylı sərəncamı ilə "Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı" hazırlanmışdır.
2. Heydər Əliyevin göstərişi ilə respublika Nazirlər Kabineti "Azərbaycanda Davamlı İnsan inkişafı strategiyası"nın hazırlanması haqqında 30 oktyabr 2001-ci il tarixli, 198 saylı sərəncam imzalamışdır.
3. Heydər Əliyevin 26 dekabr 2001-ci il tarixli 612 saylı Fərmanının 19-cu bəndinə əsasən Azərbaycanda Davamlı İnkişaf üzrə Milli hesabat hazırlanmışdır.
4. Heydər Əliyevin göstərişi ilə 2002-ci il 18 iyul tarixində Davamlı İnkişaf üzrə Milli hesabatın ictimaiyyətə təqdimatı keçirilmişdir.

5. Heydər Əliyevin 19 fevral 2003-cü il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram" və "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsinə və artırılmasına dair Milli Proqram" təsdiq edilmişdir.

Əvvəlki illərdə olduğu kimi, 2022-ci ildə də Dövlət Statistika Komitəsi rəsmi statistika məlumatlarının müasir tələblərə uyğun hazırlanmasını, milli statistika sisteminin inkişafı məsələlərini diqqət mərkəzində saxlamış və öz fəaliyyətini Azərbaycan Respublikasının Nazirlər Kabineti ilə razılaşdırılaraq təsdiq edilmiş 2022-ci il üçün statistik işlər proqramı, metodoloji və məlumat istifadəçiləri ilə, iqtisadi təhlil üzrə iş planları əsasında qurmuş, "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Sərəncamından, Açıq hökumətin təşviqinə dair 2020- 2022-ci illər üçün Milli Fəaliyyət Planından, Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planından, Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyasından, 2018-2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramından, Azərbaycan Respublikası regionlarının 2019-2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 16 dekabr tarixli, 517 nömrəli Qərarı ilə təsdiq edilmiş "2019-cu ildə Azərbaycan Respublikasında əhalinin siyahıyaalınmasına hazırlıq və onun keçirilməsi ilə bağlı tədbirlər planı"ndan, digər normativ hüquqi aktlardan, BMT Baş Assambleyasının qətnaməsi ilə qəbul edilmiş "Dünyamızın transformasiyası: 2030-cu ilədək dayanıqlı inkişaf sahəsində Gündəlik"dən irəli gələn vəzifələrin yerinə yetirilməsinə yönəltmişdir [7, s. 2].

Bu baxımdan, ölkəmizdə Davamlı inkişafın fəlsəfi problemlərinin araşdırılmasının elmi aktuallığını nəzərə alan AMEA

Rəyasət Heyəti təşəbbüs göstərərək 2018-ci ilin əvvəlində AMEA-nın Fəlsəfə İnstitutun nəznində ilk dəfə olaraq "Davamlı inkişafın fəlsəfəsi" adlı elmi-tədqiqat şöbəsinin yaradılmasını məqsədəuyğun hesab etmişdir. Davamlı inkişaf və davamlı insan inkişafının sosial-fəlsəfi problemlərinin araşdırılması ilə Azərbaycanda ilk dəfə f.ü.e.d. prof. Sakit Hüseynov məşğul olmuşdur. Sakit Hüseynovun 2002-ci il 18 mart tarixli "Respublika" qəzetində çap olunmuş. "Davamlı inkişaf Konsepsiyası: meydana gəlməsi, mahiyyəti, perspektivləri" adlı məqalədə ilk dəfə olaraq Davamlı inkişaf konsepsiyasının meydana gəlməsi, bu konsepsiyanın sosial-fəlsəfi mahiyyəti və insan inkişafının perspektivləri fəlsəfi aspektdə şərh edilmişdir. S. Hüseynovun bu məqaləsini davamlı inkişaf konsepsiyası ilə bağlı ilk elmi məqalə hesab etmək olar. Sakit Hüseynovun 2003-cü ildə nəşr etdirdiyi "Davamlı insan inkişafının strateji istiqamətləri" adlanan monoqrafiyası isə davamlı inkişafın sosial-fəlsəfi problemlərinə həsr edilmiş ilk kitab hesab olunur.

Dövlətstatkomda işlərin planlaşdırılması aşağıdakılara əsaslanır:

- Azərbaycan Respublikasının hərtərəfli inkişafına dair strateji proqram və konsepsiyalara;
- Azərbaycan Respublikasında rəsmi statistikanın təkmilləşdirilməsinə dair Dövlət Proqramına;
- yerli statistika orqanlarının fəaliyyətinin yoxlanmasının perspektiv planına;
- Dövlətstatkomun fəaliyyətinin nəticələrinə dair illik hesabata;
- Dövlətstatkom haqqında Əsasnaməyə.

Dövlətstatkom il ərzində öz fəaliyyətini illik statistik işlər proqramı, Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafı Dövlət Proqramı və Dövlət Statistika Komitəsinin iştirak etdiyi digər dövlət proqramları üzrə müvafiq il üçün icrası nəzərdə tutulan tədbirlər planı, “Metodoloji və məlumat istifadəçiləri ilə iş planı” və

“Yerli statistika orqanlarının fəaliyyətinin yoxlanması və əməli kömək göstərilməsi üzrə iş planı”, eləcə də rüblük təhlil üzrə işlər və kollegiya iclaslarının keçirilməsi planları əsasında həyata keçirir. Bu planlar əsas etibarilə Dövlətstatkomun struktur bölmələrinin və tabeliyində olan qurumların təkliflərinə əsasən hazırlanır. Məsələlərin planlara daxil edilməsi haqqında təkliflər planların tərtib edilməsinin başlanmasına ən geci 15 gün qalmış Dövlətstatkomun struktur bölmələri və onun tabeliyindəki qurumlar tərəfindən onları tərtib edən aidiyyəti şöbələrə təqdim edilir. Dövlətstatkomun planlarında hər bir tədbirin mövzusu, əhatəliliyi, növü, işlənib hazırlanma proqramı, hazırlanmasında əsas götürülən rəsmi statistika hesabatı formalarının və ya sənədlərin adı, dövriliyi, əldə olunacaq məlumatlar və tədbirlərin icrasına məsul struktur bölmələrin, habelə tabelikdə olan qurumların (şəxslərin) adı (soyadı) əks etdirilir. Dövlətstatkomun planları Komitənin kollegiya iclaslarında müzakirə olunaraq təsdiq edilir. Təsdiq edilmiş iş planları onların icrasını təmin etmək və öz fəaliyyətlərini həmin planlar əsasında qurmaq üçün Komitənin sədrinə, sədrin müavinlərinə, aparatın rəhbərinə və onun müavininə, Dövlətstatkomun struktur bölmələrinə və tabeliyində olan qurumlara (zəruri hallarda planların icrasında iştirak edən digər təşkilatlara) göndərilir.

5. Dövlətstatkomun planları əsasında onun struktur bölmələrinin və tabeliyində olan digər qurumların planları hazırlanır, həmin bölmə və qurumların rəhbərləri tərəfindən təsdiq edilərək həyata keçirilir.

6. Dövlətstatkomun planından tədbirlərin çıxarılması və ya plana yeni tədbirlərin əlavə olunması, eləcə də onların icra müddətinin dəyişdirilməsi barədə qərar aparatın müvafiq şöbəsinin, tabelikdə olan qurumların və sədrin onlara rəhbərlik edən müavininin təqdimatı əsasında Komitənin kollegiyası tərəfindən qəbul edilir [8, s. 6].

## Ədəbiyyat


1. Abdullayeva, R. Azərbaycan Respublikasında sosial müdafiə sisteminin dövlət tənzimlənməsinin təkmilləşdirilməsi. iqtisad e. d-ru e. dər. al. üçün təq. ed. dis-nın avtoreferatı. Bakı: 2021. 66 səh.
2. Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər. URL: https://president.az/az/articles/view/50474
3. Azərbaycan Respublikası Energetika Nazirliyi. Azərbaycanda bərpa olunan enerji mənbələrindən istifadə. URL:https://minenergy.gov.az/az/alternativ-ve-berpa-olunan-enerji/azerbaycanda-berpa-olunan-enerji-menbelerinden-istifade
4. Energetika naziri: "Azərbaycan "yaşıl enerji" dəhlizi ilə bərpa olunan enerji sahəsində regional inteqrasiyada mühüm rol oynayacaq". URL: https://minenergy.gov.az/az/xeberler-arxivi/00227
5. Ələkbərov, U. Davamlı inkişaf və ekoloji sivilizasiyasının idarə edilməsinin əsasları / U. Ələkbərov. – Bakı: Təhsil, – 2017. – 175 səh.
6. Kamal, M. Azərbaycanın iqtisadi inkişaf modeli. URL: https://respublika-news.az/az/news/azerbaycanin-iqtisadi-inkisaf-modeli
7. Məhərrəmova, S. Müasir təhsil sisteminin davamlı inkişaf meylləri və tətbiqi məsələlərinə dair. Bakı Dövlət Universitetinin xəbərləri: Humanitar elmlər seriyası, 2021, №4, 110-120. S. 112-114.
8. Rza, A. Azərbaycanda əhalinin sosial müdafiə sisteminin idarə olunmasında sosial reklamların rolu. iqt. üzrə fəls. d-ru e. dər. al. üçün təq. ol. dis-nın avtoreferatı. Bakı: 2013. 18 səh.
9. Şahmarov, Ə. Davamlı inkişaf kontekstində ekoloji təhlükəsizlik problemləri. fəls. e. n. a. dər. al. üçün təq. ed. dis. Bakı: 2007. 143 səh.

# RƏQƏMSALLAŞMA VƏ ƏMƏK BAZARININ TRANSFORMASİYASI

**Aslan Kərimli**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: karimliaslan191@gmail.com

Rəqəmsallaşma son onilliklərdə iqtisadiyyatın və cəmiyyətin müxtəlif sahələrində dərin və geri dönməz dəyişikliklərə səbəb olmuşdur. Bu proses əmək bazarını da ciddi şəkildə transformasiya edir. Əmək bazarının rəqəmsal texnologiyalara uyğunlaşması, yeni peşələrin yaranması, mövcud ixtisasların tələblərinin dəyişməsi və işçi qüvvəsinin bacarıq profilinin yenidən formalaşması ilə nəticələnir.

Əmək bazarının transformasiyası ilk növbədə avtomatlaşdırma, süni intellekt (AI), bulud texnologiyaları və böyük verilənlərin (Big Data) tətbiqi ilə əlaqədardır. Bu texnologiyalar bir tərəfdən məhsuldarlığı artırır, digər tərəfdən isə bəzi ənənəvi peşələri sıradan çıxarır. Məsələn, Dünya İqtisadi Forumu tərəfindən 2023-cü ildə yayımlanan hesabatda bildirilir ki, 2025-ci ilə qədər avtomatlaşdırma nəticəsində 85 milyon iş yerinin ləğv olunacağı, lakin eyni zamanda 97 milyon yeni iş yerinin yaradılacağı proqnozlaşdırılır. Bu da əmək bazarında kəmiyyət deyil, keyfiyyət dəyişikliyinin baş verdiyini göstərir.

Azərbaycan kontekstində də rəqəmsallaşma əmək bazarına təsirini göstərməkdədir. Rəqəmsal iqtisadiyyatın inkişafı ilə informasiya texnologiyaları (İT), kibertəhlükəsizlik, rəqəmsal marketinq və proqram təminatı sahələrində peşəkar işçi qüvvəsinə tələbat sürətlə artır. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin məlumatına əsasən, 2024-cü ildə İT sahəsində ixtisaslaşmış kadrlara

tələbat 30% artmışdır. Bu isə təhsil və təlim sisteminin bu dəyişikliklərə cavab verməsinin vacibliyini gündəmə gətirir.

Rəqəmsallaşmanın əmək bazarına təsiri təkcə yeni iş yerlərinin yaranması ilə bitmir. İş yerlərinin məzmunu da dəyişir: daha çox analitik düşüncə, rəqəmsal savadlılıq və çevik öyrənmə bacarığı tələb olunur. Bu isə işçi qüvvəsinin daimi təkmilləşməsini və öyrənmə yönümlü yanaşmanı şərtləndirir. Həm dövlət, həm də özəl sektor tərəfindən bu istiqamətdə yeni bacarıqların əldə olunması və mövcud bacarıqların inkişaf etdirilməsi proqramlarının təşkili getdikcə daha çox əhəmiyyət kəsb edir.

Digər tərəfdən, rəqəmsallaşma əmək bazarında qeyri-formal məşğulluq formalarının da artmasına səbəb olur. Freelancerlik, uzaqdan iş (remote work), platforma əsaslı əmək formaları (Uber, Upwork kimi) ənənəvi əmək münasibətlərinin formasını dəyişir. Bu dəyişikliklər isə sosial müdafiə və əmək hüquqları sahəsində yeni tənzimləmələrin hazırlanmasını zəruri edir.

Sonda qeyd etmək lazımdır ki, rəqəmsallaşma əmək bazarı üçün həm risklər, həm də imkanlar yaradır. Bu imkanlardan maksimum istifadə etmək üçün dövlət siyasətləri rəqəmsal transformasiyanın yaratdığı yeni reallıqlara adaptasiya olunmalı, təhsil və əmək bazarı arasında əlaqə daha səmərəli şəkildə qurulmalıdır. Əks halda, əmək bazarında struktur disbalanslar, işsizlik və sosial bərabərsizlik riskləri arta bilər.

Nəticə olaraq, rəqəmsallaşma əmək bazarının gələcəyini formalaşdıran əsas amillərdən biridir. Bu transformasiya prosesi idarəolunan və inklüziv şəkildə həyata keçirildiyi təqdirdə həm iqtisadi inkişaf, həm də sosial rifah üçün geniş imkanlar aça bilər.

## Ədəbiyyat


1. World Economic Forum (2023). *The Future of Jobs Report 2023* https://www.weforum.org/reports/the-future-of-jobs-report-2023
2. Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi.*Rəsmi statistik məlumatlar və illik hesabatlar (2023-2024)* https://sosial.gov.az
3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi.*"Rəqəmsal iqtisadiyyatın inkişaf strategiyası" sənədləri və statistik göstəricilər* https://mincom.gov.az
4. International Labour Organization (ILO).*"Work for a Brighter Future" Report (2021)* https://www.ilo.org
5. OECD (Organisation for Economic Co-operation and Development). *"Skills for a Digital World" (2022)* https://www.oecd.org


# AZƏRBAYCAN RESPUBLIKASINDA HÜQUQİ TƏHLÜKƏSİZLİK VƏ HÜQUQ MƏDƏNİYYƏTİ


**Azər Kərimli**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: azerkerimli0118@gmail.com



***Açar sözlər:*** Hüquqi təhlükəsizlik, hüquq mədəniyyəti, hüquq sistemi, hüquqi şüur, hüquqi savadlılıq, hüquqi islahatlar, insan hüquqları, hüquqi dövlət, hüquqi tərbiyə, hüququn aliliyi.


Hüquqi təhlükəsizlik və hüquq mədəniyyəti cəmiyyətin hüquqi inkişaf səviyyəsini və dövlətin qanunvericilik siyasətinin səmərəliliyini müəyyən edən əsas göstəricilərdən hesab olunur. Hüquqi təhlükəsizlik anlayışı, vətəndaşların hüquq normaları qarşısında

qorunmasını, hüquqi münasibətlərin sabitliyini və hüquq normalarının aydın, dəqiq və dəyişməz olmasını təmin edən mühüm prinsipdir. Hüquq mədəniyyəti isə cəmiyyət üzvlərinin hüquqa münasibətini, hüquqi biliyə sahib olma səviyyəsini, qanunlara hörmət etmə dərəcəsini və hüquqi dəyərlərin gündəlik həyatda tətbiqini özündə ehtiva edir.[1,s 212].

Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğu prosesinin mühüm mərhələsi kimi hüquqi təhlükəsizliyin təmin olunması və hüquq mədəniyyətinin yüksəldilməsi daim dövlət siyasətinin prioritet istiqamətlərindən biri olmuşdur.

Eyni zamanda hüquqi təhlükəsizliyin və hüquq mədəniyyətinin inkişafı hüquq sistemində şəffaflığın, ədalətliliyin və səmərəliliyin təmin olunmasını tələb edir. Bu baxımdan dövlət orqanları ilə yanaşı, vətəndaş cəmiyyəti institutlarının, xüsusilə media və təhsil müəssisələrinin üzərinə də ciddi vəzifələr düşür. Hüququn aliliyinin təmin olunduğu, hüquq normalarının sabit və universal xarakter daşıdığı cəmiyyətlərdə hüquqi təhlükəsizlik yüksək səviyyədə olur və hüquq mədəniyyəti davamlı şəkildə formalaşır. Azərbaycanda bu istiqamətdə həyata keçirilən islahatlar və tədbirlər hüquqi sistemin təkmilləşməsinə və vətəndaşların hüquqi rifahının artırılmasına xidmət edir.[2,s 185].

Azərbaycan Respublikasında hüquqi təhlükəsizlik və hüquq mədəniyyətinin inkişaf etdirilməsi müasir dövrdə demokratik, hüquqi dövlət quruculuğunun vacib tərkib hissəsinə çevrilmişdir.[1,s 212].

Hüquq mədəniyyəti isə bu təhlükəsizliyi dəstəkləyən sosial amildir. Bu anlayış yalnız hüquq haqqında məlumatlılıq deyil, həm də hüquqa hörmət, qanunlara əməl etmə vərdişi, hüquqların və vəzifələrin dərk olunması, hüquqi münasibətlərdə etik davranış qaydalarının tətbiqi ilə müəyyən olunur.

Dövlət tərəfindən həyata keçirilən hüquqi islahatlar bu istiqamətdə önəmli nəticələr verməkdədir. Məhkəmə-hüquq sistemində aparılan islahatlar, vətəndaşların hüquqi yardıma çıxış imkanlarının genişləndirilməsi, elektron məhkəmə sisteminin tətbiqi və şəffaflığın artırılması hüquqi təhlükəsizliyin təminatına xidmət edir. Hüquq mədəniyyətinin formalaşmasında vətəndaş cəmiyyəti institutlarının, xüsusilə qeyri-hökumət təşkilatlarının, hüquqşünas assosiasiyalarının və kütləvi informasiya vasitələrinin də fəal iştirakı zəruridir.[3,s 164].

Azərbaycan Respublikasında hüquqi təhlükəsizlik və hüquq mədəniyyəti sahəsində həyata keçirilən islahatlar, təkcə normativ-hüquqi aktların qəbulu ilə məhdudlaşmır. Bu sahədə əsas məqsəd hüquq sisteminin insan və vətəndaş hüquq və azadlıqlarını real şəkildə müdafiə edə bilən çevik və effektiv bir mexanizmə çevrilməsidir. Hüquqi təhlükəsizliyin təmin olunmasında əsas göstəricilərdən biri də qanunların hüquqi aydınlığı və sabitliyidir. Buna görə də son illərdə ölkədə qəbul olunan normativ hüquqi aktların dili sadələşdirilmiş, ictimai dinləmələr yolu ilə onların qəbul prosesi şəffaflaşdırılmış və hüquqi aktların elektron bazalarda açıq şəkildə yerləşdirilməsi təmin edilmişdir.

Hüquq mədəniyyətinin inkişafı isə uzunmüddətli və davamlı maarifləndirmə fəaliyyətini tələb edir. Hüquq təhsili alan mütəxəssislərlə yanaşı, ümumtəhsil sistemində də hüquqi biliklərin öyrədilməsi genişləndirilmiş, məktəb və ali təhsil pillələrində hüquq fənlərinin əhatə dairəsi genişləndirilmişdir. [3,s 164].

## Ədəbiyyat

1. Əliyev, A. M. (2015). Hüquqi dövlət və hüquqi mədəniyyət: nəzəri və praktiki yanaşmalar. Bakı: Hüquq Nəşriyyatı. 212 s.

2. Məmmədov, R. F. (2018). Azərbaycan Respublikasında hüquqi təhlükəsizliyin təmin olunması problemləri. Bakı: Qanun. 185 s.
3. Hüseynova, S. N. (2020). Hüquqi şüur və hüquqi mədəniyyətin formalaşmasında təhsil sisteminin rolu. Bakı: Elm və Təhsil. 164 s.

## İNFORMASİYA MÜHARİBƏSİNDƏ GƏNCLƏRİN ROLU

**Ələkbər Kərimov**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: mrkerimow88@gmail.com

Hal-hazırda təbliğat və kommunikasiya hərbi strategiyanın bir hissəsi hesab olunur. Müasir müharibə yalnız döyüş əməliyyatları ilə məhdudlaşdırılmır, o həmçinin diplomatiya, iqtisadiyyat, informasiya və təbliğat sahəsində də davam edir. Hər zaman kəşfiyyat xidmətləri tərəfindən rəqib haqqında əldə olunan informasiya, hərbi əməliyyatların aparılması üçün əhəmiyyətli dərəcədə kömək göstərir.

XXI əsrin texnologiyalar əsri olması informasiya axınının dünyanın hər yerində sürətlənməsinə gətirib çıxarıb. Belə bir dövrdə hətta bu texnologiyaları yaradan dövlətlər də onun qarşısında aciz qala bilir, daha dəqiq desək, onun "əsirinə" çevrilirlər. Yaradılan texnoloji imkanlar sayəsində daha asan və sürətlə yayılan informasiya bazası formalaşır və informasiya bilavasitə insanlara təsir edir, onları yönləndirə bilir. Bu isə istənilən cəmiyyətə və dövlətə müxtəlif sahələrdə - siyasətdə, iqtisadiyyatda, hərbdə özünü ifadə etmək baxımından ideal vasitə hesab edilir. Yeni imkanlar artdıqca

onların fərqli sahələrə tətbiqi yeni terminlərin də yaranmasına gətirib çıxarır. Son illər ən çox istifadə edilən terminlərdən biri də "informasiya müharibəsi" ifadəsidir.

Müasir dövrdə baş verən hərbi toqquşmalar və müharibələr onu deməyə əsas verir ki, qarşı tərəf üzərində üstünlük təkcə silah gücünə deyil, həm də informasiyanın gücünə əldə edilir. Bu sahədə zəif olan tərəf, digər baxımdan nə qədər güclü olmasına baxmayaraq, ağır məğlubiyyətlə üzləşə bilər. İnformasiyanın toplanması, ələ keçirilməsi, operativ reaksiya və digər bu kimi proseslər düşmənlə aparılan informasiya müharibəsində böyük üstünlük yaradır. Başqa sözlə informasiya müharibəsi informasiya məkanında mühüm əhəmiyyət daşıyan, informasiya sistemlərinə, proseslərə, resurslara mühüm təsir göstərən vasitədir. Dünyada yaşanan müharibə təcrübələri də göstərir ki, praktik müharibə ilə yanaşı, informasiya savaşı da olduqca vacib məsələdir. Necə ki, ölkəmiz Prezident, Ali Baş Komandan İlham Əliyevin timsalında bu savaşdan da üzüağ çıxdı. Dünyanın bir neçə nüfuzlu media qurumlarına müsahibələrində Prezident İlham Əliyev ermənilərin xəbis, faşist simalarını ifşa edib, onların yalan və böhtanlarını puça çıxarmaqla qərəzli mövqe tutan jurnalistləri əsaslı fakt və dəlillərlə susdurdu. Məhz bu müsahibələrin nəticəsi idi ki, mövcud reallıqlar olduğu kimi, təhrif olunmadan bütün dünyaya bəyan edildi, ölkəmiz hərb cəbhəsi ilə yanaşı, siyasi cəbhədə və informasiya savaşında qalib oldu.

Bu gün Azərbaycanda uğurla həyata keçirilən gənclər siyasətinin nəticəsidir ki, onlar ictimai həyatın bütün sferalarında aparıcı qüvvəyə çevrilib, dövlət quruculuğu prosesində mühüm rol oynayır, həyata keçirilən siyasi-iqtisadi, humanitar layihələrin reallaşmasında vacib və fəal iştirakçıya çevrilirlər. Yüksək vətənpərvərlik ruhu, vətənə bağlılıq gənclərimizin həyat amalı olmaqla onların həyatının sonrakı dövrlərində əsl nümunəvi vətəndaş olmalarında əhəmiyyətli rol oynayır. Müzəffər Ali Baş Komandanından

ilhamlanan, qüdrətli ölkənin vətəndaşı olan Azərbaycan gəncliyi biliyi, potensiyalı ilə doğma yurdumuzun inkişafında, rifahında xüsusi xidmətlər göstərir, ölkəmizə qarşı istifadə olunan qərəzli və yalan məlumatlara qarşı dərhal yüksək peşəkarlıqla elmi və tarixi faklarla cavab verərək qarşı tərəfi məyus edir. Gənclərimiz sosial media platformalarında, forumlarda aktiv şəkildə iştirak edərək dezinformasiyalara qarşı inamla mübarizə aparır, Azərbaycanın mövqeyini uğurla müdafiə edirlər. Müxtəlif xarici dillərdə təşviqat kampaniyaları təşkil edilərək bəyanatların beynəlxalq təşkilatlara ünvanlanması, sosial şəbəkələr üzərindən postların paylaşılması, müxtəlif həştəqlərdən istifadə edərək dünya trendinə gerçəklərin çatdırılması gənclərimizin fəaliyyətində mühüm yer tutur. Günümüzdə ictimai həyatın bütün sferalarında aparıcı qüvvəyə çevrilmiş Azərbaycan gəncliyi milli-mənəvi ənənələrə bağlılıqla, vətənə sevgi ilə fəaliyyətini qurur, ölkəmizin inkişafına öz töhfələrini verir.

## Ədəbiyyat


1. Bəxtiyar Sadıqov, İlham Əliyev informasiya müharibəsinin də qalibidir, Vətən müharibəsi tarixi, Şəxsiyyət faktoru (27 sentyabr-10 noyabr 2020-ci il), Şərq-Qərb, Bakı 2021, s. 249-250.
2. Azərbaycan Prezidenti İlham Əliyevin «BBC News"a müsahibəsi, 06.11.2020, https://president.az/articles/45645(10.10.2022).
3. Azərbaycan Prezidenti İlham Əliyevin Fransanın "Figaro" qəzetinə müsahibəsi, 24.10.2020, https://president.az/articles/44170(10.10.2022)
4. Hacıyev F. Azərbaycan Dövlət Gənclər Siyasəti: Məqsəd və Nailiyyətlər. Bakı, 2017.

# LERİK RAYONUNUN SOSİAL-İQTİSADİ İNKİŞAFININ MÖVCUD POTENSİALININ TƏHLİLİ

**Nüsrət Kərimov**

*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: nusret-969@mail.ru

Azərbaycan Respublikası regionlarının davamlı inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilmiş və uğurla həyata keçirilmiş dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulmuş vəzifələrin icrası ölkədə qeyri-neft sektorunun davamlı inkişafına, regionlarda kommunal xidmətlərin və sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə, əhalinin məşğulluğunun artırılmasına və yoxsulluq səviyyəsinin azaldılmasına təkan vermişdir.

Ümumilikdə davamlı inkişaf insan üçün əlverişli sosial mühitin yaradılmasını nəzərdə tutur. Davamlı inkişafın əsasını bilik və onun daşıyıcısı olan insan təşkil edir. Bu səbəbdən insan potensialının inkişafı davamlı inkişaf prosesinin ayrılmaz hissəsidir. Bu, regional davamlı inkişafın da başlıca şərtlərindəndir.

Yeni texnologiyaların yaradılması və istifadəsi insan amili ilə əlaqədardır. Göstərilən məqsədə nail olmaq yalnız insan potensialının inkişafı şəraitində mümkündür. Digər tərəfdən insanın təbii ehtiyatlardan, hətta fərdi istehlakçı kimi səmərəli və qənaətlə istifadə

etməsi müvafiq bilik və bacarıqlara əsaslanır. Hər bir şəxs üçün əlverişli sosial mühitin yaradılması və bu mühitin qorunması da insan potensialı ilə əlaqədardır. Beləliklə davamlı inkişaf yalnız insan inkişafını təmin etməklə həyata keçirilə bilər. Davamlı inkişaf dedikdə mütləq insan inkişafı da nəzərdə tutulur. Bu səbəbdən davamlı inkişaf eyni zamanda davamlı insan inkişafı deməkdir. Lerik rayonunda sosial inkişaf, əmək resurslarından səmərəli istifadə, yeni iş yerlərinin açılması və s. bu kimi məsələlərin tədqiqi insan inkişafı kontekstində xüsusilə maraq kəsb edir.

Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın davamlılığının təmin olunmasında ölkənin regionlarının sosial-iqtisadi inkişafı üzrə dövlət proqramlarının qəbul olunması və həyata keçirilməsinin müstəsna əhəmiyyəti vardır. 2004-cü ildən uğurla icra olunan bu proqramlar regionlarda şəhər, qəsəbə və kəndlərin simasını köklü şəkildə dəyişmiş, regionlarda sosial-iqtisadi inkişaf potensiallarının artmasına, biznes və investisiya mühitinin, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin yaxşılaşmasına, əhalinin rifahının yüksəlməsinə və ekoloji təhlükəsizliyin güclənməsinə şərait yaratmışdır.

Azərbaycan Respublikasının Prezidentinin bölgələrə mütəmadi səfərləri Dövlət Proqramlarının icrasını sürətləndirməklə, regionların tarazlı inkişafının təmin edilməsi, yeni iş yerlərinin yaradılması və əhalinin həyat səviyyəsinin daha da yüksəldilməsi sahəsində görülən işlərə təkan vermişdir. Proqramların icra olunduğu dövr ərzində dövlət başçısı yüzlərlə infrastruktur obyektlərinin açılış və təməlqoyma mərasimlərində iştirak etmiş, istehsal təyinatlı müəssisələrin fəaliyyəti ilə tanış olmuş, yerlərdə ictimaiyyətin nümayəndələri ilə, o cümlədən sahibkarlarla görüşlər keçirmiş, qaldırılan məsələlərlə yaxından maraqlanmış, eyni zamanda müxtəlif rayon və şəhərlərin sosial-iqtisadi inkişafının sürətləndirilməsi istiqamətində xeyli sayda sərəncam imzalanmışdır.

Bu gün ölkəmizin ciddi inkişaf perspektivləri gözlənilən bölgələri sırasında Lerik rayonu mühüm yer tutur. Rayon mühüm inkişaf potensialına malikdir. Həm rayonun öz resurs potensialı, həm də dövlət dəstəyi burada müxtəlif sahələrin sürətli inkişafına səbəb olmuşdur. Rayonda iqtisadiyyatın, o cümlədən kənd təsərrüfatı və xidmət sahələri inkişaf etmiş və bir sıra uğurlu nəticələr əldə edilmişdir. Məhz bu nailiyyətlərin müxtəlif aspektlərinin davamlı inkişaf kontekstində araşdırılması, təhlili mühüm elmi zərurət kəsb edir. Bütün bunlar Lerik rayonunun davamlı inkişafının müasir vəziyyəti və perspektivlərinin öyrənilməsi aktuallığını ortaya qoyur.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikası Konstitusiyası. Bakı, 2016
2. Bağırzadə E. "Azərbaycan İqtisadiyyatının regional təhlili", Bakı 2016
3. http://lerik-ih.gov.az/az/page/26.html
4. https://president.az/az/articles/view/18718
5. http://lerik-ih.gov.az/userfiles/files/Hesabat%20meruze-2019.docx

# HEYDƏR ƏLİYEV KURSUNUN RUSİYA-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏ TƏSİRİ

**Nigar Kuzəhmədova**
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*
e-mail: kuzakhmedova@gmail.com

***Açar sözlər:*** *regional sabitlik, geosiyasi balans, tərəfdaşlıq modeli, beynəlxalq əlaqələr, vasitəçilik*

Heydər Əliyev kursu Azərbaycanın daxili və xarici siyasətində uzunmüddətli sabitlik, milli maraqların qorunması və strateji

balansın təmin olunmasına yönəlmiş kompleks dövlət idarəetmə modelidir. Ulu Öndər Heydər Əliyev tərəfindən formalaşdırılmış bu kurs 1993-cü ildən etibarən ölkənin siyasi, iqtisadi və geosiyasi sistemində əsas istiqamətverici prinsip kimi çıxış etmişdir. Kursun əsasını müstəqil dövlətçiliyin möhkəmləndirilməsi, hüquqi dövlət və vətəndaş cəmiyyətinin qurulması, iqtisadiyyatın liberallaşdırılması, regionlararası balansın yaradılması və çoxşaxəli xarici siyasət təşkil edir [2, s. 133].

Heydər Əliyevin dövründə Azərbaycanın xarici siyasəti təkbaşına qərb və ya şərq bloklarından birinə inteqrasiya olunmağa deyil, milli maraqların ön planda saxlandığı neytral mövqeyin qorunmasına əsaslanırdı. Bu strategiya müstəqil enerji siyasəti, çoxşaxəli təhlükəsizlik yanaşması və diplomatik tarazlıq prinsipləri üzərində qurulmuşdu. Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum enerji layihələrinin gerçəkləşdirilməsi bu kursun praktik nəticələrindən biri kimi Türkiyənin regional rolu ilə uzlaşırdı. Digər tərəfdən Rusiya ilə münasibətlərdə iqtisadi və siyasi sabitliyin qorunması məqsədilə qarşılıqlı anlaşmaya əsaslanan əməkdaşlıq siyasəti həyata keçirilirdi. 1997-ci ildə imzalanmış Azərbaycan-Rusiya Dostluq və Əməkdaşlıq haqqında müqavilə bu istiqamətdə mühüm hüquqi sənəd olmuşdur [1, s. 223].

Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilən Heydər Əliyev kursu Azərbaycanın sürətli inkişafı, beynəlxalq arenada nüfuzunun artması və regional proseslərdə fəal iştirakçılığının təmin olunması baxımından aktual və strateji dəyərini qoruyur. Bu kurs həmçinin Azərbaycanı münaqişələrin həllində balanslı mövqe tutan, diplomatik çevikliyə malik, dayanıqlı dövlət modelinə çevirmişdir [3, c.967]. Xüsusilə 2020-ci il İkinci Qarabağ müharibəsindən sonra formalaşan yeni geosiyasi reallıqda ölkəmiz istər Rusiya, istərsə də Türkiyə ilə əlaqələri tarazlı şəkildə inkişaf etdi-

rərək hər iki güc arasında unikal vasitəçi rolunu daha da möhkəmləndirdi. Məsələn, Rusiya və Türkiyənin birgə Monitorinq Mərkəzinin 2021-ci ildə Ağdamda fəaliyyətə başlaması (hazırda fəaliyyət göstərmir) bu rolun konkret təzahürü sayıla bilər [4]. Bu fakt bir daha göstərir ki, Heydər Əliyev tərəfindən əsasları qoyulan xarici siyasət kursu uzunmüddətli regional sabitlik və əməkdaşlıq modelinə cavab verirdi.

Bu gün Azərbaycan həm Avrasiya İqtisadi İttifaqı və Rusiya ilə münasibətlərini qoruyur, həm də Türk Dövlətləri Təşkilatı və enerji diplomatiyası vasitəsilə Türkiyə ilə əməkdaşlığını genişləndirir. Bu çoxvektorlu siyasət ölkəmizi beynəlxalq səviyyədə etibarlı və balanslaşdırıcı tərəfdaş kimi tanıdır.

## Ədəbiyyat


1. Hüseynov Y. (2023). Azərbaycan Türkiyə münasibətlərində ümummilli Lider Heydər Əliyevin rolu. Akademik Tarih ve Düşünce Dergisi, Azerbaycan Halkının Milli Lideri Haydar Alirza Oğlu Aliyev'in Doğumunun 100. Yılı Özel Sayısı. s. 221-229
2. Qurbanov R. Müstəqillik illərində Azərbaycan, Türkiyə və Rusiya münasibətlərinin beynəlxalq nəqliyyat sisteminə təsiri. Beynəlxalq ictimai-siyasi, elmi-nəzəri jurnalı. 2024. № 03 (81). s. 129 – 135
3. Юматов К. В., Сивина К. Н. Азербайджано-турецкое взаимодействие в контексте международных отношений на Южном Кавказе (1992–2020 гг.) // Вестник Кемеровского государственного университета. 2020. Т. 22. № 4. С. 963–971
4. https://www.amerikaninsesi.org/a/7575368.html

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV VƏ MÜSTƏQİL AZƏRBAYCAN KONSTİTUSİYASI

**Asiman Qasımlı**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilk Akademiyası*
e-mail:asiman3003@mail.ru

1991-ci ilin oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul edilmişdir. Bunu müasir milli dövlətçiliyimizin əsasının qoyulmasının hüquqi cəhətdən tarixi başlanğıcı kimi dəyərləndirmək olar. Azərbaycan Respublikası 1991-ci ildə müstəqilliyinə qovuşduqdan sonra bir tərəfdən kənar təzyiqlər, digər tərəfdən isə, hakimiyyətdəki bacarıqsız rəhbərlərin fəaliyyəti sayəsində ilk günlərdən tarixi inkişaf yolunu effektiv şəkildə müəyyən edə bilmədi. Ölkəni yaranmış olan gərgin vəziyyətdən 1993-cü ilin iyununda xalqın istəyi ilə yenidən hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev çıxartdı. Sonrakı mərhələlərdə ictimai həyatın bütün sferalarında inkişafın tendensiyaları müşahidə edildi.

Heydər Əliyevin müəllifliyi ilə hazırlanan, 1995-ci il noyabrın 12-də qəbul olunan müstəqil ölkəmizin ilk Konstitusiyasında Azərbaycan dövlətinin demokratik, hüquqi və dünyəvi Respublika olması qanuni təsbit edildi [1, s.5].

Azərbaycan Respublikasının ilk Konstitusiyası – Ali Qanunu ilə müasir Azərbaycan Respublikasının dövlət quruculuğunun əsasları qoyuldu. Konstitusiyada təsbit olunan "demokratik", "hüquqi", "dünyəvi" kimi anlayışlar bir dövlət idarəçiliyi sistemi olaraq müasir Azərbaycan dövlətçiliyinin xarakterik xüsusiyyətlərini, səciyyəvi cəhətlərini özündə ehtiva edir.

Ulu Öndər Konstitusiyanın yaranmasında tarixi keçmişimizlə

yanaşı, həm də dünya dövlətlərinin demokratik və hüquqi prinsiplərinə diqqət etməyi və yeri gələndə bunlardan bəhrələnməyi təkidlə bildirirdi: "Azərbaycanın tarixi keçmişi, bugünkü reallıqlarını və gələcək perspektivlərini əks etdirməsi, ümumbəşəri və milli dəyərlərə söykənməsi Konstitusiyamızı səciyyələndirən əsas cəhətlərdir. Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda, ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi naliyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik"[6].

Konstitusiyanın "Əsas insan ve vətəndaş huquqları və azadlıqları" adlanan 48 maddəden ibarət III fəslinin bütün mətni insana, insan ləyaqətinə, insan hüquqlarına hörmət ruhunda yazıldı. Bəşər sivilizasiyasının iki mütərəqqi ideyasının konstitusionalizm və insan hüquqlarının müdafiəsi ideyalarının üzvü bağlılığı Azərbaycan Respublikasının Konstitusiyasında özünün layiqli ifadəsini tapdı.

İnsan hüquqları sahəsində atılan ən mühüm addımlardan biri, şübhəsiz ki, ölüm cəzasının ləğvidir. 1993-cü ildən Ulu öndər Heyder Əliyevin şəxsi təşəbbüsü ilə icrasına moratorium qoyduğu müstəsna cəza növü, 10 fevral 1998-ci il tarixli qanunla tamamilə ləğv edildi. Azərbaycan Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paxtın II Protokoluna qoşuldu. Ümummilli liderimiz Heydər Əliyevin apardığı humanist siyasət nəticəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edildi.

Belə ki, Azərbaycan Respublikasının Konstitusiyası, baycan Respublikasının Suverenliyi, Azərbaycan Dövlətinin Demokratik Prinsipləri, İnsan Haqları və burada olan müddəalar həm bu günümüzlə, həm də gələcəyimiz ilə sıx bağlıdır. Dövlətimizin əsas simvollarından olan bu dörd kateqoriyanın daha dərindən öyrənilməsi həm bugünümüz, gələcəyimiz, həm də vətənimizin qorunması üçün əsas şərtlərdən biridir. Çünki hər bir insan

Konstitusiya və qanunlara əməl etməli, ondan irəli gələn öhdəlikləri layiqincə yerinə yetirməli, həmçinin demokratik prinsipləri qorumalı və insan haqlarının yerinə yetirilməsində fəal iştirak etməlidir.

Dəyişilən sosial-siyasi reallıq səbəbindən və əldə olunan uğurların möhkəmləndirilməsi məqsədilə Azərbaycan Konstitusiyasında bir neçə dəfə dəyişikliklər edilib və əlavələr olunub. 2002-ci il avqustun 24-də referendum yolu ilə Konstitusiyanın 24 maddəsində 29, 2009-cu il martın 18-də isə 25 maddəyə 30-dan artıq əlavə və dəyişiklik olunub. Bu dəyişikliklər Azərbaycan dövlətinin sosial-iqtisadi bazasının daha da güclənməsindən, vətəndaşların hüquq və azadlıqlarına daha etibarlı təminat verilməsindən, sosial dövlət prinsiplərini təsbit etmək imkanlarının daha da genişlənməsindən irəli gəlirdi. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 2016-cı il sentyabrın 26-da keçirilmiş referendumla Konstitusiyada üçüncü dəfə əlavələr və dəyişikliklər edilib. Konstitusiyanın 29 maddəsində edilən 41 əlavə və dəyişiklik müxtəlif sahələri əhatə etməklə, ali dövlət hakimiyyəti, məhkəmə hakimiyyəti orqanlarının və bələdiyyələrin işinin təkmilləşdirilməsinə, insan hüquqları və azadlıqlarının daha səmərəli təmin edilməsinə, hüquq və azadlıqların müdafiəsində dövlət və bələdiyyələrin məsuliyyətinin artırılmasına yönəlmişdir. Ümummilli lider Heydər Əliyevin siyasi xəttinin layiqli davamçısı Prezident İlham Əliyevin həyata keçirdiyi siyasət Azərbaycanın demokratik dünya birliyinə inteqrasiyasını sürətləndirir və bu istiqamət ölkəmizin əsas prioritetidir.

## Ədəbiyyat

1. Azərbaycan Respublikasının Konstitusiyası // 12 noyabr 1995-ci ildə qəbul edilmişdir (2016-cı il sentyabrın 26-da ümumxalq səsverməsində (referendumda) qəbul edilmiş dəyişikliklərlə). - Bakı: Hüquq yayın evi, - 2016, - 92 s.

2. Ənvər Seyidov. Heydər Əliyev və Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2009.
3. http://shirvan-ih.gov.az/az/news/ulu-onder-heyder-eliyevin-rehberliyi-altinda-hazirlanan-musteqil-azerbaycanin-ilk-konstitusiyasi.html
4. https://njustice.gov.az/meqaleler/dovletin-esas-qanunu-heyder-eliyevin-sah-eseri-konstitusiya
5. https://philosophy.edu.az/index.php?newsid=2911
6. https://science.gov.az/az/news/open/31777

# DÖVLƏT XİDMƏTLƏRİNDƏ HESABATLILIQ VƏ ŞƏFFAFLIQ: HACIQABUL RAYONU TİMSALINDA

**Aqil Qasımov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: aqilqasimov97@mail.ru

## Giriş

Müasir dövrdə dövlət idarəçiliyinin effektivliyinin əsas göstəricilərindən biri hesabatlılıq və şəffaflığın təmin olunmasıdır. Bu prinsiplər həm vətəndaş məmnuniyyətinin yüksəldilməsi, həm də idarəetmədə inamın formalaşması baxımından böyük əhəmiyyət kəsb edir. Hökumət tərəfindən həyata keçirilən rəqəmsallaşma və innovativ idarəetmə addımları bu sahədə mühüm nailiyyətlər əldə etməyə imkan yaratmışdır. Bu məqalədə Hacıqabul rayonu timsalında dövlət xidmətlərində hesabatlılıq və şəffaflığın vəziyyəti və uğurları təhlil olunur.

**Hesabatlılıq və şəffaflıq: əsas anlayışlar.** Dövlət xidmətlərində hesabatlılıq – dövlət qurumlarının fəaliyyətləri barədə

ictimaiyyətə məlumat vermək və məsuliyyət daşımaq öhdəliyidir. Şəffaflıq isə vətəndaşların dövlət qərarlarını və fəaliyyətlərini izləyə bilmə imkanını əhatə edir. Bu prinsiplərin tətbiqi idarəetmədə açıqlığın və etimadın güclənməsinə gətirib çıxarır.

**Hacıqabul rayonunda dövlət xidmətlərinin təşkili.** Hacıqabul rayonunda son illər dövlət xidmətlərinin göstərilməsi sahəsində əhəmiyyətli addımlar atılmışdır. Elektron hökumət portalları vasitəsilə vətəndaşların müxtəlif xidmətlərə rahat çıxışı təmin edilmişdir. ASAN və DOST mərkəzlərinin xidmətlərindən yararlanmaq imkanı genişlənmiş, eyni zamanda yerli icra hakimiyyətləri tərəfindən elektron sənəd dövriyyəsi tətbiq olunmuşdur. Bu tədbirlər nəticəsində vətəndaşlar arasında dövlət xidmətlərinə olan inam artmış və xidmətlərə müraciətlərin sayı yüksəlmişdir.

**Elektron xidmətlərin müsbət təsirləri.** Elektron xidmətlərin tətbiqi dövlət orqanlarının fəaliyyətini daha şəffaf və hesabatlı etmişdir. Vətəndaşlar onlayn platformalar vasitəsilə müraciət və təkliflərini asanlıqla təqdim edə, xidmətlərin statusunu izləyə və açıq məlumatlardan faydalana bilirlər. Bu isə operativliyin, məmnuniyyətin və etibarlılığın artmasına səbəb olmuşdur.

**Yaxşı təcrübə nümunələri və təşəbbüslər.** Hacıqabul rayonunda vətəndaşlara göstərilən xidmətlərin optimallaşdırılması istiqamətində bir sıra təşəbbüslər həyata keçirilmişdir. Elektron arxiv sistemlərinin qurulması, xidmət mərkəzlərində şəffaf infor-masiya panellərinin istifadəsi və ictimai iştirakçılığın təşviqi kimi tədbirlər yüksək qiymətləndirilir. Bunlar göstərir ki, rayonda dövlət xidmətlərinin müasirləşdirilməsi istiqamətində məqsədyönlü işlər aparılır.

**Nəticə və tövsiyələr**

Hacıqabul rayonu timsalında görülən işlər göstərir ki, dövlət xidmətlərində hesabatlılıq və şəffaflıq prinsipləri uğurla tətbiq olunur. Bu sahədə daha yüksək nəticələr əldə etmək üçün vətəndaşların

maarifləndirilməsi, elektron xidmətlərə çıxış imkanlarının genişləndirilməsi və ictimai iştirakçılığın artırılması tövsiyə olunur. Əminliklə demək olar ki, bu istiqamətdə atılan hər bir addım ölkədə vətəndaşların dövlətə olan etimadını daha da gücləndirəcəkdir.

**İctimai nəzarətin rolu.** Hesabatlılıq və şəffaflığın davamlı şəkildə təmin olunmasında ictimai nəzarətin əhəmiyyəti danılmazdır. Vətəndaş cəmiyyəti institutlarının, media nümayəndələrinin və yerli ictimaiyyətin iştirakı ilə dövlət xidmətlərinin qiymətləndirilməsi daha obyektiv həyata keçirilə bilər. Hacıqabul rayonunda müxtəlif ictimai şuralar və vətəndaş təşəbbüsləri bu istiqamətdə fəal iştirak edərək, icra hakimiyyəti və digər qurumlarla əməkdaşlıq edir. Bu əməkdaşlıq nəticəsində xidmət keyfiyyəti və şəffaflıq artır, məmurlar vətəndaş qarşısında daha məsuliyyətli davranmağa meyilli olurlar.

**Vətəndaş məmnuniyyəti və rəy toplanması.** Dövlət xidmətlərində vətəndaş məmnuniyyətinin ölçülməsi, xidmətin keyfiyyətinə dair əhalidən rəy toplanması şəffaflığın ayrılmaz hissəsidir. Hacıqabul rayonunda bu məqsədlə mütəmadi olaraq sorğular keçirilir və onların nəticələri nəzərə alınaraq xidmətlərdə təkmilləşdirmələr aparılır. Vətəndaşların təklif və şikayətlərinə həssas yanaşılması, onların rəyinə əsaslanan islahatların həyata keçirilməsi dövlət-vətəndaş münasibətlərinin inkişafına səbəb olur. Rəylərin elektron platformalarda toplanması bu prosesi daha rahat və səmərəli edir.

**Rəqəmsal bərabərlik və imkanların genişləndirilməsi.** Elektron xidmətlərdən bərabər şəkildə faydalanmaq üçün bütün sosial qrupların rəqəmsal bərabərlik prinsipi çərçivəsində dəstəklənməsi vacibdir. Hacıqabul rayonunun ucqar kəndlərində internetə çıxış imkanlarının artırılması, elektron xidmətlərə dair mobil maarifləndirmə qruplarının təşkili və xüsusi ehtiyaclı şəxslərə dəstək

tədbirləri bu istiqamətdə uğurlu nümunələrdəndir. Bunun nəticəsində daha geniş əhali qrupları dövlət xidmətlərindən asanlıqla yararlanır, bu isə ümumi məmnunluq səviyyəsini artırır.

**Perspektivlər və davamlı inkişaf.** Gələcəkdə dövlət xidmətlərinin daha da təkmilləşdirilməsi və şəffaflığın artırılması üçün texnoloji yeniliklərin tətbiqi əsas hədəflərdən biridir. Hacıqabul rayonunda süni intellektə əsaslanan xidmət modelləri, mobil tətbiqlər və inteqrasiya olunmuş məlumat bazaları üzərində işlər aparılması planlaşdırılır. Bu cür təşəbbüslər dövlət xidmətlərinin əlçatanlığını və effektivliyini yüksəltməklə yanaşı, vətəndaşların gündəlik həyatını da asanlaşdıracaqdır. Nəticə etibarilə, davamlı inkişaf strategiyası çərçivəsində hesabatlılıq və şəffaflıq prinsiplərinin daha yüksək səviyyədə tətbiqi təmin ediləcəkdir.

## Ədəbiyyat


1. Azərbaycan Respublikasının Elektron Hökumət Portalı – www.e-gov.az
2. Rəsmi Dövlət Statistika Komitəsi məlumatları – www.stat.gov.az
3. Azərbaycan Respublikası Prezidentinin Rəsmi internet səhifəsi – www.president.az
4. "Elektron hökumət: şəffaflıq və səmərəlilik" – AMEA İqtisadiyyat İnstitutu, 2020
5. Dövlət İmtahan Mərkəzi. Dövlət qulluğunda şəffaflıq və hesabatlılıq. Bakı, 2021
6. Hacıqabul Rayon İcra Hakimiyyətinin rəsmi səhifəsi – www.hajigabul-ih.gov.az

# HEYDƏR ƏLİYEVİN DOĞMA TƏBİƏTƏ MƏHƏBBƏTİ VƏ AZƏRBAYCANDA EKOLOJİ TƏHSİLİN İNKİŞAFI

**Natavan Qasımova**
*Moskva Pedaqoji Dövlət Universiteti*
*Pedaqogika və Psixologiya İnstitutu*
e-mail: natavangasimova@yandex.ru

Ümummilli lider Heydər Əliyev tərəfindən yaradılmış müstəqil Azərbaycanda təbii mühitə diqqət və ekoloji maarifləndirmə dövlət siyasətinin prioritet müddəalarından birinə çevrilmişdir. Ulu Öndərin fəaliyyəti dövründə ölkədəki ekoloji vəziyyət həmişə diqqət mərkəzində olub, ətraf mühitin mühafizəsi ilə bağlı lazımi tədbirlər görülüb.

1969-1982-ci illərdə ətraf mühit sahəsində 8 qanun qəbul olunub və Hökumət səviyyəsində 30-dan artıq bu sahədə qərar təsdiq edilib.

1993-cü ildən Heydər Əliyev tərəfindən ekoloji məsələlər bir daha ön cərgəyə çəkildi və meşə, torpaq, su və s. haqqında bir sıra yeni qanunlar qəbul edildi. 1998-ci ildə ekoloji prioritetləri müəyyən edən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Planı" hazırlanmışdır.

2003-cü ildə Azərbaycanın ekoloji siyasətin müasir strategiya sənədi olan "Ekoloji cəhətdən davamlı sosial-iqtisadi inkişafa dair" Milli Proqram təsdiq edildi. Bu proqram əsasında ətraf mühitin müxtəlif sahələri üzrə milli və dövlət proqramları, kompleks tədbirlər planları həyata keçirilmişdir.

Ekoloji siyasətin əsas istiqamətlərindən biri su ehtiyatlarının qorunması və təchizatın yaxşılaşdırılması idi. Heydər Əliyevin təşəbbüsü ilə Kür-Bakı su kəməri, Ceyranbatan su qovşağı və Oğuz-Qəbələ-Bakı su kəməri kimi layihələr həyata keçirilmişdir.[2]

2001-ci ildə Heydər Əliyevin fərmanı ilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi yaradıldı və ətraf mühitin mühafizəsi üzrə vahid dövlət siyasətinin həyata keçirilməsi təmin edildi.

Heydər Əliyevin uzaqgörən siyasəti, o cümlədən, ekologiya sahəsində verdiyi tövsiyələr bu gün də görülən işlərdə rəhbər tutulmaqdadır. Ulu Öndərin ekoloji siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Indi Respublikamızda ekoloji problemlərin davamlı inkişaf prinsipləri əsasında həll edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ekoloji tarazlığın qorunması, meşələrin bərpası, yeni yaşıllıq sahələrinin salınması, ətraf mühitin mühafizəsi istiqamətində tədbirlər görülür. Ölkəmizdə ətraf mühitin mühafizəsi istiqamətində həyata keçirilən geniş-miqyaslı tədbirlər ekoloji mədəniyyətin formalaşmasına və əhalidə ekoloji düşüncənin inkişafına mühüm töhfə vermişdir. Onun təşəbbüsü ilə məktəblərdə, ali təhsil müəssisələrində və digər tədris müəssisələrində ekoloji biliklərin tədrisinə başlanılmışdır.

Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən həyata keçirilən maarifləndirmə proqramları, məktəblərdə və ali təhsil müəssisələrində keçirilən ekoloji tədbirlər, müsabiqələr, seminar və konfranslar bu siyasətin davamlı xarakter daşıdığını göstərir. [3]

Ulu Öndər dəfələrlə qeyd edirdi ki, təbiətə münasibət təkcə ekologiya məsələsi deyil, bu, xalqın mədəniyyətinin, düşüncə tərzinin göstəricisidir. Buna görə də gənc nəslin təbiətə qarşı məsuliyyətli münasibətinin formalaşdırılması hər zaman diqqət mərkəzindədir.

## Ədəbiyyat

1. http://100il.eco.gov.az/az/view/4/1/heyder_eliyev_ve_ekoloji_siyaset

2. Əliyev H. Çıxışlar, nitqlər, müsahibələr. Bakı: Azərnəşr, müxtəlif illər.
3. Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Rəsmi materiallar və hesabatlar.
4. Əliyeva T. Ekoloji təhsilin əsasları. Bakı: Təhsil, 2015.
5. Məmmədov R. və b. Ekoloji siyasətin əsasları. Bakı: Elm, 2017.
6. Ələkbərov U.K. Prezident İlham Əliyev Azərbaycanı uğurlu innovativ tədbirlərlə yeni zəfərlərə aparır. "Azərbaycan" (qəzet), № 49 (8642), 4 mart 2021

# MİQRASİYAYA DAİR BEYNƏLXALQ HÜQUQ NORMALARI VƏ AZƏRBAYCAN RESPUBLİKASININ MİQRASİYA QANUNVERİCİLİYİ

**Aygül Qədirova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: aygul.qadirova@gmail.com

Miqrasiya insan həyatının fundamental faktlarından biri kimi həmişə mövcud olmuşdur və mövcud olmaqda da davam edir. Mənşə və təyinat ölkələrinə müxtəlif təsirləri ilə səciyyələnən "miqrasiya" anlayışına dair beynəlxalq hüquqda vahid yanaşma mövcud deyildir.

Beynəlxalq Miqrasiya Təşkilatına görə "miqrasiya insanların ölkə daxilində və ya beynəlxalq sərhəddi keçməklə adətən yaşadığı yeri tərk edərək başqa yerdə məskunlaşması" kimi izah olunur. Bu anlayış miqrasiyanın məcburi və ya könüllü baş verməsindən, səbəbindən, müddətindən, şəxslərin statusundan asılı olmayaraq geniş əhatə dairəsini özündə birləşdirir.

Ölkəmizdə də miqrasiya proseslərinin tənzimlənməsi mühüm əhəmiyyət kəsb edir. Belə ki, Azərbaycan Respublikasında həyata keçirilən uğurlu islahatlar bütün sahələrdə inkişafın baş verməsinə şərait yaratmışdır ki, bu da ölkəmizin əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün cəlbediciliyini artırmaqla onların Azərbaycana axınını daha da çoxaltmışdır.

Bu tezisin yazılması məqsədi də, miqrasiya proseslərinin aktuallığından irəli gələrək miqrasiyaya dair beynəlxalq hüquq normalarına, miqrasiya sahəsində milli qanunvericiliyimizə və bu qa-nunvericiliyin beynəlxalq hüquq normalarına uyğunluğuna nəzər salmaqla ölkəmizdə adıçəkilən proseslərin və bu sahədə yaranan münasibətlərin tənzimlənməsi ilə əlaqədar səmərəliliyin və effektivliyin artırılmasına, habelə əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında hüquqi vəziyyəti ilə bağlı xüsusiyyətlərə və onların vacibliyinə diqqət yetirməkdir.

### Ədəbiyyat


1. https://www.iom.int/fundamentals-migration#:~:text=Migration%20is%20the%20movememo%20of,border%20or%20within%20a%20State
2. Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsi - https://e-qanun.az/framework/46959

# REGİONUN SOSİAL-İQTİSADİ İNKİŞAFI (XAÇMAZ RAYONU TİMSALINDA)

**Qərib Qəribov**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: qeribq@gmail.com

Müasir dövrdə ölkələrin dayanıqlı inkişafı üçün regional siyasətin düzgün qurulması və regionların sosial-iqtisadi potensialından səmərəli istifadə edilməsi əsas şərtlərdən biridir. Azərbaycan Respublikasında da regional inkişaf strategiyası dövlət siyasətinin prioritet istiqamətlərindən biri kimi müəyyən olunmuşdur. Bu strategiyanın tərkib hissəsi olaraq, ölkənin müxtəlif bölgələrində, o cümlədən Xaçmaz regionunda kompleks sosial-iqtisadi tədbirlər həyata keçirilmiş və bir sıra müsbət nəticələr əldə olunmuşdur.

Xaçmaz rayonu öz coğrafi mövqeyi, təbii resursları, turizm imkanları və kənd təsərrüfatı potensialı ilə seçilən regionlardandır. Son illərdə bu rayonda həyata keçirilən infrastruktur layihələri, sosial obyektlərin yenilənməsi, yerli iqtisadiyyatın gücləndirilməsi istiqamətində atılan addımlar sosial rifahın yaxşılaşmasına və əhalinin həyat səviyyəsinin yüksəlməsinə şərait yaratmışdır.

"Azərbaycan Respublikası regionlarının 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində Xaçmaz rayonu Quba–Xaçmaz iqtisadi rayonuna daxil edilmişdir. Bu proqramın əsas məqsədi regionların dayanıqlı inkişafını təmin etmək, infrastrukturun modernləşdirilməsi və əhalinin rifah səviyyəsinin yüksəldilməsidir.

Dövlət Proqramında Xaçmaz rayonu üçün nəzərdə tutulan əsas tədbirlər aşağıdakılardır:

İnfrastrukturun inkişafı: Xaçmazda yol-nəqliyyat sisteminin təkmilləşdirilməsi, su təchizatı və kanalizasiya sistemlərinin

yenilənməsi kimi layihələr həyata keçirilmişdir.Sənaye və kənd təsərrüfatının dəstəklənməsi: Rayonda sənaye parklarının yaradılması və kənd təsərrüfatı məhsullarının emalı müəssisələrinin qurulması təşviq edilmişdir.Turizmin inkişafı: Nabran və Yalama kimi sahil zonalarında turizm infrastrukturunun genişləndirilməsi və yeni istirahət mərkəzlərinin yaradılması planlaşdırılmışdır.Sosial xidmətlərin yaxşılaşdırılması: Təhsil və səhiyyə müəssisələrinin modernləşdirilməsi, yeni məktəb və xəstəxanaların tikintisi həyata keçirilmişdir.

Xaçmaz Rayon İcra Hakimiyyətinin 2022–2024-cü illəri əhatə edən rəsmi hesabatları və statistik məlumatları barədə ətraflı məlumatlar aşağıda təqdim olunur.Əhalinin sayı: 2024-cü ilin əvvəlinə olan məlumata görə, Xaçmaz rayonunun əhalisi təxminən 180,000 nəfər təşkil etmişdir. Kənd təsərrüfatı: Əkin sahələrinin genişləndirilməsi və məhsuldarlığın artırılması istiqamətində tədbirlər görülmüş, əsasən taxılçılıq və meyvəçilik sahələrində artım müşahidə olunmuşdur. Sənaye və tikinti: Rayonda sənaye məhsullarının istehsalı və tikinti-quraşdırma işlərinin həcmi əvvəlki illərlə müqayisədə artmışdır.Ticarət və xidmət sektoru: Pərakəndə ticarət dövriyyəsi və əhaliyə göstərilən pullu xidmətlərin həcmi artmışdır.Sosial sahə: Təhsil və səhiyyə müəssisələrinin maddi-texniki bazasının gücləndirilməsi istiqamətində tədbirlər həyata keçirilmişdir.

**Ədəbiyyat**


1. "Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı (2019–2023)".
2. Xaçmaz Rayon İcra Hakimiyyəti – rəsmi hesabatlar və statistik məlumatlar (2022–2024).
3. Azərbaycan Respublikası Dövlət Statistika Komitəsi – Regional statistik göstəricilər, www.stat.gov.az.

# HÜQUQİ DÖVLƏTİN BANİSİ: HEYDƏR ƏLİYEV VƏ MÜASİR AZƏRBAYCAN KONSTİTUSİYASI

**Zeynəb Qiyasova**
*Azərbaycan Respublikası Prezident yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: qiyasovazynb2002@gmail.com

Azərbaycan Respublikasının müstəqillik yolunda uğurlu inkişaf strategiyası məhz ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Dövlət müstəqilliyinin ilk illərində ölkənin qarşılaşdığı siyasi qeyri-sabitlik, hüquqi xaos və separatizmin güclənməsi fonunda, hüquqi dövlətin əsaslarını müəyyən edəcək, milli suverenliyin möhkəmləndirilməsinə zəmanət verəcək bir konstitusiyanın qəbul olunması həyati əhəmiyyət daşıyırdı. Bu zərurəti dərk edən Heydər Əliyev, xalqın iradəsinə əsaslanan və beynəlxalq hüquq normalarına cavab verən bir Konstitusiyanın hazırlanmasının təşəbbüsçüsü və aparıcı müəllifi kimi çıxış etmişdir. Azərbaycan Respublikasının dövlət quruculuğu prosesində hüquqi əsasların formalaşdırılması və hüquqi dövlətin qurulması baxımından 1995-ci il Konstitusiyasının qəbulu mühüm tarixi mərhələdir. [2, s.4] Ulu öndərin rəhbərliyi ilə hazırlanan və ümumxalq səsverməsi ilə qəbul edilən bu sənəd, müasir Azərbaycan dövlətçiliyinin hüquqi bazasını formalaşdırmaqla yanaşı, ölkənin beynəlxalq müstəvidə mövqelərinin möhkəmlənməsində də əhəmiyyətli rol oynamışdır.

Heydər Əliyevin hüquqi baxışları və siyasi uzaqgörənliyi nəticəsində hazırlanan Konstitusiya yalnız bir hüquqi sənəd deyil, eyni zamanda milli dövlət quruculuğunun ideoloji və fəlsəfi təməlini təşkil edir. [3, s.3] Bu sənəddə xalqın müstəqillik iradəsi, milli-mənəvi dəyərləri və Azərbaycançılıq ideologiyası öz əksini tapmış-

dır. Konstitusiyanın preambulasında dövlətin məqsədi kimi "demokratik, hüquqi, dünyəvi dövlətin qurulması" ifadəsi məhz Heydər Əliyevin dövlətçilik konsepsiyasının əsas ideyasıdır. [1, s.2]

Bununla yanaşı, Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Konstitusiya Ermənistanın işğalçılıq siyasətinə qarşı hüquqi mübarizədə də mühüm vasitəyə çevrildi. Azərbaycan ərazilərinin 20%-nin işğal altında olması və bu ərazilərdə ermənilər tərəfindən törədilən ekoloji və mədəni terrorizm halları Konstitusiyanın müdafiə etdiyi milli maraqlara ciddi zərbə idi. İşğal olunmuş torpaqlarda minlərlə hektar meşə sahəsinin yandırılması, çayların mənbələrinin çirkləndirilməsi, nadir bitki və heyvan növlərinin məhv edilməsi Ermənistanın ekoloji terrorunu sübut edən faktlardır. Bundan əlavə, Azərbaycan xalqına məxsus yüzlərlə tarixi və dini abidənin dağıdılması, muzeylərin və kitabxanaların talan olunması və saxtalaşdırılması erməni vandalizminin və mədəni irsə qarşı yönəlmiş sistemli terror siyasətinin təzahürüdür.

Heydər Əliyevin siyasi iradəsi ilə qəbul edilən Konstitusiya bu vandalizmə qarşı hüquqi mübarizənin çərçivəsini müəyyənləşdirdi və beynəlxalq platformalarda Azərbaycanın mövqeyinin əsas dayağına çevrildi.

Heydər Əliyevin Konstitusiyanın qəbulundan sonra həyata keçirdiyi hüquqi və siyasi islahatlar, beynəlxalq tribunalarda Ermənistanın cinayətkar əməllərinin ifşa olunmasına yönələn addımları, işğal olunmuş ərazilərdə törədilmiş ekoloji və mədəni cinayətlərin sənədləşdirilməsinə və dünyaya çatdırılmasına da geniş imkan yaratdı. Bu, həm də Konstitusiyanın verdiyi hüquqi əsaslarla beynəlxalq hüquq müstəvisində Azərbaycanın haqlı mövqeyinin müdafiəsinə xidmət edirdi.

Nəticə etibarilə, Heydər Əliyev təkcə Konstitusiyanın müəllifi deyil, həm də onun ruhunun, fəlsəfəsinin və strateji istiqamətlərinin banisidir. O, Azərbaycan dövlətçiliyinin hüquqi-siyasi əsaslarını

formalaşdırmaqla yanaşı, milli maraqları qoruyan və gələcək nəsillərə hüquqi təminat verən bir irs qoyub.

1995-ci il Konstitusiyası bu gün də müstəqil Azərbaycanın hüquqi-siyasi sisteminin əsası kimi aktuallığını qoruyur. Eyni zamanda, bu sənəd Azərbaycanın mədəni və ekoloji irsini qorumaq üçün beynəlxalq hüquqa əsaslanan mübarizəsinin hüquqi təminatıdır.

**Ədəbiyyat**


1. Əsgərov Z.; Heydər Əliyevin müəllifi olduğu Konstitusiya hüquqi, demokratik və dünyəvi dövlətin inkişafının əsas təminatçısıdır; Azərbaycan; 1 may 2009
2. Mustafayev Ş.; Heydər Əliyev strategiyası Azərbaycanın hərtərəfli inkişafının təməlidir; Azərbaycan; 9 may 2015
3. Aslanova R.; Heydər Əliyevin əsasını qoyduğu hüquqi islahatlar bəhrəsini verir; Azərbaycan; 10 iyun 2010


## İNFORMASİYA VƏ KOMMUNİKASİYA TEXNOLOGİYALARININ ELMİ-TEXNİKİ POTENSİALIN YÜKSƏLDİLƏSİNDƏ ROLU


**Elnarə Quliyeva[1], Rövşən Əliyev[2]**

[1,2]*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası*

e-mail: elnaraquliyeva141@gmail.com


Bu tezisdə informasiya və kommunikasiya texnologiyalarının elmi-texniki potensialın yüksəldilməsində rolu və bu rolun əhəmiyyəti şərh olunur.

İKT vasitəsilə dünya üzrə müxtəlif tədqiqat mərkəzləri və alimlər bir-biri ilə daha sıx əlaqə qura bilir, məlumat və ideyaları

saniyələr içində paylaşa bilirlər. Rəqəmsal elmi bazalar (məsələn, Scopus, Web of Science, Google Scholar) alimlərə qlobal səviyyədə elmi məqalələrə çıxış imkanı yaradır. Bu, tədqiqat prosesində dublikat işlərin qarşısını alır və yeni elmi yanaşmaların formalaşmasına şərait yaradır.[1]

İKT alətləri (simulyasiya proqramları, süni intellekt, böyük verilənlərin analizi və s.) mürəkkəb elmi proseslərin modelləşdirilməsini və təhlilini mümkün edir. Bu texnologiyalar vasitəsilə eksperimentlər daha az resursla və daha dəqiq şəkildə aparıla bilir. Məsələn, hava proqnozlaşdırılması, kosmik tədqiqatlar, genetik analiz və digər sahələrdə İKT mühüm alətə çevrilmişdir.

İKT-nin tətbiqi innovasiya mərkəzlərinin və startapların sürətli inkişafına səbəb olmuşdur. Yeni texnoloji məhsulların yaradılması üçün lazım olan proqram təminatı, prototipləşdirmə alətləri və əlaqə vasitələri bu texnologiyalar əsasında fəaliyyət göstərir. Bu da öz növbəsində ölkələrin elmi-texniki potensialını gücləndirir və iqtisadi inkişafa müsbət təsir edir.

Rəqəmsal təhsil resursları və onlayn platformalar vasitəsilə elmi biliklərin daha geniş auditoriyaya çatdırılması mümkün olur. Distant təhsil və virtual laboratoriyalar gənclərin elmi tədqiqata cəlb edilməsini asanlaşdırır, elmi marağın artmasına və peşəkar kadr bazasının genişlənməsinə səbəb olur. Bu isə ümumi elmi-texniki potensialın yüksəlməsində mühüm faktordur.[1]

İKT milli sərhədləri aşaraq alimlər arasında qlobal əməkdaşlıq imkanları yaradır. Virtual elmi konfranslar, beynəlxalq layihələr və ortaq tədqiqat proqramları bu imkanların real nəticələridir. Bu da elmi inteqrasiyanı gücləndirir və texnoloji nailiyyətlərin qarşılıqlı fayda əsasında inkişafını təmin edir.[2]

İnformasiya və kommunikasiya texnologiyaları müasir dövrdə yalnız informasiyanın ötürülməsi vasitəsi deyil, həm də elmi-texniki

inkişafın əsas hərəkətverici qüvvələrindən biridir. Onların elmi-tədqiqat prosesinə inteqrasiyası biliklərin daha operativ yayılmasına, texnoloji innovasiyaların sürətlənməsinə və ümumilikdə cəmiyyətin intellektual səviyyəsinin yüksəlməsinə şərait yaradır. Beləliklə, İKT-nin effektiv tətbiqi ilə elmi-texniki potensialın daha da inkişaf etdirilməsi mümkündür və bu, həm milli, həm də qlobal səviyyədə davamlı inkişafın təminatçısı rolunu oynayır.

Müasir dövrdə elmi yeniliklərin tətbiq sahəsinə çatması üçün illərlə gözləməyə ehtiyac qalmır. Rəqəmsal texnologiyalar, xüsusilə süni intellekt, bulud texnologiyaları və böyük verilənlərin analizi bu prosesi xeyli sürətləndirir. Bu texnologiyalar sayəsində tədqiqat nəticələri daha çevik formada tətbiqə yönləndirilir və elmi nailiyyətlər real sektorla sinxron şəkildə inkişaf edir. Məsələn, tibbdə süni intellektə əsaslanan diaqnostika sistemlərinin hazırlanması elmi potensialın texnoloji məhsula çevrilməsinin bariz nümunəsidir.[2]

Elmi araşdırmaların nəticələrinin sənayedə tətbiqi innovasiya iqtisadiyyatının əsasıdır. İKT, xüsusilə avtomatlaşdırma və robot texnikası, istehsalatda məhsuldarlığın artmasına və xətaların azalmasına səbəb olur. Azərbaycanda da “ağıllı kənd”, “ağıllı şəhər” və “rəqəmsal aqrar texnologiyalar” kimi layihələr bu tendensiyanın lokal təzahürüdür. Bu layihələrdə informasiya sistemləri real vaxtda məlumat toplayır, analiz edir və idarəetmə qərarlarının qəbulunu asanlaşdırır.[3]

Azərbaycan Respublikası tərəfindən qəbul edilən “Rəqəmsal transformasiya strategiyası (2021–2025)” çərçivəsində İKT-nin təhsildə, elmdə və iqtisadiyyatda istifadəsi prioritet istiqamətlər kimi müəyyən edilib. Bu strategiyada ali təhsil müəssisələrinin rəqəmsallaşdırılması, elmi tədqiqat mərkəzlərinin İKT ilə təchiz olunması və e-elmlə bağlı platformaların yaradılması nəzərdə tutulur. Eyni zamanda, “Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair milli

prioritetlər" sənədində də elmi potensialın artırılmasında rəqəmsal texnologiyaların rolu xüsusi yer tutur.

Bütün müsbət tendensiyalara baxmayaraq, İKT-nin elmi-texniki inkişafda rolunu daha da artırmaq üçün bəzi çətinliklər aradan qaldırılmalıdır: [3]

- Elmi tədqiqat mərkəzlərinin texnoloji baza ilə təminatı hələ də qeyri-bərabərdir.
- Rəqəmsal savadlılıq səviyyəsi regionlar üzrə fərqlidir.
- Yerli proqram təminatı və texnologiyaların inkişafı üçün daha çox investisiya tələb olunur.

Bu problemlərin aradan qaldırılması üçün aşağıdakı tədbirlər tövsiyə olunur:

- Elmi mərkəzlərdə İKT infrastrukturlarının gücləndirilməsi.
- Tədqiqatçılar və tələbələr üçün rəqəmsal bacarıqlar üzrə təlim proqramlarının təşkili.
- Yerli İKT startaplarının elmi sahələrlə əməkdaşlığa təşviqi.

**Ədəbiyyat**

1. Quliyev, V.Ə. (2021). İnformasiya cəmiyyəti və onun inkişaf istiqamətləri. Bakı: Elm və Təhsil nəşriyyatı.
2. Həsənov, H.Ə. (2019). İnformasiya-kommunikasiya texnologiyaları. Bakı: "Maarif" nəşriyyatı.
3. Əliyev, Ə.H. (2020). İKT və bilik iqtisadiyyatı: inkişaf meylləri və çağırışlar. Bakı: "Elm və Təhsil".

# YERLİ İCRA HAKİMİYYƏTİ ORQANLARININ FƏALİYYƏTİNİN HÜQUQİ TƏNZİMLƏNMƏSİNİN İNKİŞAF DİNAMİKASI

**Qızqayıt Quliyeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: quliyeva180894@gmail.com

Yerli icra hakimiyyəti orqanlarının hüquqi tənzimlənməsi dedikdə, bu orqanların fəaliyyətini müəyyən edən hüquqi çərçivə, onların səlahiyyətləri, vəzifələri, məsuliyyətləri və qarşılıqlı münasibətlərini tənzimləyən normativ hüquqi aktların məcmusu başa düşülür.

Belə ki, yerli icra hakimiyyəti orqanlarının fəaliyyətini tənzimləyən əsas normativ hüquqi akt Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 6 iyun tarixli 648 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"dir. Bu sənəd yerli icra hakimiyyəti orqanlarının yaradılması, strukturu, fəaliyyət prinsipləri və rəhbərlərinin təyinatı ilə bağlı əsas müddəaları müəyyən edir.

Yerli icra hakimiyyəti orqanları Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 7-ci bəndinə əsasən Azərbaycan Respublikasının Prezidenti tərəfindən yaradılır. Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin I hissəsinə uyğun olaraq, yerlərdə icra hakimiyyətini yerli icra hakimiyyətlərinin başçıları həyata keçirirlər. Yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, Azərbaycan Respublikasının qanunlarını, Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, mərkəzi icra

hakimiyyəti orqanlarının normativ hüquqi aktlarını (Naxçıvan Muxtar Respublikasında həm də Naxçıvan Muxtar Respublikasının Konstitusiyasını və qanunlarını, Naxçıvan Muxtar Respublikasının ali vəzifəli şəxsinin fərman və sərəncamlarını, Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını), Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələri və əsasnaməni rəhbər tuturlar. Yerli icra hakimiyyətlərinin başçıları öz fəaliyyətini vətəndaşların hüquq və azadlıqlarının, qanuni mənafelərinin müdafiəsi, müvafiq ərazinin əhalisinin rifahını yaxşılaşdırmaq naminə iqtisadiyyatın, sosial və mədəni sahələrin inkişafının təmin edilməsi, qanunçuluq, aşkarlıq və ictimai rəyin nəzərə alınması prinsipləri əsasında qururlar. Yerli icra hakimiyyətinin başçısı, müvafiq inzibati ərazi vahidində onun fəaliyyətini təmin etmək məqsədi ilə yaradılan aparat, inzibati ərazi dairələri üzrə nümayəndəliklər, sahə inzibati ərazi dairələri üzrə nümayəndəliklər, yerli icra hakimiyyəti başçısının yanında olan dövlət büdcəsindən maliyyələşən orqanlar, tabeliyində olan dövlətə məxsus hüquqi şəxslər və mərkəzi icra hakimiyyəti orqanlarının və onların yanında dövlət xidmətlərinin və dövlət agentliklərinin şəhər, rayon və şəhər rayonu qurumları, habelə mərkəzi icra hakimiyyəti orqanlarının sisteminə daxil olan və fəaliyyəti yalnız müvafiq inzibati ərazi vahidinin hüdudları ilə məhdudlaşan qurumlar yerli icra hakimiyyəti sisteminə daxildir və müvafiq ərazidə dövlət idarəçiliyini həyata keçirirlər. Azərbaycan Respublikası Konstitusiyasının 124-cü maddəsinin II hissəsinə uyğun olaraq, yerli icra hakimiyyətlərinin başçılarını Azərbaycan Respublikasının Prezidenti vəzifəyə təyin və vəzifədən azad edir.

Azərbaycan Respublikası Konstitusiyasının 148-ci maddəsinin V hissəsinə uyğun olaraq, yerli icra hakimiyyəti orqanları qanunvericilik sisteminə daxil olan aktlara zidd olmayan normativ

xarakterli aktlar qəbul edə bilərlər. Yerli icra hakimiyyəti orqanlarının normativ xarakterli aktları onlar tərəfindən qəbul edilmiş, məhdud subyektlər dairəsi üçün məcburi davranış qaydalarını əks etdirən və dəfələrlə tətbiq olunmaq üçün nəzərdə tutulmuş müəyyən formalı rəsmi sənəddir. Yerli icra hakimiyyətinin başçısı konkret (birdəfəlik) təşkilati, nəzarət və ya sərəncamverici tədbirlərin həyata keçirilməsi məqsədi ilə və ya digər birdəfəlik tətbiq halları üçün qeyri-normativ hüquqi aktlar qəbul edir. Qeyri-normativ hüquqi aktlar sərəncam və ya əmrlər formasında qəbul edilir.

Azərbaycanda yerli icra hakimiyyəti orqanlarının hüquqi tənzimlənməsi sahəsindəki inkişaf aspektləri dövlət idarəetmə sisteminin müasirləşdirilməsi və şəffaflığın artırılması məqsədini güdür. Bu inkişafı aşağıdakı əsas istiqamətlərdə müşahidə etmək mümkündür:

Şəffaflıq və ictimai nəzarətin artırılması: Yerli icra hakimiyyəti orqanlarının fəaliyyətində şəffaflığın təmin edilməsi məqsədilə ictimaiyyətlə əlaqələr gücləndirilir. Yerli icra hakimiyyətləri öz fəaliyyətləri haqqında məlumatları ictimaiyyətə təqdim edir, hesabatlar dərc edir və ictimai rəyin nəzərə alınmasına çalışırlar.

Vətəndaşların müraciətlərinin effektiv idarə edilməsi: Yerli icra hakimiyyəti orqanları vətəndaşların müraciətlərinə daha sürətli və effektiv cavab vermək üçün müvafiq prosedurlar və mexanizmlər tətbiq edir. Bu, vətəndaşların hüquqlarının qorunmasına və dövlət orqanlarına olan etimadın artırılmasına xidmət edir.

İnformasiya texnologiyalarının tətbiqi: Elektron xidmətlərin tətbiqi ilə yerli icra hakimiyyəti orqanlarının vətəndaşlarla əlaqəsi asanlaşır. Elektron müraciət sistemləri və onlayn xidmətlər vasitəsilə vətəndaşlar daha rahat şəkildə xidmətlərdən istifadə edə bilirlər.

Kadr potensialının gücləndirilməsi: Yerli icra hakimiyyəti orqanlarının işçilərinin peşəkar bacarıqlarının artırılması məqsədilə təlimlər və ixtisasartırma proqramları təşkil edilir. Bu, orqanların

fəaliyyətinin keyfiyyətini yüksəldir və vətəndaşlara daha yaxşı xidmət göstərilməsini təmin edir.

Azərbaycanda yerli icra hakimiyyəti orqanlarının hüquqi tənzimlənməsi sahəsindəki inkişaf, dövlət idarəetmə sisteminin müasirləşdirilməsi, şəffaflığın artırılması və vətəndaş məmnuniyyətinin yüksəldilməsi istiqamətində atılan mühüm addımlardır.

### Ədəbiyyat


1. Azərbaycan Respublikasının Konstitusiyası https://e-qanun.az/framework/897
2. Dərslik. "İnzibati hüquq" Abduləli Abdullayev, Fəxrəddin Nağıyev. Bakı.2008
3. "Yerli icra hakimiyyətləri haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı https://e-qanun.az/framework/23701


## İNSAN HÜQUQLARININ MÜDAFİƏSİNDƏ HÜQUQİ MEXANİZMLƏR


**Nərmin Quliyeva**

*Azərbaycan Respublikasının Prezident yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: quliyevanarmin9@gmail.com



***Açar sözlər:*** hüquq, qanunvericilik, hüquqi tənzimləmə, konstitusiya, hüquqi məsuliyyət, məhkəmə sistemi, insan hüquqları, hüquqi islahatlar, normativ aktlar, hüquqi münasibətlər, mülki hüquq


Hüquq cəmiyyətin funksionallığını və ədalətli idarəolunmasını təmin edən əsas normativ çərçivədir. Hüquqi münasibətlər

insanların hüquq və vəzifələrini tənzimləyərək sosial sabitliyi qoruyur. Hüquq sistemi dövlətin fəaliyyətini və fərdlərin hüquqi davranışlarını müəyyənləşdirir, müasir tənzimləmələr insan hüquqları və hüquqi bərabərlik prinsiplərinə əsaslanır. O, qanunverici, icraedici və məhkəmə hakimiyyətləri arasında balans yaradaraq idarəetmədə sabitlik təmin edir. Hüquq həmçinin beynəlxalq hüquq normalarına inteqrasiya və islahatlar ilə inkişaf edir. Hüquqşünasların peşəkarlığı, məhkəmələrin müstəqilliyi və hüquqi maarifləndirmə hüququn effektiv tətbiqini təmin edir. Hüquqi şüurun formalaşması və hüquq mədəniyyətinin yüksəlməsi hüququn düzgün tətbiqinə şərait yaradır. Hüquq sisteminin səmərəliliyi normativ aktların düzgün tərtibi, kolliziyaların aradan qaldırılması və çevik yenilənmə ilə təmin edilir. Hüququn əsas məqsədi sosial ədalət və fərdlərin hüquq və azadlıqlarını təmin etməkdir.[1,s 265].

Hüququn əsas vəzifəsi cəmiyyətdə davranış qaydalarını müəyyənləşdirmək və hüquqi məsuliyyəti təmin etməkdir. Hüquq tənzimləyici, müdafiəedici və tərbiyəvi funksiyaları ilə sosial sabitliyi qoruyur, fərdlər, dövlət və qurumlar arasında münasibətləri nizama salır. O, iqtisadiyyat, təhsil, səhiyyə kimi sahələrə nüfuz edərək mülki, cinayət və inzibati hüquq vasitəsilə müxtəlif münasibətləri tənzimləyir. Hüquqi sistemin effektivliyi qanunvericiliyin keyfiyyəti, normativ aktların dəqiqliyi və icrasından asılıdır. Hüquqi kolliziyaların aradan qaldırılması üçün sistemləşdirmə və kodifikasiya vacibdir. Hüquqşünasların peşəkarlığı, məhkəmələrin müstəqilliyi və hüquqi maarifləndirmə hüquqi dövlətin əsas dayaqlarıdır. Hüquqi siyasət beynəlxalq hüquq prinsipləri ilə uzlaşdırılmalı, Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığı və

insan hüquqları sahəsində öhdəlikləri bu inteq-rasiyanı gücləndirməlidir. Milli və beynəlxalq hüquq arasında harmoniya hüquqi dövlətin formalaşmasına xidmət edir.[2,s 312].

Hüquqi islahatlar təkcə normativ bazanın yenilənməsi ilə məhdudlaşmır, həm də hüquq mədəniyyətinin formalaşması və hüquqi təfəkkürün inkişafı ilə sıx bağlıdır. Hüquqa hörmətin gücləndirilməsi, qanunlara riayət etməyin vətəndaş məsuliyyətinin ayrılmaz hissəsi kimi dərk olunması hüquqi dövlətin möhkəm-lənməsinə xidmət edir. Bu məqsədlə hüquqi maarifləndirmənin genişləndirilməsi, təhsil sistemində hüquq dərslərinin əhatəsinin artırılması və hüquqi biliklərin əhali arasında yayılması xüsusi əhəmiyyət kəsb edir. Xüsusilə gənclərin hüquq və vəzifələri barədə məlumatlı olması gələcəkdə sağlam hüquqi mədəniyyətin əsasını qoyur. [3,s 280].

### Ədəbiyyat

1. Əliyev, M. (2018). *Hüququn əsasları*. Bakı: Hüquq Nəşriyyatı. 265 səh.
2. Qasımov, R. (2020). *Azərbaycan Respublikasında hüquqi islahatlar və onların tətbiqi mexanizmləri*. Bakı: Qanun. 312 səh.
3. Həsənov, Ə. (2017). *Konstitusiya hüququ üzrə əsas anlayışlar və tətbiq sahələri*. Bakı: Maarif. 280 səh.

# ŞƏRQ ÖLKƏLƏRİNDƏ GƏNCLƏRİN İCTİMAİ-SİYASİ AKTİVLİYİNİN XARAKTERİK CƏHƏTLƏRİ

**Nərmin Qurbanova**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Dövlət İdarəçilik Akademiyası*
e-mail: narmin_qurbanova@hotmail.com

Şərq ölkələrinin bəzilərində avtoritar və yarı-avtoritar rejimlər hökm sürür. Bu, gənclərin siyasi fəallığına ciddi təsir göstərir. Avtoritar rejimlərdə hökumətlər gənclərin siyasi hərəkatlarını məhdudlaşdırır, onları daha çox hökumətə bağlı strukturlarda fəaliyyət göstərməyə təşviq edir. Məsələn, Mərkəzi Asiya ölkələrində (məsələn, Şimali Koreya və Türkmənistan) hökumətlər gəncləri siyasi proseslərdən kənarda saxlamağa çalışır, əvəzində onları dövlət yönümlü gənclər təşkilatlarına cəlb edir. Buna baxmayaraq, sosial problemlər və iqtisadi çətinliklər bəzən gənclərin hökumətə qarşı etiraz hərəkətlərinə qoşulmasına səbəb olur. Avtoritar rejimlərdə gənclərin siyasi fəallığının əsas forması anonim onlayn fəaliyyət və sosial media platformalarıdır.

İqtisadi problemlər Şərq ölkələrində gənclərin ictimai-siyasi fəaliyyətini gücləndirən əsas amillərdən biridir. İşsizlik, aşağı maaşlar və sosial təminat çatışmazlığı, gəncləri siyasi aktivliyə sövq edən əsas faktorlar arasında yer alır. Cənubi Asiya ölkələrində, xüsusilə Hindistan və Pakistanda, iqtisadi qeyri-bərabərlik və korrupsiya gənclərin küçə etirazlarına qoşulmasına səbəb olur. Gənclər arasında işsizlik probleminin geniş yayıldığı ölkələrdə, hökumətə qarşı narazılıqlar güclənir və bu, siyasi dəyişiklik tələbləri ilə müşayiət olunur [1, s.12].

Şərq ölkələrində sosial media platformaları və rəqəmsal texnologiyalar, gənclərin siyasi aktivliyində əvəzolunmaz vasitəyə çevrilmişdir. Facebook, Twitter, və Telegram kimi platformalar vasitəsilə gənclər siyasi məsələlər haqqında məlumat əldə edir,

müzakirələr aparır və etiraz aksiyaları təşkil edir. Sosial media xüsusilə repressiv rejimlərdə gənclərin əsas ifadə vasitəsi kimi önə çıxır. Məsələn, İran, Misir və Türkiyədə gənclər hökumət nəzarətindən kənar ictimai müzakirələrdə iştirak etmək üçün bu platformalardan geniş istifadə edirlər. Bununla yanaşı, bəzi ölkələrdə hökumətlər sosial medianı məhdudlaşdırmaq və ya nəzarət etmək üçün ciddi tədbirlər görür.

Şərq ölkələrində təhsil sistemi gənclərin siyasi şüurunun formalaşmasında mühüm rol oynasa da, bu sistem çox vaxt ideoloji nəzarət altında olur. Xüsusilə avtoritar rejimlərdə təhsil sistemi gəncləri hökumət siyasətlərini dəstəkləyən vətəndaşlar kimi yetişdirməyi hədəfləyir. Bununla belə, yüksək keyfiyyətli ali təhsil müəssisələrində müstəqil düşüncə qabiliyyətinə malik gənclər yeti-şir və bu gənclər daha sonra siyasi dəyişikliklər üçün platformalar yaradırlar [2, s.24].

Rusiyada gənclərin ictimai-siyasi fəaliyyəti ölkənin avtoritar idarəetmə sisteminin təsiri altında formalaşır. Sovet İttifaqının dağılmasından sonra demokratik islahatlar gözləntilərinə baxmayaraq, müasir Rusiya gənclərinin siyasi fəallığı əsasən məhdud imkanlarla xarakterizə olunur. Hökumətin ciddi nəzarət etdiyi siyasi sistem, müxalif qüvvələrə qarşı repressiyalar və təbliğat mexanizmləri gənclərin siyasi aktivliyinə mane olur. Buna baxmayaraq, Rusiya gəncləri arasında sosial məsələlərə, ətraf mühit problemlərinə və insan hüquqlarına dair müstəqil təşəbbüslər müşahidə edilir. Gənclər bir tərəfdən dövlət yönümlü təşkilatlar çərçivəsində fəaliyyət göstərir, digər tərəfdən isə müxalif hərəkatlara qoşularaq daha geniş demokratik islahatlar tələb edirlər [5].

Rusiyada gənclər arasında müxalif qüvvələrə dəstək artmaqdadır. Xüsusilə Aleksey Navalnının liderlik etdiyi müxalifət hərəkatları gənclərin geniş diqqətini cəlb etmişdir. Gənclər sosial ədalət, korrupsiyanın aradan qaldırılması və insan hüquqlarının müdafiəsi kimi mövzularda hökumətə qarşı etiraz aksiyalarına qatılırlar. Bununla belə, müxalifət fəaliyyətləri hökumət tərəfindən

sərt şəkildə basdırılır. Etiraz aksiyalarında iştirak edən gənclər həbs olunmaq, cərimələnmək və ya təzyiqlərə məruz qalmaq riski ilə üzləşirlər. Bu cür repressiyalar gənclər arasında siyasi apatiyanın yaranmasına səbəb olsa da, bəziləri üçün siyasi dəyişikliklər üçün mübarizənin davam etdirilməsi zəruri görünür.

Rusiya gəncləri arasında sosial media və rəqəmsal platformalar ictimai-siyasi fəallığın əsas vasitələrindən biri kimi önə çıxır. "VKontakte," "Telegram," və "YouTube" kimi platformalar vasitəsilə gənclər siyasi məsələləri müzakirə edir, məlumat yayır və mütəşəkkil fəaliyyət göstərirlər. Sosial media hökumət nəzarətindən nisbətən azad olduğuna görə, gənclər burada daha sərbəst şəkildə öz fikirlərini ifadə edə bilirlər. Lakin son illərdə hökumətin rəqəmsal senzuranı gücləndirməsi bu platformaların effektivliyini məhdudlaşdırır. Sosial medianın geniş istifadəsinə baxmayaraq, rəqəmsal fəallığın real siyasi dəyişikliyə çevrilməsi çətin olaraq qalır, çünki hökumət sosial medianın təsirini neytrallaşdırmaq üçün geniş miqyaslı tədbirlər həyata keçirir [6].

İranda gənclərin ictimai-siyasi fəaliyyəti ölkənin dini əsaslara dayanan siyasi sistemi və tarixi inqilab təcrübələri ilə formalaşır. Gənclər, xüsusilə də ali təhsilli şəhər gəncləri, sosial və siyasi problemlərə dair tənqidi mövqeləri ilə tanınır. Bununla belə, İranın siyasi sistemi ciddi repressiya tədbirləri ilə seçildiyindən, gənclərin aktiv siyasi iştirakına maneələr mövcuddur. Mədəni və dini məhdudiyyətlər, eyni zamanda senzura və nəzarət mexanizmləri gənclərin ictimai-siyasi fəallığını çərçivələyir. Bu səbəbdən, İran gəncləri ənənəvi siyasi vasitələrdən daha çox, sosial media və mədəni təşəbbüslər vasitəsilə fəallıq göstərir.

İranda gənclər, ölkədəki etiraz hərəkatlarının əsas hərəkətverici qüvvəsidir. Xüsusilə 2009-cu ildəki "Yaşıl Hərəkat" və 2019-cu ildəki benzin qiymətlərinin artımına qarşı keçirilən kütləvi etirazlarda gənclər mühüm rol oynamışdır. Son dövrlərdə baş örtüyü məcburiyyətinə qarşı qadınların başlatdığı hərəkatlarda da gənclərin geniş iştirakı müşahidə olunur. Bu hərəkatlar gənclərin təkcə siyasi

deyil, həm də sosial hüquqlar uğrunda mübarizəsini əks etdirir. Lakin bu etirazlar hökumət tərəfindən sərt şəkildə basdırılır, gənclərin həbs olunması və fiziki zorakılığa məruz qalması geniş yayılmış praktikadır. Bu repressiyalar gənclər arasında siyasi apatiyanı gücləndirsə də, bəzi gənclər üçün mübarizəni davam etdirmək qətiyyətini artırır [3, s. 19-22].

Çində gənclərin ictimai-siyasi fəaliyyəti ölkənin unikal siyasi sistemi, iqtisadi inkişafı və mədəni ənənələri ilə formalaşır. Kommunist Partiyasının tam nəzarəti altında olan siyasi sistem, gənclərin açıq siyasi fəallığını məhdudlaşdırır. Dövlət, gənclərin siyasi aktivliyini daha çox hökumət yönümlü fəaliyyətlərə yönəldir. Məsələn, "Çin Kommunist Gənclər Birliyi" kimi təşkilatlar, gəncləri ideoloji təbliğata cəlb etmək üçün istifadə olunur. Bu təşkilatlar vasitəsilə gənclərə patriotizm, sosialist dəyərlər və partiya liderlərinə sadiqlik aşılanır. Bununla belə, Çində artan iqtisadi qeyri-bərabərlik, yüksək işsizlik və sosial təzyiqlər bəzi gənclər arasında narazılıqların artmasına səbəb olmuşdur.

Təhsil sistemi Çində gənclərin ictimai-siyasi şüurunun formalaşmasında mühüm rol oynayır. Məktəblərdə və universitetlərdə Kommunist Partiyasının ideoloji təsiri güclüdür. Tədris materiallarında milli birlik, sosializm və dövlətə sadiqlik prinsipləri vurğulanır. Bununla yanaşı, tələbələrin universitetlərdə müstəqil siyasi muzakirələrə və təşəbbüslərə qoşulması ciddi nəzarət altındadır. Bu məhdudiyyətlərə baxmayaraq, bəzi tələbələr təhsil sistemindən kənar platformalarda, xüsusilə rəqəmsal mühitdə öz fikirlərini ifadə etməyə çalışırlar. Lakin təhsil sisteminin bu cür ideoloji təsiri gənclərin müstəqil siyasi düşüncəsinin inkişafını çətinləşdirir.

Çində sosial media gənclərin ictimai-siyasi fəallığı üçün həm imkanlar, həm də məhdudiyyətlər yaradır. "WeChat," "Weibo," və "Douyin" kimi yerli platformalar vasitəsilə gənclər məlumat əldə edir, müzakirələr aparır və təşkilatlanırlar. Lakin Çin hökumətinin internet üzərindəki ciddi nəzarəti və "Böyük Firewall" adlanan senzura sistemi, gənclərin sərbəst ifadə imkanlarını məhdudlaşdırır.

Müxalif fikirlərin və ya hökumət siyasətinin tənqidinin sosial mediada yayılması ciddi nəticələrə, o cümlədən həbs və cərimələrə səbəb ola bilər. Bununla belə, bəzi gənclər hökumət nəzarətini aşmaq üçün VPN və digər texnologiyalardan istifadə edərək qlobal platformalara çıxış əldə etməyə çalışırlar [4].

## Ədəbiyyat


1. Efe, M.A. Youth and politics: The case of the Youth Branches of the Justice and Development Party in Bayrampaşa. İstanbul: Marmara Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2020. 104 s. (s. 12)
2. Ekinci, M. Altkültürel gençlik analizi: Diyarbakır'daki "keko gençlik grupları". İstanbul: Arel Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, 2020. 163 s. (s. 24)
3. Shahed, B. 1979 İran devrimi sonrasında İran'da değişen devlet-toplum ilişkisi (1979-2017). Ankara: Yıldırım Beyazıt Üniversitesi Sosyal Bilimler Enstitüsü, 2022. 240 s. (s. 19-22)
4. Tekbaş, M. Understanding Chinese strategic culture: A critical assessment of China's approach to security. Bornova: Yaşar Üniversitesi Lisansüstü Eğitim Enstitüsü, 2022. 189 s.
5. Гречихин, В.Г. Современная молодежная политика в России. CyberLeninka, 2023. URL:https://cyberleninka.ru/article/n/sovremennaya-molodezhnaya-politika-v-rossii
6. Зеленкова, М.М. Молодежная политика в России и зарубежных странах. Современные проблемы науки и образования, 2012, (6), 753 с.